**AMEA FOLKLOR İNSTİTUTU**
**AMEA A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

# *FOLKLOR VƏ TARİXİMİZ*

*mövzusunda Respublika Elmi Konfransının*

# *M A T E R İ A L L A R I*

**19-20 noyabr 2012-ci il**

**BAKI –2012**

PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***AMEA Folklor İnstitutu***
***Elmi Şurasının qərarı ilə çap olunur.***

**ELMİ REDAKTORLAR:** **fil.ü.e.d. Muxtar KAZIMOĞLU (İMANOV)**
**fil.ü.e.d. Füzuli BAYAT**

**TƏRTİB EDƏNLƏR:** **Əli ŞAMİL**
**Vəfa SALEH**

**AMEA Folklor İnstitutu və AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutunun “Folklor və tariximiz” mövzusunda elmi konfransının materialları.** Bakı, Elm və təhsil, 2012, -220 s.

Kitabda 19-20 noyabr 2012-ci ildə Bakı şəhərində AMEA Folklor İnstitutu və AMEA A.Bakıxanov adına Tarix İnstitutunun təşkilatçılığı ilə keçirilən “Folklor və tariximiz” mövzusunda elmi konfransın materialları toplanmışdır.

M $\frac{4603000000}{\text{N-098-2012}}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2012



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

## İÇİNDƏKİLƏR

***Adil Cəmil.*** Manas: tarixi varislikdən ədəbi varisliyə.............................................5

***Afət Haşimi.*** Oğuznamə epik ənənəsi və tarixilik problemi………………………9

***Almaz Ülvi (Binnətova).*** Özbək folklor biliciləri və abidələri özbək və Azərbaycan folklorşünaslığında ..............................................................................................15

***Aynur Qəzənfərqızı.*** Qumuq yırlarında tarixin bədii əksi......................................20

***Bəxtiyar Şahverdiyev.*** Boz qurdla bağlı miflərdə verilən bəzi məlumatların tarixi qaynaqlardakı izlərinə dair.............................................................................................27

***Чичек Эфендиева.*** Весенние масленичные ритуальные игры и обряды в историческом срезе....................................................................................................40

***Dilavər Əzimli.*** "Kitabi-Dədə Qorqud" dastanı və tariximiz.................................46

***Enver Uzun.*** Azərbaycan tarix və folklorşunaslığında Babək...............................56

***Əziz Ələkbərli.*** "Kitabi – Dədə Qorqud": dastanda gizlənən tarix..........................64

***Fəridə Namazova.*** Cəlalilər hərəkatı və «Koroğlu» dastanı..................................71

***Füzuli Bayat.*** Sözlü ənənədə yaşayan yaxın tarix..................................................79

***Gülsümxanım Hasilova.*** Tarixi roman və folklor (Ə.Cəfərzadənin "Bakı – 1501" romanı əsasında).........................................................................86

***İlhami Cəfərsoy.*** Qədim Ön Asiya panteonunda Əsli və Kərəm kultları………....94

***İlqar Abdullayev.*** Azərbaycanın xarici ölkələrlə əlaqələri atalar sözləri, bayatı və nağıllarda...................................................................................................99

***İslam Sadıq.*** Azərbaycan folklorunda tariximizin aydın izləri..............................107

***Könül Əliyeva.*** Aşıq yaradıcılığında tarixi hadisələrin bədii əksi .........................117

***Mahmud Allahmanlı.*** "Qaçaq Nəbi" dastanı tarixilik və bədii düşüncə müstəvisində.........................................................................................................124

***Məhsəti İsmayıl.*** Folklorda yaşayan tarixi həqiqət: "Sarı gəlin" xalq mahnısının etnik kökləri……..............………………………………...134

***Mətanət Abbasova.*** Xalq bayatılarında tarixi Qarabağ obrazı...............................140

***Muxtar Kazımoğlu.*** Eposda tarixilik ...................................................................145

***Nizami Muradoğlu.*** Bayatılar və tariximiz ..........................................................154

***Nuridə Muxtarzadə.*** Atalar kultu baxımından ocaqlar, pirlər və türbələr............157



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Pərinaz Sadıqlı.*** Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsərindəki atalar sözləri tarixi qaynaq kimi.......................................................................161

***Qara Namazov.*** Koroğlu və Giziroğlu Mustafa bəy............................................167

***Şəbnəm Məmmədli.*** Tarixi fakt və hadisələr Qaraqalpaq eposu "Qırx qız"da..... 171

***Sönməz Abbaslı.*** Tarixi şəxsiyyətlərlə bağlı regional lətifələr..............................176

***Şəfəq Əliyeva.*** Dastana çevrilmiş tarix, yaxud "ədalətli" Şah Abbas ...................180

***Tofiq Nəcəfli.*** Azərbaycanda Cəlalilər hərəkatı və Koroğlu.................................186

***Ülkər Əliyeva.*** Qəhrəmanlıq eposlarımız "Azərbaycan yurd bilgisi"ndə......195

***Vəfa İbrahimova.*** Aşıq Qurbaninin şeirlərində Şah İsmayıl Xətai obrazi............206

***Vəfa İsgəndərova.*** Xalq nağıllarında yaşayan tariximiz........................................210

***Xaləddin Xəlilli.*** Azərbaycan tarix elmi və folklor................................................215



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Adil Cəmil, f.ü.f.d.,***
***AMEA Folklor İnstitutu,***
***aparıcı elmi işçi***

# MANAS: TARİXİ VARİSLİKDƏN ƏDƏBİ VARİSLİYƏ

**Özət**

Məqalədə qırğız eposunun baş qəhrəmanı Manasın tarixi şəxsiyyət olması məsələsinə aydınlıq gətirilir. “Manas” eposunu və Manası yetirən tarixi mühit təhlilə cəlb olunur, əfsanə qəhrəmanı ilə əfsanəvi qəhrəman problemi fərqli şəkildə dəyərləndirilir.

**Açar sözlər:** Manas, tarixi şəxsiyyət, əfsanəvi qəhrəman

**Резюме**

В статье на фактическом материале раскрывается историческая личность главного героя киргизского эпоса “Манас”. Анализируется историческая среда, в которой созданы эпос и, собственно, сам герой эпоса - Манас, также в своеобразной форме оценивается проблема легендарного героя и героя легенды.

**Ключевые слова:** Манас, историческая личность, легендарный герой

**Summary**

The article actually clears up the historical figure of the hero of the Kirgiz epic Manas. The historical sphere which create the epos “Manas” and Manas is analyzied, the problem of the hero of the legend and the legendary hero are estimated differently.

**Keywords:** Manas, a historical figure, a legendary hero

***

Türk tarixinin görkəmli tədqiqatçısı L. N. Qumilyov öz araşdırmalarında “qara örtüklər” altında qalmış bəşəri həqiqətlərlə üz-üzə dayanarkən təəssüf hissini gizlədə bilməyərək deyir: “İnsanlıq tarixində qədim türklərin çox önəmli xidmətləri var, lakin bu xalqın tarixi indiyədək yazılmayıb” [1.4]. Güman edirik ki, ədəbi qaynaqlarımız, yazılı və şifahi söz sənəti nümunələrimiz, qədim kitabə və kitablarımız; “Bilqamıs”, “Orxon-Yenisey”, “Dədə Qorqud”, “Alpamış”, “Ural-Batır”, “Ər-Töştük”, “Manas”...kimi ulu dəyərlərimiz, qiymətli incilərimiz bu tarixin dürüst yazılışına həqiqi yardımçı ola bilər. Tarixin gerçək izlərini saxtalaşdırılmış salnamələrdə yox, öz ilkinlik və bəkarətini saxlamış ədəbi-bədii örnəklərdə axtarmaq həqiqətə daha çox yaxınlaşmaq deməkdir.

Xalqın yaratdığı sənət abidələri mühitin olaylarından yan keçə bilməz. Fikrimin təsdiqi naminə İpək yolunun Orta Asiya istiqamətləri barədə məlumat verən L.N.Qumilyovun “Qədim türklər” əsərinin “İpək və karvan yolu” bölməsin-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dəki marşrutun konkret sxeminə diqqət yetirək: "Karvan yolu Qaoçandan (Çin ərazisi) başlayırdı. Onun bir qolu Tyan-Şanın cənub silsiləsindən – Qaraşəhər, Küçör və Ağsudan keçib İssık-Gölə, Çu vadisinə, ordan da Talas və İsfar vadilərinə qədər uzanırdı" [1. 54]. "Manas" eposunda oxuyuruq:

"...Noqay oğlu bu Cakıb
Aral üstdə yaşayıb,
Yaxın olub Altaya,
Ağsu adlı bir çaya.
Küçör adlı şəhərdən
Sovqat da gəldi hərdən.
Sürüsünün oylağı-
Qaraşəhər yaylağı "[2. 67].

Dastanda adları çəkilən toponimlər İpək və Karvan yolunun cənubi Tyan-Şan istiqamətlərini bir daha təsdiqləyir. Və burada işlənmiş "Küçördən gələn sovqat" arqumenti istər-istəməz diqqətimizi cəlb edir. İpək yolunun keçdiyi ölkələr Çin tacirlərindən konkret məbləğdə təyin olunmuş gömrük haqqı, daha doğrusu, torpaqbasdı alırdılar. Cakıb bəyin Küçördən aldığı "sovqat" da məhz buna işarədir. Göründüyü kimi, tarixi həqiqətlə bədii həqiqətin uyarlığı tədqiqata cəlb olunan dövrün, mühitin özünə bir aydınlıq gətirir.

Şərqdən Qərbə uzanan Böyük İpək yolunun Avrasiya mədəniyyətinin tərəqqisində də xüsusi rolu inkarolunmazdır. Bu yoldan keçən müxtəlif karvanların əlvan etnik tərkibi, onların öz sinələrində gəzdirdikləri folklor inciləri köçəri, yarımköçəri xalqlarla ədəbi-bədii inteqrasiyaya münbit şərait yaratmışdır. Ayrı-ayrı xalqların, etnik qrupların, tayfaların şifahi ədəbiyyatı bu "inteqrasiya"dan bəhrələnərək bəşər sivilizasiyasına öz dəyərli töhfələrini vermişdir. Hesab edirik ki, "Manas" da bu mənəvi yetkinlik, ədəbi- bədii inteqrasiya dövründən "sıyrılmış" sivil idrakın məhsuludur.

Adətən "Manas"ın yaranış dövrünü IX-X əsrlərə ünvanlayırlar. Uyğun tarix belədir. Eposun mühiti IX-X əsrlərin mühitinə tam uyğunluq təşkil edir. "Manas"dan əvvəlki dövrün ictimai-siyasi ab-havasını, mənəvi iqlimini öyrənməklə eposun hansı tarixi zəmində yarandığını, formalaşdığını öyrənmiş oluruq. Bu baxımdan VII-VIII əsrlərdə Yenisey ətrafında mövcud olmuş qırğız xaqanlığının tarixini nəzərdən qaçırmağa haqqımız yoxdur. Faktdır ki, "VII-VIII əsrlərdə Yenisey ətrafında qırğız xaqanlığı yaranmışdır. Bu, başda xaqan olmaqla bir neçə tayfanın birliyi idi. Həmin tayfaların ümumtürk və uyğur mədəniyyətində öz payları vardı" [3. 10].

Lakin güclülərlə gücsüzlərin yerdəyişmə qanunları tarixin təkərini müxtəlif istiqamətlərə fırlatdığından qaliblərin məğlub, məğlubların qalib olduğunu da görmüşük... Türk xaqanlığının süqutundan sonra (VIII əsr) bu xaqanlığın 50 il vassalı olmuş uyğurlar hakimiyyətə gələrək qırğızları da özlərinə tabe edirlər. Di gəl ki, uyğurların hakimiyyətinə tabe olmaq istəməyən qırğızlar bu xaqanlığa qarşı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ardıcıl və mütəşəkkil mübarizə aparırlar. Nəhayət, "840-cı ildə epidemiya, aclıq, saray çevrilişləri uyğur xaqanlığını son dərəcə zəiflədir. Qırğızların başçısı Ajo özünü xan elan edərək uyğur xanına bildirir: Sənin ömrün bitdi" [3. 11]. Ədəbi obraz Manasın tarixi əsli sayılan Ajo 847-ci ildə həlak olub...

Göründüyü kimi, epos qəhrəmanı Manas konkret şəxsiyyət olub. Bu dastanı mifə, əfsanəyə, əsatirə bağlayan tədqiqatçılar da var. Lakin, unutmaq olmaz ki, xalqın yaratdığı ədəbi-bədii əsərlərdə mifik elementlərin olması təbiidir. Bu isə həyat həqiqətlərinə, tarixi reallıqlara güzgü tutan sənət abidələrimizə "mifik təfəkkürün məhsulu" kimi baxmağa imkan verməməlidir. Manas öz igidliyi, şücaəti və yenilməzliyi ilə əfsanəvi qəhrəman obrazına çevrilir, lakin o, əfsanə qəhrəmanı deyil. Məhz bu məqamda əfsanəvi qəhrəmanla əfsanə qəhrəmanına eyni prizmadan baxmağın əleyhinəyəm.

Antitürk əxlaqının daşıyıcıları olan "lakey" tədqiqatçıların Bilqamısa, Dədə Qorquda, Manasa ədəbi-tarixi şəxsiyyət kimi deyil, mifik subyekt kimi baxmaları məlum formuldan irəli gəlirdi. Lakin sağlam və obyektiv tədqiqatlar sübut edir ki, adları çəkilən epos qəhrəmanları konkret bir dövrdə yaşamış tarixi şəxsiyyətlərdir. Fikrimizin təsdiqi naminə bu dastanların özünə istinadən bəzi məqamlara toxunmaq istərdik. "Manas" belə başlayır:

Ulularımızdan qalan söz: Qaraxan və Oğuz xandan sonra Alança xanın nəslindən Bayqur və Uyqur çıxdı. Bayqurun oğlu Bəbir xandan Tübey, Tübeydən Kököy, Kököydən isə üç oğul-Noqoy, Şıqay və Çıyır dünyaya gəldi. Bu üç qardaşın dünyalar tutmayan var - dövləti oldu. Noqoyun dörd oğlu doğuldu. Orozdu, Üsen, Bəy və Cakıb..."[2. 33].

Manas Cakıbın oğludur. Tarixi həqiqət kimi verilən bu şəcərənin özü Manasın konkret şəxsiyyət olmasını sübut edir.

""Manas" bədii təxəyyülün, yoxsa tarixi həqiqətin məhsuludur?" sualına cavab axtararkən elmi dəlillərə keçməzdən öncə bu dastanı zaman-zaman sinəsində yaşadan xalqın öz rəyini bilmək daha vacibdir: "Qırğızlar özləri eposa və onun qəhrəmanlarına bədii əsər və bədii obraz kimi deyil, fakt və tarixi şəxsiyyətin həqiqi məkanı kimi baxırlar" [4.15].

Əgər "Dədə Qorqud" oğuzların ədəbi-bədii salnaməsidirsə, "Manas" qırğızların abidəsidir. "Dədə Qorqud" oğuzların keçdiyi tarixi mərhələlərə güzgü tutursa, "Manas" qırğızların milli keçmişini əks etdirir. "Dədə Qorqud" və "Manas" paralelizmləri bir daha əsas verir ki, eyni kökdən "göyərən" bu dastanların genealoji və tipoloji məziyyətləri obyektiv qaydada, həqiqət meyarı ilə araşdırılsın. Araşdırmalar isə isbat edir ki, "ümumi etnik mənşəyə malik xalqların folklorunda bir çox yaxınlıq və oxşarlıq vardır. Deməli, süjetlərin yaxınlığı, oxşarlığı xalqların tarixi qohumluğu nəticəsində ola bilər. Başqa sözlə desək, həmin xalqların qədim tayfalarının keçmiş əcdadının eyni folklor irsi ilə əlaqədar ola bilər. Əlbəttə, burada dil qohumluğu da müəyyən rol oynayır" [5.22]. Hesab edirik ki, bu "qohumluğun" yadlaşdırılmasına



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yönəlmiş yabançı tədqiqatları tarixi gerçəkliyin öz mühakiməsinə vermək vaxtı çoxdan çatmışdır...

Manasın konkret şəxsiyyət kimi konkret zamana və məkana bağlanmasının bir sübutu da qırğızların qədim və orta əsrlər tarixinin zəngin abidələr diyarı olan Talas vilayətindəki gümbəzidir. Gümbəz qədim bir qəbrin üzərində tikilib. Qırğızlar bu gümbəzi müqəddəs ziyarətgahları hesab edirlər. Yeri gəlmişkən, onu da xatırladaq ki, Orta Asiyanın tarix, etnoqrafiya və arxeologiyası ilə ciddi məşğul olmuş görkəmli alim A. N. Bernştam Talası qədim mədəniyyət mərkəzi hesab edir.

Talas və Çuy vadilərində tapılmış maddi-mədəniyyət nümunələri, qəbirüstü yazılar, kitabələr faktiki olaraq Bernştamın sözlərinə bəraət qazandırır. Sağlam tədqiqatlar dərin qatlara işlədikcə qırğız türklərinin qədim tarixi ilə bağlı yeni-yeni tapıntıların şahidi olursan. Pedant, yaxud muzdlu alimlərin "türk kökünü məhv etmək" uğrundakı "yarışları" daşların yaddaşında zaman-zaman yol gələn canlı tale yazılarının-tarixi həqiqətlərin qarşısında nə qədər miskin görünür...

Söz sənətinin şifahi qaynaqlarında qalıb-yaşamaq haqqını tapmış dastanlarımız ona görə ölməzlik qazanmışdır ki, bu əsərlər müəyyən bir dövrün tarixi həqiqətlərini əks etdirə bilmişdir. Yəni, əslində türk qəhrəmanlıq dastanları türk qəhrəmanlığının bədii qiyafəsidir. Elə "Manas" eposu kimi...

**Qaynaqlar**

1. Гумилев Л.Н. Древние тюрки. М., 1967. с.4.
2. Манас. I книга. Фрунзе, "Киргызыстан", 1978.
3. Садыков А. Героические мотивы в эросе "Манас" Фрунзе, 1982,
4. Musayev S. Epos "Manas", "Şam", Bişkek, 1994.
5. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı "Maarif", B. , 1981.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Afət Haşimi***
***AMEA Folklor İnstitutu,***
***kiçik elmi işçi***
***afethashimi@gmail.com***

# OĞUZNAMƏ EPİK ƏNƏNƏSİ VƏ TARİXİLİK PROBLEMİ

## Özət

Folklor ilə tarixin münasibətləri ümumən geniş və mürəkkəb məsələləri əhatə edir. Bu məsələyə yanaşmada aşağıdakı tezislər əsas götürülməlidir:

Birincisi, folklor daşıyıcıları, yəni folkloru yaradanlar onu tarixi gerçəklik kimi qəbul etmişlər.

İkincisi, folklor mətnlərində yaşayan tarixi hadisə və şəxsiyyətlər folklor obrazları kimi yox, birbaşa tarixin özü kimi qəbul olunanda tədqiqatçıları dolaşıqlığa salır.

Üçüncüsü, folklor abidələrinə, xüsusilə qəhrəmanlıq dastanlarına real tarixin öyrənilməsi zamanı istinad etmək olar. Çünki ilkin miflər, mifoloji eposlar qədim dövrlərdə tarix elminin indi oynadığı rolu oynamışdır. Yəni bu miflər, dastanlar oğuzlar üçün tarix sayılmışdır.

Dördüncüsü, folklor abidələrindən tarixi qaynaq kimi istifadə edərkən folklordakı tarixin bədii obraz olması heç vaxt nəzərdən qaçırılmamalıdır. Şübhəsiz ki, bu obraz öz qaynağını tarixi hadisələrdən almışdır. Lakin həmin obraz təkcə bir tarixi hadisəni, yaxud konkret tarixi şəxsiyyəti təmsil etmir.

Beşincisi, folklor mətnlərindən istifadə edən tarixçilər folklor poetikasının qanunauyğunluqlarına bələd olmalı, eləcə də folklor mətnlərində tarixi məsələlərdən danışan folklorşünaslar toxunmaq istədikləri dövrün tarixi hadisələrini dərindən öyrənməlidirlər.

**Açar sözlər**: folklor, tarix, mif, Oğuznamə

## Резюме

Фольклорные и исторические отношения в целом охватывают широкие и сложные вопросы. В подходе к этому вопросу за основу нужно брать эти тезисы:

Во-первых, носители фольклора, то есть, его создатели, восприняли фольклор как историческую действительность.

Во-вторых, когда исторические события и личности живущие в фольклорных текстах, принимаются не как фольклорные образы, а как сама история, это вводит в заблуждение исследователей.

В-третьих, на знания полученные из фольклорных памятников, особенно героического эпоса, можно опираться при изучении реальной истории.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Поскольку первоначальные мифы, мифологические эросы в древние времена, сыграли роль истории в нашем периоде. Иными словами, мифы, легенды считались для самих огузов историей.

В-четвертых, при использовании фольклорных памятников в качестве исторического источника нельзя упускать из виду что, история отраженная в фольклоре является художественном образом. Несомненно, этот образ получил свой источник из исторических событий. Конечно, этот образ охватывает не одно историческое событие и не одну историческую личность.

В-пятых, историки, использующие фольклорную поэтику, должны хорошо знать ее законы, а также фольклористы затрагивающие исторические вопросы, должны глубоко изучить исторические события.

**Ключевые слова:** фольклор, история, миф, Огузнаме

**Summary**

The relations of folklore and history generally surround wide and complex problems. Approching this issue the following thesises must be taken mainly. First, folklore-carriers, i.e folklore creators have accepted it as a historical reality.

Second, if historical events or personalites living in folklore texts are accepted as history, not as folklore images, it drops the investigators to the confusion.

Third, it is possible to rever folklore monuments especially learning heroic eposes of the real history. Because primary myths, mythological eposes had played the role that the history science played in ancient times. These myths, eposes have been considered as history for Oguzs.

Fourth, using the folklore monuments as a historical source being the literary image of history in folklore must be never neglected. No doubt this image has received its source from the historical events. But the same image doesn't represent the historical event or a concrete historical personality.

Fifth, the historians using the folklore texts must know the objective laws of the folklore poetics, as well as the folklorists speaking about the historical events in folklore texts must learn the historical events that they wanted to touch.

**Key words:** folklore, history, myth, Oguzname.

* * *

Folklor ilə tarixin münasibətlərindən danışarkən ilk növbədə diqqəti bu münasibətlərin ümumən genişliyi və mürəkkəbliyi cəlb edir. Məsələnin genişliyi onunla bağlıdır ki, folklorun tarixi gerçəkliklə bağlılığı, tarixi hadisələrin folklorda əks olunması, folklorun tarixi hadisələrə münasibətdə yaddaş rolunu oynaması təkcə folklor mətnləri ilə tarixi hadisələrin münasibətlərini əhatə etmir. Bu münasibətlərin çevrəsi çox geniş olub, ümumiyyətlə, insan yaradılışının, onun şüurunun psi-xogenetik, etnogenetik, linqvogenetik və s. də daxil olmaqla çox geniş məsələlərini əhatə edir. Qədim tarixin folklorda əks olunması hər hansı tarixi hadisənin, yaxud



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tarixi şəxsiyyətin folklor obrazının yaradılması ilə məhdudlaşmır. Burada düşünüldüyündən çox geniş məsələlər var. Folklor həm də dünyagörüşüdür. Xalqın öz tarixi boyunca qavrayıb mənəvi təcrübəyə çevirdiyi nə varsa, folklorda əks olunur. Demək, folklor ilə tarixin münasibətləri, əslində, daha geniş mənada həm də şüur və gerçəklik münasibətləri deməkdir.

Folklor və tarix münasibətləri digər tərəfdən mürəkkəb məsələdir. Məsələnin mürəkkəbliyi onunla bağlıdır ki, tarix, yəni tarixi hadisələr, insanı əhatə edən gerçəklik, bütövlükdə obyektiv reallıq folklorda olduğu kimi əks olunmur. Folklor nümunələrində əks olunmuş tarixi gerçəklik folklorda olduğu kimi yox, obrazlaşmış şəkildə əks olunur. Yəni tarixi hadisə və şəxsiyyətlər folklor mətnlərində əks olunana qədər uzun və mürəkkəb obrazlaşma mərhələsindən keçir. Bu məsələnin iki mühüm tərəfi var:

a) Bunlardan birincisi odur ki, folklor daşıyıcıları, yəni folkloru yaradanlar onu tarixi gerçəklik kimi qəbul etmişlər.

b) İkincisi ondan ibarətdir ki, əgər folklor mətnlərində yaşayan tarixi hadisə və şəxsiyyətlər folklor obrazları kimi yox, birbaşa tarixin özü kimi qəbul olunarsa, onda tədqiqatçıları dolaşıqlıqlara salar.

Qeyd olunan hər iki məsələ çox mühümdür. Çünki tarixçilər bir çox hallarda folklor abidələrinə, xüsusilə qəhrəmanlıq dastanlarına üz tutur, onlardan tarixi qaynaq kimi istifadə edirlər. Lakin bəzən folklorşünaslar buna etiraz edir, qəhrəmanlıq eposlarında əks olunmuş tarixin bədii obraz olduğunu irəli sürürlər. Beləliklə, folklor abidələrindən tarixi qaynaq kimi istifadə edilib-edilməməsi, əslində, bir problem kimi qarşımıza çıxır. Biz bu məsələlər barəsində oğuz türklərinin qəhrəmanlıq ənənələrini əks etdirən «Oğuznamə» eposu əsasında danışmaq istəyirik.

Bildiyimiz kimi, dastanlar qəhrəmanlıq dastanları və məhəbbət dastanları olmaqla iki qrupa ayrılır. Qəhrəmanlıq dastanları məhəbbət dastanlarına nisbətən daha qədimdir. Tədqiqatçıların qənaətinə görə, Azərbaycan məhəbbət dastanları orta əsrlərdə qəhrəmanlıq dastanları əsasında yaranmışdır. Lakin bu, o demək deyildir ki, orta əsrlərə qədər xalqın sevgi hissləri dastanlaşmamışdır. Bilirik ki, dastanlar xalq mənəviyyatının güzgüsüdür. Bu cəhətdən məhəbbət mövzusu dastan yaradıcılığının lap başlanğıcından var olmuşdur. Sadəcə olaraq, orta əsrlər məhəbbət dastanları meydana çıxana qədər məhəbbət motivləri qəhrəmanlıq idealına tabe olmuş və qəhrəmanlıq dastanlarının poetikasında qəhrəmancasına elçilik motivi şəklində ifadə olunmuşdur. «Kitabi-Dədə Qorqud» oğuznamələrindəki sevgi motivlərini xatırlayaq. Burada ülvi sevgi idealı böyük bir coşqu ilə tərənnüm olunur. Lakin bu sevgi motivi məhəbbət dastanlarında olduğu kimi dastan poetikasının aparıcı motivini təşkil etmir. «Koroğlu» dastanının, demək olar ki, bütün qolları toyla – məhəbbətin təntənəsi ilə başa çatır. Lakin burada təsvir olunan sevgi bütün hallarda cəngavər sevgisi olub, qəhrəmanlıq idealına tabedir.

Maraqlıdır ki, qədim oğuz dastanları olan oğuznamələrdə təsvir olunan hadisələr oğuzlar tərəfindən tarixi həqiqət kimi qəbul olunurdu. Bu dastanlara ozanların ifasında qulaq asan oğuzlar təsvir olunmuş hadisələri heç də uydurma,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nağıl kimi qəbul etmir, onları oğuz babalarının başına gəlmiş həqiqi hadisələr kimi qavrayırdılar. Hətta bizə bu gün uydurma, fantastik görünən hadisələri belə oğuzlar əsl həqiqət, olmuş əhvalatlar kimi görürdülər. Məsələn, «Kitabi-Dədə Qorqud» eposunun sonuncu boyunda İç Oğuzla Daş Oğuzun arasında baş verən konfliktin təsvirinə müasir oxucu, o cümlədən tədqiqatçı şübhə ilə yanaşmaz (1, s. 123-126). Çünki belə etnosdaxili konfliktlər bütün qədim xalqların, o cümlədən oğuzların tarixi üçün səciyyəvidir. Lakin eposun Qonur Qoca Sarı Çobanla Pəri qızı, Basatla Təpəgöz arasındakı hadisələrdən bəhs edən səkkizinci boyunu (1, s. 98-103) müasir tədqiqatçı tarixi reallıq kimi qəbul etməz. Çünki burada mifologiya var. Və məsələnin bütün aldadıcı tərəfləri də elə mifologiya ilə bağlıdır.

Məşhur rus eposşünas alimi Boris Nikolayeviç Putilov slavyan və türk qəhrəmanlıq dastanları əsasında yazdığı «Qəhrəmanlıq eposu və gerçəklik» adlı monoqrafiyasında göstərir: «Təzadlı cəhət ondan ibarətdir ki, dastanlardakı epik hadisələrin nə qədər fantastik və şərti uydurma olmasından asılı olmayaraq, mühit onları dəyişməz olaraq gerçəklikdə baş vermiş hadisələr kimi qəbul edir. Folklor mühiti dastanlarda təsvir olunmuş epik dünyanı həqiqətdə baş vermiş hadisələrin fantastik təsviri kimi yox, əcdadlarının başlarına gəlmiş həqiqi hadisələr kimi başa düşür» (2, s. 17).

Bəs bunun səbəbi nədir? Nəyə görə insanlar dastanlardakı mifik obrazları, fantastik varlıqları uydurma kimi yox, həqiqət kimi qəbul edirdilər? Məsələ burasındadır ki, bu gün mifləri uydurma, fantaziya kimi qəbul edən bizlərdən fərqli olaraq, qədim insanlar mifləri həqiqət, tarixin özü kimi başa düşürdülər. Rus alimi M.İ.Steblin-Kamenski özünün «Mif» adlı əsərində yazır ki, mifə münasibətdə bir şey mübahisəsiz aydındır: mifin nə dərəcədə qeyri-həqiqət olmasından asılı olmayaraq o, yarandığı və yaşadığı yerdə həqiqət kimi qəbul olunan hekayətdir (3, s. 4). Yəni mifin məzmunu bu gün bizə necə görünürsə-görünsün, mifi yarandanlar, dünyanı mif qanunları əsasında yaşayanlar üçün o, uydurma yox, həqiqət idi.

Yaxud fransız alimi Klod Levi-Stros yazır ki, mif nə qədər ki mif kimi qavranılır, o, mif olaraq qalır (4, s. 194). Bu fikirdə də eyni məsələ qoyulub. Yəni o cəmiyyətdə ki miflər həqiqət olaraq qəbul olunur, onlar mif funksiyasını daşıyır. O cəmiyyətdə ki artıq miflərə tarixi həqiqət kimi yox, uydurma nağıl kimi yanaşırlar, o halda həmin miflər artıq mif yox, uydurma mətn sayılır. Deməli, mifin əsas xüsusiyyəti ondan ibarətdir ki, onu yaradanlar mifə nağıl kimi yox, həqiqət kimi yanaşırdılar. Miflərin bütün mədəniyyətlərin başlanğıcı olduğunu xatırlasaq, onda belə nəticə çıxara bilərik ki, elə ilkin tarix elmi öz başlanğıcını birbaşa mifdən götürür. Eyni cəhəti «Oğuznamə» dastanlarında da müşahidə etmək olar.

Elmdə «Oğuznamə» eposunu tarixi və ədəbi oğuznamələr olmaqla iki qrupa ayırırlar (5, s. 255). «Oğuznamə» eposu məşhur abidələrlə təmsil olunur. Bütün oğuznamələr mifik əcdad Oğuz kağanın doğulmasını, Günəş işığını təmsil edən birinci arvadı, Ağac və Su ünsürlərini təmsil edən ikinci arvadı ilə evlənməsini, bunlardan Gün, Ay, Ulduz, Göy, Dağ, Dəniz adlı altı övladının doğulmasını, bu altı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

oğuldan da iyirmi dörd oğuz tayfasının yaranmasını nəql edən kosmoqonik miflə başlanır. Bu hekayət, doğrudan da, mifdir. Çünki burada Oğuzun anası Ay kağandır. Arvadları Günəşi, Ağacı və Suyu təmsil edirlər. Altı oğlu da, öz növbəsində, təbiət ünsürlərini təmsil edirlər. Lakin bu hekayət oğuzlar üçün çox müqəddəsdir. Oğuzlar onları, indi bizim başa düşdüyümüz kimi, mif yox, kimdən və necə törəmələri haqqında tarixi həqiqət kimi qəbul edirdilər.

İndi isə keçək folklor mətnlərində yaşayan tarixi hadisə və şəxsiyyətlərin folklor obrazları kimi yox, birbaşa tarixin özü kimi qəbul olunduğu halda, tədqiqatçıları dolaşıqlığa sala bilməsi məsələsinə.

Yenə də B.N.Putilov göstərir ki, dastanlarda təsvir olunmuş epik cəmiyyət əsasında müəyyən tarixi dövrün cəmiyyətinin mənzərəsinin yaradılması bir çox hallarda ümumnəzəri yanlışlıqlarla müşayiət olunur. Məsələ burasındadır ki, «klassik epos tarixi cəmiyyətin reallıqlarının hansısa hissələrindən istifadə etmək yolu ilə öz epik cəmiyyətini, öz tarixini, onun özünə məxsus olan variantını yaradır» (2, 46).

Bu sözlərdə böyük bir həqiqət vardır. Yəni qəhrəmanlıq dastanlarında təsvir olnmuş cəmiyyətlər öz qaynağını tarixi cəmiyyətlərdən götürsə də, tədqiqatçı ehtiyatlı olmalıdır. Məsələn, «Kitabi-Dədə Qorqud»dakı Oğuz eli, yaxud «Koroğlu» dastanındakı Çənlibel, paşaların, xanların yaşadığı cəmiyyət, şübhəsiz ki, öz obrazını tarixi reallıqdan almışdır. Lakin onları birbaşa sənədli tarix kimi qəbul etmək düzgün deyil. Burada mühüm bir məsələni unutmaq olmaz. Həmin məsələ ondan ibarətdir ki, tarix folklorda, o cümlədən dastanda obrazlaşır. Odur ki, «Kitabi-Dədə Qorqud» oğuznamələrindəki oğuz cəmiyyətinin oğuz tarixinin hər hansı dövründəki oğuz cəmiyyətlərinin hansısa biri ilə birbaşa eyniləşdirmək olmaz. Çünki dastan yaşadıqca yeni dövrlərin tarixi hadisələrindən müəyyən cizgilər daim ona əlavə olunur. Bütün bu deyilənlər bizə aşağıdakı qənaətlərə gəlməyə imkan verir:

Birincisi, folklor abidələrindən, xüsusilə qəhrəmanlıq dastanlarından real tarixin öyrənilməsi zamanı istifadə mümkündür və lazımdır. Çünki ilkin miflər, mifoloji eposlar elə qədim dövrlərdə tarix elminin indi oynadığı rolu oynayırdı. Yəni bu miflər, dastanlar oğuzlar üçün tarix sayılmışdır.

İkincisi, folklor abidələrindən tarixi qaynaq kimi istifadə edərkən folklordakı tarixin bədii obraz olması heç vaxt nəzərdən qaçırılmamalıdır. Şübhəsiz ki, bu obraz öz qaynağını tarixi hadisələrdən almışdır. Lakin həmin obraz təkcə bir-bir tarixi hadisəni, yaxud konkret tarixi şəxsiyyəti təmsil etmir. Yəni folklor obrazlarının tarixlə əlaqəsi arasıkəsilməz prosesdir. Məsələn, Koroğlu obrazı öz dövrünün qəhrəmanlıqları ilə bağlı olduğu kimi, qədim oğuz çağının da qəhrəmanlıqlarını əks etdirir. Bu, o deməkdir ki, Koroğlu obrazının əcdadı mifik Oğuz kağan obrazıdır. Əslində, Oğuz kağan obrazı Koroğlu obrazına transformasiya olunmuşdur. Bu, epik-bədii transformasiyadır və tarixçi bunu hökmən nəzərə almalıdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Üçüncüsü, folklor mətnlərindən istifadə edən tarixçilər folklor poetikasının qanunauyğunluqlarına bələd olmalı, eləcə də folklor obrazlarının tarixi köklərindən danışmaq istəyən folklorşünaslar tarixi peşəkar səviyyədə bilməlidirlər.

**Qaynaqlar**

1.Kitabi-Dədə Qorqud (Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir). Yazıçı nəşriyyatı, Bakı, 1988, 265 s.

2. Путилов Б.Н. Героический эпос и действительность, Наука, Ленинград,1988, 225 с.

3. Стеблин-Каменский М.И. Миф, Наука, Ленинград, 1976, 121 с.

4. Леви-Строс К. Первобытное мышление Республика, Москва,1994,384с.

5. Bayat F. Oğuznamə(lər) (Dədə Qorqud kitabı. Ensiklopedik lüğət). "Öndər" nəşriyyat, Bakı, 2004

6. Bayat F. Oğuz epik ənənəsi və «Oğuz kağan» dastanı. Sabah, Bakı, 1993, 194 s.

7.Əbülqazi Bahadır xan. Şəcərei-Tərakimə (Türkmənlərin soy kitabı). Rus dilindən tərcümə edən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı, Azərbaycan Milli Ensiklopediyası N-PB, Bakı, 2002, 146 s.

8. Əbubəkr Tehrani. Kitabi-Diyarbəkriyyə. Fars dilindən tərcümə edən, ön söz və şərhlərin müəllifi R.Şükürova. "Elm" nəşriyyatı, Bakı, 1998, 336 s.

9. Mənzum Oğuznamə. Qədim türkcədən çevirən və ön sözün müəllifi İ.M.Osmanlı, "Ulu" nəşriyyatı, Bakı, 2005, 84 s.

10. Oğuznamələr. İşləyib çapa hazırlayanlar: K.V.Nərimanoğlu və F.Uğurlu, Bakı Universiteti nəşriyyatı, Bakı, 1993, 94 s.

11. Rəşidəddin F. Oğuznamə. Fars dilindən tərcümə, ön söz və şərhlərin müəllifi R.M.Şükürovanındır, Azərbaycan Dövlət N-PB, Bakı, 1992, 72 s.

12. Rəşidəddin. Oğuznamə. Anadolu türkcəsindən Azərbaycan dilinə çevirən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı, Azərbaycan Milli Ensiklopediyası N-PB, Bakı, 2003

13. Abulqazı. Şejerei terakime. Aşqabat, 1992, 74 s.

14. Bekmıradov A. Andalıp xem Oquznamaçılık dəbi. Ilım, Aşqabat, 1987

15. Salar Baba. Oquz ve övlad ve etba ve bakı-ye etrak tarıxı. Aşqabat, Türkmenistan, 1992, 95-119

16. Buxari Xafiz-i Tanış. Şaraf-namayi şaxi (Kniqa şaxskoy slavı). Per. s persids., vved., prim. i ukazateli M.A.Salaxetdinovoy. Çastğ 1. Nauka, Moskva, 1983, 543 s.

17. Raşid-ad-Din F. Sbornik letopisey. T. 1-3, AN SSSR, M.-Leninqrad, 1946-1960, 903 s.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Almaz Ülvi (Binnətova), f.ü.e.d.,***
***AMEA Nizami ad. Ədəbiyyat İnstitutu***
***almazulvi1960@mail.ru***

# ÖZBƏK FOLKLOR BİLİCİLƏRİ VƏ ABİDƏLƏRİ ÖZBƏK VƏ AZƏRBAYCAN FOLKLORŞÜNASLIĞINDA

**Özət**

Təqdim olunmuş məqalədə Azərbaycan - özbək folklorunun Azərbaycanda öyrənilməsinə, eləcə də qarşılıqlı folklor əlaqələrinin müasir dövrümüzdə öyrənilmə-si məsələsinə bəzi nümunələr müstəvisində qısaca da olsa diqqət yetirilmişdir**.** Özbək şifahi xalq ədəbiyyatı bilicilərindən Erqaş Cümənbülbüloğlu, Pulkan Şair, Fazil Yoldaşoğlu, İslam Şair və b. və özbək abidələri barədə elmi-nəzəri araşdırmalar məruzədə əhatəli təqdim olunacaqdır.

**Açar sözlər:** özbək folkloru, Azad Nəbiyev, Tura Mirzəyev, baxşi, epos, nağılçı

**Резюме**

В представленной статье рассматриваются мастера и памятники узбекского фольклора в контексте исследований узбекских и азербайджанских фольклористов и делаются научно-теоретические заметки. К исследованию привлечены такие знатоки устного народного творчества, как Эргаш Джуманбульбульоглы, Пулкан Шаир, Фазиль Йолдашоглы, Ислам Шаир и др. узбекские сказители дастанов, также исследована проблема письменной записи памятников устного народного творчества народных дастанов.

**Ключевые слова:** узбекский фольклор, Азад Набиев, Тура Мирзаев, бахши, епос, сказитель

**Summary**

In this article the investigation problem of Azerbaijan-Uzbek folklore in Azerbaijan and the mutual folklore relations in modern period are looked through in some examples shortly. In the report the scientific-theoretical investigations about Ergash Jumanbulbuloglu, Pulkan Shair, Fazil Yoldashoglu, Islam Shair, etc. and Uzbek literary monuments will be also given.

**Keywords:** Uzbek folklore, Azad Nabiyev, Tura Mirzayev, Bakhshi, epos, narrator

* * *

Dünya xalqlarının folklorunda olduğu kimi, özbək folkloru da epos janrında olan əsərlərlə-dastanlar, epik poemalar, əfsanələr, nəğmə və bayatılar, atalar sözləri vasitəsilə inkişaf etmiş və yazılı ədəbiyyatın yaranışına qədər böyük tarix



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yaşamışdır. Xalq ruhunun, milli adət-ənənənin, xalq həyatının, təfəkkürünün daşıyıcısı olan bu əsərlər şəksiz tarixi ədəbi abidələrdir.

Müasir dövr ədəbiyyatşünaslığında türkdilli xalqların ədəbi–bədii əlaqələri ilə yanaşı folklor əlaqələri də elmi mövzu olaraq daim diqqət mərkəzindədir. Məqalədə nəzər salacağımız problem özbək folklor biliciləri və abidələri, eyni zamanda, Azərbaycan və özbək folklorşünaslarının bu mövzu ilə bağlı əsərləri barədə qısaca məlumat-qeydlər və qoyulan məsələ ilə həmin folklorşünasların araşdırmaları kontekstində izlənir.

Kimdir özbək folklor biliciləri və baxşıləri? Onlar uzun illər xalq arasında ağızdan - ağıza yayılan xalq hikmətlərini, dastanları, nağılları, əsatirləri həm el məclislərində söyləyən, yayan, həm də onları yazıya köçürən el sənətkarlarıdır.

Özbək baxşıləri (dastan söyləyənləri) oxuyur, söylədikləri dastan mətnini auditoriyanın (onu dinləyənlərin) tələb və zövqünə görə dəyişdirə bilmək şansları olur. Belə improvizasiya edən dastan söyləyənlər – baxşılər “Şair” deyə fəxri ad daşıyırlar. Bunlar içərisində ən məşhur şifahi xalq ədəbiyyatı bilicilərindən - özbək folklorşünaslıq elmi tarixində adları xüsusilə möhürlənən Erqaş Cümənbülbüloğlu, Pulkan Şair, Fazil Yoldaşoğlu, İslam Şair, Abdulla Şair, Berdi baxşi, Səidmurad Pənahoğlu və b. adlarını çəkmək mümkündür. Bu baxşi – dastançıların topladıqları folklor nümunələrinə nəzər salanda 300-ə qədər epik poemanın (dastanın) söyləmə yazılışını, yüzdən artıq süjetli folklor əsərinin toplandığını görürük. Onların içərisində “Alpamış”, “Yadqar”, “Yusif və Əhməd”, “Əlibəy və Balıbəy”, “Yakka Əhməd”, “Muradxan”, “Rüstəmxan”, “Şirin və Şəkər”, “Gündoğmuş”, “Arzugül”, “Giranxan”, “Şeybanixan”, olduqca geniş yayılmış və şöhrət qazanmış “Goroğlu” (40-dan yuxarı dastan-nağıldan ibarətdir), yeni yaranmış dastanlardan “Cizzəxan üsyanı”, “Məmədkərim pəhləvan”, “Həsən-batrak”, “Mərdikar”, “Açildav” və başqalarının adlarını çəkmək mümkündür. Bu qədər əsərlərin-şifahi xalq ədəbiyyatı nümunələrinin toplanıb yazılması özbək xalq ədəbiyyatının nə qədər zəngin və qədim olduğuna bariz misaldır. Bu əsərlərin toplanmasında əsas yeri olan xalq şairi Erqaş Cümənbülbüloğlunun adını xüsusilə qeyd etmək vacibdir. O, fenomen yaddaşa malik imiş.

Bu məqalədə ən məşhur baxşı və şairlər - Erqaş Cümənbülbüloğlu, Pulkan Şair, İslam Şair, Fazil Yoldaşoğlu haqqında qısaca məlumat-qeyd verilir. Onlar barədə özbək folklorçu alimləri, xüsusən Hadi Zərifov, Tura Mirzəyev kifayət qədər sanballı elmi-nəzəri araşdırmalar ortaya qoyublar. Azərbaycan alimlərindən Pənah Xəlilovun və Azad Nəbiyevin tədqiqlərində az-çox məlumat olduğunu deyə bilərik.

Erqaş Cümənbülbüloğlu (1870-1937) istedadlı cığatay (özbək) xalq şairlərindən biridir. O, 1868-ci ildə hazırda Nurata adlanan yerin Kurkan qışlağında anadan olmuşdur. Atası Cümən məşhur şair kimi xalq arasında “Bülbül” ləqəbi qazanmışdır. Erqaş ailəsinin 7 nəsli şair-dastançı kimi tanınmışdı. Erqaşın atası Cümən və onun əmiləri Cassaq və Yarləqəb məşhur şairlərdən olub xalq arasında böyük hörmət qazanmışdılar. Erqaşın atası onun 18 yaşı olanda dünyasını dəyişmiş



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

və ailənin bütün qayğıları onun üzərinə düşdüyündən o, çox ağır həyatla üzbəüz qalmışdır. O vaxtkı ictimai quruluşun təsiri altında şair tamamilə yoxsul vəziyyətə düşmüş, buna görə də yaşadığı qışlağı tərk etmək məcburiyyətində qalmışdı. O, Buxara mədrəsəsində fars və ərəb dillərini, eyni zamanda xəttatlıq sənətini öyrənmişdir. Orada Nəvainin, Füzulinin, Hafizin, Bedilin, Məşrəbin, Məhtimqulunun əsərlərini dönə-dönə oxumuşdur. Bütün bunlar təbii ki, onun yaradıcılığına da öz təsirini göstərmişdir. T.Mirzəyev yazır ki, Erqaş Cümənbülbüloğlunun söylədiyi dastanlarda klassik ədəbiyyata xas üslub və rənglər, bəzi ştrixlər gözə dəyir. Bunlar çox güman ki, onun zəngin mütaliəsindən doğan qaynaqlardır. Xalq ədəbiyyatının mahir bilicisi Erqaş Cümənbülbüloğlunun yazıya köçürdüyü "Gündoğmuş" dastanı lirik-fəlsəfi məzmunu ilə daim diqqət mərkəzində olmuşdur. Bundan başqa, "Yekə Əhməd", "Qızcıbəy", "Əlibəy və Balıbəy", "Dəlli", "Rövşənxan", "Gündüz və Ulduz", "Xoşgəldi", "Xaldarxan", "Goroğlunun doğuluşu və uşaqlığı", "Həsənxan", "Avazxan", "Xuraman", "Nurəli", "Alpamış", "Yusif və Əhməd", "Giranxan", "Aşıq Qərib", "Vərqa və Gülşah", "Gümrü", "Tulumbiy", "Məhtimqulu" dastanları da onun söyləmələrində yazıya köçürülmüşdür. 1926-28 və 1936-37-ci illərdə bu və adları çəkilməyən onlarla dastan onun repertuarında yazıya alınmışdır. Erqaş Cümənbülbüloğlu repressiya qurbanlarındandır, o, 1937-ci ildə həbs olunmuş və güllələnmişdir.

Fazil Yoldaşoğlu 1872-ci ildə Bulunğur rayonunun Layçə qışlağında yoxsul ailədə doğulmuşdur. Beş yaşından atasını itirən Fazil 19 yaşına qədər bəylərin qapısında işləmişdir. O, yerli şairlərdən Yoldaş, Köldaş və Suyarla dostlaşıb onlardan şairlik sənətini öyrənmişdir. Fazil Yoldaşoğlu görüb-keçirdiyi hadisələri öz yaradıcılığında əks etdirmişdir. Özbək ədəbiyyatı qarşısındakı ən böyük xidmətlərindən biri folklor nümunələrini-dastanları, nağıl və rəvayətləri yazıya almasıdır. Onun söyləməsi ilə 30-a qədər əsər–şifahi xalq ədəbiyyatı nümunəsi yazıya alınmışdır: "Alpamış", "Yadqar", "Yusif və Əhməd", "Malikə ayyar", "Məşrikə", "Zülfizatr", "Balaqardan", "Nurəli", "Avazxanın ölüm hökmü", "İntizar", "Cahangir", "Muradxan", "Rüstəm", "Şirin və Şəkər", "Fərhad və Şirin", "Leyli və Məcnun", "Bəhram və Güləndam", "Zivərxan" və s. dastanların yazıya köçürülməsində müəlliflik etmişdir.

O, Yoldaş Molla Muradoğlunun – Layçə qışlağında yaşayan üç şair qardaşdan biri - şagirdi olmuşdur. Yoldaş Molla Muradoğlunun 11 şagirdi olmuşdur ki, onlardan ən hazırcavabı, ən istedadlısı Fazil Yoldaşoğlu idi. Qeyd edim ki, Yoldaş Molla Muradoğlu da, öz növbəsində, məşhur Yoldaşbülbülün şagirdi olmuşdur, sonrakı illərdə isə onun müəllimi Məhəmməd Şair olmuşdur. Fazil Yoldaşoğlu 1955-ci ildə vəfat etmişdir.

İslam Şair Nəzər oğlu 1874-cü ildə indiki Səmərqənd vilayətinin Narpəy rayonunun Ağdaş qışlağında çoban ailəsində doğulmuşdur. O, heyvandarlıqla məşğul olan atasına kömək etməklə yanaşı, səkkiz yaşından çalıb-oxumağa başlamış və məşhur Ernəzər Şairə şagird olmuşdur. Ernəzər Şair var gücünü əsirgəmədən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qəhrəmanlıq dastanlarını öz şagirdinə öyrətmişdir. Məsələn, İslam Şair "Xalbekə", "Gündoğmuş", "Alpamış", "Arzugül", "Rüstəmxan", "Şirin və Şəkər", "Gündüz və Ulduz" və başqa dastan və qoşmaları öz ustadından öyrənmişdir. Ernəzər Şair öz şagirdini Cümənbülbül və bir sıra xalq şairləri ilə tanış etmişdir. O, 1953-cü ildə vəfat etmişdir.

Bu və bir çox digər baxşılər, şairlər haqqında kifayət qədər zəngin elmi qaynaqlar folklorşünas Tura Mirzəyevin son illər nəşr etdirdiyi "Эпос и сказитель" əsərində yer almışdır.

Məlumdur ki, Azad Nəbiyev Azərbaycan-özbək folklor əlaqələri müstəvisində böyük işlər görmüşdür. Onun namizədlik dissertasiya işi "Koroğlu" dastanında Koroğlu surəti (Azərbaycan-özbək materialları əsasında)" (Bakı, 1971), doktorluq dissertasiyası isə "Azərbaycan-özbək folklorunun qarşılıqlı əlaqəsi və tipologiyası" (Tbilisi, 1981) mövzularına həsr olunmuşdur. Bu mənada, Azad Nəbiyevin istər Azərbaycan, istərsə özbək folkloru, hər iki xalqın şifahi xalq ədəbiyyatının tədqiqi sahəsində xidmətləri əvəzsizdir. Hər iki xalqın folklor ənənələrini gözəl və mükəmməl bilən alim müqayisəli təhlil çərçivəsində elmi-nəzəri baxımdan tutarlı sözünü deyə bilmişdir.

Azad Nəbiyev tədqiqatlarında da qeyd edir ki, özbək baxşı və dastançı məktəblərinin yaradıcılıq ənənəsi epik-romantik üslubda olduğundan, onlar müxtəlif süjetləri öz yaradıcılıq ənənələrinə uyğun şəkildə işləmişlər. XIX yüzilliyin ikinci yarısından sonra özbək dastançılığında bu ənənə xüsusilə güclənərək Erqaş Cümənbülbüloğlu, Pulkan Şair, İslam Şair və Fazil Yoldaşoğlunun yaradıcılığında özünü əks etdirir. Elə bu yaradıcılıq ənənələri sayəsində dastanların böyük bir qismi xalq fantaziyasının qüdrəti ilə epik-romantik məzmuna yiyələnir. V.M. Jirmunski və H.T.Zərifovun göstərdiyi kimi, dastançılar tərəfindən qoşulan nəğmələrdə vətəni müdafiə edən qəhrəmana böyük el məhəbbəti nəzərə çarpır.

AMEA müxbir üzvü A.Nəbiyev adları qeyd olunan elmi-tədqiqat əsərlərində (dissertasiyalarında), özbək baxşi və dastançılarının fəaliyyətini – folklor sahəsindəki yaradıcılıqlarını, yaradıcılıq ənənələrini "Koroğlu" və "Goroğlu" dastanları kontekstində elmi-nəzəri aspektdə araşdırır, eyni zamanda, Azərbaycan-özbək folklor əlaqələrinin oxşar və fərqli cəhətlərini müqayisəli şəkildə təhlilə cəlb edir. Məşhur özbək folklorşünası, filologiya elmləri doktoru, professor Tura Mirzəyev Özbəkistan Respublikası Elmlər Akademiyasının Dil və Ədəbiyyat İnstitutunda hazırladığı "Эпос и сказитель" adlı fundamental monoqrafiyasında məhz bu məsələlərin geniş elmi təhlilini təqdim etmişdir. Bu nəşr özbək folklorunun bir sıra aktual məsələlərinin dərin elmi təhlilindən bəhs edir. Müəllif adı çəkilən əsərini üç bölmə daxilində qruplaşdırmışdır: I. Özbək xalq dastançıların mədəniyyəti və onların epik repertuarının xüsusiyyətləri: [Epik dastançıların (baxşilərin) mədəniyyəti və dastan söyləyənlərin özünəməxsusluğu, dastançılar məktəbi, dastançıların ənənə və improvizasiya məsələləri, epik repertuarın təkmilləşdirilməsi və zənginləşdirilməsi məsələləri, dastan – xalq bilicilərinin repertuarında əsas janr



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kimi]; II. "Alpamış" dastanının özbək variantı ["Alpamış" dastanının özbək variantı və akademik V.M. Jirmunskinin məktubu]; III. Məqalələr [dastançı-şair, özbək xalqının dastan yaradıcılığının yazılı ədəbiyyatına təsiri, özbək qəhrəmanlıq eposu ölməz abidə kimi, "Alpamış" və "Alıp-Manaş" dastanlarının müqayisəli öyrənilməsi məsələsi, özbək dastançılarının (bilicilərinin) məktəbləri, özbək xalq bilicilərinin ənənəvi öyrənilmə forması, xalq poeziyasının incisi, Özbəkistan xalq poeziyası, çoxcildli özbək xalq folklorunun toplanması və nəşrə hazırlanması təcrübəsindən, xalq bilicilərinin bədii yaradıcılığı, folklor elmi]. Adları sadalanan bu məsələlər göründüyü kimi, çox ciddi araşdırmaların nəticəsinin göstəricisidir. Tanınmış özbək folklorçusu (Azərbaycanın tanınmış folklorçusu Azad Nəbiyevin yaxın dostu və məsləkdaşı) bu əsərini məşhur folklorşünas alim Hadi Zərifovun xatirəsinə ithaf etmişdir. Yəni bu nüans özü də əsərin ciddiliyinə növbəti bir işarədir.

Tura Mirzəyev bu əsəri ilə bir daha əmin olur ki, xalqın ən böyük xəzinəsi onun folklorudur. Şifahi xalq ədəbiyyatı – nəğmələr, nağıllar, atalar sözləri, əfsanə və əsatirlər, tapmacalar, epik dastanlar – xalq qəlbinin tərcümanı, onun psixologiyası, tarixi, ümid və inamlarının güzgüsüdür, saysız- hesabsız incilər xəzinəsidir.

Əsərin yekununda belə bir nəticə qətiləşir: Müəllif bu fundamental əsərini yazarkən təkcə öz elmi-nəzəri bilgiləri, istifadə etdiyi ədəbiyyat siyahısından yox, eyni zamanda, uzun illərin ekspedisiya müşahidələri, ayrı-ayrı folklor yaddaşlı insanlarla görüşləri, topladığı folklor nümunələrini müqayisəli təhlil süzgəcindən keçirməsi, eləcə də elmi folklor sorğularından faydalanmışdır.

**Qaynaqlar**

1. Azad Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı. II hissə (orta əsr və yeni dövr folklor yaradıcılığı) // Bakı, Elm, 2006, 648 səh.
2. Almaz ÜLVİ. Azərbaycan- özbək (cığatay) ədəbi əlaqələri (dövrlər, simalar, janrlar, təmayüllər**)** // Bakı, "Qartal", 2008. 334 səh.
3. Тура Мирзаев. Эпос и сказитель // Ташкент, Фан, 2008, 410 стр.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Aynur Qəzənfərqızı,***
***AMEA Folklor İnstitutu, doktorant***
***aynurqezenferqizi@yahoo.com***

# QUMUQ YIRLARINDA TARİXİN BƏDİİ ƏKSİ

**Özət**

Yırlar qumuq folklorunda önəmli bir yer tutur. Mövzu və məzmun baxımından çox zəngindir. Qumuq folklorunda bir janrın adı kimi işlədilən yır bir çox məqamlarda Azərbaycan dastanlarından parçaları, kiçik sujetli mənzum hekayələri, bəzən vücudnamələri xatırladır. Bəkir Çobanzadə, Abdulhakim Acıyev, K. Sultanov, Çetin Pekaçar, Əli Şamil kimi tədqiqatçıar yırlar haqqında araşdırma aparsalar da, yırların tədqiqatına çox ehtiyac duyulur. Biz öz araşdırmamızda yırları Azərbaycan folklorundakı örnəklər ilə müqayisə edərək, həm də onlarda tarixiliyi araşdıracağıq.

**Açar sözlər:** yır, qumuq folkloru, tarixilik

**Резюме**

Йыры занимают значительное место в кумыкском фольклоре. Они очень богаты с точки зрения тематики и содержания. Йыр это название жанра, схожего с малосюжетными стихотворными формами Азербайджанских эпосов, а иногда вуджудname. Несмотря на наличия трудов Б. Чобанзаде, А. Аджиева, К. Султанова, Четин Пекачара, Али Шямиля относительно йыр, в этом направлении требуются новые исследования. В этой статье мы сопоставляя йыры с подобными примерами Азербайджанского фольклора исследуем их в историческом контексте.

**Ключевые слова**: Йыр, фольклор кумуков, исследование

**Summary**

Yirs take important parts in kumuk folklore. Due to the theme and maintenance they are very rich. Yir used as the name of the genre in kumuk folklore in some conditions it reminds some parts of sagas in Azerbaijan folklore, expressed in verse in little topic, sometimes vucudnames. Though some investigators such as B. Chobanzade, A. Ajiyev, K. Sultanov, Chetin Pekachar, Ali Shamil have studied this problem one need to investigate the problem of yir. In our investigation compairing yirs with the sample in Azerbaijan folklore we shall investigate the historicity in them, too.

**Key words**: yir, kumuk folklore, historicity

***

Qumuqlar şifahi xalq ədəbiyyatının mənzum olan janrlarından birini yır adlandırır. Qıpçaq qrupuna daxil olan türk xalqlarında yır sözü oğuz qrupuna daxil



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olan xalqlarla müqayisədə çox işlədilir. Belə ki, heca vəznli şerin bir növünə Krım və Kazan tatarları cır, cir, qazax və qırğızlar jır, noqaylar, qaraçay-balkarlar və b. yır deyir. Keçmişlərdə isə türk xalqlarında yır, jır, cır sözü geniş işlənmişdir. Ərəb dilinin təsirilə yır, jır, cır şeir sözü ilə əvəzlənsə də, hazırda Orta İran türkləri Savə və Qum bölgələrində yaşayan soydaşlarımızın dilində hələ də yır və yırçı sözləri şeir və şair sözlərilə paralel işlənilir. (7, 98)

Qumuq folklorunda bir janrın adı kimi işlədilən yır bir çox məqamlarda Azərbaycan dastanlarından parçaları, kiçik sujetli mənzum hekayələri, bəzən vücudnamələri xatırladır. Türkiyəli folklorşünas Doğan Kayaya görə, yır qumuqların türkü yerinə istifadə etdikləri termindir (9, 796). Doğan Kayanın bu fikri qumuq yırlarını tam əhatə etmir, çünki türkülərin hamısı deyil, bir qismi yırlara oxşayır.

Qumuq folklorşünaslarının toplayıb çap etdirdikləri yırlar sayca çox və çoxsujetlidir. Janrın təsnifatının verilməsində, mövzusunun araşdırılmasında alimlərdən Bəkir Çobanzadə, Abdulhakim Acıyev, İmperiyat Xalipayeva, Tamsted Qustav, Çetin Pekaçarın zəhmədi çoxdur. Lakin bu müəlliflərin kitab və məqalələrində janr hərtərəfli, türk xalqlarının folklorundakı oxşar janrlarla müqayisəli şəkildə hələ tam öyrənilməyib. Bəkir Çobanzadənin başladığı işi 1990-cı ildən sonra türkiyəli araşdırıcı Çetin Pekaçar davam etdirsə də, onların işi dəryadan damla təsiri bağışlayır. Mövzu ilə bağlı çoxsaylı araşdırıcı fikrinə hələ böyük ehtiyac var.

Əldə edə bildiyimiz qaynaqlardan bu qənaətə gəlmək olur ki, qumuq folklorunda həcminə görə sarınlardan sonrakı yeri yırlar təşkil edir: “Qumuqlarda yırlar bir neçə misradan başlayaraq bir neçə yüz misrayadək uzana bilir. Mövzusunda isə məhdudiyyət yoxdur” (8, 299). Yırların qafiyələnmə sistemi mərsiyə kimidir. İki misradan bir qafiyələnmə dəyişir. Əsasən ab şəklindədir.

Yırlar qumuq folklorunda böyük əhəmiyyətə malikdir. Ancaq bununla yanaşı, yırlar ciddi bir tədqiqata ehtiyac duyur. Yırların bölgüsünü qumuq folklorşünasları *igitlik yırları* (qəhrəmanlıq mahnıları), *kalendar-adat yırları*; (mövsüm və mərasim nəğmələri) *yaslar, vayahlar*, *şahalaylar* (ağılar), *zahmat yırlar* (iş nəğməsi), *sibir* ve *tusnak yırlar* (əsirlik nəğmələri), *haşık yırlar* (məhəbbət nəğmələri) kimi növlərə bölürlər (4, 159). Çetin Pekaçar isə igitlik yırları başlığı altında dastanlar və qəhrəmanlıq türkülərini vermişdir. Çetin Pekaçarın bu bölgüsü ilə razılaşa bilmirik. Çünki qeyd etdiyimiz kimi, yırlar öz əhəmiyyətinə və böyüklüyünə görə az qala qumuq folklorunun yarısını təşkil edir. Və ona görə də məzmun, mövzu və süjet baxımından xeyli zəngin olan yırların iki başlıq altında bölünməsi çox da qəbul edilə bilməz.

Abdulhakim Acıyevin bölgüsü də diqqətiçəkəndir. O, yırları tarixi, tarixi-qəhrəmanlıq, qəhrəmanlıq yırları kimi bölgülərə bölür. Tarixi yırları da, öz növbəsində, erkən tarixi yırlar, XIX əsr Qafqaz döyüşləri zamanı yaranmış tarixi yırlar, 1877-ci il üsyanına qoşulmuş yırlar, müstəmləkəçilik və feodalizm əleyhinə “dinc” dövr yırları kimi bölmüşdür. Abdulhakim Acıyev Çetin Pekaçaradan fərqli olaraq kalendar-adat yırları yox, kalendar-adət poeziyası başlığında vermişdir. Yəni kalendar-adat poeziyasını yırlara aid etməmişdir (13).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qeyd etməliyəm ki, Abdulhakim Acıyevin müstəmləkəçilik və feodalizm əleyhinə yazılan yırlar bölgüsü ilə biz razılaşa bilmərik. Düşünürük ki, bu bölgüdə Abdulhakim Acıyev tamamilə rus folklorunun təsirində qalmışdır. Çünki bildiyimiz kimi, Rusiyada ictimai-siyasi formasiyanın beş növü qəbul edilir. Bildiyimiz kimi, materialist dünyagörüşlü marksist nəzəriyyəsinə görə, ictimai-siyasi formasiyanın 5 forması qəbul olunmuşdu. Bu ictimai-siyasi formasiya, əslində şərtidir. Yəni ki, bütün cəmiyyətlərə şamil etmək olmaz. Məsələn, qumuq folklorunda təhkimçilik və feodalizm anlayışına rast gəlməyimiz imkansızdır. Fikrimizi daha da açıqlığa qovuşdursaq, belə deməliyik ki, Rusiyada mövcud olan təhkimçilik türklərdə tətbiq olunmayıb. Xüsusilə, Şərq aləmində nökərin özünün ayrıca bir əmlakı olub. O, vergisini ödəyib. Qulun da özünün vergisi olub. Şərq aləmindəki nökər və qul istədiyi vaxt ağasının yanından gedə bilərdi. O, ağasının sadəcə nökəri olub, onun şəxsi əmlakı olmayıb. Ancaq Qərb aləmində vəziyyət bir qədər fərqli olub. Belə ki, Qərb aləmində qul ağasının malı olub. Kəndli öz ağasına təhkim olunub. O, ağasının yanından gedə bilməz, azad ola bilməzdi. Qul, təhkimli kəndli ağasının əmlakı sayılırdı. Deməli, K. Marks öz nəzəriyyəsini yazarkən cəmiyyətlərin və xalqların xarakteristik xüsusiyyətlərini göz önünə almamış, sadəcə Rusiya üçün keçərli olan nəzəriyyəni bütün dünya sisteminə aid etmişdir. Bu da öz növbəsində bir çox çatışmayan cəhətlərə yol açmışdır. Yuri Semyonov da buna öz münasibətini bildirmişdir: "K. Marks qədim şərq sosial-tarixi sisteminin sosial-iqtisadi xarakteri aydın deyildi. Lakin onun oxşarlığı, eyni zamanda nəinki burjuaziyada hətta quldarlıq və feodalizmdəki keyfiyyətcə fərqliliyi onu şübhələndirməmişdir. Ona görə də belə bir nəticəyə gəlinmişdi ki, qədim Şərqdə istehsalın asiyalıların adlandırdığı antoqonist növü var. Asiyanın ictimai-iqtisadi formasiyasına Marks tarixdə birinci sinfi forma kimi baxırdı (12). Y. Semyonov da K. Marksın beş ictimai-siyasi formasiyasının bölgüsü zamanı Asiyada xarakterik olan ictimai xüsusiyyətləri nəzərə almamışdı. Görünür, Abdulhakim Acıyev də Marksın bu bölgüsünün təsiri altında qalmış və yırların bölgüsü zamanı belə bir nüansa yer vermişdir. Düşünürük ki, bu bölgü sünilikdən başqa bir xarakter daşımır. Tamamilə qumuq folkloruna ziddir. Çünki qumuq folkloru tamamilə ümumtürk kontekstinə köklənmişdir. Deməli, orda belə süni bölgülərin olması heç də xarakterik deyil.

Abdulhakim Acıyev tarixi yırları erkən tarixi yırlar, XIX əsr dağlıların mübarizəsi nəticəsində yaranmış mahnılar, 1877-ci il üsyanı haqqında mahnılar, antifeodal və antimüstəmləkəçi mahnılar olaraq müəyyən kateqoriyalara bölüb.

O, erkən tarixi yırlara "Molla Nəsrəddin və Axsaq Temirin yırı", "Sultan Mutun yırı", "Kazanbəy yırı"larını daxil edir. Düşünürük ki, "Minküllünün yırı" da erkən tarixi yırlara aiddir. Çünki yır özündə qədim dövrün izlərini daşımaqla yanaşı, həm də şumer dastanlarından da izlər daşıyır.

Qumuq yırları arasında "Minküllünün yırı" tarixən ən qədim yırlardan sayılır. "Minküllünün yırı" mövzu baxımından da, poetik nüanslarına görə də çox qədim



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dövr türk mədəniyyətini özündə ehtiva edə bilir. Əsərdə Minküllünün itlərini özünün qardaşı adlandırması olduqca maraqlıdır:

Qey meni koş inanqan uç itim!
*Ey mənim çox inandığım üç itim!*
Uç itim de nege bola – uç inim!
*Üç itim nədir, üç qardaşım!* (2, 34)

K. Sultanov Minküllünün itlərini özünün qardaşı deyə adlandırmasını mahnının tarixinin müsəlmanlıqdan öncəyə gedib çıxması ilə əlaqələndirmişdir (5,15). Qeyd etməliyəm ki, it sözünün sinonimi olan köpək müsbət anlamda istifadə olunurdu. Bu gün dilimizdə mövcud olan "köpəkoğlu" sözü də bəzi hallarda müsbət mənada işlənməkdədir. Tarixdə Köpək oğulları adlı məşhur bir nəsil olduğunu da bilirik. Oğuznamədə adı keçən bu nəsil haqqında Faruk Sümer aşağıdakıları yazır: "Köpək oğulları haqqında məmlük tarixindəki qeydlər bundan ibarətdir. ...Osmanlı dövrünün ilk illərində əfşarların başında Tukak bəy oğlu Əmənlik bəy dururdu. Ancaq bu bəylərlə yuxarıdakı adı çəkilən bəylərin qohumluq münasibətləri haqqında bir şey söyləmək mümkün deyil. Əfşar Köpək oğullarının şəcərəsi: Köpək, onun oğulları Hüseyin bəy, Əsləməz, Ay-Doğmuş, Sülü. Əsləməzin oğlu Məhmət..." (6, 265).

Bundan başqa, "Şimali Suriya əfşarları əsasən üç ailə tərəfindən idarə olunurdular. Bunlar Köpək oğulları, Gündüz oğulları və Kut bəy oğullarıdır. ....Köpək oğulları Antəp bölgəsində... yaşadığı məlumdur" (6, 262) məlumatını da oxuyuruq.

Yırda diqqəti çəkən başqa bir məqam da qəhrəmanın çətin anında öz həyat yoldaşını köməyə çağırmasıdır.

Ayxanımqa belgi alıp barıqız
*Ayxanımı alıb bəri gəliniz*
Uç itimni birisi,
*Üç itimdən birisi*
İçindeki aslan tulpar tirisi
*İçindəki aslan güclüsü*
Ayxanım da belgi alıp bardı dey
*Ayxanımı eşidib gəldi deyir* (2, 34).

Qadınların ərləri ilə bərabər döyüşməsi, ərlərinin ən yaxın silahdaşı olması türk folkloru üçün xarakterik bir haldır. Türk salnaməsi sayılan "Kitabi-Dədə Qorqud" dastanında da bir çox məqamlarda buna şahid oluruq: "Beyrək aydır: Baba, mana bir qız alı ver kim, mən yerimdən durmadın ol durgəc gərək! Mən qarağac atıma binmədən ol binmax gərək! Mən qırıma varmadan ol, mənə baş gətirmək gərək! Bunun kibi qız alı ver, baba, mana" – dedi (1, 56). Beyrəyin belə bir qız istəməsi təsadüfi deyil. Çünki Beyrək özünə təkcə arvad yox, həm də arxa dayaq olacaq bir həyat yoldaşı istəyir.

Həyat yoldaşının ərinin çətin anlarında onu çıxılmaz situasiyadan çıxarmasını biz "Dəli Domrul" boyunda da görə bilirik. Əzrayıl ilə savaşan Dəli Domrulun Allahın bağışlaması üçün canının əvəzinə can tapması istəyinə qarşılıq onun



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

atasından və anasından canını istədiyi halda rədd cavabı alması ilə ümidi üzülərək arvadı ilə halallaşmağa gəldiyində onu ölümdən məhz arvadı xilas edir. Bu süjet qumuq folklorunda da özünü göstərmişdir. "Duka Xojanı ulanı Deli Domrulnu xabarı və yırı"nda məhz bu haqda söhbət açılır (2, 67).

XIX əsr dağlıların mübarizəsi nəticəsində yaranmış mahnılara "Buk Məhəmmədin yırı", "Taymazın yırı", "Şamilin yırı" kimi yırları aid etmiş.

"Molla Nesreddin və Axsaq Temirin yırı" Molla Nəsrəddinin Axsaq Temirlə olan görüşünün rəvayəti üzərinə qoşulmuş mahnıdır. Yırda Axtuxanın hakimiyyəti dövründəki qəddarlıqları göstərilir. Xalq bəzən ona qəddar çar deyir, bəzən adil çar deyir. Lakin daha sonra Axsaq Temirin hakimiyyəti başlayır. Temirin özbaşınalığı, ədalətsizliyi, qəddarlığı Axtuxandan da çox olur. Temirin etdiklərindən cana doyan xalq kömək üçün Molla Nəsrəddinin yanına gedir, ondan Temirin zülmünü dayandıracaq bir yol tapmasını rica edir. Molla Nəsrəddin bir öküzə oturub Axsaq Temirin sarayına gedir. Molla Nəsrəddin Temirə deyir ki, Axtuxanın dövründə mən onu soyub atda otur態urdum, sənin dövründə isə cilovlayıb, yüyənləyib öküzdə otururam, sən dəmirsən mən kömürəm, gəl, savaşaq, görək kim qalib gələcək. Daha sonra Molla Nəsrəddin deyir ki, sən adil deyilsən, ancaq sən ədalətsiz də deyilsən, sən Allahın bu xalqa göndərdiyi bir bəlasan:

Axtuxan paçanı zamanında
*Axtuxan paşanın zamanında*
Atım mindim aktalap –
*Atı soyub minirdim*
Aksak Temirni zamanında
*Axsaq Temirin zamanında*
Ogüz mindim noktalap.
*Öküzü noxtalayıb minirəm*
Sen temirsen, men komür,
*Sən dəmirsən, mən kömür*
Tartışayık görürmen!
*Savaşaq görək,*
Adilli de tögülsen,
*Sən adil deyilsən,*
Adilsiz de tügülsen,
*Ədalətsiz də deyilsən.*
Xalkqa Allah salqan bir balaqsan!

*Sən bu xalqa zülm etmək üçün Allahın göndərdiyi bəlasan* (2,157). Bundan sonra Temir xalqa zülm etməkdən əl çəkir. Yırın məzmunundan da göründüyü kimi, tamamilə ibrətamiz bir hekayədən ibarətdir. Bu, zülmün, ədalətsizliyin ömrünün çox da uzun olmadığı, hər zülmün bir sonu olduğu anladılan bir yırdır. Əsasən ənənəvi süjet xəttinə malik yırdır. Molla Nəsrəddin mövzusu Azərbaycan folklorunda xarakterik və geniş yayılmış bir mövzudur. İnsanın və cəmiyyətin nöqsanını gülüş



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dililə ifadə edən Molla Nəsrəddin bəzən sərt bir dil ilə də danışmağı bacarmışdır. Onun bu sərtliyi arxasında qarşı tərəfə olduqca ibrətamiz dərs vermək istəyi vardır. Elə buna görədir ki, Molla Nəsrəddinin Teymurlənglə görüşü haqqında Azərbaycan folklorunda da örnəklərə rast gəlirik. Elə "Göyə niyə dırmaşırsan?" lətifəsində də bu haqda danışılır:

Molla Nəsrəddinin Teymurlənglə ilk görüşünü belə danışırlar: Teymur Mollanı saraya çağırtdırır. Molla içəri girib görür ki, otaq adamla doludur. Amma hamı dövrə vurub yerdə oturub, təkcə Teymur əyləşib uca bir taxtın üstündə. Tez baş əyib deyir:- Salam əleyküm, ya Allah!Teymur deyir:- Mən Allah deyiləm, ay kişi! Mən... Molla onun sözünü ağzında qoyub deyir: - Qurban olum sənə, ya cənab Cəbrayıl!

Teymur deyir: - A kişi, nə danışırsan? Mən niyə Cəbrayıl oluram?

Molla deyir: - Başa düşmürəm. İndi ki nə Allahsan, nə də mələk, düş, adam kimi otur adamların içində də, daha niyə göyə dırmaşmışsan? (3, 54).

Qumuq folklorunda bir çox yırlar var ki tarixi-coğrafi şəraitlə əlaqədar olaraq yaranır və sadəcə qumuqlara xas motivlərlə əhatələnir. "Buk Muradın yırı" da belə yırlardandır. Yır çar ordusunun dağlılarla Şilaqidə Buk Muradın rəhbərliyi ilə aparılan mübarizəsinə həsr olunub. Buk Murad Şamilin naiblərindəndir. Şilanqlılar Şamilə məktub göndərir və ondan Buk Muradın rəhbərliyi ilə yüz min müridi köməyə göndərməsini rica edir. Şamil bu ricanı yerinə yetirir. Buk Murad Şilaqi kəndinə gələr-gəlməz güclü döyüşə girir. Lakin Buk Murad əsir düşür. Çünki onun döyüş yoldaşı Taqirkadi onu qoyub qaçır. Yırın da mahiyyəti elə burda ortaya çıxır. Çünki yırda öz döyüş yoldaşını qoyub qaçan Taqirkadi pislənir. Həqiqi məğlubiyyətin səbəbi məhz etibar etdiyin insanların səni yarı yolda qoyması ilə olur. Elə buna görə də yırda Taqirkadi ilə Buk Murad qarşılaşdırılır. Taqirkadinin rəzalətli qaçışının və qorxaqlığının əksinə olaraq Buk Murad hətta ən çətin vaxtında belə düşmənlərinin ona uzatdığı əli geri çevirir və qəbul etmir.

Şamil hərəkatı ilə əlaqəli yırlar əsasən dürüstlük, mərdlik, igidlik mahiyyəti məzmunundadır. Əsasən, döyüş səhnələri, qəhrəmanların daxili mərdlikləri və ya pislikləri haqqında danışılır.

"Qolbasdının yırı", "Başlının yırı", "Mehtinin yırı" 1877-ci il üsyanı zamanı xalqın birliyindən, bərabərliyindən danışır. Bu yırlarda da yenə xəyanət pislənir, birlikdən güc doğulacağından danışılır.

Yırların təhlili və Azərbaycan folklorundakı örnəklərlə qarşılıqlı müqayisəsi zamanı qarşılaşdırdığımız mətnlərdən gördüyümüz üzrə, hər iki folklorda motivlər, əsasən eynidir. Bu motivlər öz əksini yırlarda tapsa da, Azərbaycan folklorundakı dastan, nağıl, rəvayət, xalq mahnısı süjetləri ilə olduqca yaxından səsləşir. Bunun da əsas səbəbi, görünür, hər iki xalqın minilliklər boyunca eyni mədəniyyəti paylaşmaqlarından qaynaqlanır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Qaynaqlar**

1. Kitabi-Dədə Qorqud Ensiklopediyası. I cild. Bakı, 2000. 622 s.
2. Kumuklanı yırları. II cild. Tərt. Abdulhakim Acıyev. Mahaçkala, 2001. 461 s.
3. Molla Nəsrəddin lətifələri, tərt. Məmmədhüseyn Təhmasib; red. Həmid Araslı, Bakı, Öndər, 2004. 304 s.
4. Pekaçar Çetin. "Kumuk Türkleri Edebiyatı", Türk Dünyası El Kitabı, Cilt: 4, Ankara, s. 319-340. Ankara 1998
5. Sultanov K. Kumuklanı adabiyatı. Maxaçkala, 1964.
6. Sümer Faruk. Oğuznamə. (Tarixləri, boy təşkilatları, dastanları), Tərcümə: Ramiz Əsgər, "Yazıçı" nəşriyyatı, Bakı, 1992.
7. Şamil Əli, Tanıdığım insanlar, Birinci kitab, "Sumqayıt" nəşriyyatı, Bakı, 2000. 151s.
8. Şamil Əli. Uyğur, qaqauz, Güney Qafqaz türklərinin folkloru və ədəbiyyatı. Bakı, 2011. 411 s.
9. Türk halk edebiyatı terimleri sözlüğü, 2007 Akçağ nəşriyyatı, 822 səh. Redaktor: Dr. Doğan Kaya.
10. Türkiye Dişindaki Türk Edebiyatları Antolojisi 20.Cild, 2009, Ankara Redaktor Çetin Pekaçar

***Rus dilində:***

11. Аджиев А.М. Устное народное творчество кумыков. Махачкала, 2005. 427 стр.
12. Семёнов Ю. Марксистская теория исторического развития http://scepsis.ru/library/id_1079.html#2.4.2
13. http://ekitap.kulturturizm.gov.tr/belge/1-27631/Qumuq-edebiyati-20cilt.html



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Bəxtiyar Şahverdiyev***
***AMEA Folklor İnstitutu, elmi işçi***
***bextiyar.tuncay@yahoo.com***

# BOZ QURDLA BAĞLI MİFLƏRDƏ VERİLƏN BƏZİ MƏLUMATLARIN TARİXİ QAYNAQLARDAKI İZLƏRİNƏ DAİR

**Özət**

Məqalədə Boz qurdla bağlı miflərdəki bəzi məlumatların tarixi mənbələrdəki məlumatlarla üst-üstə düşməsindən söhbət açılmaqdadır.

**Açar sözlər:** Boz qurd, türklər, mifologiya, mixi yazılar, Azərbaycan

**Резюме**

В статье сравниваются данные древних письменных источников с некоторыми данными упомянутыми в легендах о Бозкурте (сером волке) - мифологическом прародителе тюрков.

**Ключевые слова:** Бозкурт, тюрки, мифология, клинописи, Азербайджан

**Summary**

In the article it is explained the identity of some information in myths related to Bozkurt (Grey Wolf) with the information of historical source.

**Keywords:** Bozkurt (Grey Wolf), Turks, mythology, cuneiform, Azerbaijan

* * *

Belə hesab edilir ki, türklər, bir etnos kimi, Altaylarda formalaşmış və oradan da Avrasiyanın geniş düzənliklərinə yayılmışlar. Rəsmi konsepsiyaya görə, türklər Azərbaycana yalnız erkən orta əsrlərdən gəlməyə başlamış, bundan öncə isə bu ərazidə türk olmamışdır. Lakin görkəmli tarixçi alim, mixi yazılar üzrə gözəl mütəxəssis mərhum Y. Yusifovun tədqiqatları göstərir ki, türklər Ön Asiya və Qafqazın ən qədim aborigen xalqıdır və qədim mənbələrdə onların adına e.ə. III – II minilliklərdən rast gəlinməkdədir. Əsası Y. Yusifov tərəfindən qoyulan yeni konsepsiya bir sıra dilçi alimlərimiz tərəfindən də dəstəklənməkdədir. Maraqlıdır ki, boz qurdla bağlı etnoqonik miflərdə də türklərin ilkin ata yurdu kimi Xəzərin qərbinə, başqa sözlə, Azərbaycana işarə edilməkdədir ki, bu da deyilənlərin həqiqət olduğunu sübut edir.

Bu məqalədə məqsəd elmi ictimaiyyəti Boz qurdla bağlı miflərin Azərbaycanla birbaşa bağlılığını sübut edən faktlarla tanış etmək, tərəfimizdən önə sürülən bəzi mülahizələri paylaşmaqdır. Qədim Çin mənbələrində Orxon-Yenisey abidələrini yaratmış türk xalqının mənşəyi barədə türklərin öz dilindən bəzi əfsanələr qeydə alınmışdır və onlardan biri bu xalqın Qərbdən - Xəzər dənizinin qərb sahillərindən gəldiklərini bildirməkdədir (5,72).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Böyük Türk Xaqanlığının əsasını qoyan göytüklərin mənşəyi ilə bağlı qədim Çin mənbələrində iki rəvayət qeydə alınmışdır. Birinci rəvayətdə deyilir ki, hunlarla eyni soydan olan göytürklər hun yurdunun şimalındakı Su (So) ölkəsindən çıxmışlar. Başbuğlarının, yəni sərkərdələrinin adı Kapan Pu idi və onun 16 qardaşı vardı. Bunlardan birinin anası boz qurd idi. Bu gənc yellərə və yağışlara hökm edərdi.

Göytüklərin düşmənləri bir həmlə ilə qardaşları aradan apardılar, bu fəlakətdən yalnız bir gənc qurtuldu. Bu gəncin iki arvadı vardı. Biri yaz tanrısının, digəri qış tanrısının qızı idi. Onun bu arvadlardan iki oğlu oldu və xalq böyük oğlu özünə xaqan seçdi. O, Türk adını aldı. Onun 10 arvadı vardı və bu arvadlardan türk xalqı törədi ( 5, 72; 24, 26-27).

İkinci rəvayətdə isə deyilir ki, türklərin ilk atası Qərb dənizinin, yəni Xəzər dənizinin qərb sahillərində yaşayırdı. Bunun xalqı hunların bir bölümü idi və Asina (aşina) adlanırdı. Bu xalq qonşu xalqlardan biri tərəfindən məhv edilir. Bunlardan yalnız bir oğlan uşağı sağ qalır. Bir dişi qurd həmin uşağı tapıb ona qulluq edir, onu böyüdür və onunla evlənir. Oğlandan hamilə qalan qurd dənizin şərq tərəfinə keçir və orada 10 oğlan uşağı doğur. Bu oğullardan Göytürk (Türküt) xalqı törəyir:

Göytürklər qədim Xsiunq-Nunun (hunların, xəzərlərin) soylarından yaranmışlar və onların bir qoludurlar. Özləri isə A-şin-na ("Tövrat"da və "Albaniya tarixin"də Aşkenaz // Askenaz – sarmatların soy babası) adlı bir ailədən törəmişlər. (Sonradan çoxalaraq) ayrı oymaqlar halında yaşamağa başladılar.

Daha sonra Lin (Alan, Alaniya) adlanan bir məmləkət tərəfindən məğlub edildilər. (Məğlubiyyətdən sonra göytürklər) bu məmləkət tərəfindən bütünlüklə öldürüldülər. (Tamamilə qırılan) göytürklər içində yalnız on yaşlı bir uşaq qalmışdı. (Lin məmləkətinin) əsgərləri uşağın çox kiçik olduğunu görüb (ona yazıqları gəlmiş və) öldürməmişdilər. Uşağın təkcə ayaqlarını kəsmiş, özünü də bir bataqlıq içindəki otların arasına tullayıb getmişdilər.

(Bu zaman) uşağın yanında bir dişi qurd peyda oldu və ona ət verərək bəslədi. Uşaq bu minvalla böyüdükdən sonra da dişi qurdla ər-arvadlıq etməyə başladı. Qurd da bu yolla ondan hamilə qaldı. (Göytürkləri məğlub edən və hamısını qılıncdan keçirən Lin məmləkətinin) kralı bu uşağın hələ də yaşadığını eşitdi və əsgərlərini onu öldürməyə göndərdi. Uşağı öldürməyə gələn əsgərlər qurdla uşağı yan-yana gördülər. Əsgərlər qurdu öldürmək istədilər, amma qurd (onları görən kimi) tez qaçdı və Kao-çanq (Kuşan) məmləkətinin şimalındakı dağa getdi. Bu dağda dərin bir mağara, mağaranın içində isə böyük bir ovalıq var idi. Çevrəsi də bir neçə yüz mildən artıq deyildi. Dörd yanı sıldırım qayalarla əhatə olunmuşdu. Qurd qaçaraq bu mağaranın içinə girdi və orada on uşaq doğdu. Vaxt keçdikcə bu on uşaq böyüdü və bayırdan qızlar gətirərək onlarla evləndilər. Beləliklə, evləndikləri qızlar hamilə qaldılar və bunların hər birindən bir soy törədi. A-şi-na ailəsi də bu on boydan biridir. Onların oğulları və nəvələri çoxaldılar və yavaş-yavaş yüz ailə halına gəldilər. Ju-julara tabe oldular. Altay ətəklərində yerləşdilər. Bundan sonra da Ju-juan dövlətinin dəmirçiləri oldular... (10, 36). Türklərin genezisi ilə bağlı digər rəvayətin məzmunu belədir:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bəziləri belə deyirlər: Bir rəvayətə görə, göytürklərin ilk ataları Xsi-hai, yəni Qərb dənizinin (Xəzərin) sahillərində yaşayırdılar. Onların qadınları, kişiləri (uşaqları ilə birlikdə), böyüklü-kiçikli hamısı birlikdə Lin (Alan, Alaniya) adlı bir məmləkət tərəfindən məhv edilmişlər. (Türklərin hamısını qırdıqları halda) yalnız bir uşağa rəhm etmiş, onu öldürməkdən vaz keçmişlər. Bununla belə, onun da qollarını və qıçlarını kəsərək, özünü Böyük bataqlığın içindəki otların arasına atmışdılar. Bu vaxt dişi bir qurd peyda olmuş və ona hər gün ət və yemək gətirmişdir. Uşaq da bunları yeyərək özünə gəlmiş və ölməmişdi. (Az bir vaxtdan sonra) uşaqla qurd ər-arvad kimi yaşamağa başlamış və qurd uşaqdan hamilə olmuşdu.

(Türklərin əski düşməni olan Lin dövlətinin hökmdarı uşağın sağ qaldığını eşitdikdə) tez adamlarını göndərərək həm uşağı, həm də qurdu öldürməyi əmr etmişdir. Əsgərlər qurdu öldürməyə gəldikləri zaman qurd bundan xəbərdar olmuş və qaçmışdı. Çünki qurdun müqəddəs ruhlarla (əyələrlə) əlaqəsi vardı (və daha öncə onlar vasitəsilə düşmənlərin gəldiklərindən xəbər tutmuşdu). Buradan qaçan qurd Qərb dənizinin şərqindəki bir dağa getmişdi. Bu da Kao-ç-anqın (Kuşanın) şimal-şərqində yerləşirdi. Bu dağın altında isə çox dərin mağara var idi. (Qurd buraya gəlincə) dərhal həmin mağaranın içinə girmişdi. Bu mağaranın arxasında böyük bir ovalıq var idi. Bu ovalıq başdan-başa ot və çaylarla örtülü idi. Ovalığın çevrəsi isə təqribən 200 mildən artıq idi. Qurd burada on oğlan uşağı doğmuşdu. (Göytürk dövlətini quran) A-si-na ailəsi bu uşaqlardan birinin soyundan törəmişdir (10, 38). Qeyd edək ki, məşhur fransız alimi, Çin mənbələri üzrə tanınmış mütəxəssis J. Dögin Çin mənbələrindəki “Xsi-hai” dənizinin (Qərb dənizinin) Xəzər dənizi olduğunu təsdiqləməkdədir (18, 68).

Çin mənbələrində türk xalqının mənşəyi ilə bağlı qeydə alınmış bu iki rəvayətdə üç məqam diqqəti xüsusilə cəlb edir. 1-ci məqam türklərin ulu babalarının Xəzərin qərbində, yəni Azərbaycanda yaşamış olması faktıdır ki, bu faktı eradan əvvəl III-II minilliklərə aid akkad və aşşur mənbələri, eləcə də eradan əvvəl I minilliyə aid Urartu mənbələri təsdiqləyir.

Türklərin adının Azərbaycan sakinləri kimi hələ eradan əvvəlki akkad və aşşur mixi yazılarında "turukku" kimi qeyd edildiyini ilk dəfə təsbit edən tanınmış alim Zelik Yampolski olmuşdur. O, türklərin mənşəyi və ilk ata yurdu barədə o vaxta qədər rus - sovet tarixşünaslığında mövcud olan rəsmi baxışlara qarşı çıxaraq bildirmişdi ki, akkad mənbələri "türk" etnoniminin qeydə alındığı ən qədim yazılı mənbələrdir (18, 62-64). Eradan əvvəl birinci minilliyə aid Urartu mixi yazılarında da eyni xalqın adı, eyni ərazinin sakinləri kimi qeyd edilmişdir. Urartu mənbələrində həmin xalqın adı "turuxi" kimi çəkilir. Firudun Ağasıoğlunun fikrincə, aşşur mənbələrində rast gəlinən "turukku" etnonimi "türk" etnik adının aşşur dilindəki səsləniş və yazılış formasıdır (1, 39)

İlk dəfə Zelik Yampolski tərəfindən söylənilən bu fikrə sonralar Əbülfəz Hüseyni, Cəfər Cəfərov, Məhəmməd Hatəmi Tantəkin, Yusif Yusifov, Qiyasəddin Qeybullayev, Tofiq Hacıyev, Mahmud İsmayıl, Kamil Əliyev, Firudin Ağasıoğlu,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nizami Xudiyev və b. kimi Azərbaycan alimləri də şərik çıxmışlar. Yusif Yusifovun yazdığına görə, "türk" adına erkən orta əsrlərə aid hind qaynaqlarında “turukka", Xotən mətnlərində "ttrruki", Tibet mənbələrində "druq" və "druqu" formasında rast gəlmək mümkündür (3, 78). Turuklar barəsində ilk məlumatlara e.ə. XIV yüzilliyə aid aşşur mənbələrində rast gəlindiyini, daha sonra isə "turux" (və ya turuxi) adı ilə Urartu mənbələrində məlumat verildiyini vurğulayan Mahmud İsmayıl da onların alimlər tərəfindən türklərlə eyniləşdirildiyini söyləməkdədir 6, 7).

Yusif Yusifovun yazdığına görə, eramızdan əvvəl II minilliyin əvvəlində Urmiya gölü hövzəsində yaşayan türklərin aktiv siyasətə qoşulması başlayır. Onlar Zaqroş dağlarını aşaraq İkiçayarasına daxil olurdular. Türklər Aşağı Zab çayının yuxarı axarında yerləşən Raniyə düzənliyinə çıxır və burada yaşayan hürrilərlə ünsiyyətə girirdilər. Ümumiyyətlə, onlar bu ərazi uğrunda mübarizə aparırdılar və bununla da, İkiçayarasının şimalında yaranmış Aşşur dövlətinin sərhədlərində təhlükə yaradırdılar. Aşşur mixi yazılarından belə məlum olur ki, aşşur hökmdarı I Şamşi-Adad türklərə qarşı hərbi yürüş təşkil edir, lakin bu tayfaların müdaxiləsinin qarşısını ala bilmir. Türklər aşşurların nəzarəti altında olan Şuşarra vilayətini ələ keçirirlər. Aşşur hökmdarı I İşme-Daqan baş verənləri çox maraqlı təsvir etmişdir:

"O ki qaldı Şuşarra olkəsinə, siz mənə yazırsınız ki, bu ölkə həyəcan içindədir və biz onu saxlaya bilmirik. Qoy qasid sizə vəziyyəti izah etsin. Turukkulu Lidaya və bu ölkədə onunla birlikdə olan turukkilər rəqabət aparırdılar və iki yaşayış məntəqəsini dağıtmışdılar. Mən oraya əlavə qoşun gətirdim, onlar dağlara çəkildilər. Mən əhalidən soruşdum və bu qərara gəldim ki, bu ölkə nəzarətə alına bilməz" (3, 73, 74). Təbii ki, mixi yazılardakı "turukku", "turuxi", "turuk" adlarını "türk" etnonimi ilə eyniləşdirən alimlərimiz haqlıdırlar. Biz də bu fikirdəyik ki, adlarına ilk dəfə eradan əvvəl III minilliyə aid akkad və aşşur mixi yazılarında "turuku" kimi və eradan əvvəl I minilliyə aid Urartu mənbələrində "truxi" kimi rast gəlinən və haqlarında Azərbaycan və Şərqi Anadolu ərazisinin sakinləri kimi söz açılan bu xalq sonrakı dövrlərdə, VI-VIII əsrlərdə böyük xaqanlıq qurmuş və bu xaqanlığın mərkəzi indiki Monqolustan ərazisi olmuşdur. Boz qurdla bağlı əldə olan etnoqonik miflərin təhlili göytürklərin Mərkəzi Asiyaya, o cümlədən Monqolustan ərazisinə Ön Asiya və Qafqazdan gəldiklərini, türklərin ilkin ata yurdunun Azərbaycan və Şərqi Anadolu ərazisi olduğunu söyləməyə tam əsas verir. Digər mənbələr də eyni fikri təsdiqləyir. Məsələn, Übeyd ibn Şəriyyə əl-Cürhuminin "Xəbərlər" əsərində (VII əsr) yazılır ki, xəlifə I Müaviyə (661 - 680) Azərbaycanın işğalı çağında ordu komandanından Azərbaycan barədə nə bildiyini soruşmuş, o da "Azərbaycan ən qədimdən türklərin ölkəsidir və orada türklər yaşayır" - deyə cavab vermişdir (21, 5; 22, 183). Eyni fikir 1126-cı ildə qələmə alınmış, müəllifi bilinməyən başqa bir tarixi əsərdə də təkrarlanır:

"Azərbaycan ən qədimdən türklərin əlində olan bir ölkədir" 22, 183).

Bələmi özünün məşhur əsərinin “Haris ibn Şəddad” adlı bölümündə Azərbaycandan türklər ölkəsi kimi bəhs etmişdir: “O (ərəb sərkərdəsi Haris ibn Şəddad),



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Azərbaycana girdi. O zaman hər şey türklərin əlindəydi, hər şeyi türklərin əlindən aldı, onlara qalib gəldi (20, 403).

Mövzumuz baxımından professor Helmoltun ümumi rəhbərliyi altında 120 alimin kollektiv əməyinin nəticəsi olan "Bəşəriyyətin ümumi tarixi" kitabının "Atropatena" bölümündə yazılanlar da böyük önəm daşımaqdadır: "...Tarixin göstərə bilmədiyi məchul bir zamandan bəri bu yerlərdə başdan-başa türklər yaşamaqdadır (18, 62).

Diqqəti çəkən ikinci önəmli məqam türklərin 10 qardaşdan törəmiş olması faktıdır ki, bu məlumat da Xəzər xaqanı İosifin yazdıqları ilə üst-üstə düşür. Xatırladaq ki, İosifin sözlərinə görə, türklər Həzrət Nuhun nəvəsi, Yafəsin oğlu Toqarmanın (Türkün) 10 oğlundan törəmişlər. Onu da xatırladaq ki, Musa Kağankatlının yazdığına görə, Toqarma Azərbaycanın (Albaniyanın) 4-cü şahı olmuşdur (8, 19).

Üçüncü maraqlı və son dərəcə önəmli məqam türklərin Su adlı bir ölkədən çıxmış olması faktıdır. Mövzumuz baxımından bu fakt o qədər böyük əhəmiyyət daşıyır ki, onun üzərində bir qədər ətraflı durmaq lazımdır.

Su ölkəsi harada yerləşmişdir?

Bu sualın cavabını da mixi kitabələrdə tapırıq. Məsələ burasındadır ki, eradan əvvəlki III-II minilliklərə aid mixi yazılarda Azərbaycan ərazisində yaşamış kuti, lulu, subar, kuman və turuk, yəni türk xalqları ilə yanaşı su xalqından da söz açılmaqda və Su ölkəsinin adı çəkilməkdədir.

Mixi yazıların gözəl bilicisi, mərhum alimimiz Yusif Yusifovun yazdığına görə, qədim qaynaqlarda "Su ölkəsinə mənsub lullu" ifadəsi işlənməkdədir:

"Bəzi hallarda Aratta ölkəsinin adı "Su ölkəsi" mixi işarələri ilə göstərilmişdir. Deməli, Aratta... və Su ölkəsi Urmiya gölü hövzəsində mövcud olmuş geniş bir ərazinin müxtəlif adları olmuşdur. Sular da turukku və lullu tayfa birləşməsinə daxil idilər" (3, 81).

Mixi yazılardan göründüyü kimi, göytürklərin öz əski vətənləri saydıqları, qədim Çin mənbələrində haqqında söz açılan və Xəzər dənizindən qərbdə yerləşdiyi vurğulanan Su ölkəsi Azərbaycan ərazisində mövcud olmuş ən qədim dövlətin - Aratta dövlətinin başqa bir adıdır.

Mövzu ilə bağlı Lev Qumilyov yazır:

"...Əfsanə türklərin mənşəyini yerli So (Su) nəsli və yenə də dişi qurdla bağlayır. So (Su) qəbiləsinin bütün üzvləri öz axmaqlıqları üzündən... məhv olurlar. Yalnız dişi qurdun dörd nəvəsi sağ qalır. Onlardan birincisi qu quşuna çevrilib Güney Altayda Abu və Qyan çayları hövzəsində.., üçüncü və dördüncüsü isə Güney Altaydakı Çus çayında məskunlaşdılar. Bu əfsanəni şərh edən N. A. Aristov əfsanədəki "So" nu Altayın quzeyindəki Biye çayı sahillərində yaşayan kumandinlərin (kumanların) So nəsli ilə tutuşduraraq, birinci nəvəni lebedinlərlə - ku kijilərlə (ku kişiləri, ku adamları) ... eyniləşdirmişdir." (24, 26-27).

Maraqlıdır ki, "Su" (So) adına ilk dəfə mixi yazılarda rast gəlindiyi kimi, "ku" və "kuman" etnonimlərinə və "Altay" toponiminə də (Urartu mənbələrində Arattanın adı



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Alateye kimi çəkilir) ilk dəfə eyni mənbələrdə rastlanmış və onların hamısından Azərbaycan və Ön Asiya (Şərqi Anadolu) etnonim və toponimləri kimi söz açılmışdır (3, 80). Qədim mixi yazılarda (e.ə. XIII-XII) "ku" və "kumen" (kuman) etnonimlərinin də adı çəkilməkdədir (3, 83). "Ku" etnonimi ilə bağlı hesab edilir ki, bu, türk (prototürk) tayfalarından birinin adı olmuş və bu ad qədim türklər arasında geniş yayılmış qu quşu (qaz) totemi ilə əlaqədardır (24, 26-27). İ. Dron qeyd edir ki, qu quşu (qaz) kultu qədim zamanlarda türk və monqol xalqları arasında geniş yayılıbmış. O bildirir ki, qədim türk əfsanələrində hun xaqanının qardaşı oğlu qu quşuna çevrilmiş və yeni bir türk soyunun əsasını qoymuşdur. Həmin türk qəbiləsi "ku" adlanmışdır. Məsələn, Tuva türklərinin toci qoluna bağlı qəbilələrdən biri kezek-kuular (qu quşları) özünü bu soydan hesab edir. Tədqiqatçının yazdığına görə, Sayan-Altay ərazisində yaşayan bir çox türk xalqlarında – tuvalılarda, xakaslarda, teleutlarda, kumandlilərdə qu quşu (qaz) haqqında totemik-mifik təsəvvürlər bu günə qədər yaşamaqdadır.

Türkoloqların bir qismi kuman etnoniminin də adının "qu" (ku) totemindən yarandığını irəli sürməkdədirlər. Məsələn, V. Q. Rodionov qədim çuvaş mənbələrinə əsaslanaraq "ku" və "kuman" etnonimlərini eyniləşdirir. İ. Dorn və O. Süleymenov da eyni fikri dəstəkləmişlər (17, 94-96).

Kumanların adı qədim mənbələrdə (mixi yazılarda) ilk dəfə e.ə. XIII-XII əsrlərdə "kumen" kimi çəkilməkdədir. Y.Yusifov da yuxarıda adı çəkilən müəlliflərlə eyni mövqedən çıxış edərək yazır:

"Bu etnonim də türk dillərində etnik ad düzəldən "-man" (-men) şəkilçi birləşmələrindən əmələ gəlmişdir. Kuman sonrakı türk adı olmaqla "sarımtıl, ağımtıl" mənasını daşıyırdı" (3, 83).

Sözügedən etnonimlə I Tiqlapalsarın (e.ə. 1115-1077) kitabəsində də rastlaşırıq:

"(V,73) Kumanların ordusu gerçəkdən Musru ölkəsinin köməyinə çıxdı... (V.82) Bu zaman Musru ölkəsinə köməyə çıxmağı qət etmiş kumanların hamısı savaşın baş tutması və mənə qarşı durmaq üçün özlərinin bütün bölgələrini səfərbər etdilər... (VI.22) ...Kumanların mənim güclü döyüş təzyiqimdən qorxuya düşən şahları ayaqlarımı qucaqladı..." (27, 10). Aşşur şahı II Adadnerari (e.ə.911-890) də öz kitabəsində kumanları yad etmişdir (27, 21).

Qeyd edək ki, bu gün də eyni adı daşıyan türk etnosları vardır. Bu baxımdan Altayda yaşayan kumandiləri və özünü günümüzəcən kumanların davamı hesab edən qaraçay və balkarlıları (19, 232) misal gətirmək olar. Onu da xüsusi qeyd etmək lazımdır ki, bu türk tayfası orta əsrlərdə də Ön Asiya və Şərqi Avropanın siyasi tarixində xüsusi rol oynamış, Avropanın etnolinqvistik coğrafiyasının formalaşmasında son dərəcə böyük xidmətlər göstərmişdir. Bu rol o qədər böyük olmuşdur ki, həmin tayfaların dilini öyrənməyə xüsusi ehtiyac yaranmış və təqribən eyni dövrdə həm xristian Avropada, həm də İslam dünyasında kuman türklərinin dili ilə bağlı lüğətlər tərtib edilmişdir (19, 167-168). Anadolunun Səlcuqlular tərəfindən tutulmasında və bu ərazinin yenidən Türk Yurdu halına gəlməsində kumanların ölçüyəsığmaz xidmətləri olmuşdur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Kumanların orta əsrlərdə də Azərbaycanda yaşadıqlarını Musa Kağankatlının "Alban tarixi"ndən öyrənmiş oluruq. Sözügedən kitabda yazılanlardan öyrənirik ki, Qafqaz Albaniyasında kumanlarla bağlı olan "Qomenk" adlı toponim olmuşdur. Həmin toponimin qomen (kuman) etnonimindən və qədim erməni dilindəki "k" yer, məkan bildirən şəkilçidən yarandığını ("Alban tarixi" kitabı dövrümüzədək erməni dilində çatmışdır) söyləyən Qiyasəddin Qeybullayevin fikrincə, bu yer ya Arsax (Qarabağ), ya da Sünik (Zəngəzur) ərazisində olmuşdur. O, 1727-ci ilə aid bir arxiv sənədinə istinadən göstərir ki, həmin dövrdə, yəni XVIII əsrdə Zəngəzurun Çulundur bölgəsində azərbaycanlılarla məskun olan Koman kəndi mövcud imiş (25, 117). Hazırda eyniadlı kənd Cəlilabad rayonu ərazisində mövcuddur. Tarixi mənbələrdə kumanların iskitlərlə eyniləşdirilməsi, onlardan "koman iskitləri" kimi söz açılması halları da müşahidə edilir. R. Q. Latam koman iskitlərinin etnik mənsubiyyəti barədə yazmışdır: "Koman iskitləri, massagetlər, saklar, peçeneqlər, xəzərlər, hunlar öz mənşələri etibarilə türkdürlər və bunu sübut etməyə ehtiyac yoxdur" (6, 15). Su ölkəsi ilə bağlı türk genealoji (etnoqonik) əfsanəsində deyildiyi kimi, türklərin başbuğu Kapan Punun 16 qardaşı var idi. Yəni onlar 17 qardaş idilər. Mixi yazılarda bu məlumatla ağlasığmaz dərəcədə üst-üstə düşən bir məlumat var və həmin məlumata əsasən, Quti sülaləsinin hakimiyyətdə olduğu çağda (e. ə. XXIII əsrdə) akkad qoşununun quzeydə vuruşduğu 17 tayfadan biri də tourki və ya turki şəklində xatırlanan boy olmuşdur (1, 39). Əgər gerçəkdən də mixi yazılardakı "turuk"larla Göytürk Xaqanlığını qurmuş türklər eyni xalqdırsa, bu xalq gerçəkdən də öncə Xəzərin qərbində yaşamışsa və sonralar dənizin şərqinə, oradan da Çin, Monqolustan və Altay istiqamətində hərəkət etmişsə, ola bilməzdi ki, bu köç barədə heç bir şey yazılmamış olsun. Belə bir yazılı mənbə isə həqiqətən də var və həmin mənbə təkcə türk xalqının deyil, eləcə də albanların Xəzərin qərbindən şərqinə, oradan da Çin tərəfə yayıldıqlarını təsdiq edir. Söhbət VI əsr müəllifi İordanın özünün çox məşhur "Qotların mənşəyi və əməlləri haqqında" adlı əsərində yazdıqlarından gedir:

"İskitlər ölkəsi göbələyə oxşayır. Başlanğıcda o, dardır, sonra isə geniş və dairəvidir və hunların, albanların və sereslərin yayıldıqları uzaq ərazilərə qədər uzanır" (29, 92).

Müəllif bir qədər sonra isə deyir:

"İskitlər ölkəsi genişdir və çox uzaqlara qədər uzanaraq şərqdə sereslər ölkəsinə çatır. Sereslər öz tarixlərinin əvvəlində Xəzər dənizi sahilində yaşayırdılar" (29, 92). İordandan öncə haqlarında Strabon, Dionisiy Perieqet, Appollodor və b. müəlliflərin əsərlərində də söz açılan bu xalq barədə mütəxəssislər müxtəlif fərziyyələr irəli sürsələr də, bir fikirdə yekdil olmuşlar ki, İordanın dövründə bu xalq Çin sərhədində yaşayırdı, əsl adları da "ser" və ya "sir" idi. Yəni "seres" formasındakı sonuncu iki hərfin əmələ gətirdiyi "es" qədim yunan dilində isimlərə artırılan adlıq hal şəkilçisidir, sözün kökü isə "ser" və ya "sir"dir (23, 112-113).

Eramızın I əsrində ser (sir) xalqı və onun yerləşdiyi coğrafiya haqqında ən ilk məlumat verənlərdən biri Pomponiy Mela (I əsr) olmuşdur. O, Asiya qitəsindən söz



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

açarkən, bu xalqı iskitlər və hindlilərlə birlikdə, qonşu xalqlar kimi qeyd etmişdir. Eyni əsrdə yaşamış Dionisiy Perieqet isə serləri sak, toxar və frunlarla birlikdə yad etməkdədir.

II əsr müəllifi Klavdi Ptolomey yazır:

"İmay dağının o biri tərəfində yerləşən İskitlər ölkəsininin (Skifiyanın) sərhədlərini qərb tərəfdən dağın bu tərəfində yerləşən İskitlər ölkəsi (Skifiya), şimal tərəfdən həmin dağın şimalında yaşayan Saklar ölkəsi, şərqdən isə serlər ölkəsi (Serika) təşkil edir".

Klavdi Ptolomey Serika, yəni Serlər (sirlər) ölkəsi haqqında bunları bildirir:

"Serikanın böyük ərazisi ilə əsasən iki çay axır. Mənbəyinin birini, artıq qeyd etdiyimiz kimi, Avzakiya dağı yaxınlarında olan Oyxard çayının, digər mənbəyi isə Asmireya dağlarının yaxınlığında, 174 dərəcə - 47 dərəcə 30 dəqiqədə yerləşir..." (28, 7-10).

Digər qolların və çayın da koordinatlarını dəqiq göstərən böyük coğrafiyaşünas alim bu ölkənin şəhərlərinin - Damna, Piada, Asmireya və Froananın da coğrafi koordinatlarını göstərmiş, ölkədə və qonşuluqda yaşayan xalqları da qeyd etmişdir:

“Serika (Türk – sirlər ölkəsi) qərbdən İmay dağının o tayında uzunluq dairəsi üzrə yerləşən İskitiya (Skifiya, İskitlər ölkəsi) ilə, şimaldan Fuludan keçən paralel xətt üzrə uzanan bataqlıq torpaqlarla, şərqdən son ucu 180◦ / 63◦ və 180◦ / 35◦ arasında yerləşən naməlum torpaqlarla, cənubdan isə öncə Qanq çayının o tayında yerləşən Hindistanla, 173◦ / 35◦ xətti ilə, sonra isə eyni xətt üzrə sonu bilinməyən Çinlə əhatələnmişdir.

Serikadan (Türk - sirlər ölkəsindən) keçən dağlar bunlardır: Son ucu 153◦/ 60◦ və 171◦/ 56◦ arasında yerləşən “Annib” adlandırılan dağlar; 167◦ / 47◦30′ və 174◦ / 47◦30′ arasında yerləşən Avzak dağlarının şərq tərəfi; 167 / 47◦30′ və 174◦ / 47◦30′ arasında yerləşən və “Asmirey” adlandırılan dağlar; son ucu 162◦ / 44◦ və 171◦ / 40◦ arasında qalan Kasi dağları; ortası 170◦ / 43◦ - yə düşən Faqur dağı; sonu 165◦ / 36◦ ilə əhatələnən, bəzən “Ser” (Sir) də adlandırılan Emod dağları və 169° / 36° və 176° / 39° arasında qalan Ottorokara dağı.

Serikanın bütün ərazisi boyu əsasən iki çay axır: Bir mənbəyini yeri artıq qeyd edilmiş Avzak dağlarından, digər mənbəyini isə Asmirey dağlarından (174° / 47°30′) alan, 160° / 49°30′ üzrə Kasi dağlarına tərəf istiqamətlənən və bir qolunu da oradan (161° / 44°15′) alan Oyxard və mənbələrini eynilə Kasi (160° / 43◦), Ottorkara (176° / 39°) və Emod (160° / 37°) dağlarından alan Bautis.

Serikanın şəhərlərinin adları bunlardır: Damna - 156° / 51° 40′; Piada -160° / 49°40′; Asmireya - 170° / 48° 20′; Aspakara - 162°30′ / 42°40′; Drosaxa - 167°40′ / 42°30′; Paliana - 162°30′ / 41°-; Abraqana - 163°30′ / 39°30; Foqara -171°20′ / 39°40′; Daksata - 174◦ / 39◦40′; Orosana - 162◦ / 37◦30′; Ottorokara - 165° / 37°15′; Solana - 169° / 37°30′; paytaxt Sera - 169° / 37°30′...

Paytaxt Sera 14 saat 45 dəqiqəyə bərabər olan ən uzun günə sahibdir və Aleksandriyadan (İskəndəriyyədən) 7 saat 50 dəqiqə və ya tam 8 saat şərqdə yerləşir...” (28, 7-10).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İordanın yazdıqlarından isə ser (sir) xalqının öncə Xəzər sahillərində yaşadıqları və sonradan Orta Asiya, Çin və Monqolustan tərəflərə köç etdikləri aydınlaşır (29, 92). Sir və ya ser xalqının kim olduğunu biz Orxon-Yenisey abidələrindən öyrənirik. Belə ki, uzun müddət Göytürk xaqanlarının vəziri olmuş Tonyuquq ucaltdırdığı abidədə özünün mənsub olduğu xalqı "türk sir xalqı" adlandırır. Sözügedən abidənin 3 və 4-cü sətirlərində oxuyuruq:

" Türk sir bodun yerintə bod kalmadı" (Türk sir xalqının yerində boy qalmadı). (11, 117).

Eyni abidənin 11-ci sətrində isə deyilir:

"Türk sir bodun yerintə idi yorımazun"(Türk sir xalqının yerində yiyə yürüməsin) (11, 118).

Tonyuquq abidəsinin 60, 61 və 62-ci sətirlərində də eyni etnonim ilə rastlaşırıq:

"Kapağan kağan türk sir bodun yerintə bod yəmə, bodun yəmə, kisi yəmə idi yok ertəçi erti. İltəris kağan, Tonyukuk kazğantuk üçün Kapağan kağan, türk sir bodun yorıduku... Türk Bilgə kağan türk sir bodunığ igidü olurur" (Kapağan xaqanın türk sir xalqını yürində bir nəfər də, xalq da, adam da sahib olmayacaqdı. İltəris xaqan, müdrik Tonyuquq qazandığı üçün Kapağan xaqanın türk sir xalqı yaşamaqdadır. Türk müdrik xaqanı türk sir xalqını, oğuz xalqını yüksəldərək taxtda oturur) (11, 121). Maraqlıdır ki, sözügedən abidədə Tonyuquq türk sir xalqını ardına alıb Ötügenə, yəni Türk Xaqanlığının mərkəzi olan və bugünkü Monqolustan ərazisində yerləşən əraziyə gətirdiyindən söz açmaqda və keçdiyi yerlər sırasında Dəmir Qapının, yəni Dərbəndin də adını çəkməkdədir:

"Kəlürtüm ög türk bodunığ Ötükən yerkə ben özüm bilgə Tonyukuk" (Doğma türk xalqını Ötügen yerinə mən - müdrik Tonyuquq özüm gətirdim. 17 - ci sətir) (11,118). "Təmir Kapığa təgi irtimiz, anta yanturtımız... Ol küntə təgdi türk bodun Təmir Kapığka" (Dəmir qapıya təki çatdıq, oradan qaytardıq... Həmin gün türk xalqı Dəmir qapıya çatdı. 45 - 46 - cı sətirlər) (11, 120).

Bütün bu deyilənlərə qədim Çin mənbələrində Xəzərin qərbindən gəldikləri bildirilən türklərin Çin qaynaqlarında adı "Kapan Pu" kimi çəkilən ilk xaqanlarının adının "Tonyuquq" abidəsindəki Qapağan xaqanın adı ilə səsləşməsini də əlavə etmək lazımdır.

Türklərin qədim Çin mənbələrində əbədiləşərək dövrümüzə gəlib çatan “Boz qurd” dastanının, daha doğrusu, qurda totem münasibətinin Qafqaz xalqları içərisində geniş yayılması da türk - sirlərin coğrafi areal baxımından Qafqaz mənşəli olmasının əlavə sübutu kimi gözdən keçirilə bilər. Məlumat üçün bildirək ki, bənzər mifik süjetə osetinlərin, xevsurların, çeçenlərin, meqrellərin və b. Qafqaz xalqlarının əsatirlərində də rast gəlinir. Azərbaycanda qeydə alınmış bir mif isə Çin qaynaqlarında qeydə alınmış mifin cüzi fərqlər nəzərə alınmazsa, demək olar ki, tam əsli mahiyyətindədir:

Bir tayfa varımış. Bı tayfanın başçısı sonsuzmuş. Çox qurbannan, nəzir-niyazdan sora bının bir oğlu olur. Uşax dörd-beş yaşına çatır, əmmə yeriyəmmir, heş



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ayax üsdə durammır. Dədəsi başdıyır ağlamağa ki, bə mən ölənnən sora bı şikəs oğlumun axırı nolacax? Elə bı vaxdı düşmannar basqın eliyillər, bı tayfanı qırıp-çatıllar. Bütün kişiləri öldürüp, arvad-uşağı qul eliyillər. Bı uşağı da şikəs olduğuna görə aparmıllar, atıllar bir daşın dibinə ki, qurt-quş yesin. Düşmannar tutduxları əsirləri də götürüp gedənnən sora bir canavar gəlir. Uşağı əmizdirir, sora götürüp aparır öz yuvasına, başlıyır bını saxlayıp bəsləməyə. Neçə illər keçir, uşağın ayaxları açılır. Özü də bir pəhlivan olur. Nərəsi gələndə şir, pələh girməyə deşik axtarır. Oğlanın adı hər yana yayılır. Düşmannar da bının sorağın eşidip gəlillər onu öldürməyə. Ancax bir yannan oğlan, o biri yannan da canavar bınnarın əhədin kəsir, bir nəfərin belə sağ bıraxmayıp hammısın öldürür. Sora gedir tayfasınnan sağ qalannarı da qurtarır, gəlillər öz torpaxlarına, oğlanı başçı seçip başdıyıllar yaşamağa.

O vaxdan bı tayfaya qurtlar tayfası deyillər. Naxçıvanın qurtlar məhləsi də onnardan qalmadı (2, 43-44). Yeri gəlmişkən qeyd edək ki, Mirəli Seyidov Göyçay, Şamaxı, Qarabağ, Naxçıvan, Ordubad, Təbriz, Gəncə və s. şəhərlərdə qurd məhəlləsi, qurd meydanı olduğunu qeyd etmişdir (13, 72).

Məhsəti İsmayıl Rüstəm qızının yazdığına görə, "Qurdlar məhəlləsi" sadəcə yerə verilən ad olmamışdır. Bu adlar məlum tayfaların adından da götürülə bilər:

"1177-ci ildə Misirdə Eyyubilər sülaləsinin hakimiyyətinin əsasını qoymuş Azərbaycan türkü Əli Səlahəddinin tayfa adı qurddur. Sultan Səlahəddinə: "Siz kürdmüsünüz?" sualına o: "Xeyr, biz Azərbaycandanıq, əmim Şirkuh deyərdi ki, Biz əz-zib – yəni qurd tayfasındanıq". Görkəmli alim Əbülfəz Elçibəy ərəb alimi İbn Xəlliqanın «Görkəmli adamların ölüm tarixi» (Vəfayat əl-Ayan) əsərində bu mənbəni axtarmış və alim İbn Xəlliqan belə məlumat vermişdir: "Şirkuh demişdir ki, bizim nesebimiz (soy-kökümüz) Gök Bori (Göy Qurd)-dir!" (7, 136).

Azərbaycandan toplanan və müəyyən qədər uyğurların "Köç" və göytürklərin "Ergenekon" dastanlarıyla səsləşən başqa bir mifoloji mətn isə daha böyük maraq doğurur. "Köç" dastanının qısa məzmunu belədir:

Müqəddəs buyruğa əməl edən xalq böyük bir yurdu tərk edərək köçə hazırlaşdı. Yola düzəldilər. Durub dayanmadan, yorulmaq bilmədən getdilər, getdilər. Hara getdiklərini, harda dayanacaqlarını bilmirdilər. Bu zaman onların qarşısına göy tüklü, göy yallı bir qurd çıxdı və onların qabağına düşdü. Uyğurlar da qurdu tanrının göndərdiyini başa düşüb onun dalınca getdilər. Qurd gətirib onları dümdüz ovalıq bir yerə çıxardı. Uyğurlar burada yerləşib yurd saldılar (4, 37). Azərbaycandan toplanmış mifoloji mətnlərdən birində isə deyilir:

Allahdan vəh gəlir, Nuh peyğəmbər də insanlara deyir, söylüyür ki, bə tufan olacax, dünyanın üzünü su alacax. Heş kim bına inanmır. Nuh peyğəmbər bir gəmi qəyirir, bütün cannılardan bir cüt qoyur gəmiyə. Bunun yeddi oğlu varımış, oğlannarınnan altısı gəmiyə minir, biri minmir, deyir ki, su gələndə çıxaram dağın başına, mənə heş zad olmaz.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çox keçmir ki, dünyanın üzünü su alır. İnsannar boğulup ölür. Nuh peyğəmbər baxır ki, dağa çıxan oğlu da boğulhaboğuldadı. İstiyir ki, gəmini ona sarı sürsün. Allahdan səs gəlir ki, ya Nuh, çıx get, bı oğlan sizlərdən deyil.

Nuh gəmini sürüp gedir. Çox keçmir ki, tufan dayanır, su yatır. Nuh peyğəmbər oğlannarına deyir ki, istədiyiniz heyvandan götürüp düşün quruya, yaşayın, nəslinizi artırın.

Oğlannarından birinin adı Türk idi. Bu Türk qoyunnan qoçu götürüp torpağa düşdü. Gəmi çıxıp getdi. Demiyəsən, türkün düşdüyü torpax cəzirəymiş. Hər tərəfi su olduğuna görə bu cəzirədən çıxmaq olmazımış.

Türk dörd yüz əlli il bu cəzirədə yaşayır. Onun heyvannarı oqqədər çoxalır ki, bütün cəzirəni tutur. Ta cəzirədə ot-ələf, kol-kolavat qalmır, heyvannar hamısını yeyip qurtarır. Elə gün gəlip çıxır ki, heyvannar yeməyə heş nə tapmayıp başlıyıllar qırılmağa. Nuh oğlu Türk görür ki, belə getsə, heyvannar da öləcəh, bının özü də öləcəh. Ha fikirləşir bir nicat yolu tapammır. Qalır məhətdəl, bilmir neynəsin.

Günnərin bir günü Türk görür ki, bir heyvanı parçalayıp yeyiplər. Öz-özünə deyir ki, axı, bu cəzirədə qoyundan başqa heş bir heyvan yoxdur. Bə bını nə yeyip?

Türk çox təəccüblənir. Gecəni yatmayıp güdür. Bir də baxır ki, uzaxda suyun içiynən bir qaraltı gəlir. Bı qaraltı gəlip cəzirəyə çatanda tanıyır ki, bı irəhli qurtdu. Boz qurt cəzirəyə çıxan kimi cumur bir heyvanın üstünə. Bıyızdan da Türk çıxır. Boz qurt Türkü görüp gəldiyi yolunan dala qəyidir. Türk də düşür bının dalına. Xeylah gedillər. Türk baxır ki, qurdun getdiyi yerrərdə su heş topuğa qalxmır. Birəz gedənnən sora quruya çıxıllar. Bınnan da Türk xilas olur. Qəyidip heyvannarı da həmin yolunan gətirir quruya. Sora Türk fikirrəşir ki, bə məni bu boz qurt xilas elədi. Gərəh mən də boz qurdun şəklini çəkəm öz bayrağıma.

Belə də eliyir. Soralar türkün nəsli çoxalanda hammısına deyir ki, qurd bizim xilaskarımızdı, əgər o, yol göstərməsəydi, nə mən olardım, nə də siz olardız. Ona görə də gərəh həmmişə boz qurda inanasınız. Boz qurdun şəklini bayrağınıza çəkip həmişə bı bayrağın dalınca gedəsiniz. Çətinliyə düşsəz, boz qurdu çağırasınız. Türkün övladları bu nəsihətə həmişə əməl eliyillər (2, 42-43).

Təqdim olunan mifin uyğurlardan qeydə alınmış mifik süjetlə üst-üstə düşməsi bu türk xalqının da etnogenezinin ilkin mərhələlərində Azərbaycanla bağlı ola biləcəyini düşünməyə ciddi əsas verir. Əldə olan təkzibedilməz tarixi və linqvistik faktlar isə bu düşüncəyə tam haqq qazandırır.

Fərhad Zeynalovun yazdıqlarından belə anlaşılır ki, uyğurlar haqqında ilk məlumatlarda onlar "oqur", "saraoqur", "kotriqur", "onoqur" və b. adlarla qeyd edilmişlər 19, 268). İrəlidə görəcəyimiz kimi, onları bu adlarla məhz erkən orta əsrlər Avropa tarixçiləri Qafqaz və Şərqi Avropada yaşayan hunların tərkibində yad etmişlər. Qədim Çin mənbələrində hunlardan son dərəcə çox danışılsa da, bir çox türk soy və boylarının, o cümlədən se (sak) və yuecilərin (kuşanlıların) adları yad edilsə də, uyğurlar haqqında bircə kəlmə belə danışılmır. Yalnız sonrakı mənbələrdə onlardan "vey-ho", "hun-ho" və vey-vu-rh" adı ilə bəhs edilir. Bu isə o deməkdir ki,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

uyğurlar Qərbdən Şərqə saklardan və digər türk xalqlarından daha gec köç etmişlər (11, 390).

Uyğur türkləri hazırda əsasən Çinin Sintzyan-Uyğur Muxtar Vilayətində, qismən də Qazaxıstan və Özbəkistanda yaşayırlar. Rəsmi statistikaya görə, sayları 15 milyon civarındadır. Qeyri-rəsmi məlumatlara əsasən isə, sayları 30 milyonla 100 milyon arasında göstərilir. Uyğurlaın tarixdə qurduqları ilk dövlətin VIII əsrdə qurulan Onuyğur-Doqquzoğuz xaqanlığı olduğu hesab edilir. Bu dövlətin ərazisi Monqolustan, Sibir və İndiki Uyğurustan ərazilərini əhatə etmişdir. Dövlətin qurulmasında doqquzoğuzlarla onuyğurlar fəal rol oynamışlar (19, 268-269). On uyğur soyunun birləşməsi ilə ortaya çıxan onuyğurların adına Orxon-Yenisey abidələrində sıx-sıx rast gəlinməkdədir:

"Su...orada qalmış xalq onuyğur, doqquzoğuz xalqlarının üzərində yüz il oturub... Orxon çayı..." ( Moyunçur abidəsi, 3-cü sətir) (11, 149).

Onuyğurların adının əks olunduğu Moyunçur abidəsi bəzən "Selenqa daşı" da adlanır. Monqolustan ərazisindən, Selenqa çayı sahilləri yaxınlığından tapılmış bu abidə 744-759-cu illər arasında qoyulmuşdur (11, 134-135).

Onuyğurların adına daha əvvəlki dövrlərə aid Qərb mənbələrində də rast gəlinməkdədir. Bu isə uyğurların, eləcə də onuyğurların Şərqə köçməmişdən öncə Qafqazda, o cümlədən Azərbaycan ərazisində yaşamış olduqlarından xəbər verməkdədir. İstər qədim erməni abidələrində, istər Musa Kağankatlının "Albaniya tarixi"ndə, istərsə də bir çox başqa mənbədə onların adı Albaniyada baş verən hadisələrlə əlaqədar çəkilir. Bu mənbələrdə onların adı "honoğur", "onoqur" kimi qeyd edilmişdir (9, 139; 26, 41-68). Yeri gəlmişkən qeyd edək ki, Xəzər xaqanı İosifin məktubunda uyğurlar Azərbaycanın 4-cü şahı Toqarmanın 10 oğlundan biri olan Uyğurun soyu kimi təqdim edilməkdədir (1, 29). Bir sözlə, tarixi mənbələr uyğurların Monqolustan, Sibir və Şərqi Türküstana (Uyğurustana) köçməmişdən öncə Qafqaz və Şərqi Avropada, o cümlədən Azərbaycanda yaşadıqlarını birmənalı şəkildə təsdiq edir.

**3. İşin elmi nəticəsi:** Boz qurdla bağlı miflərdəki bəzi məlumatların yazılı mənbələrlə tutuşdurulması bizə ölkəmizin ərazisinin əzəldən ən qədim Türk Yurdu olduğunu, prototürklərin bu ərazidə zəngin maddi və mənəvi mədəniyyət nümunələri yaratdığını söyləməyə əsas verir. Bu, gəldiyimiz əsas nəticədir.

İşin elmi yeniliyi Azərbaycan türklərinin mənəvi mədəniyyətinin ən azı e.ə. II minillikdən etibarən Avrasiyanın geniş ərazilərinə yayıldığının təsbit edilməsindədir. Fikrimizcə, məsələyə məhz bu kontekstdən yanaşma gələcəkdə folklorşünaslıq elmində tamamilə yeni bir istiqamətin doğmasına gətirib çıxara bilər.

Əldə etdiyimiz nəticə Azərbaycan və ümumilikdə türk mənəvi mədəniyyətinin, o cümlədən zəngin mifoloji irsinin öyrənilməsi istiqamətində yeni mərhələ açmaqla yanaşı, folklorumuzun ən qədim tarixi qatları barədə fikir söyləməyə də əsas yaradır. İşin tətbiqi əhəmiyyəti də məhz elə bundadır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Qaynaqlar**

1. Ağasıoğlu F. Azər xalqı, B., 2005.
2. Azərbaycan mifoloji mətnləri. Elm, B., 1988. 196 s.
3. Azərbaycan tarixi, B.,"Azərnəşr", 1994.
4. Bozqurd. Azadlıq nəş., B., 1992.
5. Heyət C. Türklərin tarix və mədəniyyətinə bir baxış. B.,1993.
6. İsmayıl M. Azərbaycan xalqının yaranması. "Azərbaycan Dövlət Nəşriyyatı", B.,1955.
7. İsmayıl M.R. Naxçıvan əfsanələri, B., Elm, 2008, 208 s.
8. Kalankaytuklu M. Alban tarixi."Elm", B., 1993.
9. Əliyarov S. "Kitabi-Dədə Qorqud" əlyazmaları üzərində çalışmalar. Azərbaycan filologiyası məsələləri. II c. B., 1991.
10. Ögəl B. Türk mifologiyası. l c. B.,"MBM", 2006.
11. Rəcəbov Ə., Məmmədov Y. Orxon-Yenisey abidələri, "Yazıçı", B., 1993.
12. Seyidov M. Azərbaycan mifik təsəvvürünün qaynaqları. B., Yazıçı, 1983. 326 s.
13. Seyidov M. Azərbaycan xalqının soy kökünü düşünərkən. B., Yazıçı, 1989. 496 s.
14. Seyidov M. Qızıl döyüşçünün taleyi. B., Gənclik, 1984. 108 s.
15. Seyidov M. Yaz bayramı, B., Gənclik, 1996. 96 s.
16. Seyidov M. Qam Şaman və onun qaynaqlarına ümumi baxış. B., Gənclik, 1994. 232 s.
17. Süleymenov O. Az-Ya. "Azənəşr", B.,1993.
18. Tahirzadə Ə. Kəsrəviçiliyin kökü, özəyi, ardıcılları, dirçəldilməsi. II. Azərbaycan filologiyası məsələləri. III. "Elm", B., 1991.
19. Zeynalov F. Türkologiyanın əsasları. "Maarif", B.,1981.
20. Toğan Z. V. Oğuz destanı. Reşideddin Oğuznamesi, tercüme ve tahlili, İstanbul 1972.
21. Буниятов З. М. Обзор источников по истории Азербайджана. Б., 1964.
22. Буниятов З. М. Азербайджан в Vll-lX в. Б., 1955.
23. Гасанов З. Царские Скифы. "Liberty Publishing House", New York, 2000.
24. Гумилев Л. Древние Тюрки. "АСТ", Москва,2002.
25. Гейбуллаев Г. К этногенезу Азербайджанского народа. Б., 1991.
26. Джафаров Ю.Р. Гунны и Азербайджан. Б., Елм, 1985
27. Дьяконов И.М. Ассиро-вавилонские источник по истории Урарту. ВДИ, 1951, № 2.
28. Пьянков И. В. Восточный Тюркистан в свете античных источников. Восточный Тюркистан и Средняя Азия в системе культур древнего и средневекового Востока. Москва, изд. Наука.1986.
29. The Gothic Histoy of Jordanes in Englsh version with introduction and commentary by Charles Mierow. New York, 1960, p. V.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Чичек Эфендиева, к.ф.н., доцент**
**Институт Фольклора НАНА**
**cicek71@mail.ru**

## ВЕСЕННИЕ МАСЛЕНИЧНЫЕ РИТУАЛЬНЫЕ ИГРЫ И ОБРЯДЫ В ИСТОРИЧЕСКОМ СРЕЗЕ

**Özət**

Bu məqalədə Maslenitsa - rus bahar bayramı tədqiq olunur. Bu qədim slavyan bayramıdır, qışın şənliklərlə yola salınması və baharın qarşılanmasıdır. Məqalədə rus Maslenitsa ənənəsi, Maslenitsaya aid mərasim mahnı və oyunları, onların təhlili nəzərdən keçirilir. Bu bayramda şifahi xalq ədəbiyyatı - mərasim mahnıları, atalar sözləri, zərbi-məsəllər mühüm rol oynayır: Bayram yeddi gün ərzində qeyd edilir, hər gün rəmzi məna daşıyır. Qış mövsümünün keçməsinin və baharın gəlişinin rəmzi olan uyuğun yandırılması bayramın kulminasiya nöqtəsidir.

**Açar sözlər**: bahar, Maslenitsa, slavyanlar, adət-ənənə, mərasim

**Резюме**

В данной работе рассматривается весенний русский праздник-Масленица. Это древний славянский праздник, веселые проводы зимы и встреча весны. В работе рассмотрены традиции русской Масленицы, Масленичные обрядовые песни и ритуальные игры, их анализ. Огромное значение в этом празднике играет устное народное творчество: обрядовые песни, пословицы, поговорки. Праздник отмечается в течение семи дней, каждый день которого имеет символическое значение. Кульминацией Масленицы остается сжигание чучела Зимы — символ ухода зимы и наступления весны.

**Ключевые слова**: весна, Масленица, славяне, ритуал, традиция, обряд

**Summary**

In the article the spring Russian holiday – Maslenicha is studied. This is the ancient Slavonic holiday, the happy send off of winter. In the given work the traditions of Russian Maslenicha, the traditional songs, ritual games and their analysis are investigated. In this holiday the main importance takes part the oral folk activity: the traditional songs, proverbs, tongue twisters. The holiday is celebrated during seven days, each has own the symbolical meaning. The culmination of Maslenicha stays burning of the scarecrow of winter - the symbol of leaving of winter and coming of spring.

**Key words**: spring, Maslenicha, slavyans, ritual, tradition, ceremony

* * *

Масленица - древний славянский праздник, доставшийся русскому народу в наследство от языческой культуры. Масленица, сырная неделя,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

масляная неделя (до реформы орфографии также часто масляница) — праздничный цикл, сохранившийся на Руси с языческих (дохристианских) времён. «До крещения Руси (введения христианства) Масленица (Комоедицы) отмечалась в течение семи дней, предшествующих дню весеннего равноденствия, и семь дней после этого дня. Христианская Церковь оставила главное празднование Весны, дабы не вступать в противоречия с традициями русского народа (аналогично было приурочено Рождество ко дню зимнего солнцестояния), но сдвинула любимый народом праздник проводов зимы по времени, чтобы он не противоречил Великому Посту, и сократила срок праздника до семи дней. Поэтому после крещения Руси Масленица празднуется в последнюю неделю перед Великим постом, за семь недель до Пасхи, на восьмой предпасхальной неделе. С введением христианства изменился и обряд празднования. Масленица получила свое название от церковного календаря, потому что в этот период времени – последнюю неделю перед Великим Постом, разрешается вкушение сливочного масла, молочных продуктов и рыбы, по-другому эта неделя в Православной Церкви именуется сырной, сырницей. В Православной церкви считается, что смысл Сырной седмицы – примирение с ближними, прощение обид, подготовка к Великому посту – время, которое нужно посвятить доброму общению с ближними, родными, друзьями, благотворению. В храмах начинают совершать великопостные службы. В среду и пятницу не совершается Божественная литургия, читается великопостная молитва святого Ефрема Сирина. Вселенская Родительская суббота (9 марта) и Неделя о Страшном суде (10 марта) — повествование о начале и конце человечества. Последний день масленицы — Прощеное воскресенье. В церкви в этот день вспоминают изгнание Адама из рая, а в народе прощаются с зимой и еще одним прожитым годом» (4, 256; 1, 89).

Люди испокон веков воспринимали весну, как начало новой жизни и почитали Солнце, дающее жизнь и силы всему живому. В честь солнца сначала пекли пресные лепёшки, а когда научились готовить заквасное тесто, стали печь блины. Древние считали блин символом солнца, поскольку он, как и солнце, жёлтый, круглый и горячий, и верили, что вместе с блином они съедают частичку его тепла и могущества. Кстати, у азербайджанцев символом солнца считается гогал или шоргогалы, который обязательно приготовливается во время весеннего праздника Новруз. Приурочить масленицу к определенному времени нельзя, каждый год оно меняется. Почему меняется? А потому что «Масленая неделя связана с главным православным праздником пасхи, который не имеет постоянной даты. Это - передвижной праздник, он зависит не только от стояния Солнца, но и от местонахождения Луны. Пасха празднуется непременно в воскресенье, первое после весеннего равноденствия и полнолуния, поэтому дата Пасхи ежегодно блуждает в пределах 35 дней - от 22 марта до 25 апреля по старому стилю (5 апреля - 8 мая по-новому)» (3, 59). Масленица же начинается за



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

восемь недель до Пасхи, то есть в феврале - марте нового стиля. В эту неделю запрещалось есть мясо, остальную же пищу разрешалось вкушать вволю, так как сразу же за масленичным весельем следовал продолжительный и строгий Великий пост, тянувшийся почти семь недель. «Не все коту масленица, придет и Великий пост» - предупреждает пословица, первую часть которой взял Островский для названия одной из своих комедий. Широкой, то есть самой разгульной, масленицей называются последние четыре дня масленичной недели, от четверга до воскресенья.

И.П. Сахаров писал: «Все дни масляной недели имеют свои особенные названия: Встреча - понедельник, заигрыши - вторник, лакомка - среда, разгул, перелом, широкий четверг - четверток, пятница - тещины вечерки, золовкины посиделки - суббота, проводы, прощанья, прощеной день - воскресенье» (10).

Понедельник — встреча. К этому дню достраивались горы, качели, балаганы. Те, кто побогаче, начинали печь блины. Первый блин отдавался нищим на помин усопших. С понедельника начинали печь блины. К молодым, которые впервые встречали Масленицу самостоятельно, с утра пораньше приходила теща, чтобы научить дочерей печь хорошие блины. В этот день свекор со свекровью отправляли невестку на целый день, с самого раннего утра, к отцу с матерью. Кто думает - погостить-отдохнуть, ошибается. Невестка должна была помочь по хозяйству, так как вечером в понедельник свекор со свекровью отправлялись в гости к сватам.

Вторник — заигрыши. С утра молодые люди приглашались кататься с гор, поесть блинов. Звали родных и знакомых: «У нас-де горы готовы, и блины испечёны — просим жаловать». Молодых заставляли целоваться.

Среда — лакомки. В этот день зять приходил «к тёще на блины». Кроме зятя тёща приглашала и других гостей. Раньше накормить полдюжины зятьев было делом разорительным. Но ничего не попишешь: "Хоть себя заложи, а Масленицу проводи!"

Четверг — широкий разгул. С этого дня Масленица разворачивалась во всю ширь. Народ предавался всевозможным потехам: ледяным горам, балаганам, качелям, катаниям на лошадях, карнавалам, кулачным боям, шумным пирушкам. В древности катание имело особый смысл: оно должно было помочь движению солнца. Среди казаков была популярна игра «взятие снежной крепости», которая проводилась на реке. Начинался настоящий разгул: возили чучело на колесе, катались, пели песни, колядовали, особенно, дети (2, 20).

Пятница — тёщины вечерки. Зятья приглашали в гости своих тёщ, угощали их блинами.

Суббота — золовкины посиделки. Молодые невестки приглашали в гости к себе золовок. Новобрачная невестка должна была подарить золовке какой-нибудь подарок. Развлечения и забавы нарастали как снежный ком, и наконец, в субботу российский карнавал достигал своего апогея. И днем, и вечером все


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

театры, цирки, балаганы, московские и загородные рестораны и трактиры были переполнены.

Последний день Масленицы — Прощёное воскресенье. В храмах на вечернем богослужении совершается чин прощения (настоятель просит прощения у других клириков и прихожан). Затем и все верующие, кланяясь друг другу, просят прощения и в ответ на просьбу произносят «Бог простит». «У нас в доме, поздним вечером, все вдруг делались тогда кроткими, смиренно кланялись друг другу, прося друг у друга прощенья», - пишет И.А. Бунин в автобиографическом романе «Жизнь Арсеньева». Торжественно сжигали «чучело Масленицы». Прощание с Масленицей завершалось в первый день Великого поста Чистый понедельник, который считали днем очищения от греха и скоромной пищи. В Чистый понедельник обязательно мылись в бане, а женщины мыли посуду и "парили" молочную утварь, очищая ее от жира и остатков скоромного (7, 74-79).

Празднование Масленицы сопровождалось ритуальными играми. Сожжение чучела зимы. Обычно «чучело», представляющее собой пук соломы в платке, завязанном «по-бабьи», и кофте, православные ставили на дрова, сложенные в виде колодца, внутри которого зажигали огонь. «Иногда в роли "Чучела" выступали живые ряженые люди, которых возили по деревне, а ближе к концу праздника вывозили и сваливали в снег. С чучелом озоровали в течение Масленичной недели, подводя под окна и пугая народ. Однако чаще всего масленицу сжигали» (8, 122). Обряд сжигания чучела воспроизведен в пьесе А. Островского «Снегурочка», музыку к которой писали П. Чайковский и А. Гречанинов, а также в опере на этот сюжет Н. Римского-Корсакова. Иногда чучело — "Сударыню-Масленицу" ставили на сани вдвоем с красивой девушкой, а в сани впрягались трое молодых людей, которые везли «Масленицу». За «Масленицей» шествовали другие сани — сопровождая её. Шествие заканчивалось сожжением «Масленицы» за околицей деревни, в поле. Обычай сжигать «Масленицу» показывает, что она олицетворяла зиму, мрак, холод. В костер бросали не только чучело Зимы, но и разные старые вещи, остатки праздничной еды, что символизировало (по аналогии с комоедицей) — похороны зимы, всего отжившего, старого; вместе с тем — обновление природы, зарождение весны, новых сил плодородия, к костру приносили блины и угощали друг друга; через костер прыгали; вокруг него водили хороводы, при этом пели корильные песни, в которых Масленицу упрекали за то, что наступает Великий пост (9, 53). Другая игра - катание. Катались всю неделю, начиная с четверга, в последний день, в чистый понедельник, в первую неделю поста. Катались с гор на ледянках, на конях по деревне, на озере. Женщины катали детей - для того, "чтобы лен долгий, хороший вырос". Праздничная форма катаний - "наперегонки". Катания ряженых; персонажи ряжения в Масленицу аналогичны святочным, но представлены в сокращенном виде.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Одна из обрядовых игр в Масленицу - " шелыга "("хохлатая шелёга"). Ритуальные бесчинства - таскали по деревне соху, лодку (принесут тем, кто дружит между собой), на крыши домов бороны затаскивали. Интересна игра "в Калашникова". Есть два варианта. Вариант первый - двое садят друг другу в грудь кулаками по очереди, пока кто-нибудь не сдастся. Вариант второй - на землю кладут две палки. Выигравшим считается тот, кто ударом заставит противника потерять равновесие и отступить (или улететь) за палку. Наносить удар в область сердца считается неэтичным. Чистый понедельник. С чистым понедельником связано представление о том, что необходимо как можно дольше спать и позже встать утром, чтобы вырос хороший лен. «В чистый понедельник поедут по деревне с позвонками, веники к дуге на лошадей привяжут. Стол поставят на сани. Лодку везут, в лодке сидят».

Ритуальные игры, в свою очередь, сопровождаются масленичными песнями. Характеризуя масленичные песни, можно отметить, что в них ее, Масленицу, ругают, высмеивают, призывают возвратиться, называют шуточными человеческими именами: Авдотьюшка, Изотьевна, Акулина Саввишна и т. д. В русских масленичных песнях пелось об изобилии, масла и сыру (творогу) якобы заготовлено было так много, что ими умащивали гору для катания на санках: (Ай, как мы масленицу/ дожидали,/ Дожидали, люли, дожидали./ Сыром горушки укладали,/ Укладали, люли, укладали./ Сверхом маслицем поливали) (Красноярский край). Иногда масленичные напевы имели печальный, заунывный характер, даже, если пелись с веселыми словами. Ей давали обидные прозвища: мокрохвостка, кривошейка, блиноеда. Могли исполнять пародийные похоронные причитания. У горящего костра люди на Руси кричали: «Куды дым, туды блин, туды Масленка!», «Прощай, Маслена ерзовая!», «Гори-гори, Масленица, чтобы не погасла» приходу солнечного тепла должны были помочь костры, которые раскладывались на высоком месте, а в середине укреплялось колесо на шесте, когда оно загоралось, то оказалось изображением солнца (5, 41-47). В последний день масленичной недели справлялся обряд проводов зимы, то есть в «прощёное воскресенье» пелось много грустных лирических песен. Молодушки выходили за околицу села, взбирались на горку и, обернувшись в сторону далекой родной деревни, заводили песни о разлуке с родителями, жаловались на суровость свекра и свекрови. В курской песне «У ворот сосна всколыхалься» рассказывается о том, как молодушка, собираясь навестить мать, прихорашивалась, умывалась тремя сортами заморского мыла. Тем временем зима скрылась, снега потаяли, реки разлились, а поехать к матери она так и не успела. Эта песня пронизана грустным мотивом. Мелодия песни принадлежит к группе типовых календарных напевов. В большинстве местностей на масленицу пелись обычные веселые шуточные и лирические песни: старинные же масленичные песни сохранились в Тверской области на Смоленщине на Псковщине, во Владимире (6, 69).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Со временем Масленица утратила мистический смысл и превратилась в массовое народное гуляние, посвященное проводам зимы, с карнавалами ряженых и ездой на тройках с бубенцами. Сколько бы ни отмечались между собой в разных уголках старой России масленичные обычаи и обряды, общий характер и основа праздника были одинаковы - это борьба сил Зимы и Весны.

**Литература**

1. Аникин В.П., Теория фольклора., Курс лекций, М., 1996.
2. Зуева, Т.В., Кирдан Б.П., Русский фольклор: Учебник для высших учебных заведений., М., Флинта:Наука, 2002.
3. Обрядовая поэзия-книга1. Календарный фольклор., сост., вступ.ст., подгот. текстов и коммент. Ю.Г. Круглова, М., 1997.
4. Паникеев И., Масленица., М., 2007.
5. Снегирев И., Русские простонародные праздники и суеверные обряды., вып. 1-4., М., 1838.
6. Соколова В., Весенние-летние календарные обряды русских, украинцев и белорусов., М., 1957.
7. Степанов Н.П., Народные праздники на Святой Руси., М., Российский раритет, 1992.
8. Токарев С. А.,Мифы народов мира. Энциклопедия, М., «Советская энциклопедия», т. 2, 1992.
9. Харлицкий М., Хромов С., Русские праздники, народные обычаи, традиции, обряды: книга для чтения., М., 1996.
10. www.clubocek.ru.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Dilavər Əzimli, t.ü.f.d.,***
***AMEA A. A. Bakıxanov ad. Tarix İnstitutunun***
***"Azərbaycanın orta əsrlər tarixi"***
***şöbəsinin böyük elmi işçisi,***
***d-azimli@rambler.ru***

# "KİTABİ-DƏDƏ QORQUD" DASTANI VƏ TARİXİMİZ

**Резюме**

В статье с исторической точки зрения исследуется эпос «Китаби-Деде Коркуд». Здесь ведется речь об исторических событиях происходящих в Азербайджане в XV столетии. В научной литературе нет единого мнения по поводу времени появления записанного варианта эпоса «Китаби-Деде Коркуд». Ряд исследователей отмечают, что этот эпос впервые появился в письменном виде в XV веке.

В представляемой статье автор пришел к такому заключению, что эпос был вновь переписан во второй половине XV века, в период существования государства Аккоюнлу и в процессе составления письменного варианта в эпос были внесены некоторые дополнения в угоду интересов династии Аккоюнлу.

В статье затрагиваются также дополнения, внесенные в эпос Османской стороной. Автор статьи считает, что дастаны «Китаби-Деде Коркуд» появились в различные исторические периоды и первые письменные варианты этого эпоса появились в XI-XII вв. В последующие столетия появились новые варианты эпоса, которые ввиду дополнений во многом отличались от оригинала.

**Ключевые слова:** Деде Коркуд, Аккоюнлу, Азербайджан, Рашидаддин

**Summary**

In the article the epos "Kitabi Dede Gorgud" is studied from the historical point of view. Here is said about the historical events taking place in Azerbaijan in the XV century. In the scientific literature there is no consensus about the recent recorded version of the epos "Kitabi-Dede Gorgud." Several researchers note that the epic first appeared in writing in the XV century.

In the submitted paper the author came to the conclusion that the epic was rewritten again in the second half of the XV century, during the existence of the state Aggoyunlu and in preparing the written version in the epic had been some additions to suit the interests of the dynasty Aggoyunlu. The paper also addressed amendments to the epic of the Ottoman side. The author believes that the epics "Kitabi Dede Gorgud" appeared in different historical periods and the first written versions of the epic appeared in the XI-XII centuries. In the following centuries, new versions of the epic in which supplements are very different from the original.

**Key words:** Dede Gorgud, Azerbaijan, Aggoyunlu, Rahsidaddin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

* * *

"Kitabi-Dədə Qorqud" dastanı türk dünyasının qiymətli bir xəzinəsi olmaqla, onun qeyrət əsəridir. Bu adla yaddaşımıza həkk olunan qədim oğuz dastanları türk dünyasının yaratdığı milli mədəniyyətin ən zəngin, ən ulu qaynaqlarından biridir.

"Kitabi-Dədə Qorqud" dastanı əsrlərdən gələn bahar çiçəkləri kimi təravətli, həmişə təzə-tər qalan, zaman-zaman onunla tanış olanları heyrətə salan bir mədəniyyət bağçasıdır. Bu qiymətli sənət əsəri Azərbaycan şifahi və yazılı ədəbiyyatının, tarixinin babasıdır. "Kitabi-Dədə Qorqud" dastanı oğuzların əfsanəvi keçmişini poetik dildə bizə çatdırır. Bu dastan özündə epik silsilə əks etdirir və 12 boydan ibarətdir (1, 526). Bu dastan Azərbaycan xalq ədəbiyyatının qədim yazılı abidəsi, onun bədii tarixidir. Boylarda əsasən erkən orta əsrlərdən başlamış XV əsrin sonlarına qədərki minillik tarixi hadisələrin əfsanəvi –mifoloji epizodlarla bəzənən bədii lövhələri əks olunmuşdur (2, 39). "Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının tarixi keçmişini, etnoqrafiyasını, dil və ədəbiyyat tarixini öyrənmək üçün ən dəyərli bir mənbədir (3, 32).

Dastanı tədqiq edənlərin fikrincə, dastanda olan hadisələrin çoxu tarixidir, amma burada ziddiyyətlər də var. Tərcüməçilər bunu əllərinə gəlib çıxan son nüsxənin daim dəyişə-dəyişə bu hala düşməsi ilə əlaqələndirirlər. Məsələ ondadır ki, oğuzlarla bağlı çoxlu sayda epik əfsanələr mövcuddur. Bu əfsanələr müxtəlif şəkildə mənbələrə düşmüşdür. Tərcüməçiləri çaşdıran da budur. Oğuz-türkmən mənbələrinin tədqiqatçısı A.N. Kononov bununla bağlı yazır ki, türkmənlərin əfsanəvi Oğuzdan yaranması ilə bağlı olan türkmən epik əfsanələri demək olar ki, öyrənilməyib. Bu əfsanələr özünəməxsus bir özəlliklə olduqca qədimlərdə- türkmənlər islamı qəbul etməmişdən əvvəl yaranmışdır (4, 22). Dədə Qorqud tarixi şəxsiyyət hesab edirlər. XIII-XIV əsr tarixçisi Rəşidəddinin məşhur "Came-ət-təvarix" adlı əsərinin Türkiyədə saxlanılan nüsxəsində Dədə Qorqudu VII əsrdə, Məhəmməd (s.a.s) peyğəmbərin dövründə yaşamış bir şəxs kimi qələmə alınmışdır. Xalqdan eşitdiyi rəvayət və əfsanələrə istinad edən Rəşidəddin göstərir ki, o, Məhəmməd (s.a.s) peyğəmbərlə şəxsən görüşmüş, ondan dərs almış və dörd oğuz hökumətinin vəziri olaraq 295 il ömür sürmüşdü" (3, 76). Çox təəssüf ki, dastan tarixilik baxımından az tədqiq olunmuşdur. Dastanın nə vaxt yazıya alınması barədə mübahisələr olsa da, tədqiqatçıların əksəriyyəti onun XII-XIV əsrlərdən qabaq yazıya alındığı fikrindədirlər. Dastanın bəzi boylarının IX əsrdən qabaq yazıya alındığını qeyd edənlər də var. Tərcüməçilər dastanları bütövlükdə tarixi yox, bəlkə epik əsər hesab edirlər. Kitaba yazılan müqəddimədə oğuz ittifaqlarının həyat tərzi, əxlaq-etika normaları, şamanizmlə bağlı cəhətləri, islam dininə münasibətləri və dövlət quruluşu haqqında maraqlı fikirlərə rast gəlirik. Dastanlar təhlil olunaraq göstərilir ki, oğuzlar İç və Daş oğuz deyə iki qrupa bölünürlər. Onların arasında ciddi bir fərq yoxdur. Onların hamısının ümumi rəhbəri, başbiləni Bayandır xandır. Lakin əsl qəhrəmanlıq göstərən, hamının sevimlisi isə Salur Qazan xandır. Dastanlar öz igidliyi və qəhrəmanlığı ilə fərqlənən bəylərin şəninə həsr olunmuşdur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Dastanlardakı qəhrəmanlar, xüsusilə Dədə Qorqud həddindən artıq idealizə edilir və nəticədə reallıqdan uzaqlaşır. Tərcüməçilərin fikrincə, fövqəltəbii ünsürlər (oğuz qəhrəmanları, eləcə də Dədə Qorqud haqqında mübaliğələr) türk xalqlarının folklorundan gəlir. Dastanlarda verilən düşmənlərin adları da türk adlarıdır, özləri də ziddiyyətlidir. Belə ki, Şəklü Məlik dörd döyüşdə dörd dəfə öldürülür. Bunlar boyların bir şəxs (ozan) tərəfindən yaradılmadığını göstərir. Maraqlı məqamlardan biri də Dədə Qorqudun tarixi şəxsiyyət olması və hansı dövrdə yaşaması ilə bağlıdır. Bu məsələdə fikirlərin haçalanması dastanların ayrı-ayrı dövrlərdə yarandığının bariz nümunəsidir. Tərcüməçilərin bəziləri belə hesab edirlər ki, Dədə Qorqud oğuzların X-XI əsrlərdə Yenikənddə (paytaxt) hökmranlığı vaxtı dövlət xadimi, diplomat olmuşdur. Kiçik Asiyada isə o, müqəddəsləşdirilmiş, övliya səviyyəsinə qaldırılmış əfsanəvi bir adama çevrilmişdir. Burada belə bir fikir də müdafiə olunur ki, dastanlar çox ehtimal ki, ilk dövrlərdə şeirlə yazılmış, sonralar isə ozan olmayan bir sıra şəxslər tərəfindən yazıya köçürülmüşdür (5, 8-9).

Təbii ki, toxunacağımız problemin həllində bizi Dədə Qorqudun nə vaxt doğulduğu, yaşadığı maraqlandırmır. Bizi maraqlandıran onun doğum tarixinin belə müxtəlif dövrlərlə təqdim olunmasıdır. Bəzi tərcüməçilər tərəfindən onun doğulduğu və yaşadığı dövr X-XI əsrlər göstərilsə də, dastanın özündə Rəşidəddinin göstərdiyi kimi VII əsr göstərilir: "Məhəmməd (s.a.s) peyğəmbərin zamanına yaxın Bayat (24 oğuz tayfasından biri) boyunda Qorqud ata deyilən bir kişi vardı. O kişi oğuzların kamil bilicisi idi: nə deyirdisə, olurdu. Gələcəkdən qəribə xəbərlər söyləyirdi. Allah onun könlünə ilham verirdi... Qorqud ata dedi: "Axırda xanlıq geriyə - Qayıya (24 oğuz tayfasından birinin adı) dönər, heç kim əllərindən almaz...". Qorqud atanın bu dediyi Osman nəslidir (Qiyamət günü qopunca, necə var, elə də ömür sürüb gedəcək)... və daha buna bənzər bir neçə söz söylədi" (5, 129). Bizi də maraqlandıran elə budur. Yuxarıda göstərdiyimiz kimi, "Kitabi-Dədə Qorqud" dastanının yaranma tarixi haqqında fikirlər haçalanır. Bir sıra tədqiqatçılar da qeyd edirlər ki, boylar IX-X əsrlərdə meydana çıxmış, yazıya alınmış, lakin ədəbi cəhətdən XV əsrdə tamamilə yenidən işlənmiş, cilalanmışdır. Tədqiqatçılardan V.M. Jirmunskiyə görə, bu boylardan bəzisi hətta V-VII əsrlərə gedib çıxır (Domrul və b.) (1). 1962-ci ildə H.Araslı tərəfindən "Kitabi-Dədə Qorqud yenidən nəşr olunur. Girişdə H.Araslı həmin dastanların XI-XII əsrlərdə qələmə alındığını, XV-XVI əsrlərdə yenidən üzünün köçürüldüyünü qeyd edir. H.Araslıya görə, bu dastanlar haqqında çoxlu mübahisələr var və hələ bu "mübahisələrə yekun vuran dərin elmi-tədqiqat əsəri yaranmamışdır". Onun fikrincə, dastanların ilk variantı - orijinalda Azərbaycanda yazıya alınmışdır. H.Araslı göstərir ki, Dədə Qorqud adı və bir çox motivlər türk xalqlarının (qazax, qırğız, başqırd, türkmən və b.) şifahı ədəbiyyatında qeyd olunur (5, 7). Bizi də burada daha çox boyların yenidən üzünün nə vaxtlarda köçürüldüyü maraqlandırır. Tədqiqatçıların çoxu bunu XV əsrə, daha doğrusu XV əsrin II yarısına aid edirlər. Bu zaman, XV əsrdə Azərbaycanın siyasi səhnəsində Qaraqoyunlu, Ağqoyunlu dövlətləri, bir də Ərdəbil şeyxliyi var idi. Kiçik Asiyada



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

isə Osmanlı dövləti, onun qonşuluğunda, Qara dəniz sahillərində Trabzon imperatorluğu var idi. Ağqoyunlular qaraqoyunlularla və osmanlılarla pis münasibətdə, Ərdəbil şeyxliyi ilə isə yaxşı münasibətdə idilər. Ağqoyunlularla Trabzon arasındakı əlaqələrə gəlincə, Ağqoyunlu sultanları tez-tez ora səfərlər edir və bol qənimətlə qayıdırdılar. Onlar arasında qız qohumluğu da var idi. Osmanlı dövləti gücləndikdən sonra maraqlar ağqoyunlularla Trabzonu birləşdirdi və müttəfiq oldular. Daha doğrusu, Trabzon sanki ağqoyunluların vassalına çevridi.

İndi isə keçək bu xəritəni çəkməkdə əsl məqsədimizə... Apardığımız tədqiqatlar bizə imkan verir deyək ki, "Kitabi-Dədə Qorqud" dastanları məhz XV əsrdə, ağqoyunlular və osmanlılar tərəfindən yenidən işlənmiş və cilalanmışdır. Dastanlara ağqoyunlulara dair yeniliklər əlavə olunmuşdur. Yuxarıda kitabın girişindən əbəs yerə sitat gətirmədik. Bəlli olur ki, Dədə Qorqud bir şəxsiyyət kimi Məhəmməd (s.a.s) peyğəmbərin zamanında yaşamışdır. O, öncəgörəndir, övliyadır, müqəddəs bir şəxsdir. Hər bir şeyi qabaqcadan görür. Baxın, kitabın giriş hissəsində VII əsrdə yaşayan Dədə Qorqud XV əsrə dair hadisələrdən xəbər verir. Bildirir ki, axırda xanlıq geriyə - Qayıya dönər, heç kim əllərindən hakimiyyəti ala bilməz. Göründüyü kimi, Qorqud ata Osmanlı nəslinə işarə edir.

Bəllidir ki, ağqoyunlular da, osmanlılar da 24 oğuz tayfalarından yaranmışlar. Hər biri də özünün Oğuzun şəcərəsindən gəldiyini qeyd edir. Lakin ağqoyunlular bayandurilər, osmanlılar isə Qayı tayfasına məxsusdurlar. Bəllidir ki, ağqoyunlular ilkin dönəmlərdə osmanlılardan güclü olmaqla, daha böyük ərazidə məskunlaşmışdılar. İstər ağqoyunlular, istərsə də osmanlılar bütün türk elinə rəhbərlikdə iddialı idilər. Bu məsələdə ağqoyunlularla ziddiyyətləri olan qaraqoyunlular (baharlı tayfası) osmanlılar ilə müttəfiq idilər. Göründüyü kimi, məsələ aydınlaşır. Yəni, XV əsrdə əlavə olunan bu deyim Dədə Qorqudun adından verilir və osmanlılara işarə olunur. Ağqoyunlular hesab edirdilər ki, xanlıq yalnız bayandurilərə məxsusdur. Osmanlılar da hesab edirdilər ki, xanlıq Qayı tayfasına məxsusdur. Bu mənada dastanın yazılmasına dair V.V. Bartoldun fikirləri maraqlıdır. O, yazır: "Boyların tədqiqi göstərir ki, dastan Osmanlı hakimiyyətinin qəti şəkildə Kiçik Asiyada möhkəmlənməsindən qabaq yazıla bilməzdi. Onun fikrincə, dastanda Osmanın adının verilməsi buna sübutdur. Daha doğrusu, dastan Sultan II Murad (1421-1451) üçün tarixçi Əli Yazıçıoğlu tərəfindən yazıya alınıb" (1, 527). Bu mənada V.A.Qordlevskinin də fikirləri maraqlıdır. O, qeyd edir ki, "Əli Yazıçıoğlu tərəfindən dastanın yazılması Osmanlı hakimiyyətinin daimiliyi barədə ideoloji baza yaratmaqdan başqa bir şey deyildir. Ona görə də dastanda sapın ucu Osmanlı sultanlarından başlayaraq səlcuqlardan keçməklə oğuzların əcdadı sayılan Oğuz xana qədər aparılır" (7, 10). Bu məsələni Əli Yazıçıoğlunun ardınca XVI-XVII əsr Osmanlı tarixçiləri də qeyd edirlər. Məsələn, Ədirnədən (Adrianopol) olan Osmanlı tarixçisi Ruhi XVI əsrin əvvəlində yazırdı: "Qorqud ata söyləmişdir ki, Oğuz xanın vəsiyyətinə görə, xanlıq sonuncu Qayı xanın varislərinə keçəcəkdir və bu, dünyanın sonuna qədər belə olacaqdır" (1, 527; 8, 42). Bunu Münəccimbaşı da özünün



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

"Tarix" (1676-cı il) əsərində təkrarlayır: "Qədim zamanlarda türkmən tayfalarının içərisində müqəddəs bir mömin var idi. Onun adı Qorqud ata idi. Bir gün o, belə buyurdu ki, Oğuz xanın vəsiyyətinə görə, səltənət sonda Qayı xanın nəvə-nəticələrinə keçəcəkdir. Bu, sona qədər belə davam edəcəkdir" (8, 43-44.). Bütün bunları araşdıran V.V. Bartold belə bir fikir ortaya atır ki, bəs görəsən, bu sözləri tarixçi Əli Yazıçıoğlu Dədə Qorqudun dilindən götürüb, yoxsa əksinə, özü artırıb? Göründüyü kimi, Dədə Qorquda istinadən verilən bu öncəgörmənin tarixi ənənəsi şübhə altına düşür. Orta əsrlərin məşhur tarixçisi Rəşidəddinin (XIV əsrin əvvəli) və Əbülqazi xan Xivəlinin (1660-cı il) məlumatlarına görə, "Dədə Qorqudun əfsanəvi zamanlarında, yəni IX-X əsrlərdə Oğuz xanları Qayı tayfasından seçilirdilər. Rəşidəddin məlumat verir ki, Dədə Qorqud Bayat tayfasındandır. O, ağsaqqaldır, müdrik tayfa başçısıdır, gələcəkdən xəbər verən ozan və öncəgörən idi" (1, 527-544). Bu məsələ "Kitabi-Dədə Qorqud"da daha geniş əksini tapır. Orada Dədə Qorqudun Bayat boyundan olduğu verilir. Bu iki mənbədəki məlumatların üst-üstə düşməsini qədim ənənələr təsdiqləyir. Bunlardan fərqli olaraq Əbülqazinin göstərdiyi "Dədə Qorqudun əsli Qayı tayfasındandır" (9, 56-57) sözləri görünür ki, yenidir, daha doğrusu, dastana əlavə edilib. Bu da çox güman ki, Qayı tayfasının adının xüsusi olaraq qeyd olunması və xanlığın yalnız onlara məxsus olduğunu əsaslandırmaqdan irəli gəlir. Əbülqazinin məlumatına görə, Qayı Oğuz xaqanın böyük nəvəsidir. Oğuz xanları və onların nəvələri də Dədə Qorqud zamanında xüsusi seçilirdilər (9, 50).

Diqqətlə fikir versəniz, dastana olunan bu əlavə Osmanlı hakimiyyəti dövründə əlavə olunub və Osmanlı iqtidarının maraqlarına xidmət edirdi. Maraqlıdır ki, Səlcuqlarım imperiyası zamanında Dədə Qorqudun bu cür peyğəmbərliyi barədə yazmağa əsas yox idi. Bu mənada V.V. Bartoldun fikirləri yerinə düşür. O, hesab edir ki, bu məsələnin ortaya çıxması, xüsusilə də, XV əsrdən tez olmayaraq osmanlılar arasında yayılması Ağqoyunlu sülaləsi (Bayandurilər sülaləsi) ilə osmanlılar (Qayı tayfası) arasındakı rəqabətlə bağlıdır (1, 528). Belə olan halda, doğrudan da, Dədə Qorqudun dastandakı öncəgörməsi (xanlığın Qayı tayfasına məxsus olması barədə - D.Ə.) şübhə altına düşür. Buradan belə çıxır ki, bu artırma ya Əli Yazıçıoğlunun vətənpərvərlik ehtimallarıdır, ya da həmin dövrdə dastanı tərtib edənlərin ona əlavəsidir (1, 528). Tədqiqatçılardan K.İnostrançev qeyd edir ki, XV əsrin II yarısında Osmanlı yüksək dairələri (feodalları) arasında oğuzların həyatına dair epik rəvayətlər çox məşhur idi. Bunu həmin dövrdə Sultan II Bəyazidin oğluna Qorqud, qardaşı oğluna Oğuzxan adlarının verilməsi də sübut edir. Hər iki şahzadənin doğum illəri XV əsrin 60-70-ci illərini əhatə edir. V.A. Qord-levski də göstərir ki, XV əsrdə Osmanlı sultanları özlərini səlcuqların qanuni varisləri sayırdılar. Bununla da hesab edirdilər ki, özlərinin əcdadları olan oğuzların tayfa ənənələrinin birmənalı şəkildə qoruyucularıdırlar. Belə olan halda hesab etmək olar ki, məhz bu şəraitdə şifahi şəkildə olan oğuz epik rəvayətləri yazıya alınaraq "Dədə Qorqud kitabı" adı altında birləşdirilib. Elə bu ərəfədə də Əli Yazıçıoğlunun



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

vətənpərvərliyi ona bəzi əlavələr etməyə imkan vermişdir (1, 528; 7, 52-53). Dastanların tədqiqi sübut edir ki, oğuzlar haqqında olan rəvayətlərin tarixi daha qədimdir. Amma XV əsrdə onlar yenidən işlənərək "Dədə Qorqud kitabı" halına salınmışdır. Tədqiqatçılara görə, bu proses XV əsrin II yarısında daha aktual olmuşdur. Məsələn, V.V. Bartold yazır ki, Ağqoyunlular dövləti parçalandıqdan sonra türkmən eposlarının saxlanma ənənəsi XV əsrin II yarısında daha da yaxşılaşdı (10, 476). Apardığımız tədqiqatlar sübut edir ki, bu dastanlar XV əsrdən qabaq yazıya alınmışdır. Lakin türk dünyasında birincilik uğrunda mübarizə aparan Ağqoyunlu və osmanlılar zamanında dastanlar yenidən yazıya alınanda onların maraqlarına uyğun olaraq ona əlavələr olunmuşdur. Dastanlara olan əlavələr içərisində Ağqoyunlu-Trabzon əlaqələri xüsusi yer tutur. Onlar arasındakı qarşılıqlı münasibətlər tarixi mənbələrdə geniş əksini tapıb. Lakin kitabda bir neçə boyda bu əlaqələrə işarələr vardır. Beləliklə, kitabın bir neçə boyunda Ağqoyunlu tayfa izlərinə rast gəlmək mümkündür. Daha doğrusu, əlavələr özünü açıq şəkildə göstərir ki, ağqoyunlular tərəfindən edilib. Belə əlavələrdən biri "Dirsə xan oğlu Buğac xan boyu"na edilən əlavədir. Boyun əvvəlində göstərilir ki, "Bir gün Qam Ğan oğlu Bayındır xan yerindən durmuşdu. Şamı günlüyünü yer üzündə qurdurmuşdu. Hündür alaçığı göy üzünə dirənmişdi. Min yerdə ipək xalça döşənmişdi... Xanlar xanı Bayındır xan ildə bir dəfə şadlıq edib, oğuz bəylərini qonaq edərdi. Yenə şadlıq məclisi qurub, atdan aygır, dəvədən buğra, qoyundan qoç qırdırmışdı. Bir yerdə ağ otaq, bir yerdə qırmızı otaq, bir yerdə qara otaq qurdurmuşdu, "kimin oğlu-qızı yoxdusa, qara otaqda oturdun, altına qara keçə döşəyin, önünə qara qoyun ətinin qovurmasından gətirin. Yeyir yesin, yemirsə dursun getsin" demişdi. "Oğlu olanı ağ otağa, qızı olanı qırmızı otağa yerləşdirin. Oğlu-qızı olmayanı Allah qarğayıb, biz də qarğıyarıq, qoy bilsin" – demişdi (5, 132). Bir neçə boyu çıxmaq şərtilə dastanlarda xanlar xanı Bayandır xanın adı çəkilir. Onun adı daha çox rəmzi məna daşıyır. Bəllidir ki, Bayandır xan Ağqoyunlu tayfa ittifaqının başçısı sayılır. Dastanın tədqiqatçılarından olan V.V. Bartold da bununla bağlı yazır ki, "Kitabı-Dədə Qorqud" dastanlarında adı keçən Bayandır xan çox güman ki, Ağqoyunlular sülaləsinin əsasını qoyan bayandurilər nəslinə işarədir (10, 476). Bəllidir ki, oğuz dastanlarını toyda-mağarda şifahi şəkildə danışan ozanlar ustadnamə əvəzi kimi Dədə Qorqud barədə məlumat vermiş, onun ibrətamiz fikirlərini xatırlatmış, ilk oğuz həyat və məişətindən maraqlı epizodlar söyləməklə dinləyicilərin diqqətini səfərbər etməyə çalışmışlar. Həmin "müqəddimə" "Kitabi-Dədə Qorqud"un yazıya köçürüldüyü zamandan mövcuddur. Lakin sonrakı yazılı nüsxələrdə müqəddimə mətninə bəzi dini, siyasi-ictimai əlavələr (yaxud ixtisarlar) edilmişdir. Ümumiyyətlə, belə dəyişikliklər boyların mətnlərində də baş vermişdir (5, 18). Hesab edirik ki, dastanlarda Bayandır xanın adının çəkilməsi az şey demir. Bu ad ağqoyunlulara birbaşa işarədir. Bu məsələ V.M. Jirmunski və VV. Bartoldun tədqiqatlarında da öz əksini tapmışdır. Onlar da qeyd edirlər ki, XIV əsrin sonlarından başlayaraq XV əsrin ortalarına qədərki dövr bayandurilərə məxsus Ağqoyunlu tayfa ittifaqının siyası və hərbi hegemonluğu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dövrüdür. Məhz bu dövrdə öğuzlar haqqında qədim rəvayətlər özünün yüksəliş dövrünü yaşayır və "Kitabi-Dədə Qorqud" dastanlarında baza rolunu oynayır. Bu, o zaman başa çatdı ki, "Kitabi-Dədə Qorqud" ədəbi dəyişikliklərə məruz qaldı. Bu isə XV əsrin II yarısına təsadüf edir (11, 144). Bu dəyişikliklər dastanın bəzi boylarında özünü göstərir. Bunlardan biri də "Dirsə xan oğlu Buğac xan boyu"dur. Bu boyda Bayandır xanın adından deyilən qara otaq ağqoyunluların rəqibləri qaraqoyunlulara, qırmızı otaq ağqoyunluların müttəfiqi Ərdəbil şeyxlərinə, ağ otaq isə ağqoyunluların özlərinə işarədir.

"Kitabi-Dədə Qorqud" dastanlarında diqqəti çəkən boylardan biri də "Qanlı qoca oğlu Qanturalı boyu"dur. Bu boyda Qanlı qoca oğlu Qanturalını evləndirmək istəyir. Boyda çox maraqlı məqamlar üzə çıxır. Belə məqamlardan biri o zamanlar Trabzon qızlarının gözəlliyinin bütün ətraflara yayılmasıdır. Boyda bu məsələ geniş əksini tapıb. Hətta o həddə təsvir olunub ki, o qızlar yerli türkmən qızlarından həm gözəllikdə, həm də igidlikdə üstün təqdim olunur. Elə bizim həyatımızın tarixin dərin qatlarından gələn bəyənilməyən məqamlarından biri də budur. Türk dünyasının faciəsində bu məsələnin də rolu az olmayıb. Görün, boyda Qanturalı atasının "Necə qız istəyirsən?" sualına nə cavab verir: "Elə qız istəyirəm ki, məndən daha çevik olsun. Bəs gedəsən, bir cici-mici türkman qızını alasan, birdən sürüşüb üzərinə düşsəm, qarnı yırtılar?" (5, 183). Həmin boyda daha sonra göstərilir ki, İç Oğuzu gəzən Qanturalı özünə layiq qız tapa bilmir. Atası özü ona qız axtarmağı qərara alır: "Qanlı qoca sevincək fərəhlə ayağa durdu. Ağ saqqallı pirani qocaları da yanına saldı. İç Oğuzu axtardı, qız tapmadı. Dolandı Daş Oğuza gəldi, tapa bilmədi. Dolandı Trabzona gəldi. Sən demə, Trabzon təkürünün bir gözəl-göyçək, yaraşıqlı qızı varmış. Sağına-soluna iki qoşa yay çəkərdi. Atdığı oğ yerə düşməzdi" (5, 183). Boyun təqdimatından bəlli olur ki, söhbət XV əsrdən – Ağqoyunlu -Trabzon münasibətlərindən gedir. Daha doğrusu, bu boy tarixən qədim dövrlərə getsə də, özünün qədimliyini qoruyub saxlasa da, ona edilən müəyyən əlavələr bizi bu qənaətə gətirib çıxarır. Elə tədqiqatçı V.V. Bartoldu da çaşdıran bu əlavələrdir. Bunları əsas tutan tədqiqatçı qeyd edir ki, "Kitabi-Dədə Qorqud" XV əsrdən gec yazıla bilməzdi. Onun fikrincə, abxazlar XV əsrin I yarısında islam dinini qəbul etmişdilər. Trabzon 1461-ci ildə Osmanlı türkləri tərəfindən tutulub, siyasi müstəqilliyini itirdi. Amma epos daha əvvələ aid tarixi münasibətləri özündə əks etdirir (1, 530). Təbii ki, V.V. Bartoldun dastanların XV əsrdən gec yazılmamasına dair gəldiyi qənaət boyda təsvir edilən hadisələrlə bağlıdır. Lakin dövrün və dastanın tədqiqi göstərir ki, boyda təsvir olunan hadisələr dastana ağqoyunlular dövründə dastan yenidən yazıya alınanda əlavə olunmuşdur. Tədqiqatlar sübut edir ki, Qanturalının Trabzon təkürünün qızı ilə evlənməsi tarixi həqiqətə söykənir. Bu, Turəli bəyin tarixi adıdır. Bayanduri sülaləsinin yaradıcısı olan Turəli bəy 1348-ci ildə Trabzona yürüş etmişdir. Onun oğlu Qutlu bəy üç ildən sonra (1351) Trabzon imperatoru Aleksey III Komnenin bacısına evlənmişdi (1, 539). Tədqiqatçılardan V.V. Bartold və V.A. Qordlevski belə bir nəticəyə gəlirlər ki, Bayandır xanın adı oğuzların arasında ağqoyunluların



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tarix səhnəsində görünməsi və güclənməsi zamanı məşhurlaşa bilərdi (10, 476; 12, 581; 13, 64). Bu, o zaman idi ki, ağqoyunlular bütün Yaxın Şərqdə oğuz tayfaları arasında hakim mövqe tuturdular (XIV əsrin ortalarından başlayaraq XV əsrin ortalarına qədər). Beləliklə, Bayandır xan qədim oğuz epos ənənələri üçün süjet ola bilməzdi. Dastanlarda onun adına elə bir güclü süjet yoxdur. O, tayfa başçısı kimi təqdim olunur. Dastanlarda passiv rol oynayır. Sadəcə olaraq oğuz bəyləri onun sarayına toplaşırlar. Dastanlardan bəlli olur ki, onun tayfası təsvir olunan dövrdə çox güclənmişdir. Onlar özlərindən qabaq güclü tayfa olan salurları sıradan çıxarmışlar. Salur tayfasının rəhbəri Ulaş oğlu Qazan xan onun kürəkəni olmaqla, ona yaxın bəylərdən birinə çevrilmışdir. Bütün bunlardan sonra aydın olur ki, ağqoyunluların siyası hegemonluğu dövründə, təxminən, XIV əsrin ortalarından XV əsrin I yarısına qədər olan dövrdə baş verən hadisələr "Kitabi-Dədə Qorqud"un bəzi boylarında öz əksini tapmışdır (1, 531). İndi isə yenidən qayıdaq Qanturalının Trabzon hakiminin qızı ilə evlənməsi səhnəsinə... V.V. Bartold bu məsələnin tarixi və əfsanəvi motivlərinə diqqət yetirmişdir (10, 475). Trabzon imperiyası Bizans imperiyasının bir qalığı idi ki, Kiçik Asiyada mövcud idi və səlibçilər tərəfindən işğal olunmamışdı. Komnenlərə məxsus bu iri imperiya Yaxın Şərqdə ticarət yollarının qovuşduğu yer olmaqla, iki əsr yarımdan artıq bir müddətdə (1204-1461-ci illər) öz siyasi müstəqilliyini saxlamaqla XIV-XV əsrlərdə tipik feodal dövləti idi. Bir çox yarımmüstəqil subyektlərə bölünmüşdü. Trabzon imperiyasının tarixini tədqiq edən J.P. Falmerayera iqtibas edən V.V. Bartold göstərir ki, ətraf yerlərin şahzadələri və rıtsarları çox həvəslə komnenlərin dağda olan qalalarına və saraya səfər edir və macəralar axtara-axtara Trabzon hakimlərinin qızlarına evlənmək istəyirdilər. Bunların içərisində türkmən şahzadələri də var idi. Trabzon gözəlləri, xüsusilə də imperator evinin gözəlləri bütün Asiyada məşhur idilər və təxminən iki yüz il ərzində Qərbi Avropa roman müəlliflərinin və Şərq saraylarının nağıllarının qəhrəmanlarına çevrilmişdilər. Nəinki Konstantinopoldan (İstanbuldan), eləcə də yaxın türkmən ellərindən, Qafqazdan, Serbiyadan, Mitilendən, uzaq Mesopotomiyadan və İran ərazilərindən şahzadələr gəlirdilər ki, onlarla evlənsinlər. Bizans mənbələri qeyd edirlər ki, XIII əsrin sonundan başlayaraq döyüşkən oğuzların (türkmənlərin) dəstələri Trabzona və ətraf rayonlarına yürüşlər edirdilər. 1280-1370-ci illər arasında onlarla belə iri yürüşlər olmuşdur. 1341-ci ildə baş verən daxili toqquşmalar nəticəsində imperator Vasiliy Komnen həyatını itirir. Bundan istifadə edən türkmənlər Trabzonu tuturlar, şəhəri yandırırlar. Bunlar Ağqoyunlu tayfa üzvləri idilər. Trabzon tarixçisi Mixail Panareta yazır ki, 1348-ci ildə türkmənlər Ərzincandan başlayaraq, Ərzurum və Bayburta qədər əraziləri ələ keçirdilər. Trabzona yenidən yürüş etdilər. Ağqoyunlu tayfa ittifaqının başında Turəli bəy dayanırdı. Onun ayaması Bozdoğan idi. Bu hadisələr imperator III Komneni məcbur edirdi ki, oğuzlarla qohum olsun. 1351-ci ildə yaxşı münasibətlərdə olmaqdan ötəri imperator III Komnen özünün gənc bacısı Mariyanı Ağqoyunlu tayfa ittifaqının əmiri Turəlinin oğlu Qutlu bəyə ərə verdi. E. Rossiyə istinad edən V.M. Jirmunski



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

də göstərir ki, bu adlar və hadisələr Qanturalının evlənmə boyunda özünü büruzə verir (1, 577). Daha sonra müəllif göstərir ki, Trabzon sarayı ilə oğuzlar arasındakı münasibətlərdə bu hadisə bizə məlum olan hadisələrdən ilki olsa da, tədqiqatlar göstərir ki, əslində, buna qədər də belə münasibətlər olub. Bu mənada müəllif həmin dövr hadisələrinin şahidi yunan əsilli Laonik Xalkokondilin məlumatlarına istinad edir. L. Xalkokondil qeyd edib ki, Trabzon imperatorlarının yunan qaydalarını və dilini qoruyub saxlamasına baxmayaraq onlar Əmir Teymurun nəvələri, Qara Yusifin övladları ilə olduğu kimi, qonşuları ağqoyunlularla da nikah əlaqələrinə girirdilər (1, 577-578; 14, 128). Bu hadisə Trabzon imperatorluğunun süqutuna qədər (1461) davam etmişdi. III Alekseyin imperatorluğu (1350-1390) dövründə bu məsələ daha aktual idi. Ondan sonra hakimiyyətə gələn IV Aleksey qızlarından birini Qaraqoyunlu dövlətinin başçısı Qara Yusifin oğlu Cahan şaha ərə vermişdi. Nəhayət, Trabzonun osmanlı türkləri tərəfindən fəthi ərəfəsində imperator IV İohann öz qızını, gözəlliyi ilə seçilən şahzadə Feodoranı Ağqoyunlu dövlətinin başçısı Həsən padişaha ərə vermişdi. 1458-ci ildə baş verən bu izdivacın hesabına imperator IV İohann osmanlılara qarşı güclü bir müttəfiq əldə etdiyini düşünmüşdü. Həsən padşah da III Alekseyin qızına evlənən Qara Yulukun nəvəsi idi. Beləliklə, Həsən padşah hesabla ağqoyunlulardan üçüncü şəxs idi ki, Trabzon şahzadələri ilə nikaha girirdi. Trabzondan başlayan bu əlaqələr Həsən padşaha qədər davam etmişdi (1, 578-579). Bu mənada məşhur tədqiqatçı İ.P. Petruşevskinin sözləri yerinə düşür: "Trabzon imperatorlarının şahzadələrinin Ağqoyunlu bəyləri ilə nikahları hesabına Trabzon Ağqoyunlu dövləti üçün həlledici liman rolunu oynayırdı. Həmin dövrdə ağqoyunluların Qara dənizə çıxışı yox idi" (15). Göstərilən bu tarixi faktlar "Qanturalı haqqında hekayə"yə tarixi gerçəklik vermiş və Ağqoyunlu-Trabzon əlaqələrində baş verən nikahlar həmin boya düşmüşdür. Bu nikahlar da XIV əsrin II yarısı – XV əsrin I yarısındakı dövrü əhatə edir. Bizi bu qənaətə gətirən həmin dövrdə baş verən hadisələri izləmək və dastanlardakı hadisələrlə tutuşdurmaq oldu. Düzdür, bunu dananlar da az deyil. Amma tarixi həqiqəti anlayıb ortaya qoymaq o qədər də asan deyil. Tarixi həqiqət, tarixi gerçəklik o zaman üzə çıxır ki, hadisələrə tərəfsiz, obyektiv yanaşasan, həmin dövrdə baş verən hadisələri güclü tədqiq edəsən və bir də güclü məntiqə sahib olasan. Tarixin obyektiv tədqiqi göstərir ki, ayrı-ayrı dövrlərdə tarixi və ədəbi mənbələr yenidən qələmə alınanda onlara əlavələr olunmuşdur. Bu əlavələri edənlər bunu xidmət etdikləri iqtidarların maraqları baxımından həyata keçirmişlər. Bu baxımdan "Kitabi-Dədə Qorqud" dastanları da belə əlavələrdən xali deyildir.

**Qaynaqlar**

1. Жирмунский В.М. Тюркский героический эпос. Издательство "Наука", Ленинградское отделение, Л., 1974, 728 с.
2. Cəmşidov Ş.A. Kitabi-Dədəm Qorqud. Bakı, Elm, 1999, 680 s.
3. Cəmşidov Ş.A. Kitabi-Dədə Qorqud. Bakı, Elm, 1977,136 s.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

4. Кононов А.Н. Родословная Туркмен. Сочинение Абу-л-Гази хана Хивинского. Издательство Академии Наук ССР, М-Л., 1958, 192 с.

5. Kitabi-Dədə Qorqud. Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə Fərhad Zeynalov və Samət Əlizadənindir. Bakı, Yazıçı, 1988, 265 s.

6. ”Kitabi-Dədə Qorqud”. Bakı, Azərnəşr, 1962, 171 s.

7. Гордлевский В.А. Избр. соч. т.I.-II. т.I. М., Изда-во востлит, 1960-1961, 551 с, 558 с.

8. Muharrem Ergin. Dede Korkut kitabı. C.II. Ankara, Türk Tarih Kurumu Basımevi, 1963, 483 s.

9. Кононов А.Н. Родословная Туркмен. Сочинение Абу-л Гази хана Хивинского. М-Л., Изд. Академии Наук СССР, 1958, 192 с.

10. Бартольд В.В. Сочинения. Т.V. Москва Изда-во Наука, 1968, 757 с.

11. Книга моего деда Коркута. Огузский героический эпос. Перевод академика В.В.Вартольда. М-Л., Изда-во Академии Наук СССР, 1962, 299 с.

12. Бартольд В.В. Сочинения. Т.II. Ч.1. Москва Изда-во Наука, 1963, 1020 с.

13. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - начале XVII в. Л., Издател-вл Ленинград. Универси-та, 1949, 382 с.

14. Успенский Ф.И. Очерки из истории Трапезунтской империи. Л., Изд-во Ан СССР, 1929, 160 с.

15. Петрушевский И.П. Государство Азербайджана в XV в. Сб. статей по истории Азербайджана. Вып. I. Баку, Изд-во Ан Аз. ССР, 1949, 310с.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Dr. Enver Uzun,***
***azer_07enver@hotmail.com***

# AZERBAYCAN TARİH VE FOLKLORŞÜNASLIĞINDA BABEK

**Özət**

Bazı tarihi şahsiyetler ölümlerinden sonra halk tarafından menkıbevi olaylarla örülü bir inancın oluşturduğu mitoslaştırılmış bir kimliğe sokulur. Türk kültüründe buna benzer örnekler az değildir. Köroğlu ve Kiziroğlu, İnce Memmed, Katır Memed, Kaçak Nebi, Deli Ali örneklerinde olduğu gibi İran Türk kültürü içerisinde bir zamanlar Hurremi Hareketi'nin lideri olarak adlandırılan Babek benzer bir paralellik gösterir.

Babek'in doğumundan ölümüne kadar ki yaşamı bir birinden ilginç ve enteresan olayları içermektedir. Bu bağlamda Babek efsanesinin ana mayasını folklor oluşturur. Babek efsanesi Türk halk epopesinin pek çok vasıflarını taşımakta olup, real bir şahsın menkıbevi şekilde yaşamı ve maceraları folklorun anlatım özelliklerinden yararlanılarak anlatılmaktadır. O'nun doğuşu destanlarda gördüğümüz mitolojik kahramanlara benzer niteliktedir. Bu gün İran'da yaşamakta olan Türklerin bulundukları farklı bölgelerde Babek adına efsaneler dillendirilmek suretiyle folklorun ölümsüz maneviyatında Babek de kendisine yer bulmuştur. Bu mevzu folklor için taze şekilde aktüelliğini sürdürmekte olup, daha fazla nazari dikkate alınmasında Azerbaycan folkloru acısından büyük fayda olacağı kanaatindeyim…

**Açar sözlər**: Azerbaycan, Babek, Efsane, Folklor, Epik.

**Abstract**

After the deaths some historical figures are put in as myth events inserted into a legendary identity. There are many similarities in the Turkish culture. Babek, called as the leader of the Hurremi Movement in the Iran Turkish culture, shows parallelism with the examples of Turkish culture, like Koroğlu and Kiziroğlu, Ince Memmed, Katır Memed, Kaçak Nebi, Deli Ali.

The life of Babek from the birth to the death contains different and interesting experiences. Therefore, fundamentals of the legend of Babek were shaped by folklore. Legend of Babek carries on many characteristics of Turkish epic and the life and adventures of a real figure are told in an epic way by benefiting from features of expression of folklore. Appearance of Babek shows similarity mythical heroes in sagas. Turkish, live in different areas of Iran, tell about Babek legends so it takes place in the folklore of endless spirituality. This topic is a new and current for folklore. Accordingly, it must be taken into consideration and it will be beneficial for the Azerbaijan folklore.

**Keywords:** Azerbaijan, Babeks, legend, folklore, epic



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

* * *

Bilindiği üzere IX. yüzyılın başlarında Abbasiler hilafetine karşı başkaldırı isyanları gittikçe artıyordu. Bunların içerisinde Hürremiler isyanı daha da büyüyordu. Onların kuvvetli kısımlarından birinin başkanı Cavidan öldükten (*9, 192.*) sonra (815 yılı) onun yerine Erdebil Şehri'nin Bilalab Kenti'nde doğmuş olan Babek (*Hasan*) geçti. Bu isyan hızlı bir şekilde büyümüş, Abbasiler hilafeti Hürremiler'e karşı savaşlarda 500 binden fazla asker kaybetmişti ki, gerek Emeviler (661-750) gerekse Abbasiler (750-1258) hilafeti herhangi bir devletle yaptığı savaşta bu kadar kayıp vermemiştiler. Doğuşu ve çocukluk yılları hakkında fazla bir bilgi olmayan Babek, Hürremiler harekâtının lideri olan Cavidan'ın özgüvenini kazanmış, onun ölümünden sonra da Hürremiler, Cavidan'ın ruhunun onda cisimlendiğini inanarak onu kendilerine başkan yapmışlardır. Bunların sonunda Babek tarihi bir şahsiyet olarak alp tipinde karşımıza çıkar. Türk destanlarında görülen örnek tip "alp" tipidir. Alp; kahraman, yiğit, cesur anlamlarında bir sözcüktür. Eski Türklerin yiğitlerine bu adı vermelerinin ilk koşulu yiğitlik, cesurluk, kişisel üstünlük, kahramanlık ve asalettir. Bu saygın değerleri kendisinde barındıran Babek'in adı çocuklara bir kahramanlık işareti olarak verilir, Bez Kalesi onun adına izafen Babek Kalesi olarak anılır. O, özgürlük yolunda ateşleyici bir motif olur. 1945 yılında Milli Hükümet'in kuruluşu sırasındaki savaşta Tebriz'de Azerbaycan milli kahramanı Babek'in adını taşıyan "*Babek Gönüllü Gurubu*" oluşturulur. Bu bağlamda Babek efsanesinin ana mayasını folklor oluşturur. Zira anlatılara göre tenasüh (*reenkar-nasyonmetempsycose*), (ruhun beden değiştirmesi), sonucunda Cavidan'ın ruhu Babek'e geçmiştir. Literatürde don değiştirme (*metamorphose*) ruh göçü demektir. Ruhun, insan öldükten sonra başka insana geçer ve başka bir bedenle dünyaya gelebilir. Bu durum uyku, rüya, ölüm, baygınlık gibi, ruhun bedeni geçici ya da kalıcı olarak terk etmesi olarak yorumlanmıştır (*4, 120-122*). Frazer, özellikle masallarda devlerin, kahramanların ruhlarının farklı yerlerde, farklı varlıklarda yer aldığını; dolayısıyla ölmeleri için bu ruhun bulunduğu yerin veya varlığın tespiti ve öncelikle onun öldürülmesi gereğine işaret etmiştir. Türk masallarında ölüme veya yeniden dirilişe sebep olan varlıklar arasında gerdanlık, bilezik, yüzük gibi süs eşyaları da yer alır. Ölü gibi olan kız boynundaki gerdanlık çıkarılınca ya da bilezik koluna takılınca dirilir (*1, 136; 13, 220*). Bu eşyaların dış ruhu temsil ettiği açıkça görülmektedir. Bazı inançlar ölümü, reenkarnasyon ile bir ruh döngüsü haline getirmişlerdir. Buna göre, biyolojik ölümün gerçekleşmesi ardından ruh başka bir insan ya da hayvan bedenine göç eder. Bu inanış, bilhassa atalar kültüne sahip toplumlarda önemlidir. Kesinlikle doğu kökenli olduğu düşünülen ruh göçünün, (*12, 219*) Uygurlar aracılığıyla Orta Asya'da yayıldığı düşünülmektedir. Bu inanca Anadolu'daki Alevî-Bektaşî top-luluklarında rastlanmaktadır. Bu toplumlar, ölmüş atalarının ruh-larının ruh göçü yoluyla nesilden nesile geçtiğine inanmaktadırlar. Söz konusu anlayışın Babek için de oluşturulmuş olması Babek efsanesinin de geçmişin köklü kültürü üzerine inşa edilmiş olduğunu açık bir şekilde göstermektedir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Babek'in önderliğinde dünyayı değiştiremeye yönelmiş olan Hürremiler hareketi aslında toplumsal ve siyasi bir harekettir. Güney Azerbaycan'ın Bezz Kalesi'nde ikamet kurmuş olan Babek uzun süre halifenin gönderdiği birlikleri püskürtüp, nüfus alanını genişletti. Ancak halife Mutasım zamanında Afşin tarafından esir edilmiş ve Arap halifesi Babek'den önünde eğilip af dilemesini istemiştir. Babek bu isteği kabul etmemiştir. Halife ayaklarının kesilmesini emir etmiş. Babek kırmızı kanını yüzüne sürmüştür. Mutasım neden öyle yaptığını sorduğunda "Kendi kanımla boyuyorum ki, kan kaybında yüzümün sararmaya başladığı görüldüğünde, senden korktuğumu sanmasınlar" diye yanıtlamıştır. Bu ifade Hurifiliğin kurucusu Nesiminin sonunu benzeştirir. Zira Nesimi de derisi soyulurken kan kaybeden şairin sarardığını gören ruhanilerin alaylı şekilde; *Sen ki haklısın, peki niye rengin sarıdır*? Şeklindeki soruya "*Ben ebediyat ufuklarında doğan aşk güneşiyim. Güneş batarken sararır*" yanıtı vermişti. Sonradan bu dramatik öykü edebi literatüre Babek ile ilintili olarak "*Sarala sarala yaşamaktan, kızara kızara ölmek iyidir*" şeklinde bir atasözü niteliğinde geçmiştir. Ayrıca son dönemlere ait bir değer yargısı olarak Türk kültüründe gücü simgeleyen "kırmızı" sözcüğü aynı zamanda liderlik ve hâkimiyet duygusunu, cesareti, enerjikliği temsil eder. Güney Azerbaycan Türkünün kimlik meselesinin ön plana çıkışı ve İran'da yaşayan diğer toplumlardan saflarının ayrılışı belirleyici bir faktör olarak kendini göstermiştir. Kan motifinin anlatılarda yer almasının yanında İran Türkleri arasında Babek ile ilintili kan motifinin yazılı ifadelerde yer aldığını görürüz ki, bu bağlamda Attila Kişizade'nin şu şiiri güzel bir örnek oluşturur;

"Kanlı bahışında canavar kursada gerdek
İtler yürüdü gözlerinin sirrine babek
Dönmezdi daha nisgile cumhur kalacıklar
El bir kilaşinkuf ele alsaydı senin tek
Gözlerde moğullar çapa – çap at yürüdürler
Ellerdese barmakları hörmekde hörümcek
Yok! biz canavardan töredik enme ucal dağ
Sende yolacak boz karılar sap – sarı bir çek
Neslin kılıncın senden alıp kında çürütdü
İndise o kından cöceren toplara baş çek
Partlat kalanı taşlara sıldırlara sığma
Kan tanrısı – kan tanrısı – kan tanrısı Babek!.." (*7, 40*)

Bilindiği üzere tarihin kaynakları sözlü ve yazılı şekilde adlandırılır. İnsanların ait oldukları geçmişlerinden kaynakları binlerce yıldan beri süzülüp gelen tecrübe ve hatıraları usta tarihçiler ve sosyal bilimcilerin değerlendirmeleriyle gelecek kuşaklara sağlam bir miras olarak bırakılır. Bu bağlamda günümüz tarihçilerine kadar birçok kişi bu kültürel verilerin dikkatle kullanılması halinde olay veya olgunun cereyan ettiği tarihteki halkın anlayış ve hissiyatlarını ortaya koymadaki önemi hususunda aynı görüşü paylaşırlar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Bazı tarihi şahsiyetler ölümlerinden sonra halk tarafından menkabevi olaylarla örülü bir inancın oluşturduğu mitoslaştırılmış bir kimliğe sokulur. Türk kültüründe buna benzer örnekler az değildir. Köroğlu ve Kiziroğlu, İnce Memmed, Katır Memmed, Kaçak Nebi, Deli Ali örneklerinde olduğu gibi İran Türk kültürü içerisinde bir zamanlar Hurremi Hareketi'nin lideri olarak adlandırılan Babek benzer bir paralellik gösterir. Uzak dönemlerin olayları ise halkın hafızasında nesilden nesile aktarılarak zaman içinde değişik edebi anlatım yollarıyla folklor ürününe dönüştüğü gibi, yan kültürlerin etkisiyle real bir şahsiyet konumundan uzaklaştırılarak tarihin gizemli havasında mitsel söylemlere dönüşürler. Kültürel zenginliklerin simgesel olarak bir şahsiyette ortaya konması tarihi bir perspektifin oluşturulması kadar aynı zamanda söz konusu kültüre ait folklorik unsurları da beraberinde oluşturur ki, bu bağlamda tarih folklor adına bir kaynağa dönüşüverir. Bazı tarihi şahsiyetler ölümlerinden sonra halk tarafından menkabevi olaylarla örülü bir inanç halesi ile kuşatılıyorlar. Örneğin, Şehname'de Türkleri yenen büyük hükümdar sayılan Feridun'un ve onun kahramanı Rüstem' in isminin bu ülkede çocuklara verilmesine (*6,111-118*) benzer şekilde Babek adının da İran Türkleri arasında sıkça benimsendiğini görmekteyiz. Türk halk edebiyatı ve folklorunun çok zengin olması ve göçebe kökenlerinden dolayı Türklerin çok farklı milletlerle kaynaşmış bulunması bu konuya Türk tarihçiliğinde biraz daha fazla önem verilmesini gerekli kılmaktadır. Özellikle yakın tarihte siyasi nedenlerle örtbas edilen bazı bilgilerin bugün halk arasında yaşadığı kabul edilirse, meramımız daha iyi anlaşılır. Üstelik çok okumadığı gibi çok yazmayan bir halk geleneğine sahip oluşumuz dikkate alınırsa, birçok bilginin halkın içinde anı veya bir edebi-folklorik tür olarak yaşadığı ve kayıtlara geçmediği kolayca anlaşılabilir. Her zümre kendi tarihine belge hazırlar ve kendi tarihini yazar. Devlet ve iktidarlar kendi tarihleri için belge depolarken, halkın tarihi de, büyük oranda kayıtlara geçmemiş olan bu tür sözlü ürünlerde saklıdır.

Halkın tarihi veya sosyal tarih bütün boyutlarıyla araştırılırken, halk arasında yaşayan ve halkın zihniyetini taşıyan bu tür sözlü ve yazılı edebiyat ürünleri elbette daha iyi değerlendirilecektir. Bu hem metodoloji açısından gereklidir, hem de - sosyal tarihin yanı sıra kültür tarihi için vazgeçilmez, olmazsa olmaz türünden bir şeydir. Bu konuyu tamamlayan diğer bir alan da sözlü tarih çalışmalarıdır.

Günümüzde İran coğrafyasında 1946 yılında başveren Milli Hükümet kurma çalışmaları sırasında ve günümüzdeki siyasi faaliyet ve teşkilatlanmalarda "Babek" adına gönüllüler grubunun oluşturulması, erkek çocuklara Babek adının verilmesi, Babek'in tarihe düşmüş olan kahramanlıklarının sonucudur. Ortaya çıkmış olan bu durum doğrudan İran türk folklorunu da etkilemekte ve zenginleşmesine katkı sağlamaktadır. Türk destan kahramanı temsil ettiği Türk toplumun akıl danıştığı bilge tipi önemli bir yardımcı kahramandır. Meşhur dede Korkut Destanı'ndaki başkahraman Dede Korkut'ta olduğu gibi topluma yön verir, manevi enerjisine güç katar. Şamanist destanlarda motifler kahramanın dışında olsa da onun kişiliğinin tamamlayıcı nitelikte olmasına rağmen özgün çağdaş destanlarda yer alan motiflerin destan kahramanının ideolojisi ve ülküsü dışında olmasını düşünmek olası değildir.


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Zira destan kahramanları fiziksel olduğu kadar, ruhsal açıdan da derin bir kişiliğe sahiptirler. Destan kahramanı cesaret ve gücü esasında mücadele yapar. Bu güç esasında maneviyatla ilintilidir. Bu nedenle destan kahramanları kişilikleri ve davranışları ile kendi ülküsünün peşinde koşar. Onlar kişisel tutkuların üstünde topluma mal olmuş kişilerdir. Kahramanlar ait oldukları milletlerin sembolü konumunda olduklarında ülküsü peşinde çekinmeden her türlü mücadeleye girer, kaçmak ya da af dilemek gibi olumsuz bir davranışa itibar etmez. Zamanın acımasızlığı ve ağır yoruculuğunun getirdiği yıpranma karşısında kahramanın ayakta kalabilmek ya da ağır durumlarda bir çıkış yolu bulabilmek için kıvrak bir zekâya, üstün bir yeteneğe sahip olması gerekmektedir.

Özel adlar, bir halkın kültürel ve tarihî gelenekleriyle doğrudan ilintilidir. Bu nedenle halkın gönlünde taht kurmayı başaran kahraman ait olduğu toplumun maneviyat dünyasında silinmez bir yer ettiği için temsil ettiği halk çocuklarının şerefli, ünlü, mert ve cesur insan olmaları dileğiyle kendi çocuklarına kahramanının adını verir. Büyük Rus araştırmacısı V. V. Radloff, Türklerde kişi adlarının seçimine büyük önem verildiğinin altını çizerek "halkın eski inanışlarına göre, ismin insanın bütün kaderini değiştirebilecek sihirli bir gücü var olduğunu" belirtir. (*11, 519*) Buna Dede Korkut Destan'ında yer alan 12 boyda pek çok örnek vardır. Milli bir kimlik kazanmış olan kahraman Türk kültürünün, Türk düşünce hayatının, Türk tarihinin ve Türk halkiyatın da ortak unsurudur. Bu nedenle Anadolu ve Azerbaycan coğrafyasında Dede Korkut Destanlarının yaratıcıları olan boy beylerinin ve alplarının isimlerini sıkça görmekteyiz. "Adlandırma insanın değer verme, ciddiye alma gibi duygularının da bir yansımasıdır. Nesneleri birbirinden ayıran en önemli şey, adlarıdır. Ad, bir kimseyi, bir şeyi anlatmaya, tanımlamaya, açıklamaya, bildirmeye yarayan söz, isim anlamındadır." (*14, 19*)

Bu bağlamda benzer şekilde İran coğrafyasında yıllardır sürdürülen özgürlük mücadelesine Babek'in sembol olması nedeniyle Karadağ'ın zirvesi sayılan tepeye (kaleye) Babek adı verilmiştir. Edebi literatüre "Babek Kalesi" şeklinde geçmiş olan bu yer adı tarihçi M. Tagı Zehtabi ve bir grup öğrenci arkadaşı tarafından siyasi bir simgeye dönüştürülerek İran kültürü içerisinde bir güç merkezi konumunu almıştır.

1999 yılından başlayarak Güney Azerbaycan halkı her yıl burada özgürlük, demokrasi adına yürüyüşler düzenleyir, mitingler yapılır. Bu hareket kısa bir zaman sonra medeni hakların elde edilmesi gayreti olmaktan çıkarılarak doğrudan siyasal bir çizgiye taşınmıştır. Bunun sonucunda da Babek Kalesi yürüyüşü mahiyet bakımından dünya kamuoyunun ilgisini üzerine çekmede önemli bir rol oynamıştır. Böylece siyasi bir kimliğin ifadesi olan milli kahraman Babek adına yapılan çalışmaların siyasi bir boyut kazanması doğal bir durumdur. Bu ise aynı zamanda İran Türk edebiyatında oluşturulacak milli şuurun genç dimağlara aktarılmasında folklorun derin gücünden yararlanılacaktır.

İran Türklerinin kültürleri içerisinde ant içme de yaygındır. Toprağa, ateşe, çöreğe ant içmenin yoğun bir kutsallık taşımasının yanında kan üzerine de ant



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

içildiğini görmekteyiz. "And olsun Babek`in kanlı yüzüne ..."şeklindeki bu ant içmenin çok eski bir tarihi geçmişi vardır. Pek çok milletlerin kültürel değerleri içerisinde ant ile ilgili söyleyişler mevcut olduğu gibi Türk kültürü içerisinde de bu değer yargılarını açık şekilde binlerce yıldır görmekteyiz. Türk kültür çevresinde yemin etmek manasına kullanılan ant içmek sözünden de anlaşılacağı gibi yemin bir nesnenin içilişi ile olmaktaydı. Şaraba kanlarını karıştırmak suretiyle yapılan bu hareket bir kardeşlik oluşturmak ve anlaşmak için yapılmaktaydı (*10, 97*). İskitlerin ant içmeleriyle ilgili olarak Herodot şu bilgileri vermektedir: "Toprak bir kupanın içerisine şarap doldururlar; ant içecek olanlar buna kanlarını karıştırırlar; bunun için sivri bir şeyle küçük bir delik açarlar, ya da kılıçla hafif çizerler; sonra kabın içerisine bir pala, oklar, bir balta ve mızrak daldırırlar; bu da olduktan sonra öfke üzerine ant ederler ve kaptaki şaraptan azıcık içerler ve orda bulunanların ileri gelenleri de onlarla beraber içerler". Türkçe ve Moğolcada aynı anlamı taşımakta olan "anda" Asya Hunları, Avarlar, Göktürkler ve Uygurlarda kültürel süreklilik içerisinde Türk kültür çevresinde kan ve kana dayalı dost olma Uygur sonrası dönemde de görülmektedir. Bu şekilde kan kardeşi olmak âdetinin günümüzde Anadolu'da çocuklar arasında yakını ile kolunu kanatarak içmek anlayışı dostluk ve kardeşlik adına yaşatılmaktadır ki, "Türkçede kullandığımız 'ant içmek' tabiri de bu eski Türk âdetinin kalıntılarındandır" (*15, 60*). Kan kardeş olma geleneği Türk kültür çevresinde hala çocuklar arasında devam etmektedir. Bu gelenek konar - göçerler arasında da yetişkinlerin bileklerini biraz kesmek ve karşılıklı birbirine değdirmek suretiyle kanlarını karıştırarak kan kardeşliği geleneğinin yaşatıldığını da görmekteyiz. Bu bağlamda İran Azerbaycan Türkleri arasında kana ant içme geleneği Babek adına kadar gelip çıkmıştır. Babek efsanesi Türk halk epopesinin pek çok vasıflarını taşımakta olup, real bir şahsın menkabevi şekilde yaşamı ve maceraları folklorun anlatım özelliklerinden yararlanılarak anlatılmaktadır. Bu bağlamda Babek'in kahramanlıklarıyla ilgili anlatılar hatırı sayılır derecede olmasa da hiç şüphe yok ki, bir döneme damgasını vurmuş olan bir şahsiyet ile ilgili rivayet ve destansı anlatılar olmamış olsun. "Hiç şüphe yok ki, en saf halinde halk epopelerini bilen, dinleyici kitlesine nakleden sanatkârlar geçmiş zamanın hadiselerini ve maceralarını anlattıklarını tebarüz ettirirler. Fakat bu tesir halk epopesinde tez silinir" (*2, 68*). Günümüzde değil Babek'in folklorik unsurlarının yazıya alınması, onun yaşadığı dönemdeki pek çok tarihi hadiseler de sınırlı bir ölçekte tarih kitaplarının tozlu yaprakları arasında unutulmaya terk edilmiştir. Yoksa Babek'in doğumundan ölümüne kadar ki yaşamı bir birinden ilginç ve enteresan olayları içermektedir. O'nun doğuşu destanlarda gördüğümüz mitolojik kahramanlara benzer niteliktedir. "Rivayete göre O, bir oduncunun (*çıra satanın*); bir başka rivayete göre ise yağ satanın oğludur. Her ne kadar Nahçıvan coğrafyasında dünyaya göz açtığı söylenmiş olsa da boya-başa çattıktan sonra Karadağ coğrafyasına gelir. Rivayeti anlatılara göre Babek'in kartalları varmış. Hiç bir casus kaleden dışarıya mektup göndermiyormuş. Bir gün bu kartallar mektup



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

götürmekte olan yabancı bir kuşu görmüşler ve onu yakalayıp, Babek'in yanına getirmişler. Babek bir gün kayıplara karışır ve Babek'in annesi onu bulmak için kaleden dışarı çıkar. Babek ahalinin camızlarını otarmaya götürürmüş. Bir gün annesi onu bir ağaç altında çıplak şekilde boğulmuş olarak bulur. O'nun kafasından, saçlarından ve bedeninin her tarafından kan akıyormuş. Ancak Babek uykudan uyanınca kan kendiliğinden yok olur. Annesi gördüğü bu manzara karşısında Babek'in ileride keramet sahibi büyük bir zat olacağı kanaatine gelir.

Behruz Hamaçı ve Rehim Reisniya'nın yazdıklarına göre Babek'in annesi bir gün atasının kılıncını Babek ve kardeşine gösterdikten sonra onlara şöyle seslenir: "Çocuklarım, sizin atanız sadece bir yağ satan değildir. O aynı zamanda bir kahramanmış. Kendi kılıçı üzerine 'ey yiğit, kılınçın kınında olduğunda elini kılınça aparmamak iyidir. Zira Abbasi zamanında yaşamak olasıdır ancak kılıçsız yaşamak olmaz' der." Babek boya başa çattığında bir kente gediyor orda bir şeyler alıp, anasına getiriyor ancak hiç kimse bu güçlü insanı görmez. Bir başka rivayete göre Babek'in Şagga adında bir atı vardır. Savaş sırasında Babek Efşin'in eline esir düşer. Şagga ise kaçıp, Savalan Dağı'nın zirvesine gider. Orada bulunan gölde gizlenir. O, Azerbaycandan bir genç doğulup, Babek'in yolundan gidene kadar orada bekleyeçektir. O zaman Şagga gölden dışarıya çıkıp, söz konusu bu gençe yardım etmek üzere gölden dışarı çıkacak ve Babek'in intikamını (kanını alacak). Bir başka ilginç rivayet ise At Gölü ile ilgilidir. "Destanlardaki alp kişi destan içindeki kaderini sahibi bulunduğu atla birlikte yaşar. Destan kahramanının yanında yer alan at, bütün Türk destan rivayetlerinde olağanüstü özelliklere sahip olarak su ruhundan türer. Türkler, atların denizden çıkan, dağdan inen ya da gökten, rüzgârdan, mağaradan gelen kutsal aygırlardan türediğine de inanırlardı" (*3, 162*). Türklerin sosyal ve siyasi yaşamında atların çok önemli bir yeri vardır. Bu nedenle atlar Türklerin kültürel yaşamlarında yer almış, masallardan, atalar sözlerine ve halk öykü ve destanlarına kadar derin izler bırakmıştır. Halkın liderlik vasfına getirdiği ve Alp diye nitelendirdiği kişilerde sağlam yürek, gayret, özel giysi, iyi bir kılıç, süngü, yay ve kader birliğinin yanı sıra iyi bir at mutlaka bulunması gerekir. Oğuz Kağan Destanı'nda bu tipin en idealine rastlanmaktadır. İslâmiyet'ten sonraki Türk destanlarında bu tip, "*Alp-Eren"* tipine dönüşmüştür. Fuad Köprülü, İslâmiyet'in etkisinden sonraki Türk alplerine Alp-Gazi adını vermektedir (*8, 214*).

Bu bağlamda Gulam Hüseyin Saedi'nin "*Hiyav*" adlı yapıtında değinilen rivayeti anlatıma göre: Savalan Dağı'nın kuzey tarafında küçük bir kentte meşhur "At Gölü" vardır. Derinliği ile dikkati çeken söz konusu gölle ilgili anlatılardan birisini de Babek'in atı oluşturur. Rivayete göre Babek'in atı Babek'i kaybeder. O, sahibini araya araya söz konusu göle gelir. Babek'ten ümidini kesince at kendisini gölün derin sularına bırakır. O gün bu gündür kayıp olan at her yıl sahibi Babek'i kaybettiği gün ve zamanda gölün derin sularından dışarı çıkıp, gölün etrafında dörtnala şaha kalkar, tırnaklarıyla toprağı eşeler, şaha kalkarak Babek'i çağırır. Akşama kadar bekleyip Babek'i bulmaktan ümidini kesince tekrardan kendisini



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

suyun derinliklerine bırakır. Bu nedenledir ki söz konusu göle efsaneye dönüşmüş Babek'in atına izafen "At Gölü" denilirmiş.

Görüldüğü gibi tarih sahnesinde zaferleri ve bükülmez bileği ile bir halk kahramanı olarak yer almış olan Babek tarihi misyonun onun için çizdiği sınırların ötesine geçerek, efsaneleşmiş bir halk kahramanına hatta daha da öte bir efsaneye dönüşmüş olması folklorun her türlü anlatım ve motiflerinden yararlanılarak Azerbaycan folkloru ve edebiyatının zenginleşmesine katkı sağlayan bir etken olmuştur. Bu gün İran'da yaşamakta olan Türklerin bulundukları farklı bölgelerde Babek adına efsaneler dillendirilmek suretiyle folklorun ölümsüz maneviyatında Babek de kendisine yer bulmuştur. Bu mevzu folklor için taze şekilde aktüelliğini sürdürmekte olup, daha fazla nazari dikkate alınmasında Azerbaycan folkloru acısından büyük fayda olacağı kanaatindeyim…

**Kaynaklar**

1. ALPTEKİN, Ali Berat, (2002), *Taşeli Masalları*, Ankara: "*Akçağ Yayınevi.*"
2. BORATAV, Pertev Naili, (1946), Halk Hikâyeleri ve Halk Hikâyeciliği, Ankara: "*MEB.*"
3. ELÇİN, Şükrü, (1963), Atların Doğuşları İle İlgili Efsaneler, **"***Türk Folklor Araştırmaları*", İst., S.162.
4. FRAZER, James G. (1992), *Altın Dal Dinin ve Folklorun Kökenleri*, II. C., Çev. Mehmet H. Doğan, İstanbul: "*Payel Yayınevi.*"
5. JONES, Constance (2004), *Huzur İçinde Yatsın – Ölüme Dair Her Şey*, Çev., Mehmet Gürsel, İstanbul: "*Dharma Yayınları*".
6. KAYMAZ, Zeki, (2002), "Tarihi Şahsiyetler Hakkında Yaratılan Halk Bilgisi Ürünleri Üzerine Bir Durum İncelemesi: Aşık Paşa Örneği", " *Milli Folklor*", Sayı: 54.
7. KİŞİZADE Attila, Baltalardan Leyleklere, 1385, "*Yaşmak Neşriyatı*".
8. KÖPRÜLÜ Fuad, Selçukîler Zamanında Anadolu'da Türk Medeniyeti**,** **"***Milli Tetebbûlar Mecmuası*", C.II, No: 5.
9. MEHMETOV, İsmail, (2009), Türk Kafkası'nda, İstanbul: "*Ötüken Yayınları*"
10. ORKUN, Hüseyin Namık, 1937, "Eski Türklerde Andlaşma".
11. RADLOFF, V. V. (1893), *Opıt Slovarya Türkskih Nareçiy,* C. 1, St-Petersburg.
12. ROUX, Jean-Poul (1994), *Türklerin ve Moğolların Eski Dini*, Çev. Aykut Kazancıgil, İstanbul: "*İşaret Yayınları."*
13. ŞİMŞEK, Esma (2001), *Yukarıçukurova Masallarında Motif ve Tip Araştırması*, I. C., Ankara: "*Kültür Bakanlığı Yayınları*".
14. Türkçe Sözlük, TDK Yay.,C.I, Ankara 1998,
15. YAZIKSIZ, Necip Asım, 1316, Türk Tarihi, İstanbul: "*Feridiye Matbaası*".
16. (*http://tabriz53.blogfa.com/ post-179.aspx*).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Əziz Ələkbərli, f.ü.f.d.,***
***AMEA-nın Folklor İnstitutu,***
***aparıcı elmi işçi,***
***eziz_elekberli@rambler.ru***

# «DƏDƏ QORQUD KİTABI»: DASTANDA GİZLƏNƏN TARİX

**Özət**

«Dədə Qorqud kitabı» təkcə Azərbaycan folklorunun deyil, həm də Azərbaycan tarixinin nəhəng abidəsidir. Dastandakı bəzi hadisələr Azərbaycan tarixinin xeyli qədim dövrləri ilə səsləşsə də, burada eramızın XII-XIII yüzillərinə aid hadisələr və şəxsiyyətlər də özünə yer almışdır. Belə şəxsiyyətlərdən biri də XIII yüzil Sünik hakimi Dərsə xandır. Bu məqalədə ilk dəfə olaraq dastandakı Dərsə xanın tarixi şəxsiyyət olduğu ortaya qoyulmuşdur.

**Açar sözlər**: Sünik, Dərsə xan, Stepan Orbelian, Aruz Xatun, Mina Xatun, Canbuğa.

**Резюме**

«Книга Деда Горгуда» является не только памятником Азербайджанского фольклора, но и Азербайджанской истории. Исторические события в эпосе часто перекликаются с событиями древней истории Азербайджана, здесь также находят свое отражение исторические личности и процессы, происходящие в XII-XIII столетии. Одной из исторических личностей является правитель Сюника Дерсе хан, живший в XIII веке. В в этой статье впервые исследуется историческая личность Дерсе хана.

**Ключевые слова**: Сюник, Дерсе хан, Степан Орбелиан, Арус Хатун, Мина Хатун, Джанбуга.

**Summary**

"The book of Dede Gorgud" is not only the giant monument of Azerbaijan folklore, but also the monument of Azerbaijan history. Although, some events in the epos deals with the ancient times of Azerbaijan history, the events and personalities dealing with the XII-XIII centuries are followed here.One of these personalities is Derse khan the ruler of Sunik who lived in the XIII century. In the article, for the first time Derse khan as a historical personality is drawn in the investigation.

**Key words**: Sunik, Derse khan, Stefan Orbelian, Aruz Xatun, Mina Xatun, Janbuga

200 ilə yaxındır ki, «Dədə Qorqud Kitabı» elm aləminə məlumdur və 200 ilə yaxındır ki, bu dastan haqqında elmi, publisistik və bədii ədəbiyyatda saysız-hesabsız fikir və mülahizələr özünə yer almaqdadır. Lakin bütün bunlar bu dastanın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ehtiva etdiyi mifik, tarixi və bədii həqiqətləri açıb ortaya qoymaq, qaranlıq məqamlara aydınlıq gətirmək üçün kifayət edirmi? Bu suala ən dürüst cavabı son zamanlar «Dədə Qorqud Kitabı» ilə bağlı maraqlı araşdırmaları, qeyri-ənənəvi mülahizələri ilə diqqəti çəkən professor Kamal Abdulla vermişdir: «Gizli Dədə Qorqud» və ya «Sirr içində dastan»!

Bu, əslində, «Dədə Qorqud Kitabı» haqqında bu günə qədər deyilənlərin və yazılanların kifayət etmədiyini, hətta bir çox məqamlarda yanlış olduğunu iddia etməkdən başqa bir şey deyil. Və bu yerdə biz hörmətli professorla tamamilə şərikik!

Bəs bu «gizlin», bu «sirr» nədən ibarətdir?! Hörmətli Kamal müəllim bu sirri dastanın mifoloji qatında axtarır, bu da tamamilə təbiidir. Çünki ədəbiyyatda, xüsusilə folklorda mifoloji qatı önə çəkmək, həm də o qədər önə çəkmək ki, hər kiçik detala mifoloji məna vermək son vaxtlar dəb halını alıb. Etiraf edək ki, Kamal müəllimin bu axtarışları dastanla bağlı bir sıra sualları cavablandırır, lakin bəzən yeni-yeni suallar da doğurur. Ona görə ki, heç bir dastan mifdən doğulmur və xalqın mifoloji düşüncəsini yaşatmaq üçün dastan yaradılmır. Bu, daha çox bədii mətn kimi, mif, rəvayət və əfsanələrin janr spesifikasına aiddir. Dastanların, xüsusilə qəhrəmanlıq dastanlarının isə kökündə real tarixi hadisələr və ya bu hadisələrin iştirakçısı olan tarixi şəxsiyyətlərin qəhrəmanlıq taleyi durur. Mifoloji qat isə dastanın bətninə onun yaradıcısının, yəni xalqın yaddaşında, şüur altında yaşayan informasiyalar olaraq yeridilir.

Azərbaycan tarixinin və Azərbaycan folklorunun möhtəşəm abidəsi olan «Dədə Qorqud Kitabı» da bu mənada istisna təşkil etmir. Lakin təəssüf ki, Qafqaz oğuznamələri içərisində ən mükəmməli olmağına, Qafqazın, xüsusilə Cənubi Qafqazın bəlli bir tarixi dövrünü, bəlli bir coğrafi məkanını əhatə etməyinə baxmayaraq, dastanda tarix axtarışlarına uzun müddət barmaqarası baxılmış, bunu daha çox dastanın poetik spesifikası ilə önləməyə çalışmışlar.

Bəzən isə dastandakı hadisə və qəhrəmanların Orta Asiya, Altay, ümumtürk arxetiplərini axtarıb tapmaq tədqiqatçıları yanlış istiqamətlərə yönləndirmiş, yanlış nəticələrə gəlməyə məcbur etmişdir.

Halbuki «Dədə Qorqud Kitabı»nda Cənubi Qafqazın tarixi ilə az qala tamamilə üst-üstə düşən hadisə və qəhrəmanlar var ki, bunlar dastanda bu günə qədər izahı mümkün olmayan bir çox məsələlərə aydınlıq gətirir. Belə məsələlərə Qalın Oğuzun təkcə İç və Dış Oğuza yox, həm də Daş Oğuza bölünməyi; Qazan xanın nədən «Amid soyunun aslanı» olmağı; Bayandır xanın nə üçün Dirsə xandan üz döndərib, onu qara çadıra göndərməyi, faktiki olaraq düşərgəsindən qovmağı; Buğacın nə üçün məhz Bayandırın həyətində buğa ilə qarşılaşmağı; Dış Oğuzun nə üçün İç Oğuza, Arusun öz bacısı oğlu Qazana asi olmağı; Bayandırın, Dədə Qorqudun, Qazan xanın, Dirsə xanın, Beyrəyin, Uruzun, Baybecanın, Bayburanın, Şöklü Məliyin, Qıpçaq Məliyin və başqa dastan qəhrəmanlarının tarixi kimliyi və s. məsələlər daxildir. Bütün bu məsələlərlə bağlı Cənubi Qafqazın tarixinə dair bəzi mənbələrdə kifayət qədər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məlumatlar var, lakin təəssüf ki, həmin mənbələrdəki tarixi faktların heç biri bu günə qədər «Dədə Qorqud»la bağlı elmi dövriyyəyə daxil edilməmişdir.

Əlbəttə, bu məsələlərin hamısı haqqında bir məruzədə danışmaq imkan xaricindədir. Lakin dastan Dirsə xanla və onun ətrafında cərəyan edən hadisələrlə başlandığından biz də söhbətimizə bu Oğuz xanından başlamaq istəyirik. Beləliklə, Dirsə xan kimdir?

Əvvəla, xatırladaq ki, bu nəhəng abidənin Dirsə xanla başlamağı onun dastandakı ideya-bədii statusunun göstəricisidir. İkincisi, Bayandır xandan başqa, dastanda Dirsə xan yeganə obrazdır ki, qeyd-şərtsiz xan titulu ilə təqdim olunur. Halbuki dastanda hadisələrin əsas ağırlığını öz çiyinlərində daşıyan İç Oğuz xanı Qazan xanın belə, bəzən «bəy» titulu ilə təqdim olunduğunu görürük. Maraqlıdır ki, Qazan xan kimi, onun oğlu Uruz da «bəy», Dirsə xanın oğlu Buğac isə «xan» titulu daşıyır. Bu, boyların adında da özünü göstərir: «Dirsə xan oğlı Buğac xan boyını bəyan edər...», «Qazan bəg oğlı Uruz bəgin tutsaq oldığı boyı bəyan edər...». Yeri gəlmişkən, Dirsə xanın arvadı da xan qızıdır və o, hər dəfə arvadına «Xan qızı» deyə müraciət edir: «Xan qızı, yerimdən turayımı?», «Xan qızı, səbəbi nədir, degil mana!»

Lakin dastan başlar-başlamaz, elə ilk boydaca, boyun əvvəlindəcə Dirsə xan amansızcasına cəzalandırılır. Bayandır xanın göstərişi ilə onu qara çadıra aparır, altına qara keçə döşəyir, önünə qara qoyun qovurması gətirir: «Yersə, yesün, yeməz-sə, tursun getsün» – deyirlər. Bayandır xanın tapşırığı belədir.

Göründüyü kimi, bu qəddar hərəkət – fiziki çatışmazlığına, yəni övladsızlığına görə insanın təhqir olunması nə Bayandır kimi müdrik bir insana, dövlət başçısına, xanlar xanına yaraşır, nə də Dirsə xan kimi yüksək statusa malik olan bir Oğuz xanı, sərkərdə, sancaq bəyi bu cəzanı haqq edir. Hər halda, bu qədər ağır cəza üçün ciddi bir səbəb olmalıydı. Həm də bu səbəb Bayandır xanı bu qədər özündən çıxaracaq qədər ciddi, əsaslı səbəb olmalıydı. Çünki, şübhəsiz, bu göstərişi verməmişdən əvvəl o, bilməmiş deyildi ki, bu cəza Dirsə xana tətbiq olunacaq. Bəlkə və bizim fikrimizcə, şübhəsiz, elə məhz Dirsə xana tətbiq olunmaq üçün verilmiş bir qərardır.

Belə olan surətdə, biz Bayandır xanın bu düşünülmüş addımının əsl səbəbini tapmaq məcburiyyətindəyik. Dastan bu səbəbi göstərmir. Tarixi mənbələrdən bizə məlum olan Dirsə xanın şəxsiyyəti isə bu sualı tam cavablandırır.

Əvvəla, Dirsə xanın adı məsələsi: Dastanın Drezden nüsxəsində hörmətli Samət müəllim Dirsə xanın adını həm Dirsə xan, həm də Dərsə xan kimi oxumuş (5, 34), sonra da buna belə şərh verməк məcburiyyətində qalmışdır: «Drezden nüsxəsində bir neçə yerdə xanın adı həm «Dirsə», həm də «Dərsə» kimi yazılmışdır. Görünür, orta əsr ozanlarının dilində hər iki variant işlənmişdir» (5, 229).

Beləliklə, tədqiqatçının son fikrində gizlənmiş böyük həqiqət ondan ibarətdir ki, xanın gerçək adı Dərsə xan olmuş, sonralar ozanların dilində artıq iki variantda – Dərsə və Dirsə şəklində işlənmişdir ki, çox güman, daha sonrakı yüzillərdə Dərsə adı da tədricən öz yerini Dirsə adına vermişdir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yeri gəlmişkən, görkəmli qorqudşünas V.V. Bartold dastanın Drezden variantında Dirsə xanın adını birmənalı şəkildə Dərsə xan kimi oxumuş və o cür də tərcümə etmişdir (6, 16-24). «Dədə Qorqud Ensiklopediyası»nda da müvafiq qeyd var: «Drezden nüsxəsində «Dirsə» adı həm də «Dərsə» kimi yazılmışdır» (12, 88).

Beləliklə, Dərsə//Tərsə adı «Tərsa» anlamında Dirsə xanın xristianlığının göz qabağında olan «maddi» sübutudur. Dirsə xanın Bayandır tərəfindən qara çadıra göndərilməsi, altına qara keçə döşənməsi, önünə qara qoyun qovurması gətirilməsi də onun xristianlığına, «qara donlu kafir»liyinə dastandakı gizli işarələrdəndir. Əslində, Dirsə//Dərsə (bundan sonra «Dərsə» deyəcəyik – Ə.Ə.) xanın islamı qəbul etmədiyi Bayandır xana və başqa Oğuz bəylərinə də məlum idi. Hətta Oğuz bəyləri içərisində Dərsə xan bu mənada tək də deyildi. Dastanda hadisələrin cərəyan etdiyi «Rəsul əleyhissəlam zamanında», yəni erkən orta yüzillərdə Oğuz xalqı öz tarixinin elə bir dövrünü yaşayırdı ki, cəmiyyətdə tam olmasa da, müəyyən bir dini tolerantlıq hökm sürürdü. Bu tolerantlıq daha çox islamla xristianlıq arasında idi. Bu da təbii idi. Çünki həmin dövrdə Azərbaycanda hakim etnos və dövlət səviyyəsində ərazi-inzibati quruluşa malik olan Oğuzlar tarix səhnəsinə yenicə qədəm qoymuş İslam dinini təzə-təzə qəbul etməyə başlayırdılar. İslamdan qabaq isə bu coğrafi məkanda mövcud olan Albaniya, Ərməniyə və İberiyada dövlət dini kimi xristianlıq mövcud idi.

Dastanda heç Qazan xan başda olmaqla islamı qəbul etmiş Oğuzların özləri də İslam qanunlarına kifayət qədər əməl eləmir, çox məsələlərdə öz dədə-baba törələri ilə gedirlər. Bəs belə olan surətdə Bayandır xanın Dərsə xana qəzəbi nədən qaynaqlanır? Bu suala ancaq Dərsə xanın tarixi mənbələrdəki şəxsiyyəti və fəaliyyəti haqqındakı məlumatlarda cavab tapmaq mümkündür.

Tarixi mənbələrdə Dərsəikan//Dərsəican//Dərsəiç və çox vaxt da adın əvvəlindəki D samiti T samiti kimi yazılan Dərsə xan XIII-XIV yüzillərdə indiki Qərbi Azərbaycanın Göyçə-Dərələyəz-Zəngəzur ərazilərini əhatə edən tarixi Siyuni mahalında hökmdarlıq etmiş Orbelianlar sülaləsinin ən məşhur hökmdarlarından biridir. O, 1273-cü ildə Siyuni (Sünik) hakimi seçilmiş, «xanlar xanı», «böyük xan» (rusca tərcümələrdə: «knyazlar knyazı», «böyük knyaz») titulları ilə tanınmışdır. Dərsə xanın adının mənbələrdəki Dərsəikan//Dərsəican//Dərsəiç və s. variantlarına gəldikdə isə, əslində, bunlar Dərsəiçxan adının variantlarıdır ki, Dərsə xan içxan (əyalət hakimi) olduğu üçün bu adı daşımışdır. Yeri gəlmişkən, Qafqaz Oğuzlarına məxsus olmuş bu titul sonralar xristian türklər vasitəsilə erməni-hay dilinə də keçmiş və bu dildə «hökmdar» anlamında «işxan» şəklində bu gün də işlənməkdədir.

Dərsə xanın mənsub olduğu Orbelilər//Orbelianlar sülaləsi, əslində, Turan nəslindən idi və miladdan çox-çox əvvəllər İber (İberiya) ərazisində məskunlaşmış, bu sülalənin bir çox nümayəndələri öz qəhrəmanlıqları ilə ölkənin hüdudlarını genişləndirmişdilər. Lakin ölkədaxili siyasi proseslərin istəmədən iştirakçısına çevrilən Orbelianlar 1177-ci ildə gürcü çarı Georgiyə qarşı üsyan qaldırmış, məğlub



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olaraq Loru qalasına sığınmış, çar Georgi tərəfindən nəslin bir çox nümayəndələri qətlə yetirilmiş, yalnız Libarit Orbelian və onun İvane və Elikum adlı iki oğlu sağ qalmışdır ki, onlar da qaçıb Eldəquzlar xanədanına sığınmışlar. Elikum Atabəy Eldəquzun dərin hörmətini qazandığından Naxçıvan diyarının hakimi təyin olunmuş və tezliklə, Sünik yepiskopu Stepanosun bacısı qızı Xatunla evlənmişdir. Xatundan olan oğluna atası Libaritin adını qoymuş, həmin Libarit böyüyüb Atabəylər sarayı tərəfindən Sünik hakimi təyin olunmuşdur. Dərsə xan da bu Libaritin Aspa Xatun adlı qadınından dünyaya gələn beş oğlundan ən kiçiyi idi (7, 147-148).

Dərsə xan haqqında ən dolğun məlumata onun ortancıl oğlu, Sünik yepiskopu, məşhur tarixçi Stepan Orbelianın XIII yuzilin sonlarında qələmə aldığı «Sünik tarixi» əsərində rast gəlirik (8, 29-65). Həm «Sünik tarixi»ndə, həm də bütün digər tarixi mənbələrdə Dərsə xan «güclü şəxsiyyət», «yenilməz qəhrəman», «igid və qorxmaz döyüşçü» kimi tərif olunur. Onun uca boyu, düşmənləri lərzəyə salan sərt görkəmi varmış.

Özünün Turan mənşəyinə söykənərək bölgənin monqol-tatar işğalından sonra buradakı Elxanilər xanədanı ilə sıx əlaqələr qurmağı bacaran Orbelilər öz diplomatiyası və qılıncı ilə Azərbaycan tarixinin parlaq səhifələrini yazmışlar. Xüsusilə Dərsə xanın Elxanilər sarayı ilə əlaqələri çox sıx olmuş, bu dövlətin sancaqbəyi kimi doqquz dəfə ağır döyüşlərdə qəhrəmanlıqlar göstərmiş, döyüş şücaəti müqabilində Abaqa xan (1265-1282) dəfələrlə özünün xanlıq xalatını çıxarıb onun çiyninə salmış, qiymətli daş-qaşlarla bəzədilmiş qızıl kəmərini belindən açıb, onun belinə bağlamış, onu o dövrün ən yüksək hərbi təltifi olan qızıl balışla mükafatlandırmışdır.

Dərsə xanın özü xristian olmasına baxmayaraq onun arvadı Aruz Xatun islamı qəbul etmiş və bu qadından onların üç oğlu dünyaya gəlmişdir. Lakin Dərsə xan nəinki islamı qəbul etməmiş, hətta yaşlı vaxtlarında gürcü knyazı ilə birlikdə Xaçın-Arsak knyazlığının böyük knyazı Calal Atabəyin qızı Mina Xatuna özü üçün elçi gedərək ikinci dəfə evlənmişdir (9, 11).

Görünür, qoca vaxtı aldığı bu qızdan onun bir müddət övladı olmamışdır və çox güman ki, dastan söyləyən ozanlar bu detalı diqqətdən qaçırmamış, Bayandır xanın Dərsə xanı qara çadıra göndərməsini Dərsə xanın ikinci arvaddan övladı olmaması ilə bağlamışlar. Lakin bizcə, bu faktın özü də Bayandır xanın bu qədər qəzəblənməsi üçün yetərli deyildi. Burada Bayandır xanı qəzəbləndirəcək daha başqa səbəb olmalıdır. Və belə səbəb dastanla tarixi mənbələri müqayisəli təhlil etdikdə ortaya çıxır.

Öncə, xatırladaq ki, dastanda Dərsə xan oğlu Buğac həm də «Bayandır xanın nəvəsi» kimi təqdim olunur (12, 88). Belə olan surətdə Dərsə xanın arvadı Bayandır xanın qızı, Dərsə xan da Qazan xanın bacanağı olmalıdır. Biz bu versiya ilə tamamilə razılaşardıq. Hətta bu versiya belə bir faktla da özünü doğruldur ki, dastanda Dərsə xan hər dəfə arvadına müraciət etdikdə: «Xan qızı, yerimdən turayımmı?», «Xan qızı, səbəbi nədir, degil mana!» – deyə arvadının «xan qızı»



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olduğunu xatırladır. Lakin yaddan çıxarmayaq ki, Dərsə xanın ikinci arvadı Mina Xatun da xan qızıdır. Və o da maraqlıdır ki, tarixi mənbələrdə hər iki xanımın adında Xatun titulu böyük hərflə yazılır və dastan söyləyicisi də həmişə Dərsə xanın xanımından bəhs edəndə onu «xatun» adlandırır: «Dərsə xanın xatunı dedi», «Dərsə xan xatunına cavab vermədi»; «Dirsə xanın xatunı qayıtdı» və s.

Lakin bizi Dərsə xanın xanımının Bayandırın qızı olması fikrinə şübhəli yanaşmağa məcbur edən iki ciddi səbəb var. Birinci səbəb odur ki, dastanda Buğac Dərsə xanın oğlu kimi təqdim olunsa da, real tarixdə onun məzarı Dərsə xanın yox, Qazan xanın nəsil sərdabəsindədir. Həm də burada Qazan xanın oğlu yox, nəvəsi kimi dəfn olunmuşdur. Onda anlaşılır ki, o, Bayandırın nəvəsi yox, nəticəsi olmuşdur.

İkinci ciddi səbəb odur ki, Buğacın babası Qazan xan 1220-ci ildə, Dərsə xan isə 1290-cı ildə dünyasını dəyişmişdir. Belə olan surətdə onların bir-biri ilə bacanaq olması məsələsi inandırıcı görünmür. Belə çıxır ki, Dərsə xan Bayandırın yox, Qazanın kürəkəni olmuşdur. Bayandır da Dərsə xana təkcə xristianlığına görə yox, islamı qəbul etmiş nəvəsi (Qazan xanın qızı) Aruz Xatunun üstünə xristian qızı Mina Xatunu aldığı üçün qəzəblənmiş və onu qara çadıra göndərərək təhqir etmişdir.

Təbii ki, burada kimsə Qazan xanın nəsil sərdabəsindəki Buğacın dastandakı Buğacla eyni şəxslər olmadığı iddiasını da irəli sürə bilər. Üstəlik, Qazan xanın sərdabəsində Buğacın adı Canbuğa kimi verilmişdir. Lakin bir təsadüfi fakt bu şübhəni darmadağın edir. O da ondan ibarətdir ki, görkəmli qorqudşünas alim V.V. Bartold, bütün qorqudşünaslardan fərqli olaraq, dastanın bu boyunda Buğacın adını hər yerdə Canbuğa kimi oxumuşdur. Halbuki onun Qazan xanın nəsil sərdabəsindən və oradakı kitabələrdən və bu kitabələrdəki Canbuğa adından heç vaxt məlumatı olmamışdır və ola da bilməzdi. Çünki həm Qazan xanın, həm də Dərsə xanın nəsil sərdabələri barədə «Dədə Qorqud»la əlaqədar olaraq elmdə bizdən əvvəl söz deyən olmayıb.

Dərsə xanın Bayandır xan və Qazan xanla qohumluğunu təsdiqləyən cəhətlərdən biri də odur ki, Vasakidlər sülaləsi adı ilə tarixə düşən Qazanilər sülaləsi hakimiyyətdən getdikdən sonra Siyunidə hakimiyyət Dərsə xanın sülaləsinə keçir. Bu barədə Dərsə xanın kiçik oğlu, XIII yüzilin böyük alban tarixçisi Stepan Orbelian özünün «Sünik tarixi» kitabında yazır: «Həm Siyuni hakimiyyəti sona çatdı, həm də Sisakan sülaləsi məhv oldu..., varissiz qaldılar, kimisi gənc ikən dünyasını dəyişdi, kimisi həlak oldu və ya döyüşdə əsir düşdü» (9, 3-4).

Yeri gəlmişkən, hər iki sərdabə haqqında qısaca məlumat verməyi vacib bilirik. Dərsə xanın nəsil sərdabəsi qədim Siyuni mahalında – indiki Dərələyəz mahalının Keşişkənd rayonunun Amağu kəndindən 2 km aralıda, Arpa çayı ilə Amağu çayının arasında, hündür dağlar əhatəsində yerləşir. Erməni müəlliflərinin özünün etirafına görə, məbədin ilkin adı Anabat (Ana-beyt, ana məzarlıq) olmuş, sonralar ermənilər onu Noravank, yerli camaat – azərbaycanlılar isə kəndin adı ilə elə Amağu məbədi adlandırmışlar.

Məbədin qapısı üzərindəki kitabədə yazılmışdır: «Mən, Tərsəiçxan, Allahın iradəsi ilə bu sərdabəni qardaşım çar Sembat üçün tikdirdim» (7, 115-116).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xatırladırıq ki, Sembat 1273-cü ildə Təbrizdə Abaqa xanın sarayında ikən vəfat etmiş, yerinə kiçik qardaşı Dərsə xan keçmiş, Dərsə xan da sevimli qardaşının məzarı üstə bu sərdabəni elə o vaxt tikdirmişdir.

Məbədin yanındakı digər kilsədə onun knyaz Tərsəiçxanın oğlu Burtel tərəfindən tikildiyi qeyd olunmuşdur.

Ümumiyyətlə, sərdabədəki kitabələrdən, qəbirüstü yazılardan burada Dərsə xanın babası I Elikumun, atası Libaritin, özünün, 2-ci arvadı Mina Xatunun, Dərsə xanın qardaşları II Elikum və Sembatın, Dərsə xanın oğlanları III Elikum və Fəhra-dullanın və b. dəfn olunduğu anlaşılır (7, 115-116).

Məlumat üçün onu da deyək ki, Dərsə xan Orbelian 1290-cı ildə xeyli qoca yaşlarında vəfat etmişdir. Sünik tarixində onun qədər məşhur və ehtiramla xatırlanan ikinci bir hökmdarın olmaması da Dərsə xanın ozanların dilində dastanlaşmasını təmin edən detallardan sayıla bilər.

Dastanın məhz Dərsə xanla başlaması və sonrakı boylarda onun adının bir də çəkilməməsi də söyləməyə əsas verir ki, bu boy dastana sonralar, ən azı dastanın yazıya alındığı zamanlarda əlavə olunmuşdur və yəqin ki, buna da həmin dövrdə Dərsə xanın çox böyük şöhrət sahibi olması, adının dillərdə dolaşması, şəninə dastanlar qoşulması səbəb olmuşdur.

Siyuni hakimi Qazan xanın nəsil sərdabəsi olan Ərqazan (el arasında Ərgəz) piri isə Dərələyəz mahalının Keşişkənd rayonunun Ərgəz (Arkaz) kəndi yaxınlığında yerləşir. Qədim mənbələrdə Ərqazan (Arkazan) adlanan bu sərdabədəki daş kita-bələrdən, qəbirüstü yazılardan məlum olur ki, sərdabədə əsl adı Qazan olan Vasak, onun oğlu Uroş, Uroşun arvadı Qutlu Xatun və sonuncuların övladları Elatçı və Canbuğa dəfn edilmişdir.

Beləliklə, bütün bu deyilənlər bir daha sübut edir ki, «Kitabi-Dədə Qorqud» dastanı həm də XII-XIII yüzillər Azərbaycan tarixi gerçəkliyinin bir sıra mühüm detallarını özündə əks etdirir.

**Qaynaqlar**

1. Şamil Cəmşidov. «Kitabi-Dədə Qorqud», B., «Elm», 1999.
2. Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə, B., «Elm», 1989.
3. Nizami Cəfərov. Azərbaycanşünaslığa giriş, Bakı, 2002.
4. Cəfər Cəfərov. Milli etnik yaddaşın izi ilə, B., 2005.
5. «Kitabi-Dədə Qorqud», B., Yazıçı, 1988.
6. В.В.Бартольд. Книга моего Деда Коркута, Б., 1999.
7. А.Берже. Кавказ в археологическом отношении, СПб., 1875.
8. История монголов армянским источникам., СПб., 1873.
9. О.Егиазарян. Памятники культуры Азизбековского района, Ереван, 1955.
10. Т.Измайлова, М.Айвазян. Искусство Армении, М., 1962, стр. 119.
11. Kitabi-Dədə Qorqud ensiklopediyası, I cild, B., 2000.
12. Kitabi-Dədə Qorqud ensiklopediyası, II cild, B., 2000.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

*Fəridə Namazova, t.ü.e.d.*
*AMEA Tarix İnstitutu*

# CƏLALİLƏR HƏRƏKATI VƏ «KOROĞLU» DASTANI

**Özət**

Məqalədə "Koroğlu" dastanı tarixi nöqteyi nəzərdən tədqiq olunur. Müəllif XVI-XVII əsrlərdə baş verən hadisələrin nə qədər real olması haqqında məlumat verərək, onların dastandakı təzahüründən danışır.

**Açar sözlər:** Koroğlu dastanı, Cəlalilər üsyanı, Şah Abbas

**Резюме**

В статье исследуется знаменитый эпос «Короглу» с исторической точки зрения. Автор пытается рассказать о том, насколько реальные исторические события XVI-XVII вв. отразились в эпосе.

**Ключевые слова:** эпос «Короглу», восстание Джалалидов, Шах Аббас

**Summary**

In this article the author brilliantly examines the famous heroism epos "Koroglu" from historical point of view. The author tries to reveal how real the historical events of the 16-17th centuries are reflected in the epos.

**Keywords:** epos "Koroglu", rebellion of Jalalis, Shah Abbas,

* * *

Eposlara həsr edilmiş tədqiqatlardan məlum olur ki, o, xalqın tarixindən ayrı düşünülmür. Bu mənada «Koroğlu» dastanını ümumi kontekstdən – XVI–XVII əsrlərdəki Osmanlı–Səfəvi düşmənçiliyi prizmasından öyrənmək özünü doğruldur. Dastanda Koroğlunun və onun dəlilərinin hakimiyyətə qarşı mübarizəsi XVI əsrin tarixi hadisələri ilə səsləşir.

XVI əsrin ictimai-siyasi vəziyyətinə nəzər saldıqda aydın olur ki, bu dövrdə xalqın vəziyyəti həddindən artıq pis idi. Bir tərəfdən Osmanlı sultanlarının işğalçı yürüşləri xalqı var-yoxdan çıxarır, digər tərəfdən Şah Abbas qoşunlarının atları altında tapdaq olan əkin sahələri məhsul vermir, üstəlik töycü, xərac toplanaraq kəndliləri müflis edirdi. Hər dəfə Şah Abbas qoşunlarının yürüşü xəbəri alınanda xalq öz gənc qızlarının namusunu qorumaq üçün gizlədir, atların otunu, ələfini vermək məcburiyyətində qalırdı. Var-yoxdan çıxan kəndlilər zülm əleyhinə mübarizəyə qalxırdı.

Bu dövrdə Şah Abbas dövləti və ordunu möhkəmlətmək üçün islahatlar keçirməyə başladı. Mərkəzləşdirilmə siyasəti aparılmağa başladı. Yerli kiçik xanlıqlar mərkəzə tabe olmağa məcbur edildi. 44 min nəfərlik daimi ordu yaradıldı. Bu orduda tüfəngçilər və topçular üstünlük təşkil edirdi. Şah Abbas işğal etdiyi ərazilərdə də eyni vergiləri tətbiq edir, xalqı var-yoxdan çıxarırdı. Şah Abbasın siyasəti



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Azərbaycanda və Anadoluda kəndli üsyanlarının baş verməsinə səbəb oldu. Bu üsyanlardan biri Cəlalilər üsyanı idi ki, Osmanlı imperiyasından başlamış bütün Azərbaycanı əhatə edirdi və XVII əsrin 30-cu illərinə qədər davam etmişdi. [1, s.83].

«Azərbaycan tarixi» (I cild) kitabında Osmanlılar və müharibələr əleyhinə üsyanlar «Koroğlu» dastanının formalaşmasında əsas amil hesab edilir. «Osmanlılar əleyhinə üsyanlar hər yerdə elə səs salmışdı ki, əfsanəyə bənzər epik və qəhrəmanlıq dastanları xalqın dilindən düşmürdü. Bunlardan biri də məşhur «Koroğlu» dastanıdır» [2, s.104].

1571–1573-cü illərdə Təbrizdə sənətkarlar və şəhər yoxsullarının böyük bir üsyanı olmuşdu. Üsyan iştirakçıları çəkməçi, mahud toxuyan, şoturban (dəvəçi), şalvarduz, səbzəfruş, pəhləvanlar, qəhrəmanlar və s. H.Rumlu və İ.Münşinin yazdığına görə, üsyanda qəssablar silki də mühüm rol oynamışdır. H.Rumlu pəhləvanlar hərəkatının başçılarından birinin adının Əvəz olduğunu yazır. İ.P.Petruşevski onun Eyvaz ola biləcəyi fərziyyəsini irəli sürmüşdür [3, s.221].

1590-ci il İstanbul sülh müqaviləsindən sonra Azərbaycan ərazisi Osmanlı və Səfəvi dövlətləri arasında bölünmüşdü. İran Xalxal, Ərdəbil, Qaracadağ və Talışa, osmanlılar isə Şirvan, Qarabağ, Dərbənd, Təbriz, Sərab və Marağaya sahib oldular [4, s.40]. Sultan qoşunlarının Azərbaycanda hərəkətini çətinləşdirmək üçün Şah Abbas Anadoludan Təbrizə qədərki torpaqları xarabazara çevirməyi əmr etmişdi. Şəhərlər, kəndlər bu əmrə əsasən dağıdılır, əkin sahələri at ayaqları altında tapdalanırdı. «Qısamüddətli Osmanlı işğalı zamanı (1588–1606) vergi və mükəlləfiyyətlər yükü daha çox artmış və Azərbaycanda kəndli kütlələri çıxılmaz vəziyyətdə qalmışdı» [5, s.258]. İstanbul sülh müqaviləsinə uyğun olaraq XVI əsrin ortalarında Azərbaycanda Dərbənd, Şirvan, Gəncə, İrəvan paşalıqları yarandı. A.A.Bakıxanov «Gülüstani-İrəm»də yazırdı ki, Dərbənd və Şirvanda Osman paşa hökmranlıq etmişdir. Sonra Hasan paşa, Mahmud paşa, Əhməd paşa Şirvanda ağalıq etmişdir. A.A.Bakıxanov yenə yazır ki, Cəfər paşa rum qoşunları ilə Dərbəndə hücum etmiş, qızılbaşlarla müharibə aparmış və əhalini qarət etmişdir [6, s.345].

Osmanlı işğalından sonra Maku, Ordubad, Şərur idarə olunmaq üçün Mahmudi kürd tayfasına verildi. Urmiyanın hakimi Beradust kürd tayfasından olan Əli bəy təyin olundu. Xoy və onun ətrafları Şahqulu Belilanın oğlanlarına verildi. Əmir bəy Mükri Marağaya hakimlik etdi [4, s.41]. Osmanlılar işğal olunmuş ərazilərdə əhalini siyahıya alır və vergiyə cəlb edirdilər. Təkcə Şirvandan yığılan vergi 25 milyon 20 min axça olmuşdu [4, 42]. Azərbaycanın iqtisadi vəziyyəti XVI və XVII əsrin əvvəllərində Osmanlı işğalı nəticəsində pisləşmişdi, karvan yolları bağlanmışdı, çoxlu şəhər və kəndlər dağıdılmışdı. Vergilərin ağırlığından əhali öz torpaqlarından köç edir, İrana qaçırdılar [4, 43].

İsgəndər bəy Münşi göstərirdi ki, Təbrizin işğalından sonra kasıb əhali Təbrizi tərk etmədi. Əhalinin köçürülməsi haqda Osmanlı mənbələri də məlumat verir. Cəfər paşanın sultan sarayına 7 fevral 1596-cı ildə göndərdiyi məlumatda şəhərin alınmasından 5 ay sonra Təbrizdə 1500 adamın qaldığı, onların da yoxsul olduqları



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bildirilirdi [4, 46]. Azərbaycanda isə əhali, xüsusilə Şirvan və Qarabağda «müsəlmanlar, yəhudilər və ermənilər» «rumluların» qəzəbindən xilas olmaq üçün Gürcüstana qaçır, çar Kaxetin Aleksandrın himayəsinə sığınırdılar. Sonradan Şah Abbas onları oradan sürgün edərək Mazandarana göndərmişdi [4, 47].

İsgəndər bəy Münşi yenə qeyd edir ki, Təbrizi ələ keçirmək tapşırığı almış Osman paşa hücum ərəfəsində çox ehtiyatlı və təmkinli olmağa çalışırdı. Çünki o «dəfələrlə təbrizlilərin dəyanətinin və cəngavərliyinin şahidi olmuşdu» [7, 245].

Osmanlı–Səfəvi vuruşmalarından ziyan çəkən bölgələrdən biri də Şirvan idi. Bu vuruşmalar nəticəsində Şirvan əldən-ələ keçərək, şəhərlərin iqtisadiyyatına, kənd təsərrüfatına böyük ziyan dəyirdi. Osmanlı zülmündən cana gələn əhali istər-istəməz Şah Abbasdan kömək diləməyə məcbur olurdu. Cəlaləddin Məhəmməd Yəzdi xəbər verir ki, Şirvanda Qaramanlılar güclənərək fürsət axtarırdılar ki, Şirvan valisi Həsən paşanı öldürüb, Şamaxını ələ keçirsinlər. Lakin onların niyyətləri baş tutmamışdı. Qisam-sultan Qaramanlı öz qardaşları uşaqları ilə – Fərhad, Zülfüqar və Əlvəndlə birgə üsyan etdi, məğlub olaraq geri çəkildi [4, 47-48].

1577–1578-ci illərdə Şirvanda xalq kütlələrinin böyük bir üsyanı olmuşdu. H. Rumlunun təsvir etdiyinə görə, üsyan qəddarcasına yatırılmış, onun iştirakçılarından 400-nün başı kəsilib şah sarayına göndərilmişdir [1, 325]. İsgəndər bəy Münşi 1580-ci ildə naməlum bir dərvişin başçılığı ilə xalq üsyanından bəhs edir. Bu üsyan da yatırılmış, başçısı Ərdəbildə yandırılmışdı.

Tarixi mənbələrdən məlumdur ki, bu dövrdə baş verən üsyanlar – Şirvan, Ərdəbil, Marağa, Qarabağ, Təbriz və başqa bölgələrdə, əyalətlərdə kəndli kütləleri qəsbkarlara qarşı mübarizə aparırlar. Lakin bu üsyanlar dağınıq idi, kütlələr yekdilliklə hərəkət etməyi bacarmır, bir-birindən xəbərsiz vuruşur və ona görə də məğlub olurdular [6, 347].

1588-ci ildə qacar qızılbaş tayfası Türkiyə ilə sülh bağlanmasına baxmayaraq, başda Məhəmməd xan Ziyad oğlu Qacar olmaqla Arazı keçərək Qarabağa soxuldu və işğal etdi, Gəncəni mühasirəyə aldı. Bundan xəbər tutan Təbriz valisi Cəfər paşa Şah Abbasa müraciət etdi ki, bu hücumun qarşısını alsın. İstanbul sülh müqaviləsinə uyğun olaraq Qarabağ və ətraf tərəflər Osmanlı imperiyasının əlində idi. Türklərin şaha təpkisindən sonra Şah Abbas Qarabağdan atlı qoşununun geri çəkilməsini və Gəncənin mühasirəsini dayandırmağı əmr etdi. Türkiyənin Təbrizdəki valisi Cəfər paşanın saraya olan məlumatına görə (21 fevral 1588-ci il) Dizmarın valisi İlyas Xəlifə Toxmax oğlu Təbrizin ətrafında Osmanlıların yolunu kəsərək fəaliyyətə başlamışdı [4, 47].

XVI əsrin axırlarında Osmanlı imperiyasının iqtisadiyyatı zəiflədi. Böyük ordunun saxlanılması dövlət resurslarını iflic etmişdi, ölkə böhran içində idi. Dövlət xəzinəsinə fəth edilmiş ölkələrdən yığılan xəracların arası kəsilirdi. Məmurlar xalqın var-yoxunu əlindən alaraq xəzinənin dolmasına sərf edirdilər. Vergilər artırılırdı. Fəth olunmuş şəhərlərdə qarnizon əsgərlərinin saxlanılmasına pul sərfi artırılırdı. Təbrizdəki qarnizonun əsgərlərinin sayını İsgəndər bəy Münşi 2000-3000, Şərəf xan Bidlisi 7000, Selaniki isə 1589-cu ildə Fərhad paşanın tabeliyində olan əsgərlərin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sayını da buna uyğun rəqəmlərlə göstərirlər. Məsələn, Gəncənin «qorunması» üçün 8500 qarnizon əsgərinin olduğunu söyləyirlər [4, 49].

Orta əsr tarixçiləri Osmanlı imperiyasının vergi siyasəti nəticəsində müflisləşən şəhər sakinlərinin vəziyyətini, Təbrizin, Marağanın, Gəncə, Şamaxı, Naxçıvan və Urmiyanın Osmanlı və İran işğalçıları dövründəki həyatını monqol yürüşləri zamanı düşdükləri vəziyyətlə müqayisə edirlər [4, 50]. Tarixçilər Cəlalilər hərəkatının başlamasını da bu səbəblərlə bağlayırlar. Zülmdən, əzab-əziyyətdən cana doymuş kəndlilər şah və xotkar məmurlarını öldürür, dağlara çəkilərək mübarizəyə başlayırdılar. İsgəndər bəy Münşi, türk tarixçisi Mustafa Selaniki, Övliya Çələbi, fars tarixçisi Cəlaləddin Məhəmməd Yəzdi onların fars və türk qoşunlarına qarşı amansızcasına döyüşdüklərini yazırlar [8, 114]. Cəlalilər hərəkatının başçısı Qara Yazıçı olmuşdur. Onun əsl adı Əbdülhəlim idi. O, səgban–bölükbaşı olaraq minlərlə özünün tərəfdarlarını başına yığaraq üsyan qaldırır. Cəlalilər üsyanında iştirak edən əsas rəhbərlərdən 14-nün adı çəkilir – Dəli Həsən, Zülfüqar, Qaraqaş Əhməd, Qələndər oğlu Mehmet, Gavur Murad, Mehmet, Ağacan Piri, Qara Səid, Hüseyn oğlu İshaq, Sündək, Uzun Xəlil, Qalındodaq Mahmud, Sarı Şaban. A.Tveritinovanın verdiyi məlumata görə, bu başçılar əvvəlcə hərəsinin 3–5 min dəstəsi olmaqla ayrıca vuruşurdular. Sonra Əbdülhəlim onları öz bayrağı altına yığdı, baş komandanlığı üzərinə götürdü [9, 60]. Bu üsyanı yatırmaq üçün Sinan Paşazadə Mehmet paşa göndərilir. O, Qabesin bəylərbəyisi olan Hüseyn paşanın üsyanını yatırtmışdı, Hüseyn paşa Qara Yazıçının müttəfiqi olmuşdu. Sinan Paşazadə Mehmet paşa ilə döyüşdə Qara Yazıçı məğlub olur və Sivasda gizlənir. Qışı orada keçirir, yazda Sivasın bəylərbəyisi Mahmud paşanın köməyi ilə Çorum sancağına gəlir və qardaşı Dəli Həsəni də bu üsyana cəlb edir. Onlar, iki qardaş 20000 atlıya başçılıq edərək Anadolunun hakiminə çevrildilər. Onların qüdrətlənməsini görən hakimiyyət böyük vəzir İbrahim paşanı və Bağdad paşası Hasan paşanı üsyanı yatırmağa göndərdi [10, s.23]. Kayseri ətrafında döyüş oldu, Sultan III Mehmetin qoşunları məğlub oldu və İbrahim paşa Kayseri qalasında gizləndi. Bu döyüş Qara Yazıçını möhkəmləndirdi, onun dəstəsi artaraq 30000 nəfərə çatdı. İbrahim paşanın məğlubiyyətini görən Hasan paşa öz qoşunlarını Anadoludan çəkdi, Diyarbəkirə gələrək qüvvətləndi. Burada Qara Yazıçı ilə döyüşə girdi. Bu döyüşdə Qara Yazıçı məğlub olub Caniq dağlarına çəkildi, onu dağlarda izləyən Hasan paşa Tokat yolunda Qara Yazıçını öldürdü [10, s.24]. Bu hadisə Qara Yazıçının qardaşı Dəli Həsənə pis təsir etdi. Qardaşının məğlubiyyətinin əvəzini çıxaraq Tokatda Hasan paşanın qoşununu darmadağın etdi, Hasan Paşa Tokat qalasında gizləndi. İstanbul Dəli Həsənin qarşısında gücsüz idi. Hasan paşanın adamları da bu döyüşdən bezmişdilər. Odur ki, onlar da Dəli Həsənin tərəfinə keçdilər. Dəli Həsən özünü Qaramandan Kutağa qədər ərazinin paşası elan etdi [10, s.24]. 1602-ci ildən etibarən o, Cəlalilər hərəkatına rəhbərlik etməyə başladı. Q.Daranaxsi Canpoladoğlu Dəli Həsənin Ərzincanda məğlub olduğunu, Giziroğlunun (Mustafa bəy) III Sultan Muradın əmri ilə 1591-ci ildə tutularaq İstanbulda üzərinə neft tökülüb yandırıldığını yazır [11,s.10-15].



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ərəblər və yeniçərlərdən təşkil olunmuş Osmanlı ordusu 5 avqust 1608-ci ildə Cəlali ordusunu geri oturtdu. Cəlalilər İrəvan tərəfə geri çəkilərək Üçkilsədə dayandı, böyük bir dəstəsi də Təbriz tərəfə hərəkət etdi. Şah Abbas və etimadüddövlə Hatəm bəyin başçılığı ilə İran ordusu onları qarşıladı. İsgəndər bəy Münşi «Tarix-i aləm-aray-i Abbasi» əsərində yazır: «Katiblər Cəlali ordusunda olanların adlarını qeydə alan şəxslərdən tələb etdilər ki, istənilən şəkildə bu iş görülsün. Təxminən on üç min altı yüz beş nəfərin qeydə alınması mümkün oldu». Əlyazmadan göründüyü kimi, Şah Abbasın qoşununa qarşı vuruşmaq üçün Təbrizdə könüllülərin siyahıya alınması başlanmışdı. XVI–XVII əsrlərin salnaməçiləri kəndli hərəkatlarını və onların başçılarını qeydə alınması haqqında məlumat verirdi [12, s.56].

İ.P.Petruşevski İsgəndər bəy Münşinin «Tarix-i aləm aray-i Abbasi» əlyazmasını Cəlalilər hərəkatının yayılma sərhədlərini düzgün təsvir etdiyinə görə qiymətləndirir. Yazır ki, İsgəndər bəy Münşidə Cəlalilərin iki əsas qrupu haqqında məlumata rast gəlirik. Bunlardan birincisi ali təbəqəyə mənsub olanlardır (Münşi onları «əmiri cəlali adlandırır), digər bir təbəqə isə şəhər yoxsulları, kasıblar, kəndlilərdir (Münşi onları da –«qurux-i əcəmire va oubaş» adlandırır) [1, s.35].

Cəlali ordusunun Osmanlı ordusu ilə vuruşmasını İ.P.Petruşevski də təsvir edir. Onun tədqiqatında da cəlalilərin qoşununu sultan ordusuna məğlub olmasından sonra I Şah Abbasa sığınması göstərilir. İ.P.Petruşevski yazır ki, 20 minlik Osmanlı ordusu ilə vuruşan (1608-ci ildə Ərzurumda) cəlalilər məğlub olub Çuxur-Səəd xanı Əmirgünə xan Qacardan orada qalmağa icazə verməsini xahiş etdilər. I Şah Abbasın Osmanlı imperiyasına qarşı onlardan istifadə etmək istədiyini cəlalilər başa düşdülər. I Şah Abbas cəlalilərə qarşı böyük vəzir Hatəm bəy Ordubadinin başçılığı ilə İran qoşunlarını səfərbər etdi. Hələ bundan əvvəl I Şah Abbas Azərbaycana və Ermənistana ordu göndərmişdi ki, yerli feodallar cəlalilərdən qorxub təşvişə düşməsinlər. Lakin I Şah Abbasın Qafqazda möhkəmlənmək arzusu baş tutmamışdı. Onun göndərdiyi ordu cəlalilər tərəfindən darmadağın olunmuşdur [1, s.326]. «Koroğlu» dastanında Koroğluya düşmən olan paşa və xanların düşmənçiliyi tarixi hadisələrə tam uyğun gəlir. Məsələn, «Düratın itməyi» qolunda təsvir olunan Qara xan özünü Şah Abbasın qohumu kimi hiss edir, Koroğluya düşmən münasibəti bəsləyir, Koroğlunun dəlilərinin Ələmqulu xanın qoşunu ilə vuruşub qalib gəlməsi Şah Abbasın cəlalilərə birinci məğlubiyyətini göstərir. Məhz bu döyüşdən sonra Əmirgünə xanın proobrazı sayılan Ələmqulu xan isə Koroğlu ilə qohumluğu özünə şərəf bilir. Bu hadisələr «Qulun qaçması» qolunda əks olunur. Bu qohumluqdan sonra paşalar Koroğlunu məhv etmək üçün yığıb məşvərət edirlər. Bundan sonrakı hadisələr «Koroğlu ilə Bolu bəy» qolunda izlənilir. Bu qolda Hasan paşa Toqatdan, Bolu bəy Ərzincandan, Ərəb Reyhan Qarsdan gəlib məşvərət eləyirlər ki, Koroğlu hərəkatını yatırmaq üçün onun üzərinə birlikdə yürüş etsinlər. Bu müharibə Hasan paşa ilə Mehmet paşanın birlikdə Qara Yazıçının üzərinə hücumunu xatırladır. Cəlalilərin yüksək təbəqəsinin Şah Abbas tərəfə keçməsindən, onun xidmətinə keçəndən sonra şah ordusu cəlalilərin üsyançı dəstələrini məhv edə bilmişdi.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

«Koroğlu» dastanını Cəlalilər hərəkatı ilə bağlamaq cəhdi bir çox alimlərin tədqiqatında üstünlük təşkil etmişdir. Füzuli Bayat da Ankarada çap etdirdiyi «Koroğlu. Şamandan aşığa, alpdan erene» kitabında «Koroğlu» dastanını tarixi-coğrafi araşdırma yolu ilə Cəlalilər üsyanına, xüsusən cəlalilərin Təbriz üsyanına bağlayır. Tədqiqatçı yazır ki, «Gerçekten de Anatolu ve Azerbaycan variantlarında Köroğlunun tarihi katmanı belirgin bir şekilde görünmekdedir. Celali Köroğlusu ile mifoloji Köroğlu destanda bir bütün oluşturmak yoluyla yeni epik kahraman tipini şekillendirmişdir» [13, s.10].

V.P.Qordlevski də İsgəndər bəy Münşiyə əsaslanaraq Cəlalilər hərəkatının Anadoluda yayılmasını, bu hərəkata Dəli Həsənin başçılıq etməsini, axırda kütlənin mənafeyini sataraq hökumət tərəfə keçməsini, hərəkatı başsız qoymasını (1603-cü ilin iyulunda) yazır [14, s.89].

Hatəm bəy Ordubadinin xahişi ilə Təbrizdə cəlalilərin siyahıya alınması başlanır. İsgəndər bəy Münşi onların 1380 nəfər olduğunu yazır. Cəlalilər I Şah Abbasa sadiq qalacaqlarına and içirlər. Ancaq 300–400 nəfərə başçılıq edən Məhəmməd bəy üsyan edən Urmiya kürdlərinin tərəfinə keçir. Anadoludakı cəlalilər isə Şah Abbasın təklifini qəbul etmirlər. Onlar burada bir-birinə düşmən olan qruplara bölünürlər **[4, s.57].** Bu qruplara Kürd Heydər, Məhəmməd paşa və İbrahim paşa başçılıq edirdi. Bütün bu qeyd etdiklərimiz tarixi hadisələrin «Koroğlu» dastanı ilə bilavasitə ya dolayısı ilə bağlılığına aiddir. Elmdə birmənalı olaraq Koroğlunun Cəlalilər hərəkatında iştirak etdiyini, yaxud Cəlali olduğunu qeyd edirlər. Biz mübahisə açmayaraq yeni bir tendensiya kimi onun milli qəhrəman kimi Azərbaycana məxsus olduğunu, cəlalilər hərəkatının aşağı təbəqəsinə mənsub olduğunu fərz edirik. Matenadaran Əlyazmalar Fondundan tapılmış, A.Abramyanın və D.Qabrielyanın «Nəşr olunmamış Koroğlu nəğmələri» məqaləsindəki qoşmadan Koroğlunun xalqı talayan Cəlali olmadığı da hiss olunur:

Koroğlu alır salamı –
Yeddi yüz yetmiş Cəlali -
Həramı nə bilir halalı,
Yar dilinə qurban olayım.

Dastana da fikir versək görərik ki, Koroğlu ilə Dəli Həsən qarşılaşandan sonra onları çapqınçılıqdan, haramı olmaqdan çəkindirir. Görünür, M.H.Təhmasib də dastana və dastandakı hadisələrə, tarixi faktlara əsaslanaraq, Azərbaycanda Koroğlu hərəkatının olması haqqında məlumat verir.

Koroğluşünasların fikrincə, Cəlalilər hərəkatının genişlənməsi ilə Anadolu, Konya və Ankarada Koroğlu adlı başçının cəsarət və igidliyi böyük bir ərazidə Osmanlı və Səfəvi hakimlərinə qarşı mübarizə aparan üsyançı dəstələrin rəhbərlərinin diqqətini özünə cəlb etmişdi. Bunu dastanda Giziroğlu Mustaya bəyin, Dəli Həsənin Koroğluya qoşulması da göstərir. M.H.Təhmasib qeyd edir ki, «yüz minlərlə kəndlinin iştirak etdiyi bu əzəmətli üsyan Azərbaycan ərazisində də yayılmışdı» [15, s.167]. Koroğlu hərəkatının yayıldığı ərazilər çox böyük sahəni əhatə edirdi. Koroğlu hərəkatını ilk böyük türk hərəkatı da adlandırmaq mümkündür.


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çünki özündə xalqın müxtəlif təbəqələrini birləşdirirdi. Bu hərəkat Orta Asiya, Xəzər sahillərindən Qafqaz dağlarına qədər, Xorasandan tutmuş Mərv və Herata, Sibirdən Balkan yarımadasına, habelə Azərbaycanın cənub-qərb bölgələrinə qədərki əraziləri bürümüşdü. XVI əsrdəki üsyanlar – 1570–1590-cı illər arasındakı Təbriz üsyanları, 1577–1578-ci illərdə Şamaxı (Şirvan), 1580–1581-ci illərdə Talış və Xəzəryanı bölgələrdə kəndli üsyanları baş vermişdi [12, s.48].

«Koroğlu» eposunu Cəlali hərəkatına yaxınlaşdıran aşağıdakı bağlılıqları ola bilər: 1) siyasi bağlılıq, yəni dastandakı azadlıq mübarizəsinin XVI–XVII əsrlərdəki feodal dövlətləri arasındakı mübarizəyə uyğun gəlməsi; 2) sosial bağlılıq, yəni dastanın süjetinin əsasını təşkil edən ədalət prinsipi, ideallar uğrunda mübarizə dövrün ictimai hadisələrinin məzmunu olaraq zülmə qarşı çevrilir. Ə.Cəfəroğlu Koroğlunun mübarizəsinin sosial xarakterini ictimai zülmün milli formaları ilə əlaqələndirir. O yazır ki, «zaman və təfəkkür fərqləri bir tərəfə buraxılacaq olursa… Koroğlunun mücadilə fəlsəfəsində xan – İran, şah – Rusiya, vəzir də - Osmanlı imperatorluğu olsa gərəkdir. Üzərinə bu qədər savaş yükü almaqla o, Azərbaycan tarixinin bu şevalyelik dövrünü bütün çılpaqlığı ilə aydınlatmaqdadır» [16, s.17]. «Koroğlu» dastanının Cəlali hərəkatından üstün cəhətləri də vardır. Cəlali hərəkatı məğlub olsa da, dastan bu hərəkatı öz bətnində yaşadır. Cəlalilər hərəkatına xain çıxanlar dastanda Koroğlu hərəkatına sadiqdirlər. Çünki Koroğlu hərəkatında xalq kütlələrinin mənafeyi müdafiə olunur. Cəlalilər hərəkatında isə şəxsi mənafelər ictimai mənafeyi üstələyir. Bu isə axırda ayrı-seçkiliyə, mənəm-mənəmliyə, Cəlali dəstələri arasında nifaqa, hətta qarşıdurmaya səbəb olmuşdu. Cəlalilər hərəkatı xalq mübarizəsindən ayrılmışdı. Ona görə də orada satqınlıq, xəyanət var idi.

«Koroğlu» dastanında tərənnüm olunan Koroğlu hərəkatı isə milli mənafeyi əks etdirir. Burada daha çox türkçülük və azərbaycançılıq meylləri hiss olunmaqdadır. «Koroğlu» dastanında türkçülük onun ümumtürk kontekstindən xəbər verir, azərbaycançılıq isə Koroğlunun milli-məhəlli kontekstdə Azərbaycan torpağında yaranmasından, bu torpaqlarda baş verən üsyanları, kəndli müharibələrini əks etdirməsindən irəli gəlmişdir.

Azərbaycan xalqının tarixi mübarizələrlə doludur. Bu mübarizələrdə xalqın azadlıq arzusu, milli zülmə qarşı durmaq meyli öz əksini tapır. Çox zaman bu mübarizə ictimai hərəkat səviyyəsinə ucalır. Bu ictimai hərəkat yüzminlərlə insanı öz ətrafında birləşdirir. Xalq bu hərəkata başçılıq edən insana inanır, hər yerdə onun adına hörmət edir və müəyyən zaman keçdikdən sonra onu tarixi qəhrəmana çevirir. Cəlalilər hərəkatı da belə ictimai hərəkatlardan biri idi. Cəlalilər hərəkatı Azərbaycan tarixşünaslığında ciddi şəkildə öyrənilmiş və əsaslı nəticələr əldə edilmişdir. Bu hərəkatın xalq dastanı mövqeyindən öyrənilməsi də vacib məsələdir. Həm də ona görə vacib məsələdir ki, koroğluşünaslıqda bu hərəkatla bağlı bəzi mürtəce baxışların aradan qaldırılmasında mühüm rol oynaya bilər.

«Koroğlu» dastanı Cəlalilər hərəkatını öyrənmək baxımından əvəzedilməz mənbədir. Amma bu o demək deyildir ki, dastanın yaranmasında bu hərəkat bilavasitə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

iştirak etmişdir. Çünki koroğluluq bütün türk xalqlarına məxsus qəhrəmanlıq mövzumu olmuşdur. Dastanın cilalanmasında bu hərəkatın nəticələrindən, nəticənin dastana təsirindən danışmaq real ola bilər. «Koroğlu» dastanının bütün türk xalqları arasında yayılmasına səbəb onun tarixiliyidir, tarixi semantikasıdır. Sovet dövründə «Koroğlu» dastanının sosial tərəfi geniş təhlil edilmişdir, yəni Koroğlunun mübarizəsi bəylərə, xanlara, paşalara, şahlara qarşı olmuşdur. Bu mübarizə sovet tədqiqatçılarının nəzərində daha çox sinfi xarakter daşımışdır. Sovet dövrünün yanaşması «Koroğlu» dastanının millilikdən uzaq araşdırılmasına xidmət edirdi. Bu daha çox XVI–XVII əsrlərin sosial-sinfi hadisələrinin dastanda əks olunmasından irəli gəlmişdir.

**Qaynaqlar**

1. Петрушевский И.П. Очерки из истории феодалных отношений в Азербайджане и Армении в XVI – начале XIX вв. Ленинград, изд. Ленинградского Государственного Университета, 1949, 384 с.

2. Azərbaycan tarixi, 3 cilddə, I cild. Bakı, Elm, 1958, 448 s.

3. Петрушевский И.П. Восстание ремесленников и городской бедноты в Табризе 1571-1573 гг. - Сб. статей по истории Азербайджана, вып.1. Баку, 1949, с. 210-354.

4. Рахмани А.А. Азербайджан в контсе XVI и в XVII веке. Баку, Элм, 1981, 238 с.

5. Петрушевский И.П. Азербайджан в ХВЫ–ХВЫЫ веках. – Сб. статей по истории Азербайджана, вып. 1. Баку, Азернешр, 1946, с. 145-310.

6. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, Maarif, 1992, 477 s.

7. Azərbaycan tarixi, 7 cilddə, III c. Bakı, Elm, 1999, 534 s.

8. Короглы Х.Г., Набиев А.М. Азербайджанский героический епос. Баку, Йазычы, 1996, 305 с.

9. Тверитинова А. Восстанийе Кара Йазыджы – Дели Хасана. М.-Л., Изд. АН СССР, 1946.

10. Лор-Меликова-Сайяр. От легенды к опере: еволютсцйа темы Короглы в Советском Азербайджане. Баку, Йазычы, 1985, 134 с.

11. Fərhadov F. «Koroğlu» dastanının Zaqafqaziya versiyası. Dokt. diss. avtoref. Bakı, 1968, 74 s.

12. Həqqi B. «Koroğlu» – tarixi-mifoloji gerçəklik. Bakı, Nurlan, 2003, 316 s.

13. Bayat F. Köroğlu. Şamandan aşığa, alpdan erene. Ankara. Sayfa Düzeni/Akçağ Dizgi Ünitesi, 2003, 176 s.

14. Гордлевский В.А. Внутреннее состойание Туртсии во второй половине XVI в. Тр. Инст-та востоковеденийа АН СССР, вып. 2, 1940.

15. Təhmasib M.H. Azərbaycan xalq dastanları (orta əsrlər). Bakı, Elm, 1972, 398 s.

16. Caferoğlu A. Azərbaycan Dili ve Edebiyyatının Dönüm Noktaları. Ankara, Azərbaycan Kültür Dərnəyi, 1951.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**_Füzuli Bayat, f.ü.e.d.,_**
**_AMEA Folklor İnstitutu, şöbə müdiri_**
**_fuzulibayat@yahoo.com_**

# SÖZLÜ ƏNƏNƏDƏ YAŞAYAN YAXIN TARİX

## Özət

Sözdə yaşayaraq şifahi yolla sonrakı nəsillərə ötürülən tarixi hadisələr sözlü tarix adı ilə yeni bir elm sahəsinin yaranmasına səbəb olmuşdur. Xüsusən, yaxın tarixi olaylarla bağlı yaddaşlarda qalan və ənənədə formalaşan, variantlaşan, bir sözlə folklorlaşan materialların öyrənilməsi tarix bilincinin, aidiyyat bilincinin təməl qaynağıdır. Tarix və folklor dedikdə məhz sosiologiyanın, antropologiyanın, folklorşünaslığın ortaq məhsulu olan sözdə var olan, qəhrəmanının xalq və sadə insanlardan ibarət olduğu bir elm sahəsi nəzərdə tutulur. Başlanğıcdan bugünə qədər tarix folklor materiallarında - əfsanələrdə, mənkabələrdə, dastanlarda, atalar sözlərində, bayatılarda və s. yaşadılımışdır.

Bu yazıda folklorlaşan yaxın tarix və onun qəhrəmanları araşdırılmaqla bu yeni elm sahəsinin nəzəri problemlərinə də toxunulmuşdur.

**Açar sözlər:** yaxın tarix, folklorlaşma prosesi, tarixi bilinc

## Резюме

Исторические события, живущие в слове, передающиеся устным путём будущим поколениям способствовали созданию новой науки под названием словесная история. Особенно материалы связанные с ближайшими историческими событиями, оставшиесяя в сознаниях людей, сформированные традициями, одним словом, изучение фольклорных материалов является основой для исторических знаний. Говоря, фольклор и история имеется ввиду наука связывающая социологию, антропологию, фольклористику. С самого начала и по сегодняшний день история создается в фольклорных материалах – в легендах, дастанах, пословицах, баяты.

В этой статье исследуется ближайшая история и её герои.

**Ключевые слова:** ближайшая история, процесс фольклоризма, исторический знаток

## Summary

Historical events that passing the future generations with an oral way which lived in a word has caused forming a new science sphere named by history in a word. Especially, the learning of materials which are folklore dealing with the historical events and remained in minds, formed in tradition and being variation is a basic source of history knowledge. When we talk about the history and folklore we mean the science sphere which is the common production of sociology,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

anthropology, folkloristic and the science which its hero consists of folk and pure people. From beginning till today history has lived in folklore materials – legends, ancient sources, proverbs, bayaties and so on.

In this article searching the nearest history and its heroes the theoretical problems of this new science sphere are studied.

**Key words:** the nearest history, the process of being folklore, historical knowledge.

* * *

İnsanlıq tarixi yaşının otuz min ildən artıq olmasına bax-mayaraq, ilk yazıya təqribən altı min il bundan əvvəl keçmişdir. Bu qədər zaman içində tarixi təcrübə, mənəvi mədəniyyət mirası yalnız sözlü şəkildə yaşamış, şifahi ötürmə yolu ilə varlığını qorumağa çalışmışdır. Yazının kəşfindən sonra da sözlü kültür uzun müddət hakim mövqeyini qorumuş, yazı ilə bərabər tarix bilincini yaşatmışdır. Zaman dəyişsə də, insanlıq yeni bir çağa girsə də söz hər zaman birləşdirici ünsür kimi varlığını qoruya bilmişdir. W. Ongun da yazdığı kimi bu gün danışılan 3000-qədər dildən sadəcə yetmiş səkkizinin ədəbiyyat yaratdığı və yüzlərcə dilin isə əlifbasının belə olmadığı bir həqiqətdir.[1] Tarix boyunca hər cür sosial, siyasi, iqtisadi və insani hadisələr sözlü şəkildə folklor məhsulu kimi yaşadılmış, bunlardan bəziləri rəsmi tarixin yazılmasına kömək etmişdir. Ancaq ilk tarixi qeydin düşüldüyü vaxtdan bugünə qədər sözlü tarix materiallarının rolu böyük olsa da o bir elm sahəsi kimi son zamanlarda ortaya çıxmışdır. Şifahi şəkildə yaşayan yaxın tarixi olaylar bir elm sahəsi kimi son altmış ilin məhsulu olduğundan bu problemlə inkişaf etmiş ölkələrin tarixçiləri, sosioloqları və folklorçuları məşğul olurlar. Əslində sözlü mədəniyyəti daha çox inkişaf etmiş türk xalqlarında yaxın keçmişlə bağlı bu mətnlər tarixin yazılmasında və folklorun qurğulanmasında önəmli rol oynamalı idi. Təəssüflə qeyd olunmalıdır ki, türk xalqları, Azərbaycan xüsusilə rəsmi tarixin yazılmasında sözlü tarix materiallarına müraciət etməmişdir. Yaxın tarixlə bağlı çox sayda sözlü tarix anlatıları, xatirələr, şahidlərin ifadələri diqqətə alınmamış, XIX, XX yüzilin tarixi yaddaşlarda var olan tarixsiz yazılmışdır. Sözlü tarix, xüsusilə 1960-cı illərdən etibarən rəsmi tarix sənədlərinə əlavə olaraq yaşayan fərdlərin yaddaşa söykənən hekayələrini, sıravi insanların gündəlik həyatı və özəlligini tarixin araşdırma sahəsinə daxil etmə vasitəsiylə formalaşan və yazıya alma texnologiyalarının inkişafıyla da dəstəklənən elmlərarası bir elm sahəsi və araşdırma üsulu kimi ortaya şıxmışdır. Doğrudur rəsmi bir araşdırma sahəsi kimi 60-cı illərdən gündəmə gəlsə də yazının ilk yarandığı gündən sözlü tarix olmuşdur və yazılı tarixin yaranmasında mühim rol oynamışdır. Tarixin atası adlandırılan Heredotos da tarix kitabını yazarkən bilgiləri xalqların əfsanə, mif, hekayə şəklində yaşayan sözlü tarixindən almışdır. Şifahi şəkildə yaşayan tarix bilgisi həm Herodotun tarixi

[1] Ong W., Sözlü ve yazılı kültür. Sözün teknolijileşmesi (Çev. Sema Postacıoğlu Banon), İstanbul, 1995, s.14


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yazmasında, həm Çin salnamələrinin türklər və ümumiyyətlə, şimal qonşuları haqqında verdikləri tarixi məlumatlarda önəmli rol oynamışdır. Bundan başqa kilsə tarixləri, İslam böyükləri haqqındakı məlumatlar da sözlü tarixə dayanır.

Sözlü tarixin yazılmasını önəmli və vacib edən bir mühim məsələ də zamanla iqtidarların keçmişi öz xeyirlərinə, siyasi hədəflərinə uyğun formada təqdim etmələridir. Bu halda tarixçilər məlumat və sənədləri, iqtidarı mərkəzə alan, onun tarixini izah edəcək şəkildə təşkil edə bilirlər. Siyasi iqtidarlar bununla da kifayətlənməyib asayiş qayğısıyla tarixi hadisələri və buna bağlı sənədləri öz mühakimələrini dəstəklər mahiyyətdə təşkil edə bilirlər. Tarixin bu tərz qeydə keçirildiyi mühitlərdə sözlü tarixin üzərinə böyük vəzifələr düşür. Belə ki, Azərbaycanda müsavat dövrünün sovet rejiminə zidd olduğu üçün saxtalaşdırıldığı, bununla bağlı sözlü tarixin qeydə alınmaması iqtidarların siyasi məqsədlərlə sözlü tarixə önəm verməməsinə, ermənilərin Azərbaycanda törətdikləri zülmü ört-basdır etməsinə misaldır.

**Yaxın Tarixlə Bağlı Folklorlaşan Materiallar**

Folklor materialları içində diqqətdən kənarda qalan yaxın tarixlə bağlı anlatılar tarixi-folklorik baxımdan böyük dəyərə sahibdir. Etnik mədəniyyətin özünəməxsus ifadə tərzi olan yaxın tarixlə bağlı söyləmələrin sahəsi qaçaq hərəkatından, erməni zülmünə, bolşevik özbaşınalığından ailə dramına, köçlərdən zorla yerləşdirməyə, dini-irfani yerlərin bağlanmasından ateist təbliğata, II cahan savaşından Qarabağ faciəsinə qədər genişdir. Tarixlə sosiologiyanın, folklorla xatirənin qovşağında var olan yaxın tarixi olaylar ümumilikdə sözlü tarix adlandırılan yeni elm sahəsinin yaranmasına səbəb olmuşdur.

Ancaq uzun zaman Sovetlər İttifaqında bu tip yeni yaranan elmlərə bəzi siyasi səbəblərdən, dünyaya qapalılıqdan əhəmiyyət verilməmiş, sözlü şəkildə yaşayan, söylənməklə canlı tutulan, tarixin xalq yorumu deyə biləcəyimiz bu sahəsi araşdırılmamışdır. Ona görə də toplama işi ilə məşqul olanlar yaxın tarixlə bağlı söyləmələrə diqqət verməmiş, bu materialları yazıya almaqdan çəkinmişlərdir. Digər tərəfdən yaxın tarixlə bağlı anlatılanları klassik folklor baxımından dəyərləndirdikdə hər hansı bir janr adı altında öyrənmək də mümkün kimi görünməmişdir. Bu halda kəndin, bölgənin, hətta ailənin tarixi ilə bağlı söylənənlər sözlü tarix elmindən xəbərsiz olan toplayıcı üçün anlamsız görünmüşdür. Tarix bütün zamanlarda folklorun mövzu rəngarəngliyinin əsas materialı olmuşdur. Ona görə də folklor ekspedisiyaları zamanı söyləyicilər folkloru daha çox tarix kimi anlayırlar. Əslində folklorun özü elə tarixdir, xalqın gördükləri, eşitdikləri haqqında ümumiləşmiş, variantlaşmış folklor özəlliyi almış tarixdir. Xalq da şifahi şəkildə yaşatdığı materiallara tarix adını verməklə tarixin bir ədəbiyyat sahəsi olduğunu təsdiqləmiş olur.

Folklor toplayanların qarşılaşdığı problemlərdən biri də xalqın folklora tarix deməsi və söyləyiciləri də filankəs yaxşı tarix bilir deyərək təqdim etməsidir. Bunun əsas səbəblərindən biri folklorun doğrudan da tarix olmasıdır. Bu xalqın özünün özü haqqında danışdığı tarixdir, özünün iştirak etdiyi, qəhrəmanın da özü olduğu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tarixdir.[2] İkinci səbəb Aristotelesin də yazdığı kimi o dövrdə tarixin ədəbiyyatın bir növü olması idi. O zamandan bu zamana qədər xalq tarix dedikdə folklor, ədəbiyyat başa düşmüşdür. Bu gün canlı şəkildə yaşayan və ən çox anlatılan yaxın tarixi hadisələrdir. Bunlar folklorlaşmağa doğru gedən, ancaq hələ də bəlli bir janr özəlliyinə bürünə bilməyən söyləntilərdir. Onun mövzusu, qaçaqçılıqdan sovetləşməyə, Şamda, Hələbdə, Nəcəfdə və b. dini mərkəzlərdə təhsil alıb gəlmiş din nümayəndələrinin repressiyasından, qatı təmizliyi, düzlüyü ilə seçilən insanlara, xırda oğrulardan kənd qoçularına, baməzə adamlardan tutmuş kəndin tarixinə qədər geniş bir sahəni əhatə edir. Sözlü tarixin ilk məqsədi fərdlərin həyat hekaylərini anladan, səs və ya görüntü yoluyla söylənənləri yazamaqla bir arxiv meydana gətirməkdir. Bu arxiv sözlü tarixlə məşğul olanların maraq sahəsinə bağlı olaraq müəyyən tarixi dövr və mövzular üzərinə hazırlanacaq məhsulların ana vəsaitini meydana gətirir. Şifahi tarixin mövzusu sadəcə yaxın keçmişdə baş vermiş önəmli əhvalatlar deyil, hətta seçilmiş bir insan, ailə, birlik, məhəllə və ya bölgə də ola bilər. Dünya təcrübəsində sözlü tarix arxivləri, muzeyləri yaradılmışdır ki, bunların da əsas materialını səs yazıları, qismən də video görüntüləri təşkil edir. Ona görə də yaxın zamana qədər sözlü tarix arxivləri əksəriyyətlə səs qeydlərindən meydana gəlməkdə, bu qeydlərdən rəsmi tarix yazılışında da istifadə edilməkdə idi. İndi yaxın tarixlə bağlı söylənənləri həm də videokameraya almaqla görüntü məhsullarından ibarət arxiv də yaradılmaqdadır. Bu gün yeni texnologiyalar multimedya məhsulları yaratmağa imkan verərkən, postmodernizm müzakirələri məzmununda şəxsiyyət, təhkiyə, yaddaş və özəllik kimi mövzular ictimai elmlərin qabaqda gələn iş sahələrini meydana gətirmiş və bu iki inkişaf, şifahi tarixin 2000-ci illərdən etibar dəyər qazanmasına səbəb olmuşdur. Sözlü tarix üçün istər Orta Asiya, istər Türkiyə, istərsə də Azərbaycan potensial olaraq çox məhsuldar bir sahədir. Türkiyə cəmiyyətinin keçmişə istiqamətli marağı yeni inkişaf etməkdə və insanlar günümüzü anlama səyiylə üzlərini keçmişə döndərməkdədirlər. Həm xalq mədəniyyətində, həm də akademik tarixçilikdə erməni zülmü, sovetləşmə, Qarabağ hadisələri, yaxın tarixdə baş vermiş qaçaqçılıq hərəkatı önəmli yer tutsa da sözlü tarix hər zaman öncü olmuş, çeşidli mövzularda hekayələr yaratmışdır.

Dünyada fərdiyətçiliyin önə çıxdığı 60-80-ci illərdə, yeni iqtisadi münasibətlər, işsizlik, mənəvi boşluq və bunlara əlavə olaraq şəxsiyyətin aşınması kimi bir çox problemlər sözlü tarixə olan əlaqəni daha da artırmışdır. Məsələn, bir insan şifahi tarix üsulunu öyrənərək öz ailəsinin keçmişini, soykökünü araşdıra bilər, bir qrup insan könüllü olaraq öz kəndlərinin tarixini yaza bilər, bir araşdırmaçı məhəllənin, bölgənin tarixini araşdıra bilər. Qısacası, sözlü tarix həm elmi baxımdan, həm də gündəlik həyat hadisələri baxımından olduqca əhəmiyyətli araşdırma sahəsidir. Burada folklor

[2] "Tarix" termini Avropa dillərinə yunanca "istoria, istorien" sözündən keçmişdir. Yunancada bu söz "bildirme", "xəbər almaqla bilgi əldə etmək", "görərək, şahid olaraq bilmək" mənasına gəlir. Bu söz latınlarda historia, italyanlarda storia, fransızlarda histoire, ingilislərdə history, almanlarda historie, ruslarda istoriya formasında işlənir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

üçün maraqlı olan cəhət sözlü şəkildə yaşayan tarix deyil, daha çox bu sözlü tarixin bəlli bir ənənə daxilində formalaşması, kollektivin məhsulu olması, variantlaşması və s.dir. Azərbaycan üçün yaxın tarix XX yüzilin əvvəllərində ermənilərin törətdikləri zülm, fəsad, xəyanət və onlara kömək edən yerli satqınlar, öz xalqına, dilinə, dininə, mədəniyyətinə xor baxan insanlardır. Bu mövzuların toplanıb yazıya alınması, araşdırılması sadəcə folklor və tarix elmi üçün deyil, sosiologiya, etnopsixologiya elmləri üçün də materialdır. Bizim üçün ən yaxın ümummilli tarix Qarabağ hadisələri, erməni və rus birliklərinin vəhşiliyi, torpağın işğalı, qaçqınlar problemi, savaş xatirələri və bu müstəvidə yaranan sözlü tarixdir. Əslində Qarabağın işğalı, vəhşiliklər, insanların zülmə uğraması və s. iştirakçıların, şahidlərin anlatdıqlarına görə yazılmalı, folklorlaşan yaxın tarix, rəsmi tarixə material verməlidir.

Sözlü tarixin əsas materialı insandır. İnsanın həyatı, fəaliyyəti ilə bağlı hadisələr rəsmi tarixin sahəsini daha da genişlətməklə bərabər tarixə yön verənlərin, axarını dəyişənlərin sadəcə liderlər deyil, xalq içindən çıxmış sadə insanların, toplumun, bir sözlə, xalqın olduğunu vurğulayır, tarix bilincinin folklor bilinci ilə birləşməsini, eyniləşməsini saxlayır. Yaxın tarix sözlü variantı ilə tarixin anlamını dəyişdirir, tarixi hadisələrdə xalqın fəal iştirakını təmin edir, xalqda keçmişinə sorumluluq hissi ilə birlikdə aidiyyət duyğusu da yaradır. Yaxın tarix həm də yerli, bölgəsəl tarixdir, hər kəndin, tayfanın, rayonun tarixidir. Bu isə o bölgənin insanlarında söylənən folklor materiallarına tarixi dəyər kimi baxmaq, ona sahib çıxmaq hissi aşılayır.

Bir çox Avropa ölkələrində, Türkiyədə sözlü olan yerli tarixi öyrənmək üçün tarix atölyeləri yaradılmışdır. Buraya keçmiş hadisələri yaxşı bilən, öz bölgəsinin sözlü tarixi ilə maraqlananlar dəvət olunur, şifahilik üzərində qurulan və sözlü yaşayan folklorlaşmış tarix materialları toplanır, maddi mədəniyyət abidələri ilə tamamlanır və ortaya yaxın tarixə və keçmişə aid məlumatlar çıxarılır. Belə dərnək, atölye və s. adı ilə birləşən, yerli tarixi öyrənən qrupların Azərbaycanın bütün bölgələrində yaradılması ən vacib məsələdir.

Sözlü tarix nəsillər arasındakı bağı möhkəmlədir, şifahi yolla ötürülən tarix bilinci vasitəsi ilə gənclərdə doğma torpaqlarına məhəbbət hissi aşılayır, şahidlərin anlatdıqları ilə materialın doğruluğunu isbatlamış olur. Yaxın tarixin qurulmasında həm də xatirələrin böyük rolu vardır. Ancaq Azərbaycanda istər yaxın tarixlə, istərsə də baş vermiş olaylarla bağlı xatirə yazmaq adəti zəif olduğundan sözlü tarixi tamamlayacaq, dəqiqləşdirəcək tək şeyin folklorlaşan tarix olduğu görülür. Buna baxmayaraq, yaşı 80-in və ya 100-ün üzərində olan insanlardan yaxın tarixə aid folklorlaşmış materialların toplanması üçün xüsusi anket sorularının hazırlanması, bunun üçün ekspedisiyaların təşkil edilməsi lazımdır. Toplanan materiallar siyasi, sosial, folklor tarixi baxımından təsnif edilməli, yaxın tarix şahidlərin gözü ilə tarix çalışmalarına yardım etməlidir.

**Folklor janrlarında qorunan xalq tarixi**

Tarixi hadisələr böyük və ya kiçik olmasından asılı olmayaraq, insan cəmiyyətində hər zaman müəyyən izlər buraxmışdır. Yazıya keçirilməsinə baxmayaraq, bu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

hadisələrdən çoxu xalqın yaddaşında uzun müddət yaşamaqla sözlü ədəbiyyatın bu və ya digər janrının yaranmasına səbəb olmuşdur. Klassik ədəbiyyat və əsasən də folklorun daxil olduğu hər hansı bir ədəbi mətndən tarixi sənəd, tarixi məlumat kimi necə istifadə edildiyini ilk dəfə Fuad Köprülü başlatmışdır. F. Köprülü tarixi sadəcə xronoloji və bioqrafik məlumata çevirən münasibətin yetərli olmadığını bildirməklə ədəbiyyat əsərlərinin tarixi qaynaq ola biləcəyini yazmışdır.[3] Burada arxaik dastanlardan, klassik qəhrəmanlıq dastanlarından tarix yazmaqda faydalanan və dastanlardan istifadənin texnologiyasını yaradan Z.V. Toganı da xatırlamaq lazımdır. Onun Oğuznamələrdən Oğuzların tarixini çıxarması sözlü tarixin rəsmi tarixə dönüşümünün örnəyidir.[4] Keçmiş Sovetlər İttifaqında da dastan-tarix münasibəti haqqında uzun müddət mübahisə açılmış, rus bilim adamı Rıbakovla Propp bu mübahisədə fəal iştirak etmişlərdir. Şifahi mədəniyyəti güclü olan xalqlarda, o cümlədən də türklərdə folklor janrlarının tarixi olaylarla səsləşməsi, tarixi yaşatması daha bariz olmuşdur. Dövlət qurmaq, torpaqlarını qorumaq üçün türklərin apardıqları savaşlar, doğudan batıya və ya əksinə doğru köçlər, yeni torpaqların mənimsənilməsi dastanlarda öz əksini tapmışdır. "Ərgənəkon", "Şu", "Köç" dastanları bu tarixi hadisələrin dastanlaşmış formasıdır. İnsanın dünyaya gəlişi və dünyadan gedişi laylalarda, ağılarda, sosial, siyasi və etnik çatışmalar əfsanələrdə, özümüzə və başqalarına gülməyimiz lətifələrdə yaşadılmışdır. İç dünyamız, sevgimiz, sevincimiz mahnılarda qorunmuşdur. Bir sözlə, tariximiz folklorumuzun içində yaşamışdır. Sözlü ədəbiyyatımızın həm də sözlü tariximiz olduğunu Abrahams doğru olaraq belə xarakterizə edir: "Burada ədəbiyyat qavramını bütün tərəfləri və anlaşılması ilə birlikdə oxumaqda fayda vardır. İlk yazılı ədəbi məhsullar tarixçilikdə olduğu kimi uzun zaman sözlü ənənənin yaşadılmasıyla yaradılmışdır. Dastanlar, nağıllar, xalq hekayələri, mənkabələr, qəzavatnamələr, məsnəvilər buna misal ola bilər. Keçmişdə nələrin yaşandığına dair tarixçilərə bilgi verən eyni əfsanə kültürəl təhlillərlə tarixi və mədəni inkişafın necə bir-birini tamamladığını nəql edərək söyləndiyi olayları bizə saxlar."[5]

Mifdən tutmuş atalar sözünə, layladan tutmuş məhəbbət dastanlarına, ağılardan tutmuş əfsanələrə qədər sözlü tarix varlığını folklor janrlarında qoruya bilmişdir. Folklor elə mürəkkəb hadisədir ki, onda tarixlə sosiologiya, psixologiya ilə din, ədəbiyyatla ritual iç-içədir. Tarix yazılsa da, yazılmasa da, folklorun ruhunda hər zaman yaşamışdır və yaşamağa da davam edir. P. Thompsona görə, yazıdan əvvəlki dövrdə zaman, səma, sənət, peşələr, qanun və danışıqlar, ticari əməliyyatlar, qısacası, bütün ictimai təcrübənin ağılda tutulması lazım idi.[6] Bütün bunlar kollektiv yaddaşda yaşadığından yazılaraq sonrakı nəsillərə çatdırılması ən vacib məsələdir. Hətta

---

[3] Köprülü F., "Anadolu Selçuklu tarihinin yerli kaynakları", Belleten,Temmuz, 1943, c.7, Sayı 27, 1943, s.379-486
[4] Bax: Togan Z. V., Oğuz destanı. Reşideddin oğuznamesi, tercüme ve tahlil, İstanbul, 1972; Togan Z. V., Umumi Türk Tarihine Giriş, İstanbul, 1981; Togan Z.V., Tarihte usul, İstanbul, 1985
[5] Abrahams R.D., "Story and history. A folklorist wiev", Oral history review, IX, USA. 1981, p.3
[6] Thompson P., Geçmişin sesi (Çev. Şehnaz Layıkel), İstanbul, 1999, s.20



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

yazının kəşfinin ilk dövrlərində belə yazı bir məlumatı meydana gətirən və bunu qeydə alıb düşüncəni asanlaşdıran bir alət olmaqdan çox yalnız anbar məmurlarının hesab işlərində istifadə edilən bir alətə çevrilmişdi.[7]

Yazının ilk dövrlərində və ondan da əvvəl tarix sözlü şəkildə yaşamışdır. Folklor bu sözlü yaşamın ən bariz nümunəsidir. Uzaq sözlü tarix yaddaşlardan silindiyi kimi folklor da uzun zaman repertuarda qalmır. Dəyişən dünya sözlü tarixlə bərabər folklora da təsir edir.

**Son Söz**

İnsan oğlunun yaxın tarixlə bağlı yaddaşı və yaddaşında qalan hadisələrdən böyük bir qismi zamanla bu və ya digər folklor janrı şəklində qurulur və ya bu janrların yenidən təşkilində mühüm rol oynayır. XXI yüzilə qədəm qoyduğumuzda milli varlığımızın yeni nəsillərin qəbul edə biləcəyi bir nəzəri çərçivə içində yenidən hazırlanıb təqdim edilə bilməsi üçün sözlü tarix çalışmalarının humanitar elmin bütün sahələrinə daxil edilməsi lazımdır. Həm uzaq keçmişin, həm də yaxın keçmişin hadisələrini daha yaxşı anlayıb başa düşmək üçün şifahi ənənədə yaşayan tarixlə birlikdə folklor materiallarına da baxmaq lazımdır. Əslində folklor özü yaddaşlarda qalan, ümumiləşən, öz qanunları ilə fəaliyyət göstərən tarixdir. Xalq öz tarixini folklorda yaşatmaqla özünü də yaşadır və gələcəyin hazırlanmasında mühüm rol oynayır.

**Qaynaqlar**

1. Abrahams R.D., “Story and history. A folklorist wiev”, Oral history review, IX, USA. 1981
2. Dupont F., Edebiyatın yaratılışı (Çev. Necmettin Sevil), İstanbul, 2001
3. Köprülü F., “Anadolu Selçuklu tarihinin yerli kaynakları”, Belleten,Temmuz, 1943, c.7, Sayı 27, 1943
4. Ong W., Sözlü ve yazılı kültür. Sözün teknolijileşmesi (Çev. Sema Postacıoğlu Banon), İstanbul, 1995
5. Thompson P., Geçmişin sesi (Çev. Şehnaz Layıkel), İstanbul, 1999
6. Togan Z. V., Oğuz destanı. Reşideddin oğuznamesi, tercüme ve tahlil, İstanbul, 1972
7. Togan Z. V., Umumi Türk Tarihine Giriş, İstanbul, 1981
8. Togan Z.V., Tarihte usul, İstanbul, 1985

[7] Dupont F., Edebiyatın yaratılışı (Çev. Necmettin Sevil), İstanbul, 2001, s.19



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Gülsümxanım Hasilova,***
***AMEA Folklor İnstitutu, elmi işçi***
***hasilova1990@box.az***

# TARİXİ ROMAN VƏ FOLKLOR
(Ə.Cəfərzadənin “Bakı – 1501” romanı əsasında)

**Özət**

Tanınmış alim və yazıçı Əzizə Cəfərzadə tərəfindən yazılmış «Bakı – 1501» romanı böyük Azərbaycan şairi və dövlət xadimi Şah İsmayıl Xətaiyə həsr olunmuşdur.

Bu romanda yazıçı oxuculara tarixi hadisələri çatdırmaq üçün folklor qaynaqlarından, bayatı, nəğmə, əfsanə, nağıllardan istifadə etmişdir.

**Açar sözlər:** Ə.Cəfərzadə, tarixi roman, folklor, Şah İsmayıl Xətai, müharibə, bayatı

**Резюме**

Исторический роман «Baku – 1501», написанный известной ученой и писательницей Азизой Джафарзаде посвящен великому азербайджанскому поэту и государственному деятелю Шах Исмаилу Хатаи.

В этом романе А.Джафарзаде, которая внесла большую лепту в собирание и изучение азербайджанского фольклора, широко использовала такие жанры фольклора как сказки, колыбельные песни, баяты для воссоздания исторических событий.

**Ключевые слова:** А.Джафарзаде, исторический роман, фольклор, Шах Исмаил Хатаи, война, баяты

**Summary**

The historical novel “Baku – 1501” written by Aziza Jafarzadeh is dedicated to great Azerbaijan poet and stateman Shah Ismail Khatai. In order to deliver the historical events to the readers the writer had used the folklore sources such as bayati, song, legend, tale.

**Key words:** A.Jafarzadeh, historical novel, folklore, Shah Ismail Khatai, war, bayati

* * *

Yazılı ədəbiyyat üçün həmişə əvəzsiz və qiymətli mənbə rolunu oynayan folklor tarixi roman yaradıcılığında eyni ümumi ənənələrdən çıxış etmişdir. Folklordan gələn ayrı-ayrı mövzu, motiv, obrazlar və s. bu janrda cəmiyyətin sosial-siyasi, mənəvi-əxlaqi problemlərinin daha təsirli, bədii, poetik dillə ifadələnməsinə əsas vermişdir. Yaradıcılığının böyük bir hissəsi tarixi romana bağlanan Ə.Cəfərzadənin bədii irsi də folklor qaynaqlarından bəhrələnmə, onlara yaradıcı yanaşılması baxımından seçilir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Ədəbi-elmi fəaliyyətində tədqiqatçılıqla toplayıcılığı birləşdirən ədib bu irsdə tarixi hadisə və faktlara daha çox diqqət yetirməklə, bu məlumatları folklorla əlaqəli şəkildə əks etdirmişdir.

Azərbaycan ədəbiyyatında tarixi romanları ilə tanınan Əzizə Cəfərzadənin "Aləmdə səsim var mənim" (1972), "Bakı – 1501" (1981), "Vətənə Qayıt" (1977), "Bəla" (1999), "Yad et məni" (1980), "İşığa doğru" (1998), "Cəlaliyyə" (1983), "Sabir" (1989), "Zərrintac-Tahirə" (1996), "Gülüstandan öncə"(1996) romanları daha çox tarixi faktlar və folklor motivləri əsasında yazılmışdır. Əzizə Cəfərzadənin romanlarında tarixi şəxsiyyətlərin obrazları folklor motivlərinə istinadən yaradılmışdır.

Ədibin qeyd olunan bu silsilə romanları içərisində folklorun ayrı-ayrı janrlarından geniş istifadə olunması baxımından "Bakı – 1501" romanı xüsusi yer tutur. Burada yazıçı Şah İsmayıl Xətaini hərtərəfli təsvir etmişdir. Ə.Cəfərzadə tarixi hadisələrin əzəmətini oxucuya çatdırmaq üçün folklor qaynaqlarından da geniş istifadə etmişdir. Xalq ədəbiyyatının müxtəlif janrlarına yer verdiyi "Bakı – 1501" tarixi romanı müxtəlif əfsanə, rəvayət, xalq deyimi, nəğmə, bayatı, inanc və sınamaları ilə zəngindir.

Romanda diqqəti cəlb edən cəhətlərdən biri xalqın əfsanə, nağıl, rəvayətlərin xüsusi yer verilməsidir. Xalqın tarixini, keçmişini, mübarizəsini, milli heysiyyətini, mentalitetini əks etdirən rəvayət və əfsanələrdən romanda məqsədəuyğun şəkildə istifadə olunmuşdur. "Bibiheybət piri", "Qanlı qışlaq", "Qız qalası" haqqında əfsanə və rəvayətlər əsərdə bilavasitə yazıçının bədii qayə və fikrinin ifadəsində başlıca yer tutur. Romanda "Bibiheybət piri" ilə bağlı rəvayətdən geniş bəhs olunur. Orada deyilir:

"Qazı bəy el arasında "Qırx qızlar"adlanan qayaları çox sevirdi. Danışırdılar ona, demişdilər ki, "Qırx qızlar"ın faciəli macərası var. Bir zaman şiələrin VIII İmamı İmam Rza Xəlifə Məmun tərəfindən zəhərlənib öldürüləndən sonra onun bacısı Hökumə Xatın düşməndən qaçır, Xəzərə pənah aparır. Xorasan hakimi İmam Rzanın bacısı Hökumə Xatının 40 kənizi var imiş. Xanım Heybət adlı birisinin gəmisinə minib qaçanda kənizlərini də özü ilə götürür. Qaçqın qızlar həmin sahilə yan alırlar. Az sonra Hökumə Xatın vəfat edir. Onu buradaca dəfn edirlər. Kənizlər doğma ana qucağından, vətənindən qoparılıb, diyar-diyar düşmüş qızlar həmin bu yerdə qaya dibində daşa dönürlər. Qayalardan sızan su, onların göz yaşlarıdır. Həzin ninnilər onların sızıltısıdır. Analarını səsləyirlər, vətənmi üçün ağlayırlar? Kim bilir?"(1,11).

Bu rəvayət birbaşa Qazı bəyin xarakterinin açılması ilə bağlıdır. Bundan başqa Ə.Cəfərzadə "Bakı – 1501" romanında "Qanlı qışlaq" haqqında digər rəvayətdən də istifadə etmişdir.

"Bulud kişi qızı Aytəkinə "Qanlı qışlaq" haqqında qısa danışdı. Bir vaxt bizim ulu babalarımızdan birinin qızı qəbilənin yerini düşmənə göstəribmiş. Demə, qız, düşmən qəbilənin oğluna bənd olubmuş, ona inanıbmış. Atasının hökmüylə qızı həmin qışlaqda öz qardaşı qanına qəltan eləyib. Ona görə adı da "Qanlı qışlaq" qalıb"(1,50). Bu rəvayət isə Aytəkinin xarakterini səciyyələndirir. Əzizə Cəfərzadənin bu romanında xalq arasında geniş yayılmış "Qız qalası" haqqında əfsanə öz əksini tapmışdır. "Düşmən müharibəyə hazırlaşan ərəfədə Xüləfa bəy bələdçidən soruşdu:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

- Başı buluddan, ayağı dəryadan nəm çəkən bu binə nədi?

- Bu yerlərdə məşhur "Qız qalası"dı, deyirlər qız, bəkarətli, alınmaz olduğundan "Qız qalası" qoyublar adını".

Əzizə Cəfərzadə hadisələrin təsvirində xalq ədəbiyyatının bayatı, nəğmə, laylay, and, oxşama, nağıl, dastan, sayaçı sözləri və s. janrlarına müraciət etmiş və onlardan bəhrələnmişdir.

O, "Bakı – 1501"romanında nağıldan da bu şəkildə istifadə etmişdi. "Bütün dunyası bircə öz qəbiləsindən, kəndindən ibarət olan Çiçək qarı müharibə haqqında yalnız nağıllarda eşitmişdi. Cavanlıqda bir neçə dəfə təbəh davası görmüşdü. O zaman kənddə iki cavan bir gözəl qızı sevib-istəmiş, qız bunlardan birinə meyl etdiyi üçün cavanlar arasında küdurət düşmüş, qohum-əqrabaları iki yerə bölünmüş və sapand davası başlanmışdı. Hər iki tərəf sapandlara qoyduqları daşları bir-birinə tullamış və xeyli yaralanan olmuşdur. Kənd ağsaqqalları araya düşüb, mərəkəni yatırtmışlar. Bir dəfədə hansı bir köçəri tayfa isə onların yerlərinə gəlib çıxmış, otlaqlarını otartmış və qəbilə əhli bütünlükdə köçəriləri qovub öz yerlərindən çıxarmışdı. Onda da kişilər çuxalarını qollarına dolayıb, çomaqlarını işə salmışdılar. Yenə xeyli yaralanan, başı-gözü əzilən olmuşdur, amma ölən olmamışdır" (1,39).

Məlum olduğu kimi, folklorumuzda xalq məişətində daha geniş istifadə olunan janrlar mövsüm və mərasim nəğmələri ilə bağlıdır. Yas, toy, nəğmə bayatıları, aşiqanə xalq mahnıları bu istiqamətdə xüsusilə aparıcı mövqedə durur. Ə.Cəfərzadənin qeyd olunan tarixi romanında da obrazların psixoloji vəziyyəti, ruhi ovqatı xalq nəğmə bayatılarının lirizmində ifadə olunur.

"Sultan Yaqubun nəvəsi Abdin bəyin qızı Taclı xanımı İsmayıl həmyaşları ilə at minib çapanda, həmyaşlıları ilə qılınc oynadan görmüşdü. Bir neçə il idi ki, Taclı xanım "Ev qızı, Ev gəlinləri" adı ilə çox gənc ikən saraya gətirilmiş qəbilə daşı olan qızlar deyərək, onu at üstündə sarayacan müşayiət edib oxumuşlar.

Taxtın bərəkallah,gəlin
Bəxtin bərəkallah!
Ağ əllərə əlvan həna,
Yaxdın bərəkallah,gəlin,
Yaxdın bərəkallah"

Burada qəbilə daşı qədimdə xalq arasında yaşayan adət-ənənələrin bir nişanəsidir. Qəbilə daşı-uğur daşı mənasında işlədilir. Yəni ki, qədim zamanlarda bir qəbilənin üzvü digər tayfadan qiz sevərsə, öz yaşadığı məskənə daş aparardılar. O daşın düşərli olması, toy mərasimləri ilə başa çatırdı. Hal-hazırda da, Azərbaycanın bəzi yerlərində bu adətlər yaşamaqdadır. (Məsələn, Şəki-Zaqatala). Bununla yanaşı, xına ənənələri də ölkəmizin bütün bölgələrində geniş şəkildə qeyd edilir.

Bəzi məqamlarda yazıçı xalq bayatılarından da istifadə edir. Bu bayatılar surətlərin xarakterini açmağa yönəldilmişdi. Məsələn:

"Taclı xanım İsmayılı yola salırdı.(1,117).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Get, - deyirdi, - zəfərlə qayıt- deyirdi, mövlam sənə yar olsun - deyirdi, qırxlar piri, ermiş ərənlər duaçın olsun, - deyirdi. Qızıl camı doldurur, kirpiklərindən süzülən yaşları çeşmənin duru suyuna qatıb ardınca atırdı.

Su içdim qurtum-qurtum,
Əl ver, əlindən tutum,
İki dünya bir olsa,
Sənsən mənim umudum.(1,118)

deyirdi.

Kirpikləri islananacan baxırdı.
Ay doğar, aşmaq istər,
Gül dodaq yaşmaq istər
Mənim bu dəli könlüm
Yara qovuşmaq istər."

Eləmi düşən ağlar,
Qürbətə düşən ağlar,
Düşmən gözünə düşsün,
Saçına düşən ağlar.

Eləmi xan ədalı,
Kölgədə xana dalı,
Bir oğul itirmişəm,
Xan elli, xan ədalı."(1,181)

Romanda ayrılıq, həsrət, qürbət motivlərinə bağlı lirik nümunə; bayatı ilə yanaşı ayrıca mahnı mətnlərinə də yer verilmişdir. Folklorumuzda daha çox "əzab çəkən aşiq", "yaralı sevgili" obrazlarının simvollaşdırıldığı "Bülbül"ə müraciətlə başlanan nəğmələr burada da ayrıca yer tutmaqla əməkçi, sadə xalq nümayəndəsi və el toylarının xanəndəsinin dili ilə verilir.

Səhərdən ağlayan bülbül,
Sən ağlama, mən ağlaram.
Ciyərim dağlayan bülbül,
Sən ağlama, mən ağlaram.

Bülbülüm geydin yaşılı,
Süsən sünbülə dolaşı.
Ağlamaq mənə yaraşı,
Sən ağlama, mən ağlaram.

Bülbülüm geydiyi sar
Mən ağlaram zarı-zarı,
Itirmişəm nazlı yarı,
Sən ağlama, mən ağlaram"(1,119).


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Başqa bir nümunə:

“Müharibə zamanı zəmidə hələdə qoşunun yaxınlaşmağından xəbərsiz olan cavan bir biçinçi ucadan oxuyurdu.

Çəmlərində bitər arpa,
Atlar gələr qırpa-qırpa.
Gözəl yar qoynunda körpə-
Gələ, bülbülüm, gələ
Gülə, bülbülüm gülə!
Bağlarında bitər üzüm,
Qaş-gözündə qaldı gözüm,
Mənim yarım körpə quzum-
Gələ, bülbülüm, gələ
Gülə, bülbülüm, gülə!”(1,74)

Başqa bir nümunə:

Eləmi sinə-sinə,
Yar gəlir sinə-sinə,
Dünyaya sığmaz başım
Sığıbdı sinəsinə”. !(1,69)

Digər bayatıda isə Qazı bəy Bibixanımın oxumaq səsini eşidir.

Araxçının yan qoyub,
Yan qoyub, bu yan qoyub,
Qapıdan keçən oğlan,
Ürəyimə qan qoyub”(1,13).

Azərbaycan folklorunda əncir ağacı ilə bağlı nümunələr çox geniş yayılmışdır. Əzizə Cəfərzadə “Bakı – 1501” romanında əncir ağacına aid inanclardan və xalq deyimlərindən istifadə etmişdir.

“Bibixanım anasının ilki olduğu üçün, ona deyərdilər qaç, bir əncir ağacını yellət. Onda qız əncir ağacının dibinə qaçar, kövrək budaqları tərpədər və gülərək deyərdi.

Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm,
Xəzri get, gilavar gəl.

Babası Bibixanımı yuxudan oyadıb, əncir yeməyə çağırırdı.

Əncir sabahı,
Doldur tabağı,
Aç qaşqabağı,
Ay sarı sabahı.

- deyə oxuyar, qızı da şəfalı meyvələrdən yeməyə çağırardı,

Xalq məişətində yer alan ilkin sınama, ovsunlar da “Bakı – 1501” romanında tarixi adət-ənənə, inancların işığında ümumiləşdirilir. Ata-babaların tarixin daha qədim çağlarında təbiətlə birliyi, ona təsir göstərmək, qalib gəlmək, eləcə də insanın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

fövqəl qüvvələrlə mübarizəsi fonunda yaranan ovsunlar əski dünyagörüşü kimi Ə.Cəfərzadənin bu romanında da ayrıca diqqət mərkəzində saxlanılmışdır. Təbiətə, iqlim-havanın idarə olunmasına ovsun sözlə təsirin magik gücü və bu gücün əlaqələndirdiyi əski xalq inancları romanda geniş təfsilatı ilə verilmişdir.

Ənciri yemədin getdin,
Dərdivü demədin getdin.

Külək boğanaq salanda, onu qovardılar.

Ayran verməz öyünə,
Qonağ qoymaz öyünə

İnanırdı ki, Xeyransa arvadın öyrətdiyi bu "ovsunu" oxuyan kimi xəzri kəsəcək, sərin gilavar gələcək,daha gözlərinə qum dolmayacaq, mocalanda yağtikan üstə gün qabağında sərdiyi kəhrəba kimi əncirləri qum vurub xarab etməyəcəkdi".

Əzizə Cəfərzadənin "Bakı – 1501" romanında xalq adət və ənənələri də ayrıca dolğunluqla əks olunmuşdur. Məsələn:

"Ləngəbiz dağ silsiləsinin lap qutaracağında bir qəbilə var idi. Vaxti ilə qoca əfəndi qəbilənin "Odlu"adını dəyişib "Məhəmmədli"qoymuşdur. Rəsmi amil kitablarında indi qəbilə beləcə də qeyd olunmuşdur. Amma amillərin dilində kənd "Govurlar" olub qalmışdır (1, 34). Adətlərin çoxunu da qarılar qoruyub saxlayır, onlara təzə don geydirə-geydirə əsl kökünü mühafizə edirdilər. Görürdün ki, təzə gəlin gələn günün ertəsi,günəş çıxan kimi,qarılardan biri gəlini yerindən qaldırıb, onu günəşi salamlamağa aparırdı. Bu yerlərdə qocanın vaxtında doğulan usaqlara molla "Quran"dan ad çıxarıb verirdilər".

Burada "qəbilə şənbə,çərşənbə kimi gün adlarını yadda saxlamaq istəmirdi. Həftənin günlərini öz qədim adətlərincə xas günü, duz günü, tək günü, süd günü,ayna günü adlandırırdılar. Məsələn, süd günü süd yığırdılar. Aylarında adını qoyunçuluqla bağlamışdılar: Güzdük, döl, döl ardı, qarbasan, boza, körpə bara, əmlik və s". (1,36).

Romanda xalq inancları, əski dünyagörünüşün izinə bağlı and, alqışlar da ayrıca yer tutur. "O gün haqqı", "Bu ocaq haqqı", "Şamçıraq haqqı", "İşıq haqqı", "Mirzali hakim: Qurani Məcidə and içirəm İsmayıl İbn Şeyx Heydər İbn Şeyx Cüneyd mənim torpaqlarımda yoxdur, onun ayaqları mənim torpaqlarıma dəymir" və s. deyərdi.

Folklorumuzda "qanadlı sözlər", "qızıl sözlər" kimi dəyərləndirilən xalq deyımləri, atalar sözləri və məsəllərin yığcam, lakonik ifadələnmədə olana geniş fikir və mənanı ümumiləşdirməsi xüsusiyyətini əsas göstərən Əzizə Cəfərzadə qeyd olunan bu romanı da eyni xalq hikməti ilə zənginləşdirmişdir. "Naxırçı qızı naxırçılığın arzular". "Öküz paşanın,çubuq meşənin", "Barını nəm yıxar, ananı qəm", "Tək övladlı ana, tək çörəkli tabağa bənzər", "Şir balası doğulan kimi şirdi", "Xas igid dayısına, xanım qız xalasına çəkər", "Vətən çağıranda, igid bəllənər",



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

"Aslanın erkəyi, dişisi olmaz", "Ər qarağan kolunun dibində otursa, arvad da gərək gedib onun yanındakı yovşan kolunun dibində əyləşə"(1,41).

Bunlardan başqa, Ərəb istilasına münasibət bildirən nə qədər məsəl və atalar sözləri var. "Dəvə qızdı, ərəb azdı", "Ərəb nədi - corab nədi?", "Ac ərəb, gic ərəb".

Ə.Cəfərzadənin "Bakı – 1501" romanında şifahi xalq ədəbiyyatı o qədər zəngindir ki, hətta aşıq ədəbiyyatinin müxtəlif janrlarından istifadə olunmuşdur. Əsərdə Xətai öz sarayında təşkil etdiyi şeir məclislərinə yazıb yaradan sənətkarla yanaşı aşıqları da cəlb etmişdir. Aşıq sənətini saraylara qaldırmışdır. Göyçəli aşıq Miskin Abdalin surətini qeyd etmək olar. Xətai şairliyinə və aşıqlıq məharətinə görə Sarıyaqub kəndinin nəsillik olaraq Miskin Abdala bagışlamışdır.Aşıq Salman kimi el sənətkarından da romanda xüsusi olaraq danışılır. Ondan nümunələr verilir:

"Ay ağalar, ay qazılar,
Yar yaman allatdi məni.
Əl atdım yar ətəyinə,
O kənara atdı məni.(1,183)

Top atdım eşqin gölünə,
İlişdi sonam telinə,
Düşdüm bir nadan əlinə,
Uçub alıb-satdı məni (1,183)

Dərdini de bilənlərə,
Dərd başına gələnlərə,
Hər üzünə gülənlərə,
Ehtibar eyləmək olmaz.(1,190)

Bu gün ələ almaz oldum mən sazım.
Ərşə dirək -dirək cıxar avazım,
Dörd şey vardır bir qarındaşa lazım.
Bir elm, bir kəlam, bir nəfəs, bir saz."

Aşıq Miskin Abdal öz sənətinin gözəlliyinə vurğun idi. Əsl aşıq kimi qoşmadan təcnisə, təcnisdən gəraylıya, gəraylıdan divaniyə keçir;

"Dostu-mehribanım yetiş imdada,
Səndən qeyri yox imdadım,ağlaram.
Ah çəkib, dağlara salaram səda
Qohum gəlməz, gülər yadım, ağlaram(1, 248).

Salma nəzərindən, salma İlahim,
Dal gündə köməyim, poştü pənahım,
Ərşə bülənd olub fəryadü ahim,
Abdaldı, Miskindi adım, ağlaram.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Başqa bir aşıq isə qoşma və gəraylıları Qurbanidən oxuyur;

Könül qalxdı Bərdə sarı yeridi,
Orda bir şəhər var, adı Gəncə hey!
Gözəlləri, məhbubları, xubları
Xub batıblar mala, mülkə, Gəncə hey (1,253).

Qurbani der: bahar olur, gəlir yaz,
Göllərdə üzüşür ördək ilə qaz.
Sərim təvvaladı,üzüm payandaz,
Yoxdu bundan qeyrəz bir matah mənim" (1,258).

Bundan başqa, romanda aşıqlar əsgəri təşviq edən mahnılar da oxuyur, Şah İsmayıl Xətai aşıqlara, şairlərə, əli iş tutan sənətkarlara, xəttatlara, daş üstündə naxış açan ustalara qiymət verir, onları tez-tez saraya yığırdı. Bütün bunlar romanda geniş planda əks olunmuşdur.

Qeyd edək ki, aparılan araşdırma, təhlillərdən də bir daha məlum olur ki, xalq ədəbiyyatının toplanması, tədqiqi işində yaxından iştirak edən yazıçı Əzizə Cəfərzadə bu xalq örnəklərini öz ədəbi-bədii yaradıcılığının ilkin və ən qiymətli qaynağı kimi də götürmüşdür. Müxtəlif folklor nümunələri-nağıl, əfsanə, rəvayət, bayatı, nəğmə, ovsunlar və s. ədibin digər əsərlərində olduğu kimi, onun "Bakı – 1501" romanında ideya-bədii quruluşu, məzmunu, poetikasının əsasında dayanmaqla əsəri zənginləşdirmiş, onun qiymətini daha da artırmışdır.

**Qaynaqlar**

1. Cəfərzadə Əzizə: Bakı-1501. Bakı, Yazıçı,1981.
2. Məhərrəmova Cəmilə. Xətai haqqında roman. "Azərbaycan müəllimi", 16 iyun.1982.
3. Salahova Aida. Xətai dövrünün təsviri. "Ədəbiyyat və incəsənət", 16 iyul, 1982.
4. Əliyeva İfrat. El anası – Əzizə Cəfərzadə, "Elm" nəşriyyatı, Bakı, 2001, 64s.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***İlhami Cəfərsoy, f.ü.e.d.***
***AMEA Nəsimi ad. Dilçilik İnstitutu, baş elmi işçi***
***İlhamicefersoy@mail.ru***

# QƏDİM ÖN ASİYA PANTEONUNDA ƏSLİ VƏ KƏRƏM KULTLARI

**Özət**

Məqalədə qədim Əsli və Kərəm kultu tədqiq olunur. Tədqiqat zamanı biz belə bir qərara gəldik ki, bu kultlar ari və semit dövründən əvvəl də mövcud olmuşdur.

**Açar sözlər:** Kərəm, Aşqli, Aster, Xatti, Tir

**Резюме**

В докладе исследуются древние культы Асли и Керам. В ходе исследования мы пришли к выводу, что эти культы существовали задолго до арийского и до семитского периода.

**Ключевые слова:** Керам, Ашкли, Астер, Хатти, Тир

**Summary**

In the article the ancient cult Asli and Keram are investigated. According to the investigation we come to such a conclusion that this cult had existed before Aryan and Semitic period.

**Key words:** Kerem, Ashqli, Aster, Khatti, Tir

* * *

Dastanlarımız qiymətli etnoloji abidələr kimi tədqiq olunmalıdır. Baxmayaraq ki, onlar tarixin özü deyil, tarixin kölgəsidir. Eposlarımızda elə obrazlar və süjetlər var ki, onlarda islamiyyətdən və xristianlıqdan öncəki rituallarımızın, kultlarımızın izləri qalmaqdadır. Onlardan biri çoxdan unudulmuş Əsli və Kərəm kultlarıdır. Azərbaycan folklorunda nakam sevgi simvoluna çevrilmiş bu iki surətin adı eradan öncə II-I minilliyə aid abidələrdə eşq ilahəsi və tanrısı kimi çəkilir. Əsli və Kərəm kultları mövcud olanda nə xristianlıq yaranmışdı, nə islamiyyət. İeqova və ya Yaxve dini isə Əsli kultu ilə mübarizədə yeni-yeni meydana gəlirdi. Dastanda Əslinin keşiş qızı kimi təqdim edilməsi çox sonrakı düşüncənin təzahürüdür. Bu barədə xristianlıqdan öncəki abidələrdə – qədim Misir və yəhudi tarixçilərinin əsərlərində zəngin bilgilər var (Грець 1. 121; Грець 2. 1907. 41; Вагнер 1901. 86; Тураев 1903. 41, 66, 88; Накко 1873. 94; Кеппен 1837. 123, 358; Рагозина 1902. 488 və s.). O zamankı düşüncəyə görə döyüşə göndərilən 14-15 yaşlı oğlanların ana bətnində yadigarı olmalı idi. Ona görə də ilk dəfə döyüşə gedən oğlanlar istədikləri qızlarla görüşər, həmin izdivacdan yaranan uşaqlar icmanın ümumi qayğısı ilə böyüdülərdi. Bununla genefondun yoxolmasının qarşısı alınardı. Əski inanca görə, həmin oğlanları Kərəm, qızları və doğulan körpələri ilahə Əsli himayə edərdi. Əsli



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kultu Yerusəlim kahinləri ilə 400 illik mübarizədən sonra öz üstünlüyünü itirdi. Ancaq Yusif Kənanın oğlu Efreimin nəslindən olan zadəganlar e. ö. VIII əsrdə onu *Azad sevgi kultu* kimi qoruyub, İudeya və İsrail kahinlərinə qəbul etdirə bildilər (Тураев 1903. 88; Грецъ 2. 1907. 107). Kərəm kultunun kahin və patriarxlarının adı qədim mənbələrdə *Xiram* və *Qeram* formalarında verilir. Onlardan biri İudeya hökmdarı Davidin zamanında (e. ö. XI əsr) Tir şahı idi (Норов 1854. 125). Həmin Xiram o dövrün salnamələrində Davidin və oğlu Süleymanın müttəfiqi kimi təqdim edilir (Рагозина 1902. 497, 499; Трачевский 1889. 54).

İosif Flaviyə (I əsr) görə, Xiram bütün Suriyanın yox, bir vilayətinin çarı olmuşdur (Тураев 1903. 91). O zaman Əsli (mənbədə Aşer) tayfası Solomona tabe idi. Süleyman peyğəmbər onların 20 kəndini Kərəmə verib, sarayını bəzəmək üçün qızıl almışdı (Грецъ 1. 263; Норов 1854. 125).

Kərəm nəslindən üç nəfər Finikiyada şahlıq etmişdir. I *Xiramın* (969-936) zamanında onlar daha da güclənərək Afrikanın şimalında Karfagen şəhərini saldılar və Aralıq dənizi sahillərinin ticarətini monopoliyaya aldılar (Тураев 1903. 100). III Xiramın oğlu *Mete* zamanında Tir şəhəri Assuriya hökmdarı II Tiqlatpalasarın (745-727) təsiri altına düşdü (Тураев 1903. 106). I Xiramın sələfi I İtobal olmuşdur (Тураев 1903). Məlumdur ki, totem adı Kedar olan İtobal əslən Cənubi Azərbaycanın Heydər nəslindəndir. O, eyni zamanda Əsli kultunu qəbul etmiş, həmin münasibətlə özünü Aşqli adlandırmışdır. Bizim üçün maraqlıdır ki, bəzi köhnə nəsil yəhudi tarixçiləri Xiramın adını *Kerem* kimi yazırlar. XIX əsrin ortalarında Rusiya yəhudilərinin *Kerem Xebed* adlı jurnalı nəşr olunurdu (Левин 1866. 72). Daha sonra Xiram adına Kerem şəklində türk, Qeram kimi gürcü mənbələrində təsadüf edirik. XVIII əsrin ortalarında Kızıl Orda dövlətinin Keremberdi adlı xanı vardı (Рычков 1767. 53). Bu da "eşq tanrısı Kərəmin verdiyi" deməkdir. İbn-Xordadbehin (hicri III əsr) yazdığına görə, Albaniyada *Kərəm şah* adlı vilayət olmuşdur (Ибн-Хордадбэ XXX. 5). Fikrimizcə, Sasanilərin dönəmindəki Kərəm şah vilayəti Albaniya ilə İberiya arasında – Xram çayı boyunda yerləşmişdir. Əslində ora şahlıq yox, ayrıca etnik-inzibati vahid – vilayət idi. Bir çox orta əsr salnaməçiləri Kərəm vilayətini İberiyanın yox, Albaniyanın tərkibində göstərirlər. Biz bu istiqamətdə tədqiqatlarımızı davam etdirməli, Albaniyanın etnik xəritəsini dəqiqləşdirməliyik. Artıq XI əsrdən sonra Kərəm vilayətinin Gürcüstana bağlı olduğunu görürük. Həsən bəy Rumlu yazır: – Şəki hakimi gürcülərlə vuruşmaq üçün 1521-ci ildə Şah İsmayıldan kömək istədi. Ona kömək üçün Div Sultan Rumlunun başçılığı altında qoşun göndərildi. Birləşmiş qoşunlar *Zəyəm* və *Kərəm* qalalarını tutdular. Müasir gürcü tarixçiləri Kərəm tarixi mahalının adını *Qrami* şəklinə salıblar. 1946-cı ildə Tiflisdə nəşr olunan "Gürcüstan tarixi" kitabında deyilir: – XVI əsrdə Bazari və Qrami şəhərləri daha da inkişaf edib böyüdü (История Грузии 1. 1946. 327). Kərəm şəhəri sonradan dağıldı və öz əhəmiyyətini itirdi. Biz Kərəm və Bazar şəhərlərinin xarabalıqlarında arxeoloji tədqiqatlar apara bilsək, Albaniya və İberiya tarixinin bir çox qaranlıq məqamlarına aydınlıq gətirə bilərik. Xram çayı boyunda yerləşən Kərəm şah vilayətindən indi əsər-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

əlamət qalmayıb. Qalan bir Xram çayının adıdır ki, gürcülər onu Xrami şəklinə salıblar. Biz əldə olan mənbələri diqqətlə araşdırmalı, Xram çayının tarixi Kərəm adının bərpasına nail olmalıyıq.

İ.İ.Şopen yazır ki, orta əsrlərdə Gürcüstanda *Karam* adlı tayfa yaşayırdı (Шопен 1866. 217). Hansı tayfanınsa Gürcüstanda yaşaması hələ onun gürcü olması deyil. Biz bu istiqamətdə də tədqiqatları davam etdirməli, İberiyanın bir çox qədim etnoslarının, o cümlədən Kərəm nəslinin Kam (Kənan) mənşəyini sübuta yetirməliyik.

Məlumdur ki, Gürcüstanın bir çox tayfaları İudeya mənşəlidir. Belə hesab edirik ki, Kərəm tayfası da onlarla birlikdə Suriyadan Albaniya ilə İberiya arasına köçmüş, burada xristianlığı qəbul etmişdir.

Belə bir sual qarşıya çıxır: – Məryəm xristian, Mahmud müsəlman idi. Nəyə görə onlara xristianlıqdan və islamiyyətdən öncəki tanrıların adlarını verdilər? Düşünürük ki, bu adət Əsli və Kərəm kultlarının son çağlara qədər xalq yaddaşında qalması ilə bağlıdır. Onu da nəzərə almaq lazımdır ki, Kərəm şəhəri Ziyadoğlu Mahmudun vətəni Gəncənin yaxınlığında yerləşirdi.

Yerusəlim kahinləri Kənan övladlarının təzyiqi ilə Əsli və Kərəm kultlarını qəbul etməyə məcbur oldular. Azad sevgi kultu rəsmi olaraq İudeya və İzrail mənbələrinə daxil edildi. Çuvaş mifləri, "Əsli və Kərəm" dastanı göstərir ki, heç xristianlıq və islamiyyət də onu tamamilə xalq yaddaşından silə bilməmişdir.

Əsli kultu tarixi mənbələrdə Asli, Astli, Astliçi, Astqik, Aşera, Yeştir, Aster, İştar, Aştoret, Astar, Astarta və Astara variantlarında yazıya alınmışdır (Грецъ 2. 1907. 41; Тураев 1903. 21, 64; Хоренский 1808. 28; Вагнер 1901. 29, 86; Трачевский 1889. 58; Шопен 1866. 41; Рагозина 1902. 488 və s. Бузекул 1904. 141).

B.Turayev yazır ki, Astarta samilərin ilahəsidir (Тураев 1903. 66). P.Keppenin fikrincə, Astarot xald (Hələb) ilahəsidir (Кеппен 1837. 123.358). Q.Masperoya görə, Astoret Kənan və Finikiya tayfalarının Afroditasıdır (Масперо 1916. 64). Akkadlar isə öz sevgi ilahələrini İstar adlandırırdılar (Рагозина 1902. 482). Əslidən qabaq Şumer panteonunda Ana (in-Anna), Elam və Misirdə Ama (sonrakı Amon Ra) ilahələri vardı. İştar Astarda bəzi cəhətlərinə görə onlara bənzəsə də, bir çox özəllik ilə həmin ilahələrdən fərqlənirdi (Тураев 1903. 66).

Belə hesab edirik ki, Əsli teoniminin ən qədim variantını Xatti panteonunda axtarmaq lazımdır. E. ö. III minillikdə xettlərdən qabaq Anadoluda və Şimali Suriyada özünəməxsus mədəniyyət yaratmış xattilər günəş və səhər ilahəsinə *Eştan* deyirdilər (Иванов 1990. 136).

Nəzərə almaq lazımdır ki, xattilər iltisaqi dilli qeyri-sami və qeyri-ari etnos idi (Иванов 1980. 134, 154). Xettlər onların varisi deyillər. B.Qroznı yazır: – 1919-cu ildə Kızıl İrmak çayı sahilindəki Boğaz köydən yeni gil lövhələr tapırlar. Onların dili xettlərin dilinə bənzəmirdi (Грозный 1938. 26-27). B.Qroznı onu da bildirir ki, özlərini əvvəl Nesili adlandıran xettlər xattilərin dilindən çoxlu sözlər götürüblər (Грозный 1938. 27).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Eştan teoniminin kökündə eş-işıq sözü durur. İştar teoniminin bütün variantlarında işıq sözünün kökü aydın görünür. Tan isə dan yeri kimi bu gün də dilimizdə işlənməkdədir. Astarta kultunun kahinləri qadın paltarı geyinər, gözlərinə sürmə çəkər, balta və qılıncla silahlanardılar. Onlar ayin zamanı bədənlərini doğrayıb, qanlarını ilahəyə qurban verərdilər (Грець 2. 1907. 41). Musa peyğəmbərin "Tora"sında Astarta kultu qadağan olunur. Buna baxmayaraq Kənan nəslindən Efreimin övladları onu *Azad sevgi kultu* kimi Yerusəlim və Samaria kahinlərinin məbədlərinə daxil edə bilərdilər (Грець 2. 1907. 107). Belə hesab edirik ki, Əsli kultu Azad sevgi kultuna çevriləndən – e. ö. VIII əsrdən sonra Kənan etnosları Cənubi Qafqaza və Volqa boyuna gəlmişlər. Çuvaşların xristianlığa qədərki sevgi – Seren ayinində Əsli və Kərəm kultlarının izləri qalmışdır. XIX əsrdə yaşamış çuvaş şairi Maksim Arzamasov yazır ki, çuvaşlar Seren ayini zamanı ətrafı Kərəm (Keremet) adlanan bulaq başında ilahə *Aslı İraya* ağ qaz qurban kəsərdilər (Родионов 1983. 21-22). Əsli kultu Kənan nəsli hələ Misirdə ikən onların inancında Aser adı ilə mövcud idi. Yusif öləndə cəsədini Nil çayı ilə axıtmışdılar. Aşerin qızı Zirək (yunan transkripsiyası ilə *Serax*) onun ilişib qaldığı yeri qohumlarına göstərmişdi (Иосиф Флавий 52390. 124).

A.Traçevski yazır ki, ilahə Melita bəzən Asera adlanırdı (Трачевский 1889. 58). Bu da "Əsliyə sitayiş edən ərlər" deməkdir. Bundan əlavə Kənan tanrısı Satakın oğlu *Aşkli* adı daşıyırdı (Тураев 1903. 88).

Aser tayfası Misirdə ikən Yusif Kənana tabe deyildi, Nil vadisində ayrıca yaşayırdı (Грець 1. 51). Onlar Moiseylə Misirdən qovulanda da hələ İsrail oğullarına birləşməmişdilər. Henri əc Qrets yazır ki, onlar sonradan İsrail oğullarına qoşuldular (Грець 1. 99). Kedar (yəhudi mənbələrində Qideon) Matay bə Sabaklar ilə döyüşə gedəndə Aşer tayfasını öz tərəfinə çəkmişdi (Грець 1. 121). E. ö. X əsrdə onlar İudeya çarı Solomona (Süleyman peyğəmbərə) tabe oldular (Грец 1. 263).

Qədim Aser və Xiram kultlarının izləri yalnız "Əsli və Kərəm" dastanında qalmamışdır. Fikrimizcə, Türkmənistanın paytaxtı Aşqabad şəhərinin adı Əsli teoniminin Aşqli variantından törəmişdir. Eyni zamanda Azərbaycanın Astara şəhərinin adı Əsli kultu ilə bağlıdır. Çünki qərbi semitlər ilahə İştarı Astara adlandırırdılar.

**Qaynaqlar**

1. Бузекул 1904 – Бузекул В. Введение в истории Греции. Харьков. 1904, 533 с.
2. Вагнер 1901 – Вагнер Вильгельм, Очерки по картины древней Греции. М., 1901, 1012 с.
3. Грець 1 – Грець Генрих. История евреев. т 1, nəşr ili yoxdur, 376 с.
4. Грець 2. 1907 – Грець Генрих. История евреев. т. 2, Одесса 1907, 384 с.
5. Грозный 1938 – Грозный Б. Хеттские народы и языки. BDU, (№. 2 (3), М., 1938, с. 18-33.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

6. Дьяконов 1990 – Дьяконов И.М.Архаические мифы Востока и Запада. М., 1990, 247 с.

7. Ибн-Хордадбэ XXXII – Ибн-Хордадбэ. Сведение о Кавказе. Армении и Азербайджане. СМОМПК, XXII, Тифлис, nəşr ili kəsilib.

8. Иванов 1980 – Иванов И.И. Анатолийские языки. Древние языки Малой Азии. М., 1980, с. 129-160.

9. Иосиф Флавий 52390 – Иосиф Флавий. Иудейские древности. ш № 5239, 646 с.

10. История Грузии. 1. 1946 – Бердзенишвили И., Джавахишвили И., Джанашиа С. История Грузии. ч. 1, Тбилиси, 1946, 459 с.

11. Кеппен 1837 – Кеппен Петр. Крымский сборник СПб. . 1937, 409 с.

12. Левин 1866 – Левин Е.Б. Изречения отцов Синагоги. Сборник статей по еврепейской истории кн. 1, СПб., 1866, с. 5-72.

13. Масперо 1916-Масперо Г. Ассирия. М.,1916;295 с.

14. Накко 1873 – Накко Алексей, Старıя Бессарабıя. ч 1, Одесса, 1873, son səhifələr yoxdur.

15. Норов 1854 – Норов Авраам, Путешествии по святой земле в 1835 году ч. 1, СПб., 1854, 405 с.

16. Рагозина 1902 – Рагозина З.А. История Ассирии. СПб., 1902, 500 с.

17. Родионов 1983 – Родионов В.Г. К образу лебеда в жанрах чувашского фольклора. Советская тюркология, № 6. Баку, 1983, с. 19-28.

18. Рычков 1767 – Рычков Петр. Опыт Казанской истории, СПб., 1767, 196 с.

19. Трачевский 1889 – Трачевский. А. Древняя история. СПб., 1889, 433 с.

20. Тураев 1903 – Тураев Б. Остатки финикийской литературы. СПб. 1903, 141 с.

21. Шопен 1866 – Шопен И.И. Кавказ и его обитатели. СПб., 1866, 501 с.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***İlqar Abdullayev***
***Bakı şəhər 301 saylı tam orta məktəbin tarix müəllimi***
***ilqarheydəroglu@gmail.com***

# AZƏRBAYCANIN XARİCİ ÖLKƏLƏRLƏ ƏLAQƏLƏRİ ATALAR SÖZLƏRİ, BAYATI VƏ NAĞILLARDA

**Özət**

Məlum olduğu kimi, əsarətə alınmış xalqların təzyiqi altında və ərəb cəmiyyəti daxilində mübarizənin olduqca kəskinləşməsi nəticəsində Əməvilər sülaləsi yıxıldı. Əməvilərdən sonra hakimiyyət Abbasilərin əlinə keçdi. Bu dövrün tarixi hadisələri atalar sözlərində, bayatı və nağıllarda əks olunmuşdur.

**Açar sözlər:** atalar sözləri, bayatı, nağıl, ərəblər, Bağdad xilafəti, Məkkə, Firəngistan

**Резюме**

Автор в этой статье показывает что Азербайджан в начальных и в последующих периодах средних веков обладал экономическими и политическими связями с Восточными и Западными странами.

В этой статье автор с наглядными примерами показывает, что эти связи отражаются в пословицах, баяты, и в сказках.

**Ключевые слова:** пословицы, баяты, сказка, арабы, Багдадский халифат, Мекка, Фиренгистан

**Summary**

In this article the author shows that Azerbaijan had extensive economical, political and other relations with the Eastern and Western countries in the primary and later periods of the Middle Ages. The author also shows visual examples from various proverbs, bayaties and stories which reflect these relations.

**Key words :** proverbs , bayatı, stories , The Arab , Bagdad Caliphate , Mecca, Firengistan

* * *

Hər hansı bir xalqın istər ictimai-siyasi həyatında, istərsə də beynəlxalq əlaqələrində baş verən mühüm hadisələrin onun şifahi xalq ədəbiyyatında - folklorunda da öz əksini tapması heç kəsə sirr deyil. Bu baxımdan heç bir imza və möhürə ehtiyacı olmayan şifahi xalq ədəbiyyatı nümunələrində -folklorumuzda Azərbaycanımızın müxtəlif xarici ölkələrlə əlaqələrinin öz əksini tapması tamamilə təbii hesab edilməlıdir.

Bu baxımdan qeyd etmək yerinə düşərdi ki, atalar sözləri-nəsildən-nəsilə keçərək gündən-günə cilalanan, daha da kəsərli olan bu əvəzsiz incilər xalqımızın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dünyagörüşünün, onun adət-ənənəsinin, həyat fəlsəfəsinin xülasəsi, qısa, dolğun, yığcam aforizm halında ifadəsidir. Bu baxımdan göstərilməlidir ki, digər ölkələrlə olan əlaqələr atalar sözlərində də öz əksini tapmışdır.

VII əsrdən etibarən Azərbaycan da digər Cənubi Qafqaz ölkələri kimi ərəblərin təcavüzünə məruz qalır. Bu barədə N.Vəlixanlının «Ərəb xilafəti və Azərbaycan» əsərində deyilir: «Bukayr əmr alan kimi yürüşə başladı. Cərmidan həndəvərində gözlənilmədən Vacruddan qaçan Azərbaycan mərzbanı İsfəndiyar ibn Fərruxzadla üzləşdi... Döyüş başlandı… Allahın köməkliyi ilə İsfəndiyarın qoşunu qaçmağa üz tutdu. Bukayr İsfəndiyarı əsir tutdu… Bir neçə qaladan başqa, ölkə bütünlüklə onun əlinə keçdi» [1,127]. Ərəblər bu varlı diyarı işğal etdikdən sonra yerli əhalidən son dərəcə qəddarlıqla vergi yığırdılar. Ərəblər işğal etmiş olduqları ölkələrdə həm də geniş miqyasda İslam dinini yayırdılar. Bu dini qəbul etməyənlərə qarşı isə həm zorakılıq, həm də digər tədbirlər görülürdü. Bu baxımdan, təsadüfi deyil ki, Azərbaycanda orta əsrlərdə yaranmış bir çox atalar sözlərində ərəblərin zalımlığı, qəddarlığı, acgözlüyü, amansızlığı, zorakılıqları da öz əksini tapmışdır. Təbii ki, bunları siyasi əlaqələr kimi qəbul etmək olar. Bunları aşağıdakı

Atalar sözlərindən də görmək olur.

Ərəb öldü, qan düşdü [2,133].
Ərəbdə aman olmaz [2,111].

Ərəb iyirmi beşlik tapdı, dedi:

Nə olardı bir dava kağızı tapeydım [3,133].
Ərəb gözü qanlıdır[2,111].
Həcv deyiblər ərəbə [4,338].
Dəvəsi ölmüş ərəbəm [4,250].
Ərəblər aşura günü keyf-damaqda
Yazıq şiə baş yarıb ağlamaqda [5,50].

Məlum olduğu kimi, ərəblər Azərbaycanı işğal edərkən mədəni inkişaf səviyyələrinə görə yerli əhalidən xeyli geridə qalırdılar. Müdrik xalqımızın yaratdığı atalar sözlərində bu amil də öz əksini tapmışdır. Yuxarıda qeyd olunduğu kimi, ərəblər Azərbaycanı işğal etdikdən sonra yerli xalqa islam dinini qəbul etdirmişlər. İslamı qəbul etmiş hər bir adamın isə ömründə heç olmasa bir dəfə də olsa müsəlmanların ən müqəddəs yer saydıqları Məkkəyə ziyarət etməsi, Hacı olması savab sayılır. Müsəlman qanunlarına görə belə adamların cənnətə düşməsi ehtimalı daha çox olur. Bunlar xalqın yaratdığı atalar sözlərində də öz əksini tapmışdır:

Qurd keçiyə dəyməsə,
Keçi Məkkəyə gedər [6,226].
Eşşək Məkkəyə getməklə Hacı olmaz [7,100].
İş ərəb sacına döndü [4,375].
Məkkə evin içidir [4,481].
Abdal təkkədə,
Hacı Məkkədə olar [8,21].



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Məkkəyə gedir, sünni olur,
Geri qayıdır, şiə olur [5,51].
Dəvə Məkkəyə getməklə Hacı olmaz [9,83].
Məkkədən gələn mən,
Xəbər verən sən [9,41].
Qaynanamı bağda ilan vuraydı,
Qaynatama Məkkə qismət olaydı [10,32].
Hacı hacını Məkkədə tapar,
Dərviş dərvişi təkyədə [9,195].
Həccə gedən gəldi,
Saca gedən gəlmədi [4,665].
Hər arvad saqqız çeynəyər,
Amma Ayişə kimi çeynəyə bilməz [4,650]

Məlum olduğu kimi, əsarətə alınmış xalqların təzyiqi altında və ərəb cəmiyyəti daxilində mübarizənin olduqca kəskinləşməsi nəticəsində Əməvilər sülaləsi yıxıldı. Əməvilərdən sonra hakimiyyət Abbasilərin əlinə keçdi. Ali hakimiyyətin Abbasilər sülaləsindən olan xəlifələrin əlində olduğu çox geniş dövlətin paytaxt şəhəri olan Bağdad («Mədinət əs-səlam» yəni «sülh, əmin-amanlıq şəhəri») 762-ci ildə ikinci Abbasi xəlifəsi Mənsur tərəfindən «az adamın yaşadığı yer olan Seyk Bağdad», yəni «Bağdad bazarı» deyilən yerdə salınmışdır. Azərbaycanın da Abbasilərə tabe olan ölkələr arasında olması, şübhəsiz ki, xalqımızın yaratdığı atalar sözlərində öz əksini tapmışdır:

Aşiqə Bağdad uzaq deyil [11,64].
Yanlış hesab Bağdaddan qayıdar [3,305].
Kor burada, ya Bağdadda [4,439].
Çanağında bal olsun,
Arısı gələr Bağdaddan [4,670].
Burda mənəm, Bağdadda kor xəlifə [9,60].
Bal olsun, milçək Bağdaddan da gələr [10,21].

Qeyd olunmalıdır ki, o zamanlar Azərbaycanın əlaqə saxladığı ölkələr, şəhərlər sırasında Bağdaddan başqa xilafətə daxil olan digər ölkə və şəhərlər də olmuşdur. Bu fikrin sübutu kimi Bakı qalasında (Bakı şəhər icra hakimiyyəti binası ilə İqtisadiyyat universitetinin binası arasındakı yerdə) tapılan və VIII əsrə aid abbasilərə məxsus ərəb pulunu misal çəkmək olar. Bu pul hicri tarixi ilə II əsrə, miladi tarixi ilə VIII əsrə aiddir [12,73]. Vətən hüdudları və xarici ölkələrlə əlaqələrin bayatılarda təsbiti. Bayatılar Azərbaycan xalqının folklorunda özünəməxsus mövqeyi olan janrlardan biridir. Qeyd edək ki, bayatılar Azərbaycan folklorunun ən qədim janrlarından olmaqla yüzilliklər adlayıb gələn uzun bir inkişaf yolu keçmişdir. Artıq elmi ədəbiyyatda belə bir fikir özünə yer tapmışdır ki, Azərbaycan xalqının etnogenezində böyük rol oynamış və eramızın birinci minilliyində Azərbaycanda yaşamış hunlar, xəzərlər, avarlar, savirlər və başqa türk-oğuz tayfalarının yazısı


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olmasa da, onların ana dilində zəngin şifahi ədəbiyyat nümunələri olmuş və bu günə qədər gəlib çıxmış bayatıların, laylaların, ağıların çoxu o dövrdə yaranmışdır.

Atalar sözlərində olduğu kimi, ərəblərin qəddarlığı bayatılarda da öz əksini tapmışdır. Yuxarıda göstərildiyi kimi, ərəblər işğal etdiyi ölkələrdə əhalini qarət edir, onların ruhunu əzir, müxtəlif vergilər almaqla yerli sakinləri var-yoxdan çıxarırdılar. Belə ki,” 645/46-cı ildə əl-Valid ibn Ukba Azərbaycan və Ərminiyəyə Osmanın dövründə, Kufənin hakimi olduğu vaxt hücum etdi. O, qabaqca Salman ibn Rəbiəni göndərib, özü də bir dəstə ilə Ərminiyə hüdudlarına doğru tələsdi. Nəhayət, qoşunu ilə Azərbaycana daxil olan Abdallah ibn Şumeyl ibn əl-Əhməsini dörd minlik qoşunla hücuma göndərdi…” [1,129].

Daha sonra əl-Valid Azərbaycan əhalisi ilə 880 min dirhəm təzminatla müqavilə bağladı [1,129]. Bu, 22-ci ildə, Nəhavənd yaxınlığındakı döyüşdən bir il sonra, Hüzeyfə ibn əl-Yəmənlə bağlanmış həmin müqavilə kimi idi. N.Vəlixanlının “Ərəb xilafəti və Azərbaycan” adlı kitabında daha sonra göstərilir ki, sonrakı dövrlərdə əl-Valid ibn Ukba, Abdallah ibn Şubeyl əl-Əhməsi, Salman ibn Rəbiə də Azərbaycana yürüş edərək qırıb-çatır, talayırdılar. Təbiidir ki, bu zülm bayatılarda da öz əksini tapmışdır. Məsələn:

Ərəb gəldi pay verin,
Nə istəsə pay verin,
Aza duran deyillər
Gətirin tay-tay verin [13,7].

Ərəb qapdı fəsimi,
Su kəsdi nəfəsimi.
Gedin deyin anama
Tutsun mənim yasımı [14, 470].

Sarı gülü
Ağ gülü, sarı gülü.
Ərəblər gələn gündən
Görmədim tarı günü [15,196].

Əziziyəm bularmış,
Axan sərin sularmış.
Ərəblər yalan oldu,
Canı alan bularmış [15,67].

Əzizinəm yüz dərdim,
Dərmansızdı yüz dərdim,
Ərəb gəldi ac oldu,
Birkən artdı, yüz dərdim [16,32]

Lakin ərəb feodallarının qəsbkarlıq siyasətinə baxmayaraq, obyektiv olaraq, dünya tarixinin bu böyük imperiyası daxilində müxtəlif ölkələr, xalqlar arasında qarşılıqlı əlaqələrin inkişafı üçün nisbətən əlverişli şərait yarandı. Orta Asiya, Hindistan, İran körfəzi, Cənubi Ərəbistandan Qara dəniz və Aralıq dənizi sahillərinə, Misirdən Şimali Afrika boyunca Atlantik okeanı sahillərinədək gedən karvan yolları artıq bir dövlətin daxilində idi. Bir dövlətin tərkibində olmaq Azərbaycan və Ərəb ölkələri, eləcə də digər xalqların geniş, çox cəhətli əlaqələri üçün çox yaxşı şərait yaradırdı.Bu baxımdan təbiidir ki, Azərbaycanda yaranmış müxtəlif bayatılarda vaxtı ilə mövcud olmuş xilafət ölkələri ilə əlaqələr öz əksini tapmışdır:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Mən aşiqəm, Qarabağ,
Şəki, Şirvan, Qarabağ,
Tehran Gülüstan olsa,
Yaddan çıxmaz Qarabağ [17,253].

Rum mənəm, İraq mənəm,
O yanan çıraq mənəm,
Qul tək ellərə düşdüm,
Vətəndən iraq mənəm [18,196].

İraqda,
Şölə verər qıraqda,
Mərdə əcəl tuş gəldi,
Namərd qaldı qıraqda [15,188].

Yol düşdü Kəndəbilə,
Tehrana, Kəndəbilə,
Bikamal deyil Aşıq,
Əcəli gendə bilə [17,18].

Gün gedər, Şamda mələr,
Urumda Şamda mələr.
Yaxasız köynək geyən
Bacasız damda mələr [18,210].

Əzizim Yəmənidə,
Misirdə, Yəmənidə.
Haqq götürsün ortadan
Çuğulu, yamanı da [19,37].

Aşıq Yəməndə qaldı,
Bülbül çəməndə qaldı,
Dünya gözələ dönsə,
Gözlərim səndə qaldı [20,226].

Gəz dolan Yəməni də,
Misiri də, Yəməni də,
Haqq götürsün aradan
Pisi də, yalanı da [14,278]

Sular gəldi Nil kimi
Qaşlar durub Mil kimi,
Hər sabah boyun görsəm,
Qəlbim açar gül kimi [14,71].

Aşıq Qəzvinə bağlar,
Tehran Qəzvinə bağlar,
Gözüm yaşı sel ola
Ördək qaz binə bağlar [20,183]

Lakin xilafətin soyğunçu vergi siyasəti və məmurların özbaşınalığı, dəhşətli istismar və tam hüquqsuzluq Azərbaycan əhalisinin geniş təbəqələrinin vəziyyətini dözülməz dərəcədə ağırlaşdırmışdı. Bu isə xalq kütlələrində yadelli işğalçılara qarşı kəskin nifrətə səbəb olmuşdu. Belə bir şəraitdə XIII əsrin ortalarında xilafətdə sülalə mübarizəsi qızışmışdı. Əsarətə alınmış xalqların təzyiqi altında və ərəb cəmiyyəti daxilində mübarizənin olduqca kəskinləşməsi nəticəsində Əməvilər sülaləsi yıxıldı. Hakimiyyəti Abbasilər zəbt etdilər (750-1258-ci illər). Onlar dövlətin paytaxtını Dəməşqdən Bağdada köçürdülər və bu vaxtdan etibarən Azərbaycan bir neçə digər vilayətlər kimi Bağdaddan idarə edilməyə başladı. Təbiidir ki, o vaxtlar xalq arasında yayılmağa başlamış bayatıların bir çoxunda Bağdadın adı çəkilir, bu qədim şəhərdən danışılır:

Zülfünü bağda dara,
Bağda yu, bağda dara
Bir yaxşı həmdəm üçün,
Ərzurum gəz, Bağdad ara [17,110].

Bağdaddan sandal aldım,
Tayını yolda saldım.
Bu qullar bazarında
Heyva kimi saraldım [15,95].



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Zülfünü bağda dara,
Düşübdür bağda dara,
Bir vəfalı yar üçün
Rumu gəz, Bağdad ara [21,43].

Qayada ilan ötər,
Bağdadda xurma bitər,
Gözəlcə qız toyunda,
Yarpaqsız meyvə bitər [15,110].

Eləmi dağda qara,
Zülfünü bağda dara,
Vəfalı yardan ötrü
Rumu gəz, Bağdad ara [22,85].

Dəryada var balıqlar,
Bağdadda xurmalıqlar,
Nə bu vüsal olaydı,
Nə də bu ayrılıqlar [14,77].

Azərbaycan xalq yaradıcılığının ən geniş yayılmış janrlarından biri də nağıllardır. Xalqın özü qədər qədim olan möcüzəli, sirli-sehrli nağıl dünyasında erkən təsəvvürlər, insanın xoşbəxt, azad həyat uğrundakı mübarizəsi, habelə daim təbiəti özünə ram etmək istəyi olmuşdur. Bu baxımdan, göstərmək yerinə düşərdi ki, Azərbaycanda nağılların toplanması, çap olunması işi kifayət qədər yüksək səviyyədə qurulmuş, bu sahəni əhatə edən bir sıra kitablar çap olunmuşdur. Bu kitablarda Azərbaycanın bir çox ölkələrlə əlaqələri əks olunmuşdur. Əvvəlcədən onu göstərmək istərdim ki, Z.Bünyadovun «Azərbaycan Atabəylər dövləti» adlı əsərində Təbriz bazarında çox zəngin malların olmasından bəhs edilir və deyilir ki, elə bir sənət, peşə yoxdur ki, Təbrizdə olmasın. Onun malları bunlar idi: atlas, yaxşı kaftanlar (don), toxunma Çin zərxarası--parçası, xalçalar (nəx), ipək parçalar(kimxa), xəz parça, örtük (şar), zərli tikmələr, möhürlər, həkkaklar tərəfindən naxış vurulmuş bədii cildlər [23,198]. Burada Çindən malların gətirilməsinin göstərilməsi Azərbaycanın Çinlə sıx əlaqəsinə sübutdur və bu əlaqə də təbii ki, nağıllarda da öz əksini tapmışdır. Azərbaycanda olan ispaniyalı səyyah Klavixonun məlumatından isə bilinir ki, orta əsrlərdə Sultaniyyə Hindistan və Orta Asiyadan gələn karvan yollarının ağzında yerləşən beynəlxalq ticarət mərkəzlərindən biri olmuşdur [24,183]. Bu baxımdan, Hindistanla olan sıx əlaqələrin nağıllarda da əks olunması təbii hesab edilməlidir. Z.Bünyadovun yuxarıda adı çəkilən əsərində o da göstərilir ki, Bəzzdə Vasitə və Yəmənə aparılan qırmızı zəy çıxarılırmış [23,207]. Təbii ki, Azərbaycanla Yəmən arasında olan bu əlaqə müxtəlif nağıllara da hopmuş və zəmanəmizə qədər gəlib çıxmışdır.

Azərbaycanın başqa ölkələrlə İran, Rum, Çin, Yəmən, Şimali Afrika, Hindistan və s. ölkələrlə saxladığı əlaqələrin əks olunduğu nağıllardan biri də «Nəsir və Nəsdərənin nağılı»dır. Bu nağılda göstərilir ki, bir padşahın vəziri öz qardaşı olur. Onların hər ikisinin uşağı olmur. Nəhayət, Allah-təala onların hər ikisinə-padşaha qız, vəzirə isə oğul əta edir. Əvvəlcə onların hər ikisi öz aralarında əhd - peyman bağlayıb uşaqların taleyini gələcəkdə birləşdirməyi qərarlaşdırırlar. Lakin bir qədər sonra vəzir ölür və padşah qızı Nəsdərəni daha Nəsirə verməməyi qərara alır [25,95]. Ona görə də Nəsirə olan məhəbbətini qoruyub saxlayan Nəsdərəni əvvəlcə Dərbənd padşahının, sonra isə Çin padşahının oğluna vermək istəyir [25,103]. Lakin qızı razı olmur. Bir qədər sonra Nəsirin İsfahan padşahının qızı Məleykə xanımın



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dalıyca gələn Yəmən padşahının oğlu Əmiri Heydərlə rastlaşması, onların bir yerdə yerli padşahın qoşunu ilə vuruşmaları, padşahın sorğularına cavab olaraq özünün Rum vilayətinin Əmiri Heydərin isə Hindistan padşahının oğlu kimi qələmə verilməsi göstərilir [25,107]. Aydındır ki, göstərilən nağılda İranın (İsfahanın), Rumun, Çinin, Yəmənin, Hindistanın adlarının çəkilməsi yuxarıda Z.Bünyadovun adı çəkilən əsərindən göründüyü kimi Azərbaycanın bu ölkələrlə olmuş maddi əlaqələrinin təzahürüdür. Məlum olduğu kimi, orta əsrlərdə də Azərbaycan Avropa ölkələriylə geniş miqyasda əlaqələr saxlamışdır. Orta əsrlər dövründə isə bütün Avropa yuxarıda qeyd olunduğu kimi Firəngistan adı ilə tanınırmış. Azərbaycanın orta əsrlər dövründə Avropa ölkələriylə, Firəngistanla əlaqələrinin əks olunduğu nağıllardan biri də «Paslı qılınc» nağılıdır. Burada göstərilir ki, İsfahan vilayətində bir padşahın üç oğlu varmış [26,51]. Padşah öləndə vəsiyyət edir ki, oğlanları uzaq yerlərə gedəndə bu paslı qılıncı vursunlar. Günlərin bir günü padşah ölür. Onun böyük oğlu Əhməd padşah olur. Bir gün təzə padşah əyaləti gəzmək üçün səfərə çıxmaq istəyir. Bu vaxt ən kiçik qardaş Həsən Əhmədə məsləhət görür ki, paslı qılıncı belinə vursun. Lakin Əhməd paslı qılıncı bəyənməyərək belinə vurmur. Qoşunla bir qədər gedəndən sonra bir qalaçaya rast gəlir. Buraya tək girib, həyətdə böyük bir hovuz görür. Soyunub çimmək istəyir. Bu vaxt bir pəhləvan yel atın üstündə peyda olub onu öldürür. Sonra isə onun yerinə Məmməd padşah olur. Bir qədərdən sonra isə Məmməd öz vilayətini gəzməyə çıxır. Əhmədin başına gələnlər eynilə Məmmədin də başına gəlir. Onu da yel qanadlı atın belində gələn pəhləvan öldürür. Sonra isə Həsən padşah olur. O da padşah olandan sonra ölkəni gəzməyə çıxır. Amma əvvəlcə paslı qılıncı belinə vurur. O da böyük qardaşlarının rast gəldikləri qalaçaya gəlib çıxır. Onun da üstünə yel qanadlı atın belində bir pəhləvan hücum çəkir. Çox gərgin bir vuruşma başlanır. Uzun çəkən döyüşdən sonra Həsən qalib gəlir. Öldürmək istədikdə məlum olur ki, bu, qadın imiş. Qız Firəng padşahının qızı olduğunu bildirir. Atası onu ərə vermək istəyib, o isə istəməyib. Söz verib ki, kim ona qalib gəlsə, ona ərə gedəcək. Həsən qızı almaq üçün Firəngistana yollanır. Yolda bir divə rast gəlib, onu ölümdən qurtarır. Ona görə də div ondan əl çəkməyib, Firəngistana yola düşür. Çox çətinliklərdən sonra, nəhayət ki, o, Firəng hökmdarının qızını alır. Şübhəsiz ki, bu nağılda qəhramanın Firəngistana səfərinin təsviri, burada Firəngistanın adının çəkilməsi orta əsrlərdə Azərbaycanın Avropa ölkələriylə olmuş əlaqələrinin təzahürüdür.

**Qaynaqlar**

1. Vəlixanlı N. Ərəb xilafəti və Azərbaycan. Bakı: Azərnəşr, 1993, 157 s.
2. Nəbiyev A. Azərbaycan-Özbək folklor əlaqələri. Bakı: Yazıçı, 1978, 133 s.
3. Atalar sözü:/ İ. Abbaslının redaktəsi ilə. Bakı: Öndər. 2004, 264 s.
4.Atalar sözü:/ B. Tahirbəyovun redaktəsi ilə. Bakı:Yazıçı, 1985, 690 s.
5. El sözü, xalq lətifələri, atalar sözü, bayatılar, Bakı: Azərnəşr, 1965, 63s.
6. Atalar sözü: Bakı: Azərnəşr, 1993, 227 s.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

7.Atalar sözü və məsəllər:/B.Tahirbəyovun redaktəsi ilə.Bakı: Azərnəşr, 1971,151s.

8. Rzayev X. Atalar sözü. 2 cilddə, I c, Bakı:Nurlan, 2004,583 s.

9. Atalar sözü:/ Ə. Ziyatayın redaktəsi ilə. Bakı: Azərnəşr, 1956, 279 s.

10. Rzayev X.Atalar sözü. Bakı: Təbib, 1992, 119 s.

11. Atalar sözü:/ H. Qasımzadənin redaktəsi ilə. Bakı: Yazıçı, 1982, 366 s.

12. Пахомов Е.А. Монетные находки в Аз.ССР в 1924 г, Баку: Издательство

Азерб.археолог. Ком. вып. 1, 1925, с 71-85

13. Azərbaycan bayatıları:/ T.Fərzəliyev və İ.Abbasovun redaktəsi ilə. Bakı: Elm, 1984,260s.

14. Bayatılar: Red.-ru O. Sarıvəlli. Bakı: Azərnəşr, 1956, 581 s.

15. Bayatılar: Red.-ru A. Vəfalı. Bakı: Yazıçı, 1985, 198 . 16.Xalqımızın deyimləri və duyumları./P.Ş. Əfəndiyev.

Bakı: Maarif, 1986, 392 s.

17. Bayatılar: Red-ru M.N.Təhmasib və C.V. Qəhrəmanov. Bakı: Elm, 1977, 328 s.

18. Bayatılar: Bakı: Azərnəşr, 1960, 256 s.

19. Azərbaycan aşıq şerindən seçmələr: 2 cilddə, I c, Bakı: Şərq-Qərb, 2005, 376 s.

20. Bayatılar: Red.-ru Ə. Abbasov. Bakı: Az .SSR E A nəşriyyatı, Az.F nəşri, 1943, 267s. 21. Azərbaycan aşıqları: 2 cilddə, II c, Bakı: Azərnəşr, 1930, 276 s.

22. Azərbaycan bayatıları:/ T.Fərzəliyev və İ.Abbasovun redaktəsi ilə. Bakı: Elm, 1984, 260 s.

23. Bünyadov Z.M. Azərbaycan Atabəylər dövləti. Bakı: Elm, 1985. 267 s.

24. Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı: Gənclik, 1985, 186 s.

25. Azərbaycan nağılları, Red-ru T. Məmmədov. Bakı: Azərnəşr, 1982, 403 s.

26. Azərbaycan nağılları: Bakı: Azərnəşr, 1976, 256 s.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***İslam Sadıq,***
***AMEA Folklor İnstitutu, elmi işçi***
***islam-sadiqli@rambler.ru***

# AZƏRBAYCAN FOLKLORUNDA TARİXİMİZİN AYDIN İZLƏRİ

**Özət**

Hər bir şifahi xalq yaradıcılığı əsəri yarandığı tarixi dövrün izlərini özündə əks etdirir və qoruyub saxlayır. Hər bir atalar sözü, hər bir hikmətli deyim konkret tarixi dövrdə yaranmışdır. Müəllif bu məqalədə ilk dəfə olaraq “Allahın evi”, “Allahın bacısı oğlu”, “Ana haqqı-Tanrı haqqı” formullarının yarandığı tarixi açmışdır. Şumer mətnlərindəki Absu ilə Xəzər dənizinin eyniliyini sübut etmişdir. Dünyanın toponimlər xəritəsi eyni zamanda dünyanın etnik xəritəsidir. Ona görə də etnik tarixin öyrənilməsində toponimlərə istinad edilməsi zəruridir. Müəllif məqalədə bu məsələyə geniş yer ayırmışdır.

**Açar sözlər:** Deyimlər, Absu, Xəzər, toponim, tarix, qaynaq

**Резюме**

Каждое произведение устного народного творчества отражает в себе следы того исторического периода, в котором они появились. Каждая пословица, каждый афоризм был создан в конкретном историческом времени. Автор в данной статье впервые раскрыл историю создания выражений «Дом бога» (Allahın evi), «Племянник бога» (Allahın bacısı oğlu), «Права матери-права бога» (Ana haqqı-Tanrı haqqı), доказал идентичность моря Абсу в шумерских текстах с Каспийским морем. Карта топонимов мира является этнической картой мира. Поэтому в изучении этнической истории необходимо основываться на топонимы. Автор в данной статье уделяет большое внимание этому вопросу.

**Ключевые слова**: крылатые слова, Абсу, Каспий, топоним, история, источник

**Summary**

Each folklore work reflects and preserves the historical signs in itself. Each proverb, saying has created in concrete historical date. In this article the author for the first time has cleared up the origin history of expressions such as “God’s home”, “God’s nephew”, “Mother right-God right” and has proved the identity of Absu and Khazar denizi (Caspian sea) in Sumerian texts. The toponym map of the world is the the ethnic map of the world. That is why it is necessary to base on toponyms in the investigation of ethnic history. The author has paid separately attention to this problem.

**Key words:** saying, Absu, Khazar, toponym, history, source.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hər bir şifahi xalq yaradıcılığı əsəri yarandığı tarixi dövrün izlərini özündə əks etdirir və qoruyub saxlayır. Hər bir atalar sözü, hər bir hikmətli deyim konkret tarixi dövrdə yaranmışdır. Müəllif bu məqalədə ilk dəfə olaraq "Allahın evi", "Allahın bacısı oğlu", "Ana haqqı-Tanrı haqqı" formullarının yarandığı tarixi açmışdır, Şumer mətnlərindəki Absu ilə Xəzər dənizinin eyniliyini sübut etmişdir. Dünyanın toponimlər xəritəsi eyni zamanda dünyanın etnik xəritəsidir. Ona görə də etnik tarixin öyrənilməsində toponimlərə istinad edilməsi zəruridir. Müəllif məqalədə bu məsələyə geniş yer ayırmışdır.

**Açar sözlər:** Deyimlər, Absu, Xəzər, toponim, tarix, qaynaq

* * *

Hər bir folklor əsərinin altında onu yaradan xalqın imzası var. Bu imza görünməsə də, həmin əsərlərdə xalqın duyğu və düşüncələri, arzu və idealları, yaşam və təfəkkür tərzi aydın nəzərə çarpır. Ona görə İ.N.Koqan doğru olaraq yazırdı ki, maddi mədəniyyət predmetlərinə nisbətən mənəvi mədəniyyət predmetləri onları yaradanların şəxsiyyəti haqqında daha çox məlumat almağa imkan verir (1,58). Böyük Azərbaycan yazıçısı Yusif Vəzir Çəmənzəminli yazırdı ki, "tarixi tədqiq etmək üçün filoloji təhlilə, xalq ədəbiyyatına, el adət və etiqadlarına müraciət etmək birinci məsələlərdən olmalıdır" (2,34).

Folklor əsərləri arasında tarixilik baxımından dastanlar xüsusilə böyük əhəmiyyətə malikdir. Hər bir dastan xalqın özü tərəfindən yazılmış tarixidir. Burada söhbət sözün həqiqi mənasında yazılmaqdan yox, yaddaşlara yazılmaqdan gedir. İstənilən müəllifli əsərdə müəllif öz subyektiv fikirlərilə tarixə müdaxilə edir, onu şəxsi düşüncə süzgəcindən keçirir. Dastanlar isə qərəzsiz yazıldığına görə, daha dürüst və etibarlı tarixi qaynaqlardır. AMEA-nın müxbir üzvü Tofiq Hacıyev də "...qəhrəmanlıq dastanı tarixin şifahi dərsliyidir. Həqiqətən, ad (Kitabi-Dədə Qorqud-İ.S.) bugünkü mənasında kitabdır, həm də məhz dərslik kitabıdır və "Dədə Qorqud kitabı" Oğuz tarixinin yazılı dərsliyidir (3,104) deyəndə bunu nəzərdə tutmuşdur. Bu yazılı dərslik sözsüz ki, yazıya alınana qədər min illər boyu şifahi şəkildə mövcud olmuş, yaddaşlarda yaşamış, ağızdan ağıza ötürülə-ötürülə cilalanaraq, mükəmmələşərək bizə bəlli olan poetik gözəlliyi qazanmışdır. AMEA-nın müxbir üzvü Yaqub Mahmudov da doğru olaraq demişdir ki, "Kitabi-Dədə Qorqud" türklüyün, o cümlədən Azərbaycan tarixinin öyrənilməmiş dünyasıdır (4,35). Doğrudan da, tariximizin öyrənilməsində hələ də dastanlarımıza tarixi qaynaq kimi təsadüfi hallarda müraciət olunur. Halbuki Necati Dəmirin sözlərilə desək, "dastanlar millətlərin ensiklopediyasıdır. Tarixi ünsürlərin yanında millətlərin keçmişdəki gələnək, görənək və yaşayış tərzləri ilə ilgili olaraq bəlkə də heç bir qaynaqda rast gəlinməyən bilgilər dastanlarda yer almaqdadır (5,355). Dastanlardan tarixi qaynaq kimi istifadə etmək üçün birinci növbədə, onlardakı gerçəklikləri duymağı və görməyi bacarmaq lazımdır. Bu tarixi gerçəklikləri duymağı və görməyi bacarmayanda onlardan istifadə etmək xeyli çətinləşir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Rus və qərb alimlərinin tarixi araşdırmalarda folklor əsərlərindən bir qaynaq kimi cəsarətlə istifadə etdikləri bir vaxtda Azərbaycanda bu işə qısqanclıqla yanaşılmasını başa düşmək olmur. E.M.Meletinskinin “xalq nağıllarından fərqli olaraq qəhrəmanlıq eposunda tarixi, dövlətçilik miqyaslarına daha çox meyl və həvəs göstərilir. Onun tarixi xalqın və qədim dövlətçiliyin formalaşması ilə sıx bağlıdır” (6,423), V.Y.Proppun “hər bir sənət əsərini gerçəklik yaradır” (7,70), “hətta ən fantastik folklor obrazlarının belə tarixi gerçəklikdə öz kökləri var” (8,115), B.N.Putilovun “epos yaradıcılığı gerçəkliyə əsaslanır” (9,177) fikirlərində böyük həqiqət var.

Azərbaycan tarixşünaslığında bir çox hallarda epik tarix real tarixə qarşı qoyulur, saxtalaşdırılmış yazılı tarix kitabları gerçəkçi epik tarixdən daha üstün tutulur, yüksək qiymətləndirilir. Onlardakı saxta tarixi məlumatlara istinad etməklə tarix yenidən saxtalaşdırılır. Burada yalnız Arakel Təbrizlinin “Tarix” kitabının adını çəkmək istəyirəm. Tarixi gerçəkliklərin kobud şəkildə təhrif edildiyi bu kitabı Azərbaycan alimlərinin “birinci dərəcəli qaynaq”, “nadir mənbə” adlandırmaları yalnız təəssüf doğurur. “Koroğlu”nun XVII əsrlə və Cəlalilər üsyanı ilə bağlanması məhz A.Təbrizlinin “Tarix” kitabına istinaddan irəli gələn bir yanlışlıqdır ki, hələ də onu düzəltmək mümkün olmur. Tədqiqatlar göstərir ki, Koroğlunun Cəlalilər üsyanı ilə heç bir bağlılığı yoxdur. Dastanın öz mətnində verilmiş elə tutarlı faktlar var ki, onlar Koroğlunun XIII-XIV əsrlərdə yaşadığını göstərir. Tüfəng, Bolu bəyin 1335-1336-cı illərdə Anadolu bəylərindən olması, dastanda ümumiyyətlə üsyan elementlərinin olmaması, XIII-XIV və XVI-XVII əsrlərin siyasi coğrafiyasının müqayisəsi belə nəzərə alınmalı faktlardır (10,10-38). Ona görə də epik tarixi real tarixə qarşı qoyub onların arasında kəskin sərhəd çəkmək yox, real tarixin epik düşüncənin süzgəcindən keçmiş daha saf, daha aydın izlərini görmək, yaxud duymaq lazımdır. Bununla elmə daha böyük fayda vermək olar.

Xalqın epik yaddaşı onun maddi (tarixi) yaddaşından ayrılmazdır. Əslində epik yaddaş zəngin tarixi xatirələrlə dolu olan maddi yaddaşın güzgüsüdür. Bu gün xüsusilə unutqanlaşmış türk xalqı üçün korşalmış maddi yaddaşın itilənməsi çox vacib məsələlərdən biridir. Bu işdə epik yaddaşı heç nə ilə əvəz etmək mümkün deyil. Onun görəcəyi işi də heç nə ilə görmək olmaz. Maddi yaddaşı daim ovxarlı saxlamaq üçün epik yaddaş ən yaxşı bülövdür. Ona görə cəsarətlə demək olar ki, bu gün türk qəhrəmanlıq dastanlarının, digər folklor örnəklərinin daha geniş miqyasda, yeni təfəkkür və düşüncə ilə tarixi aspektlərdən öyrənilməsi, onların Şumer epik mətnləri ilə müqayisəli şəkildə araşdırılması tariximizin bir çox qaranlıq səhifələrinin işıqlandırılması baxımından müstəsna əhəmiyyət kəsb edir. Burada Azərbaycan folklorundan götürülmüş bir neçə nümunəyə diqqət yetirməyi lazım bilirəm.

**Deyimlər:** Dil və xalq bir-birilə elə bağlıdır ki, onlardan hər hansı birini digərindən ayrılıqda təsəvvür etmək belə mümkün deyil. Ona görə də dilin tarixini öyrənmək elə xalqın tarixini öyrənmək deməkdir. Dilin tarixi xalqın tarixidir. Heç də



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

təsadüfi deyil ki, son vaxtlar qərb alimləri də tarixin tədqiqində linqvistik materiallara daha çox üstünlük verirlər.

Azərbaycan folklorunda, xalqın yaddaşında bu gün bir sıra çox maraqlı bədii formullar var ki, onların tarixi mütləq öyrənilməlidir. Məsələn, "Allahın evi", "Allahın bacısı oğlu", "Ana haqqı-Tanrı haqqı" və s. belə deyimlərdir. Onları bir-bir nəzərdən keçirək:

**1. Allahın evi:** Bu gün məscidlərə "Allahın evi" deyilir. İslam dini düşüncəsinə görə, Allah maddi deyil və onun evindən söhbət gedə bilməz. Ev yaşayış üçündür. "Filankəsin evi" deyəndə onun yaşadığı yer nəzərdə tutulur. İslama görə, Allahın evə ehtiyacı yoxdur. Bəs bu deyim necə yaranmışdır? Şumer epik mətnləri və Şumer tanrılar panteonu ilə yaxından tanış olmadan bu suala cavab vermək mümkün deyil. Şumerdə hər bir şəhərin himayəçi tanrısı olmuşdur. Tanrı himayə etdiyi şəhərdə də yaşamışdır. Yaşamaq üçün onun həmin şəhərdə öz evi olmalı idi və vardı. Anın Urukdakı evi Eanna, Enlilin Nippurdakı evi Ekur, Enkinin Eridudakı evi Eabsu adlanmışdır. Şumer mətnlərindən aydın görünür ki, qədim insanlar tanrılarla bir yerdə yaşamış, onlara qulluq etmişlər. Həmin insanlar tanrıların evlərini də tanıyırdılar. Heç bir şübhə yoxdur ki, dilimizdə işlənən "Allahın evi" ifadəsi məhz Şumer dövründən də əvvəl mövcud olmuşdur və indi də yaşayır. Deməli, bu deyimin İslam dini ilə heç bir ilişgisi yoxdur, onun ən azı 10 min il yaşı var.

2. **Allahın bacısı oğlu:** yuxarıda deyildiyi kimi,İslam dini düşüncəsinə görə, Allah maddi deyil. Allah təkdir, doğmur və doğulmur. Nə arvadı və uşaqları, nə də qardaşı və bacısı yoxdur. İslam Allah haqqında bu mövzularda nəinki danışmağı, hətta düşünməyi belə qəbahət sayır. Bəs onda "Allahın bacısı oğlu" nə deməkdir?

Yenə Şumer tanrılar panteonuna üz tutmalı oluruq. Şumer mətnlərindən görünür ki, tanrılar göydən, yəni başqa planetdən - Nabur planetindən yerə gəlib ilk dəfə Absu dənizinin sahilində Eridu şəhərini saldılar və orda yaşamağa başladılar. Tanrılar burada evlənir, ailə qurur, ev tikib yaşayır, oğul-qız doğur və onları böyüdürdülər. Məsələn, An Şumerin baş tanrısı, Enlil və Enki onun oğlanları, Antu və Nammu arvadlıarı, Ninqursaq// Ninti//Ninmax və Baba qızlarıdır. Bu hələ insanların yaranmadığı dövrdür. İnsanlar yarandıqdan sonra tanrılar insanlarla da evlənmişlər. Bilqamısın anası tanrı Ninsun, atası insandır. Adapanın atası tanrı Enki, anası yer qadınıdır. Şumer panteonunda bütün qohumluq əlaqələri və qohumluq türminləri, o cümlədən dayı-bacıoğlu münasibəti mövcud olmuşdur. Həm də "bacıoğlu" digər qohumlardan, hətta oğuldan da üstün tutulmuşdur, çünki bu panteonda vərəsəlik bacı xəttilə ötürülmüş, hakimiyyət atadan oğula yox, dayıdan bacıoğluna keçmişdir. Enki Anın böyük oğlu olsa da, Anın səlahiyyətləri böyük oğlu Enkiyə yox, kiçik oğlu Enlilə verilmişdir. Bunun yeganə səbəbi Enlilin eyni zamanda Anın bacısıoğlu olması idi. Bacıoğlu vərəsəliyini sonralar insanlar da qəbul etmişlər. Şumer şəhərlərində əksər hallarda hakimiyyət dayıdan bacıoğluna ötürülmüşdür. Bu da o deməkdir ki, Şumer tanrılar panteonunda və Şumer şəhərlərində bacıoğlu təkcə qohumluq bildirən termin olmayıb, eyni zamanda haki-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

miyyətin gələcək varisi hesab edilmişdir. Bu gün Azərbaycanda özünü çox yüksək tutan, başqalarına yuxarıdan aşağı baxan adamlar haqqında deyilən "elə bil Allahın bacısı oğludur" ifadəsi məhz Şumer dövrünün dildə kristallaşmış yaşantısıdır. Onun tarixi Şumerdən əvvələ də gedə bilər. Onda deyə bilərik ki, bu deyimin tarixi Şumerdən daha qədimdir və ən azı 10 min il yaşı var.

**"Ana haqqı-Tanrı haqqı".** Bu formul "Dədə Qorqud kitabı"nda üç yerdə işlənmişdir. Bu deyimi ilk dəfə "Salur Qazanın evinin yağmalandığı boy"da Uruzun dilindən eşidirik. Salur Qazanın evini yağmalamış Şöklü Məlik onun belini sındırmaq üçün namusunu ləkələmək istəyir, ancaq qadınlar arasında kimin Boyu Uzun Burla Xatun olduğunu tapa bilmir. O zaman əmr verir ki, oğlu Uruzun ətindən kabab bişirib qadınlara yedirsinlər. Kim yeməsə o, Burla xatundur. Onda Uruz anasına deyir:

-Ağzın qurusun, ana! Dilin çürüsün, ana! Ana haqqı, tanrı haqqı deyilməsəydi, qalxıbanı yerimdən duraydım. Yaxanla boğazından tutaydım. Qaba öncəm altına salaydım...Onlar bir yediyində sən iki yegil! Səni kafirlər bilməsinlər, duymasınlar. Ta kim, sasi dinli kafirin döşəyinə varmayasan. Sığrağın (sürməyəsən). Atam Qazan namusını sımayasan! Saqın! - dedi (12,39). Oğul özünü atasının namusu yolunda qurban verməyə razı olur, anasını "Ana haqqı, tanrı haqqı" olduğuna görə öldürmür. Yağı düşmənin döşəyinə girməkdən anasını öldürməyi üstün tutur.

İkinci dəfə bu formulu "Uşun Qoca oğlu Səgrək boyu"nda Səgrək işlətmişdir. Qardaşı Əgrəyin dustaq olduğunu biləndə anasına deyir:

Ana haqqı, tanrı haqqı olmasaydı,
Qara polad üz qılıcım tutaydım,
Qafillicə görklü başın kəsəydim.
Alca qanın yer üzünə tökəydim,
Ana, zalım ana! - dedi. (12,36).

Yenə "ana haqqı, tanrı haqqı" Səgrəyin əl-qolunu bağlayır, onun Əgrək adlı qardaşının olduğunu gizlədərək yalan danışmış anasını yalnız buna görə bağışlayır.

Üçüncü dəfə "Salur Qazanın dustaq olub oğlu Uruz çıxardığı boy"da yenə də Qazanın oğlu ilə anası arasında gedən söhbətdə onun bu formulu işlətdiyini görürük. Salur Qazan dustaq olanda onun oğlu doğulur və anası uşağı inandırır ki, o, Bayındır xanın oğludur. Bir gün kimsə ona deyir ki, sən Bayındır xanın yox, xan Qazanın oğlusan. Oğlan bu sözdən alınır və anasının yanına gəlib ondan kimin oğlu olduğunu soruşur. Anası da düzünü deyir ki, Bayındır xan sənin babandır, atan isə xan Qazandır. Tuman qalasında dustaqdır. Onda oğlan anasına deyir:

-Mərə ana! Mən xan (Bayındır) oğlu deyilmişəm, xan Qazan oğlu imişəm. Mərə, qavat qızı! Munu mənə neçün deməzdin? Ana haqqı, tanrı haqqı deyilmişsə, qara polad üz qılıcım dartaydım, qafillicə görklü başın kəsəydim. Alca qanın yer üzünə tökəydim - dedi (12, 148).

"Ana haqqı, tanrı haqqı" formulunun bir törəməsini də məhəbbət dastanlarında görürük. Öz sevgilisinin arxasınca uzaq səfərə yola düşməzdən öncə qəhrəmanlar öz analarından halallıq alırlar. Bu halallıq "ana, halal eylə, hümmət eylə" formulu ilə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ifadə edilmişdir. "Ana haqqı, tanrı haqqı" formulu çox dərin kökləri olan, tarixi gerçəkliyə söykənən, eposda yerində işlənən ən maraqlı deyimlərdəndir. Qorqudşünaslar və eposdan yazan digər müəlliflər "Ana haqqı, Tanrı haqqı" deyiminə çox diqqət yetirmişlər, ancaq onun poetik kodu hələ də açılmamışdır. Alimlərin əksəriyyəti "Ana haqqı Tanrı haqqına bərabər tutulur" deməklə kifayətlənmişlər. Halbuki "Ana haqqının niyə Tanrı haqqına bərabər tutulduğunun" daxili poetik tutumunu, hansı etnomifoloji, etnososial, etnosiyasi düşüncədən yarandığını açmağa ehtiyac var.

Yenə İslam düşüncəsinə görə, heç bir halda insan Tanrı ilə eyniləşdirilə bilməz. Bu deyimin də tarixi İslamdan daha qədim dövrlərə gedib çıxır. Onun insanların tanrını ana kimi tanıdıqları (məsələn, Bilqamısın anası Tanrı idi), tanrının əcdad olduğuna inandıqları əski çağlardan yaddaşlarda yaşadığına heç bir şübhə ola bilməz. Şumer mətnlərindən birində açıqca deyilir ki, "ananın sözünə Tanrının sözü kimi qulaq as" (13,73,211). Bu ifadə "Ana haqqı-Tanrı haqqı" deyiminin sinonimi olub, onun mənasını olduğu kimi əks etdirir. "Şuruppakın öyüdləri" adlı Şumer mətnində də ata-ananın Tanrı Utuya bərabər tutulduğu aydın ifadə edilmişdir. Şuruppak oğlu Ziusudraya deyir:

Ana Günəş Tanrısı Utu kimidir, o, uşaq doğur.
Ata Tanrı kimidir, işıq saçır.
Ata Tanrı kimidir, dəyişməz onun sözü. (14,309)

Aydındır ki, İslam dövründə insanlar heç vaxt bu cür düşünməzdilər. Bunun özü iki məsələni aydınlaşdırmağa kömək edir:

1. KDQ-nin yaranma tarixi islamdan çox qədim olub, Şumer dövrünün düşüncə və duyğularıyla olduqca zəngindir. Eposun mətnində adda-budda mirzələr tərəfindən "Məhəmməd", "rükət", "namaz" kimi söz və ifadələr artırılsa da, onun əti, qanı, ruhu əski türk düşüncə, inam və duyğularıyla yoğrulmuşdur. Sonradan artırılmış ifadələri və cümlələri mətndən götürdükdə onun məzmununa heç bir xələl gəlmir. Ancaq əski türk düşüncə və inamlarını mətndən ayırmaq mümkünsüzdür.

2. Təkcə "ana haqqı, tanrı haqqı" formulunda "tanrı-əcdad" kodunun qorunub saxlandığı göz önündədir. Tanrı əcdaddır. Özü də anadır. Ona əl qaldırmaq olmaz. Bizim eposda da ana Tanrı statusundadır. Bu statusu ona heç kim verməyib. Tanrıların insanların anası olduğu dövrlərdən bu status irsən analara keçib. Deməli, KDQ-də "tanrı-əcdad" anlayışı nəinki unudulmamış, əksinə, onun ruhuna hopmuş "ana haqqı, tanrı haqqı" formulunda kristallaşmış, minillər boyu yaddaşlarda yaşamış, sonradan da kitaba düşərək ölməzləşmişdir.

**Absu-Xəzər dənizi:** Şumer mətnlərində Absu dənizinin adına tez-tez rast gəlinir. Onun haqqındakı mətnlərə görə, dünya başlanğıcda yalnız sudan ibarət olmuşdur. Bu su dünya okeanı adlandırılır və Absu ilə eyniləşdirilir. Dünyanın yaranması haqqındakı mətnlərdə yerlə göy bir-birindən ayrılarkan Absu dənizinin Göydən yerə endirildiyi göstərilir. Şumerin müdriklik Tanrısı Enkinin evi Absu dənizində olmuşdur. İlk insanlar bu dənizin kənarında doğulmuşdur. Ümumiyyətlə,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şumer mətnlərində Absu dənizi haqqında çox zəngin bilgilər mövcuddur. “Bilqamıs və ölməzlər dağı” dastanından aydın görünür ki, ölməz insanların yaşadıqları ölkə də Absu dənizinin yaxınlığındadır.

Absu sözünün mənası “səma dənizi”, “göy dənizi” (ab-səma, göy; su- dəniz) deməkdir. “Ab” şumer dilində “göy”, “səma” mənaları bildirmiş, hazırda türk dilində mavi rəngin “abı” çalarının adında saxlanmışdır.

Alman alimi Erix Seren Xəzər dənizi haqqında çox maraqlı bir bilgi vermişdir. Onun fikrincə, Xəzər dənizinin ilk adı “səma dənizi”, “göy dənizi” olmuşdur. Burada onun fikrini olduğu kimi verirəm: “Vtoroe derevo, mestonaxojdeniem kotoroqo takje bılo Kaspiyskoe more (pervonaçalno eto, nesomnenno, bılo «Nebesnoe more»), nazıvalos Xaoma Qokord (ili Tao kerena)” (15,124). Rus folklorçusu A.N.Afanasyev bu dənizi “hava okeanı” adlandırıb, onun “göy dəniz” olduğunu söyləmiş, burdakı “göy” sözünü rəng anlamında başa düşmüşdür. Lakin o doğru olaraq həmin dənizin ortasındakı ağacı Tanrı ilə eyniləşdirmiş, onun Şərqdə yerləşdiyini yazmışdır (16,214-215). Bu dəniz də yenə Xəzər dənizinə, onun ortasındakı ağac isə Şumerin “Dirilik ağacı”na və Dədə Qorqudun “Qaba ağacı”na uyğun gəlir. “Absu - səma, göy dənizi” və “Xəzər- səma, göy dənizi” paralelləri onların hər ikisinin eyni dəniz olduğunu göstərir və bu eynilik bir çox qaranlıq məsələləri aydınlaşdırmaq baxımından böyük əhəmiyyət kəsb edir. Absu və Xəzər dənizinin eyniliyini təsdiqləyən əlavə faktlar da mövcuddur. Birincisi, Xəzər dənizinin adları sırasında Absuqun /Absiqun / Abasqun yazılışlarına rast gəlinir ki, bunların hamısı Absu sözünün ərəb və fars dillərinə keçərkən təhrif olunmuş şəkilləridir. Xəzərin qədim adlarından birinin Absigün olduğunu Mahmud Kaşğari “Divan”ında görürük: “Bu gün uzunluğu beş min fərsəx, eni üç min fərsəx, cəmisi səkkiz min fərsəx olan türk ölkəsinin sərhədlərinin ucları Abisgün (Xəzər) dənizində birləşərək Rum diyarından və Özçənddən Çinə qədər uzanır” (17,152). Əslində bu adların hamısının kökündə “Absu” sözünün olduğu aydın görünür. İkincisi, Absu adı sonralar türk coğrafiyasında Göysu hidronimi şəklində geniş yayılmışdır. Göyçayın adı əvvəllər Göysu olmuşdur. “Göysu” adı hələ çay sözünün yaranmadığı, onun da su sözü ilə ifadə edildiyi dövrdən qalmışdır. “Göygöl”, “Göyçə gölü” adlarındakı “göy” morfemi rəng yox, məhz “səma” anlamındadır. Digər türk coğrafiyalarında həm “ab”, həm də “göy” kökündən yaranmış çoxlu hidronimlər, hətta “Göysu” hidronimləri var. Abşeron toponiminin Absu hidronimindən yarandığı şübhəsizdir (18,212). “Ab” və “Absu” kökündən yaranmış bütün toponimlərin tarixi Şumer dövrünə, hətta ondan da əvvəllərə gedib çıxır. Şumer mətnlərinə görə, ölməz insanlar Absu dənizinin, türk epik mətnlərinə görə isə Xəzər dənizinin yaxınlığında yaşayırlar. Şumer mətnlərində ölməz insanların yaşadığı ölkənin yiyəsi Günəş Tanrısı Utudur. Türk mətnlərinə görə, Günəş kultu türklər arasında geniş yayılmışdır. Bir türk tayfası günəş adlanır. Türk epik qəhrəmanları özlərini Günəşin oğlanları hesab edirdilər. Şumer epik qəhrəmanları dara düşəndə Günəşə üz tutur, ondan kömək istəyirdilər. Bilqamısa ölməzlər dağına gedərkən Günəş Tanrısı Utu kömək etmişdir. Luqalbanda xəstələnib ölüm ayağında



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olarkən Utuya dua etmiş, yalnız Utunun köməyi sayəsində sağalıb Uruka qayıtmışdır. Türk epik qəhrəmanları da eynilə dara düşəndə Günəşi çağırır, ona üz tuturlar. Anadolu sözünün mənası "Günəşi sevənlərin ölkəsi" deməkdir. Azərbaycana çox zaman "Gündoğan", "Günəşli diyar", "Odlar yurdu", "Odlar ölkəsi" deyirlər. Dilimizdəki "od oğlu" ifadəsi də "Günəşin oğlu" deməkdir. Bu deyilənlər Absu və Xəzər dənizinin eyniliyini təsdiqləmək üçün kifayətdir. Onda tərəddüd etmədən Şumer mətnlərində Absu haqqında deyilən fikirlərin hamısının Xəzər dənizi haqqında deyildiyi qəbul oluna bilər:

1. Başlanğıcda dünya sudan ibarət olmuş və dünya okeanı adlanmışdır. Bu okean Xəzər dənizidir;
2. Dünya yaranarkan ilk dəfə Yerlə Göy bir-birindən ayrılmış, Xəzər dənizi Göydən Yerə endirilmişdir;
3. Şumerin müdriklik Tanrısı Enkinin evi Xəzər dənizində olmuşdur;
4. İlk insanlar Xəzər dənizinin sahilində doğulmuşdur;
5. Qobustan yer üzündə insan əlilə yaradılmış ilk mədəniyyət ocağıdır.

**Toponimlər:** Hər bir etnos yurd saldığı yerlərə, birinci növbədə, adlar qoyur və bu adlar istisnasız olaraq etnosun öz dilindən götürülür. Ona görə cəsarətlə demək olar ki, dünyanın toponimlər xəritəsi onun etnik xəritəsidir. Mahmud Kaşğari türklərin saldıqları bir sıra şəhərlərin qədimliyi və onların adları haqqında yazırdı: "Səmərqəndə Səmizkənd, Şaşa Daşkənd deyildiyi kimi, burada Özkənd, Tünkənd şəhərləri də vardır ki, onların hamısının adı türkcə şəhər demək olan "kənd" sözü ilə düzəlmişdir. Bu şəhərləri türklər salmış, adlarını da özləri qoymuşlar. Bu adlar qədimdən bu günə qədər olduğu kimi işlənir (17,152). Bu toponimlərin qədimliyi eynilə türkün qədimliyi deməkdir. Hər bir etnosun tarixinin öyrənilməsində toponimlər ən etibarlı qaynaqlardır. Təəssüflər olsun ki, Azərbaycan toponimləri haqqında aparılmış tədqiqatların böyük əksəriyyətində onların etimologiyası yad dillərə bağlanmış və buna görə də yaranma tarixi və yaşı kobud şəkildə təhrif edilmişdir. Buna aid yüzlərlə misal çəkmək olar. Ancaq buna ehtiyac duymuram. Mən Şumer mətnləri əsasında 50-dən çox Azərbaycan toponiminin həm etimologiyasını açmışam, həm də bununla onların tarixinin nə qədər qədim olduğunu sübut etmişəm. Həmin toponimlərin tarixi xalqın tarixi deməkdir. Onlardan bir neçəsinin adlarını çəkmək istəyirəm: Abşeron, Şağan, Şıxlar, Qazax, Quba, Qusar, Tovuz, Avan, Xızı və s.

Azərbaycan dastanları toponimlərlə çox zəngindir. "Dədə Qorqud" və "Koroğlu" dastanlarında bir dənə də uydurma toponim yoxdur. Bu toponimlərin hamısı bu gün də bizə tanışdır. "Dədə Qorqud"dakı toponimlər və onların coğrafi arealı öyrənilmişdir. "Koroğlu" dastanındakı toponimləri mən araşdırıb, hətta dastanın xəritəsini də hazırlamışam. Bu tədqiqatlar bir çox tarixi gerçəklikləri üzə çıxarmağa imkan vermişdir. Məsələn, tarixçilər Xankəndi toponimini İbrahim xanla bağlayırlar. Həm də tarixçilər belə yazırlar ki, guya İbrahim xan Xankəndində özünün at ilxısını saxlayırmış. Xan heç vaxt at ilxısı saxladığı yerə öz adını verməz, oranı Xankəndi adlandırmazdı. Halbuki XVI əsr qaynaqlarında Xankəndi adına rast


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

gəlinir. Deməli, İbrahim xandan çox əvvəl bu ad mövcud olmuşdur. Xankəndində Qara xan yaşamışdır. "Koroğlu" dastanındakı "Düratın itməsi" yaxud "Koroğlunun Ballıca səfəri" qolundakı Ballıca da Xankəndinin yaxınlığında bir kənddir, öz adını bu gün də saxlamışdır. Dastandakı hadisələrin təhlili onların məhz bu Ballıcada baş verdiyini göstərmişdir. Dastanda Koroğlunun ilxısının gizlədildiyi yerin təsviri tamamilə Daşaltıya uyğun gəlir. Məhəbbət dastanlarımızda Misir, Hələb adlarına rast gəlinməsi bu günə qədər tədqiqatlardan kənarda qalmışdır. Bu adların dastanlarımıza düşməyində heç bir təsadüf yoxdur. Qədim qaynaqlarla tanışlıq göstərir ki, indiki Misir, Nubiya, Efiopiya və s. ərazilərində ilk dövlətləri türk tayfası olan quşçular qurmuşlar. Məhəbbət dastanlarımızın qəhrəmanları da öz qohum-əqrəbalarının qızlarına aşiq olurdular. Coğrafi uzaqlıq milli-mənəvi bağları bir gün də olsun qıra bilməmişdir. Bu tarixi bağları isə daha çox xalqın mənəvi yaddaşının bəhrəsi olan dastanlarımız qoruyub saxlamışdır.

**"Oğuz Kağan" dastanı:** Tarixilik baxımından türk dastanları arasında "Oğuz Kağan" xüsusilə böyük əhəmiyyət kəsb edir. Təəssüflər olsun ki, bu dastan Azərbaycanda nə tarixilik, nə də filoloji aspektdən sona qədər öyrənilməmişdir. Dastanı tarixi kontekstdə araşdıran A.N.Bernştam yazırdı ki, "Oğuz Kağan" əsəri tarixi qaynaq kimi hələ tədqiq edilməmişdir (19, 33). Mən "Oğuz Kağan" dastanını Şumer qaynaqları ilə müqayisəli şəkildə həm filoloji, həm də tarixi aspektlərdən araşdırmışam. Bu araşdırmalar nəticəsində Oğuz Kağanın Rəşidəddin və Əbülqazi Bahadır xanın öz əsərlərində aparıb Nuha çıxardıqları şəcərəsi bir az da qədimlərə gedərək Şumerin müdriklik Tanrısı Enkiyə bağlanmışdır. Bununla da Oğuz Kağanın tarixinin tufandan da əvvəlki dövrə gedib çıxdığı öz təsdiqini tapmışdır. Bu tarix isə təkcə Oğuz Kağanın deyil, Oğuz etnosunun tarixi kimi qəbul edilməlidir. Bu məqalə Rusiya Türkologiya Komitəsinin 2010-cu ildə keçirdiyi Beynəlxalq Konfransın materiallarında və Ukrayna MEA A.Krımski adına Şərqşünaslıq İnstitutunun Elmi əsərlərində nəşr olunmuşdur (20, 74-80).

Azərbaycan folkloru bu cür tarixi məlumatlarla kifayət qədər zəngindir. Onlardan tarixi qaynaq kimi istifadə etməkdən çəkinmək lazım deyil. Azərbaycan folklorundan tarixi tədqiqatlarda ağılla, bacarıqla, yerli-yerində istifadə etməklə elmə daha böyük fayda vermək olar. Bunun üçün birinci növbədə, folklor örnəklərini dərindən duymaq tələb olunur.

**Qaynaqlar**

1. Коган Л.Н. Духовное производство и культура// Культура, творчество, человек (состовители Баллер Э.А., Злобин Н.С.). Москва. 1970. с.49-72.
2. Çəmənzəminli Y.V. Biz kimik (Transfoneliterasiya, tərtib, ön söz və qeydlərin müəllifi: Şəlalə Hümmətli). Bakı. 2004. 136 s.
3. Hacıyev Tofiq. "Dədə Qorqud kitabı": olan və olmayan boylar // DQD (Tərtib edəni və redaktoru AMEA-nın müxbir üzvü Tofiq Hacıyev). Bakı. 2004. s. 94-108.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

4. Mahmudov Yaqub. "Dədə Qorqud kitabı" - xalqın yaratdığı və yaşatdığı tarix // DQD. Bakı. 2004. s. 18- 35.

5. Necati Demir. Ortak türk keçmişinden ortak türk gelecegine destanlar //OTKOTGUFKM. VI kitab. Bakı.2010. s.355- 365.

6. Мелетинский Е.М.. Происхождение героического эпоса. Москва. 1963. 464 с.

7. Пропп В.Я. Поэтика фольклора. Москва,1998. 352 с.

8. Пропп В.Я. Фольклор и действительность. Москва. 1976.326 с.

9. Путилов Б.Н. Типология фольклорного историзма // ТНЭ. «Наука». Москва. 1975. с.164-180.

10. Sadıq İslam. Koroğlu kim olub. Bakı. Azərnəşr. 1998. 206 s.

11. Sadıq İslam. Şumerdə izim var. Bakı. Azərnəşr. 2008. 396 s.

12. "Kitabi-Dədə Qorqud" (Tərtib edəni f.e.d., professor, əməkdar elm xadimi Samət Əlizadə, nəşrə hazırlayanı və redaktoru AMEA-nın müxbir üzvü, f.e.d., professor, əməkdar elm xadimi Tofiq Hacıyev), "Öndər", Bakı, 2004. 376 s.

13. Muazzez İlmiye Çığ. Ortadoğu Uyğarlıq mirası-1. Kaynak yayınları. 6-cı nəşr, İstanbul, 2009, 312 s.

14. В давние дни, в стародавние дни (перевод Афанасьевой В.К.) // АШП. СПб. 1997. с.301-310.

15. Эрих Церен. Лунный бог. Москва. «Наука». 1976, 281 с.

16. Афанасьев А.Н. Древо жизни. Избранные статьи (подготовка текста и комментарий Б.П.Кирдана). Москва. 1982. 464 с.

17. Kaşğari Mahmud. Divanü Lüğat-it-türk (tərcümə edən və nəşrə hazırlayan Ramiz Əsgər). IIIc. Bakı. 2006.400 s.

18. Islam Sadig. Unrevealed sekrets of toponyms // Azerbaijan/ azerbaijanis. Baki. 2008. № 5-8. p.205-214.

19. Бернштам А.Н. Историческая правда в легенде об Огуз-кагане // СЭ. 1935. №6. с. 33-43.

20. Садыг Ислам. «Огуз Каган»- древняя история тюркских народов // Kiyev. «Східний світ». A.Krımski adına Şərqşünaslıq İnstitutunun elmi Əsərləri. 2010. № 3. s. 74-80

**İxtisarlar**

- DQD- Dədə Qorqud Dünyası,
- OTKOTGUFKM- Ortaq Türk Keçmişindən Ortaq Türk Gələcəyinə Uluslararası Folklor Konfransının Materialları,
- АШП- Антология Шумерской поэзии,
- СЭ- Советская Этнография,
- ТНЭ- Типология народного эпоса



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Könül Əliyeva***
***AMEA Folklor İnstitutu, kiçik elmi işçisi***
***konulqabilqizi@mail.ru***

# AŞIQ YARADICILIĞINDA TARİXİ HADİSƏLƏRİN BƏDİİ ƏKSİ

**Özət**

Məqalədə aşıq poeziyasının xalq həyatını əks etdirməsi, dastanların mövzusunun bilavasitə real həyat hadisələrindən götürülməsi haqqında fikirlər araşdırılmışdır. Müəllif aşıq yaradıcılığında xalqımızın gündəlik yaşam mücadiləsinin, zülmə və haqsızlığa qarşı etirazının, ədalətli cəmiyyət yaradılması arzusunun folklor, xalq danışıq dili nümunələrindən geniş istifadə edilməklə yüksək səviyyədə, özünəməxsus bədii üslubda əks olunduğunu konkret nümunələrlə əsaslandırmışdır.

**Açar sözlər:** Aşıq, ozan, şeir, dastan, xalq, həyat, dil, bədii təsvir, ədəbiyyat, realizm, ədalət, cəmiyyət, zülm, haqsızlıq, qəhrəmanlıq, ictimai vəzifə

**Резюме**

В статье анализируется отражение жизни народа в ашугской поэзии, заимствование в дастанах сюжетов из реальной жизни. Автор на основе конкретных примеров раскрывает факт отражения в ашугском творчестве на своеобразно художественном уровне повседневной жизни нашего народа, его борьбы против угнетения, несправедливости, мечты об установлении справедливого общества.

**Ключевые слова:** ашуг, озан, стихотворение, народ, жизнь, литературное описание, литература, реализм, справедливость, общество, жестокость, несправедливость, героизм, общественный долг

**Summary**

In the article the reflection of people life in ashug rhyme, about loan in epos plots from a real life are analyzed. The author on the basis of concrete examples shows the facts of reflection in ashug creativity in originally art level of a daily life of our people, it's struggle against oppression, injustice, dreams of an establishment of a fair society.

**Key worlds:** ashug, ozan, poem, epos, people, life, language, realism, justice, society, tyranny, injustice, heroism, social task.

* * *

Ozan – aşıq yaradıcılığı çox qədim çağlardan Azərbaycan xalqının mənəvi mədəniyyətində mühüm yer tutmuş, gündəlik yaşam tərzinin ayrılmaz bir hissəsinə çevrilmişdir. Aşıq musiqisi və poeziyası uzun əsrlər boyu xalqımızın mədəni



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

həyatında önəmli rol oynamış, xoş ovqatı, nikbinliyi, həyatsevərliyi özünəməxsus tərzdə təlqin etməklə, həm də çox mühüm əxlaqi və xeyli dərəcədə ictimai vəzifəni yerinə yetirmişdir.

Aşıq şeiri və musiqisi haqqında, aşıq yaradıcılığının xalqımızın mədəni həyatında oynadığı mühüm rol haqqında, ayrı-ayrı aşıqların həyat və yaradıcılığı haqqında görkəmli mütəfəkkirlərimiz qiymətli fikir və mülahizələr söyləmiş, yeri gəldikcə bu ulu sənətin nailiyyətlərindən bəhrələnmişlər. Həsən bəy Zərdabi 1905-ci ildə dərc etdirdiyi "Bizim nəğmələrimiz" adlı məqaləsində aşıq sənətinin xalqa güclü təsirini, aşıq nəğmələrinə toy məclislərində böyük yer verilməsini xüsusi qeyd etmişdir (8, 240). Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov da aşıq yaradıcılığının xalq həyatı ilə, zamanədə baş verənlərlə çox sıx şəkildə bağlı olmasını, aşıq dilinin sadəliyini yüksək qiymətləndirmişlər. XX əsrin 20-30-cu illərində aşıqların şeir və dastanlarının toplanıb çap edilməsi, araşdırılması istiqamətində ilk addımlar atılmışdır. Bu sahədə Salman Mümtazın önəmli xidmətləri olmuşdur. Sonrakı dövrdə bu mövzunun öyrənilməsində Həmid Araslının 1960-cı ildə nəşr etdirdiyi "Aşıq yaradıcılığı" monoqrafiyası (7) xüsusi yer tutur. Bu əsərdə aşıq sənətinin uzun əsrlik tarixi inkişafı ilk dəfə əsaslı şəkildə araşdırılmışdır. Azad Nəbiyev də Azərbaycan folkloru, xalq ədəbiyyatı haqqında tədqiqatlarında aşıq sənəti, görkəmli aşıqlar, aşıq məktəbləri haqqında qiymətli məlumat vermişdir. Onun əsər və dərsliklərində aşıq yaradıcılığının bütün dövrlərdə real həyatı, gerçəklikləri bədii şəkildə ifadə etməsi xüsusi qeyd edilmişdir. Müəllifin fikrincə, "aşıq yaradıcılığı ... daim dövrün və zamanın ən ümdə problemlərini əks etdirmişdir" (4, 39).

Bunlarla bərabər qeyd etmək lazımdır ki, aşıq poeziyasının, dastanların sistemli və ardıcıl tədqiq edilməsi sahəsində Mirzə İbrahimovun fəaliyyəti daha böyük əhəmiyyətə malikdir. Xüsusən də onun "Aşıq poeziyasında realizm" adlı əsəri (10, 450-529) bu baxımdan səciyyəvidir. Bu əsərdə aşıq şeirlərinin xalq həyatı ilə üzvi şəkildə bağlı olması konkret nümunələrlə araşdırılmışdır. Yüzilliklərin dərinliklərindən zəmanəmizə kimi böyük inkişaf yolu keçmiş aşıq yaradıcılığı həm də zülmə, haqsızlığa, sosial ədalətsizliyə qarşı xalqın etirazını, yaxşı gün-güzaran, firavan həyat, ədalətli cəmiyyət arzusunu özündə bədii şəkildə əks etdirmişdir. Ona görə də, xalqımız el aşıqlarına dərin hörmətlə yanaşmış, onların ən müdriklərini, kamil sənət zirvəsinə yüksələnlərini "Haqq aşığı" deyə ucaltmış, həmişə onlara hörmət və ehtiram bildirmişdir.

Görkəmli xalq yazıçısı Mirzə İbrahimov aşıq yaradıcılığında bu məsələyə xüsusi diqqət yetirmiş, "Kitabi Dədə Qorqud" dastanında ozana – aşığa cəmiyyətdə, xalq məclislərində böyük ehtiram göstərilməsini bu baxımdan ibrətamiz örnək saymış, nümunə göstərmişdir. Doğrudan da, dastanın boylarında ozan Oğuz elində sayılan, məclislərdə, el şənliklərində ağırlanan, hamının hesablaşdığı şəxsiyyətdir, nüfuz sahibidir (9, 162).

Mirzə İbrahimov "Aşıq poeziyasında realizm" adlı əsərində şifahi xalq yaradıcılığının bu çox mühüm sahəsinin xalqın real həyatını, məişət qayğılarını, arzu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

və istəklərini özünə məxsus üslubda, bədii təsvir vasitələri ilə əks etdirməsini xüsusi qeyd etmişdir. Mirzə İbrahimov yazmışdır: "aşıq poeziyasında xalq həyatının, xalq ruhunun başqa cəhətlərinin də – əmək, ictimai mübarizə və qəhrəmanlıq səhnələrinin də əks olunduğunu görməmək və ya bunların əhəmiyyətini azaltmaq olmaz. Əlbəttə, bu mövzuları da aşıq şeiri öz səpkisində, öz bədii ifadə üsullarına müvafiq işləmiş, çox zaman bədii mübaliğələrdən, rəmzlərdən, məkan və zaman şərtiliklərindən istifadə etmişdir" (10, 453).

Aşıq yaradıcılığının real həyatı əks etdirməsi həm də özünü onda göstərir ki, ozanlar – aşıqlar orta yüzilliklərdən üzü bəri folklor nümunələrindən, gündəlik həyatda, xalq arasında işlənən bədii təsvir vasitələrindən, obrazlardan, söz ehtiyatından bol-bol istifadə etmişlər. Onların əsərlərinin əksəriyyətinin mövzusu və süjet xətti də bilavasitə xalq həyatından alınmışdır. Bütün bunların nəticəsidir ki, aşıq yaradıcılığı xalqın bədii təfəkkürünün mühüm bir sahəsi kimi min bir tellə zəmanəyə, həyata bağlı olmuşdur. Lakin eyni zamanda aşıq yaradıcılığında realist ədəbiyyatın digər sahələrində olduğu kimi, real hadisə və təsvirlər xəyali, romantik ünsürlərlə çulğalaşmış şəkildə təqdim edilmişdir. Çünki aşıq yaradıcılığında insanın lirik məhəbbət duyğuları, eşqin, vüsalın sevinci, hicranın, ayrılığın iztirabları geniş şəkildə tərənnüm olunmuşdur.

Müxtəlif dövrlərdə yaşamış aşıqların yaradıcılığını araşdırarkən, xüsusən də aşıq poeziyasında romantizm və realizm elementlərini müqayisəli təhlil edərkən realist ünsürlərin daha üstün olduğu görünür. Mirzə İbrahimovun fikrincə, bunun əsas səbəbi: "aşıq poeziyasının ən çox zəhmətkeş təbəqələrin, xalq kütlələrinin həyati və zövqi tələbləri ilə bağlı olmasıdır" (10, 459). Maraqlıdır ki, aşıq sənəti haqqında ilk ciddi tədqiqatlardan birinin müəllifi olan Məhəmməd Fuad Köprülüzadə də 1913-cü ildə yazdığı "Aşıq tərzinin mənşəyi və təkamülü" adlı məqaləsində bu cəhəti önə çəkmiş və xüsusi qeyd etmişdir ki, saray və zadəgan mühitində qəliz, xalq üçün anlaşılmaz ifadələrlə dolu qəzəl və qəsidələr dinlənildiyi halda, sadə insanların yaşadığı məhəllələrdə aşıqların qoşduğu dastanlar və qoşmaları oxunurdu (10, 459).

Mirzə İbrahimovun fikrincə, aşıq poeziyası xalq həyatı ilə çox sıx bağlı olmasına görə, orta çağlardan başlayaraq yazılı ədəbiyyata – Azərbaycan şairlərinin yaradıcılığına məhz demokratik, realist meylləri gücləndirmək ruhunda güclü təsir göstərmişdir. Aşıq şeiri "xalq yaradıcılığı ilə yazılı ədəbiyyat arasında bir keçid, möhkəm bir körpü olmuşdur. O, bir tərəfdən xalq yaradıcılığına bağlanmış, o biri tərəfdən yazılı ədəbiyyata ... Onun kökləri, rişələri folklordan, xalq yaradıcılığından su içir ... Onun yazılı ədəbiyyata təsiri sayəsində isə həmin ədəbiyyatda xalq ruhu, xalq dili və ifadələri, realist meyllər daha da güclənirdi" (10, 459-460).

Aşıq yaradıcılığında insanların gündəlik həyatı, yaşam tərzi, üzləşdiyi problemlər sadə xalq dili və ifadələri ilə bədii şəkildə əks olunmuş, lirik qəhrəmanın psixoloji durumu da real cizgilərlə təsvir edilmişdir. Aşıq poeziyasının, aşıq sənətinin mövzu dairəsi çox genişdir. O, lirik məhəbbət motivlərini, ədəbi-əxlaq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məsələlərini, siyasi-ictimai mövzuları işləməklə bərabər, insanın təbiətə münasibətini, məişətinin ayrı-ayrı real səhnələrini əks etmişdir.

Doğma vətənin gözəlliklərinin tərənnümü, yazın gəlməsinin doğurduğu sevinc, təbiətin oyanması, ilin digər fəsillərinin xarakterik cəhətlərinin bədii əksi aşıq poeziyasında mühüm yer tutur. XVI əsrin görkəmli aşıqlarından olan Qurbaninin “Bənövşə” adlı qoşması bu baxımdan diqqətə layiqdir. Qoşma belə başlayır:

Başına döndüyüm ay qəşəng pəri,
Adətdir, dərərlər yaz bənövşəni.
Ağ nazik əlinlə bir dəstə bağla,
Tər buxaq altında düz bənövşəni. (12, 59)

Bu nümunədə aşıq xalqımızın adətləri ilə dərindən bağlı olduğunu biruzə vermiş, əməkçi insanların səbirsizliklə gözlədikləri yazın, baharın gəlməsinin müjdəçisi olan və bununla hər kəsə sevinc gətirən bənövşəni vəsf etmişdir.

XVII əsrdə yaşayıb yaratmış ustad aşıqlardan sayılan Abbas Tufarqanlının “Duman, gəl get” adlı şeiri də xalq həyatı ilə, insanların gündəlik qayğıları ilə sıx bağlıdır:

Duman, gəl get bu dağlardan,
Dağlar taza bar eyləsin ,
Nə gözlərim səni görsün,
Nə könlüm qubar eyləsin. (5, 68)

Gəraylının bu birinci bəndində payızın gəlməsi, duman, çiskin mövsümünün başlanması ilə əlaqədar insanların yaylağı tərk etməsi, dağların yalqız qalması aşığı kədərləndirmiş – “könlü qubar eyləmişdir”. Ümumiyyətlə, aşıq yaradıcılığında dağ mövzusu geniş işlənmişdir. Yalnız ona görə yox ki, torpaqlarının böyük hissəsi aran olan azərbaycanlı üçün dağ yayda səfalı yaylaqdır, sinəsi göz oxşayan yaşıl çəmənlikdir, çağlayan bulaqları, çeşmələri min bir dərdin dərmanıdır. Dağlar həm də xarici və daxili zülmkarlara qarşı mübarizə aparan xalq intiqamçıları üçün təbii sığınacaqdır, alınmaz qaladır. Aşıq poeziyasında dağ mövzusu insanın psixoloji aləmi, hissiyyatı ilə bağlı surətdə, həm də ictimai cəhətdən mənalandırılaraq tərənnüm edilmişdir. XIX əsrin məşhur aşıqlarından olan Dilqəmin “Dağlar” şeiri bu baxımdan xarakterikdir:

Ziynətli nərgizdən, tər bənövşədən,
Al, yaşıl geyinib şad olan dağlar.
Gülab kimi axır zülalı sular,
Dəhanlar ləzzəti, dad olan dağlar.

Əsrlər boyunca baş verən qanlı müharibələr, ağır həyat şəraiti, mürəkkəb ictimai-siyasi və mədəni proseslər bütün bədii təfəkkürün, xalq yaradıcılığının müxtəlif sahələrinin, o cümlədən aşıq ədəbiyyatının keyfiyyətcə dəyişməsinə səbəb olmuşdur. Keçən müddət ərzində aşıq sənəti Azərbaycan xalq dilinin və yazılı ədəbiyyatımızın inkişafı, büllurlaşması zəminində inkişaf etmiş, dolğunlaşmışdır. XVI əsrdən etibarən daha aydın hiss edilən bu keyfiyyət dəyişikliyini M.İbrahimov belə səciyyələndirmişdir: “aşıq şeirinin ... məzmunundakı yenilik həyatda, zəmanədə,


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

dövrdə baş verən hadisələri əks etməkdən ibarət olmuşdur. Yəni aşıq yaradıcılığı yalnız lirik aşiqanə mövzuları deyil, getdikcə daha geniş şəkildə siyasi hadisələri də əks etdirməyə başlamışdı. Şahların və feodalların xalq kütlələrinə etdiyi zülm, xarici işğalçıların talançılığı və pozucu işləri, hakim təbəqələrin ədalətsizliyi bir çox aşıq şeirlərinin mövzusu olmuşdur" (10, 472).

XVI əsrin əvvəllərində yaşamış aşıq Qurbani feodal ara müharibələrinə son qoymaq, qüdrətli Azərbaycan dövləti yaratmaq uğrunda mübarizə aparan hökmdar-şair Şah İsmayıl Xətaini böyük məhəbbətlə tərənnüm etmiş, onu özünün "mürşüdü kamili" saymışdır. Eyni zamanda yaratdığı dastanda Azərbaycan tarixinin bu dövrünün real mənzərəsini əks etdirmişdir:

Zina əhli bihəyalar şərm-həyanı satdılar,
Adam oğlu yoldan çıxıb, bir-birin aldatdılar.
Qazılar da rüşvət alıb, şəriəti satdılar.
Bu divan ki, divan deyil, ədalət divan gözəl. (6, 91)

Dastanda Gəncə bəylərbəyi Ziyad xanın "xanlar xanı" adlandırılması (6, 56) onun daşıdığı vəzifəni daha dəqiq əks etdirmək baxımından qiymətlidir. Dastanda Səfəvi dövlətinin idarəçilik qayda-qanunları da bədii üslubda, lakin tam real şəkildə təsvir olunubdur. Gəncədə Qara vəzirin müstəqil qərarlar verməsi, ondan "xanlar xanı" Ziyad xana deyil, "Şıx oğlu Şaha" – Şah İsmayıla şikayət naməsi yazılması (6, 79-80) vəzirin birbaşa şah dərgahına tabe olduğunu göstərir.

Aşıq şeirinin son dərəcə sadə, danışıq dilinə yaxın ifadələrlə real həyatı əks etdirməsinə aşıq Hüseyn Bozalqanlının "Ya dəyməyə, ya dəyə" rədifli təcnisi gözəl nümunədir. Aşıq bu şeirində varlılarla yoxsulların həyat tərzi, yaşayış yerlərindəki fərqi real şəkildə əks etdirmişdir:

Nə lazımdır naqabilə söz deyəm,
Xatirinə ya dəyməyə, ya dəyə.
Sizin olsun eyvan, otaq, alaçıq,
Bizə bəsdir ya kölgəlik, ya dəyə.(2, 57).

Burada varlıların eyvanlı otaqlarda, dəbdəbəli alaçıqlarda yaşaması, sadə insanların isə adi bir ağac kölgəsində, dəyədə ömür sürməsi qeyd olunmuşdur. XIX əsrin ikinci yarısında, Aşıq Ələsgərin yaşadığı dövrdə Şimali Azərbaycanda kapitalist münasibətlərinin yaranmağa başlaması, bazarın, alış-verişin, sərvət toplamaq hərisliyinin güclənməsi cəmiyyət həyatının bütün sahələrinə təsir edir, əsrlər boyunca qərarlaşmış əxlaq normalarını, adətlərini, yaşayış tərzini vurub dağıdırdı. Bütün bunları görən şair deyirdi:

Qərinələr keçdi, dövran dəyişdi,
Pozuldu qurğular, mizan qalmadı.
Zəmanə bəd gəldi, insan bic oldu,
Seyiddə, mollada iman qalmadı.

Bütün bunlar Aşıq Ələsgərin yaradıcılığında aşıq poeziyasının yeni keyfiyyətlər kəsb etdiyini göstərirdi. Onun şeirlərində ictimai məzmun xeyli güclənmiş, gündəlik



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

həyatdakı dəyişikliklər daha dərin və dolğun ifadə olunmağa başlamışdı. Cəmiyyətin həyatında baş verən ən mühüm hadisələrə aşıq öz münasibətini bildirmiş, xalqı arxasınca aparmışdır (4, 201). M.İbrahimov Aşıq Ələsgərin ədəbi yaradıcılığında diqqəti çəkən bu dəyişiklikləri yüksək qiymətləndimişdir: "Bu, həyatın əməli ehtiyaclarına daha həssas cavab verən, daha fəal yaradıcılıqdır. Orta əsrlər aşıq poeziyasında tez-tez rast gəldiyimiz şərtiliklər, simvolik ifadə və bənzətmələr burada xeyli azalmışdır" (10, 497). M.İbrahimov aşıq yaradıcılığını tədqiq edərkən Cənubi Azərbaycanda yaşayıb yaratmış ustad aşıqlardan da bəhs etmişdir. O, məmnunluqla qeyd etmişdir ki, siyasi, iqtisadi, ictimai həyat tərzinin ayrılığı Cənubi və Şimali Azərbaycan əhalisinin iqtisadi və mədəni inkişaf səviyyəsinin müxtəlifliyinə səbəb olmuşsa da, bir xalq olaraq onu bir-birindən ayıra bilməmiş, mənəvi birliyini, dil vahidliyini poza bilməmişdir. Hətta doğma dilin uzun müddət mətbuat sahəsində, dövlət idarələrində, təlim və təhsil məktəblərində tətbiq olunmaması da bir nəticə verməmişdir. Xalq həyatında, məişətdə, ailədə, şifahi, hətta yazılı ədəbiyyatda öz dilini insafsız, qeyri-insani təqiblərdən qoruyub saxlamağı bacarmışdır. Bu, xüsusən folklorda və aşıq poeziyasında yaranmış çox gözəl nümunələrdə öz ifadəsini tapmışdır (10, 524). Görkəmli ədib cənublu aşıqlardan Aşıq Hüseyn Cavanın yaradıcılığını xüsusilə yüksək qiymətləndirərək yazmışdır ki, "Aşıq Hüseyn Cavan da fəal çalışır və çox gözəl əsərlərin müəllifidir, onun yaradıcılığında aşıq poeziyasının bir sıra ən gözəl ənənələri bu gün də yaşayıb inkişaf edir" (10, 523). Daha sonra isə aşığın "Üstədir" rədifli qoşmasını nümunə kimi göstərmişdir.

Qoynunda çatılmış dəmir körpülər,
Araz bilirsənmi nəyin üstədir?
Bu ağır sütunlar, ağır dirəklər,
Bir sinədə, bir ürəyin üstədir. (3, 62)

Azərbaycanın şimalı ilə cənubu arasında ayrılığın bütün ağırlığını, nisgilini öz şəxsi həyatında yaşamış böyük mütəfəkkir məhz bu nümunəni seçib təhlil etməklə, özünün də qeyd etdiyi kimi, xalqımızın həsrətini, şirin arzularını, azadlıq və birlik idealını, dərin duyğularını ifadə etmək istəmişdir. Bütün bunlar aydın göstərir ki, aşıq poeziyasında, dastanlarda xalqımızın tarixi keçmişi, gündəlik həyatında üzləşdiyi problemlər, məişətində baş verən dəyişikliklər bədii şəkildə əks olunmuşdur və bütün bunların araşdırılması Azərbaycan tarixinin bir sıra problemlərini aydınlaşdırmağa yardım edə bilər.

**Qaynaqlar**

1. Aşıq Ələsgər (əsərləri, dastan-rəvayətlər, xatirələr...). Toplayıb tərtib edəni, ön söz və qeydlərin müəllifi: İslam Ələsgər. Bakı: Şərq-Qərb, 1999, 578 səh.
2. Aşıq Hüseyn Bozalqanlı. Bakı: "Nurlan" , 2003, 235 səh.
3. Aşıq Hüseyn Cavan. Azadlıq mahnıları. Bakı: Azərnəşr, 1950, 108 səh.
4. Azad Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı. II hissə, Bakı: "Elm", 2006, 648 səh.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

5. Azərbaycan aşıqları və el şairləri. I c., Bakı: “Elm”, 1983, 375 səh.

6. Azərbaycan dastanları.I cild, təkmilləşdirilmiş II nəşri. Bakı: “Çıraq”, 2005, 424 səh.

7. Həmid Araslı. Aşıq yaradıcılığı. Bakı: Birləşmiş nəşriyyat, 1960, 121 səh.

8. Həsən bəy Zərdabi. Seçilmiş əsərləri. Bakı: Azərnəşr, 1960, 475 səh.

9. Kitabi Dədə Qorqud. Bakı: Yazıçı, 1988, 265 səh.

10. Mirzə İbrahimov. Aşıq poeziyasında realizm. / Əsərləri, Xc., Bakı:Yazıçı, 1982, səh.450-528,

11. Qara Namazov. Aşıqlar. Bakı, “Səda” nəşriyyatı, 2004, 444 səh.

12. Qurbani (tərtibçi, ön söz, qeyd və izahların müəllifi prof. Q. Kazımov) – Bakı: Bakı Universiteti nəşriyyatı, 1990, 280 səh.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Mahmud Allahmanlı, professor***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti,***
***m.allahmanli@mail. ru***

# "QAÇAQ NƏBİ" DASTANI TARİXİLİK VƏ BƏDİİ DÜŞÜNCƏ MÜSTƏVİSİNDƏ

**Özət**

Qaçaq dastanları şifahi ədəbiyyatımızın mühüm bir hissəsidir, onlar xalqımızın qəhrəmanlıq dastanlarındandır. «Qaçaq Nəbi» dastanı ilə bağlı folklorşünaslar müxtəlif fikirlər söyləmişlər. Bəhlul Behcətin araşdırmaları daha inandırıcı və reallığa bağlanandır.

**Açar sözlər:** Qaçaq dastanları, xalq yaradıcılığı, Qaçaq Nəbi, Həcər xanım, Bəhlul Behcət

**Резюме**

Дастаны гачагов занимают важное место в нашем народном творчестве, они героические дастаны нашего народа. Фольклористы высказали различные мнения, связанные с дастаном «Гачаг Наби». Исследования Бахлул Бехчета более убедительны и связаны с реальностью.

**Ключевые слова:** Дастаны гачагов, народное творчество, Гачаг Наби, Хаджар ханум, Бахлул Бехчет

**Summary**

Brigand eposes are the important part of the oral folklore, they are the heroic eposes of our nation. The folklorists have told different thoughts about the epos "Gachag Nabi". The opinions by Bahlul Behjat are more convincing and real than the others.

**Key words:** brigand eposes, folklore, Gachag Nabi, Hajar khanum, Bahlul Behjat.

* * *

«Qaçaq Nəbi» dastanında tarixiliyin hansı səviyyədə qorunuşunu müəyyənləşdirmək, dastan və tarix problemini aydınlaşdırmaq məqsəd olaraq qarşıya qoyulur.

Xalqın qəhrəmanlıq, mübarizə tarixinin öyrənilməsi zamanından, məkanından asılı olmayaraq ən ümdə məsələlərdəndir. Bəlkə də, birmənalı olaraq deməliyik ki, ən şərəfli və gərəkli işdi. Kiçik yaşlarından, ailədən, bağçadan, ibtidai sinifdən ta bütün orta məktəb boyu bu düşüncəni formalaşdırmaq hər bir kəsin qarşısında vətəndaşlıq borcu kimi dayanmalıdır. Bunu son dövrün olayları, tariximizə,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

mədəniyyətimizə yanaşmalar və dünyanın, daha doğrusu, böyük güc sahiblərinin kiçik xalqlara olan münasibəti tam aydınlığı ilə göstərir. Başlıca məsələ bundadır ki, milli düşüncəyə köklü müasir mühiti yaratmalıyıq. Bu Azərbaycanımızın qarşısında duran başlıca vəzifədir. Belə bir işin aparılması keçən əsrin əvvəllərində sürətlənən istiqamətdə başlamışdı. Sovetlər imperiyasının gəlişi və onun otuz yeddinci ildə başladığı repressiya bu düşüncəyə birmənalı olaraq son qoymaq yolunu tutdu. Demək olar, həmin nəsli heç nəyə əhəmiyyət vermədən sıradan çıxardı. Bu gün isə biz onun haqqında təfərrüatları, gördükləri işin böyüklüyünü lazımınca ortaya qoya bilmirik. Ancaq uğurlu olan odur ki, Azərbaycan mədəni mühitində bu tip işıqlı şəxslərin böyük işləri ilə bağlı araşdırmalara rəvac verilmişdi. Gizlinlərin, uzun illər arxivlərdə qalan əlyazmalarının geniş ictimaiyyətə çatdırılması işinin başlanğıcı qoyulmuşdu. Bəhlul Behcətin də ədəbi irsi məhz bu sırada olan işlərdəndir. Artıq bu istiqamətdə sovetlər imperiyasının dağılmasından sonra xeyli işlər görülmüşdü. Bu yaxınlarda işıq üzü görən B.Behcətin «Qaçaq Nəbinin tarixi» (Bakı, Çıraq, 2011) kitabı da buna nümunədir. Mətni çapa hazırlayan folklorşünas alimimiz prof. İsrafil Abbaslıdır.

B.Behcətin «Qaçaq Nəbinin tarixi» (1) əsəri ilə bağlı qənaətlərimə keçməmişdən öncə yaddaşımda olan bəzi məqamları xatırladım. Bunlar qaçaq hərəkatı, qaçaqlar və Qaçaq Nəbi ilə bağlı uşaqlığımda böyüklərimizdən eşitdiklərimdir. Uşaqlığımda, demək olar, kəndimizdə yaşlı qocalar arasında ən çox eşitdiklərim və yadımda daha çox qalan qaçaqlarla bağlı idi. Kəndimiz, kəndimizdəki meşələr qaçaqların zaman-zaman məskəni olub. Onlar kəndə sığınıblar, kənd də onlara. Bir-birinə arxa, kömək olmaqla çətinliklərini yola veriblər. Məhz «qaçağı el saxlar» ifadəsi də təsadüfi deyil, həmin reallıqdan yaranıb. Yaşlıların söhbətinin mühüm bir hissəsi dediyim kimi, qaçaqlarla bağlı idi. Onların nə səbəbdən qaçaq düşməsi, harada çar məmurları ilə vuruşması, kimlərin necə öldürülməsi yerinə və ünvanına qədər deyilərdi. Hətta ayrı-ayrı dəstələr, onlarda kimlərin olması və hansı gün kənddən kimlərin çörək verməsi də çox dəqiqliklə qeyd edilərdi. Çünki yaşlı nəsil, kəndin ağsaqqalları hamısı onların canlı şahidi idilər. Biz uşaqlar isə həmin söhbətlərə diqqətlə qulaq asardıq. Qaçaqlarla bağlı danışıqlarda mühüm bir hissəni isə Qaçaq Kərəmlə, Qaçaq İsmayılla, Qaçaq İsaxanla bağlı hekayətlər tutardı. Onlar biz uşaqların düşüncəsinə, dünyagörüşünə çox böyük təsir edərdi. Uzun qış gecələrində isə mühüm bir hissəni qəhrəmanlıq dastanlarımızdan «Koroğlu», «Qaçaq Nəbi» kitablarının oxunması təşkil edərdi. Bir nəfər səlis, rəvan oxuyardı, hamı böyükdən-kiçiyə diqqət kəsilərdi. O günlər, o söhbətlər indi mənim yaddaşımda bir ərmağan kimi qalmaqdadır. Nədənsə, dastanlarla bağlı kitabları əlimə alanda həmin xatirələr yadıma düşür. Elə zaman-zaman gizlin qalmış B.Behcətin «Qaçaq Nəbinin tarixi» əsərini oxuyanda da həmin keçmiş gözlərim qarşısında canlandı. İlk öncə mən bu kitabın üzə çıxmasında əməyi olan hər bir kəsə öz minnətdarlığımı bildirirəm. Çünki Qaçaq Nəbi və bu sıradan olan qəhərəmanlar bizim qəhrəmanlıq tariximizdir. Yüz illər, min illər boyu yaşanan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tariximizdir. Bir məsələni də etiraf edək ki, Azərbaycanımızın bu başından o başına ev-ev gəzsək, hamı Qaçaq Nəbi ilə bağlı «Qoy sənə deyinlər, ay Qaçaq Nəbi, Həcəri özündən ay Qoçaq Nəbi» kəlmələrini zümzümə edəcək. Bax bu məqamlardı xalqın yaşarlığı. Və xalq sevgisini qazanmaq da budur.

Qaçaq Nəbi ilə bağlı dastanın yaranma məsələsinə gəldikdə bu tamamilə başqa məsələdir. Daha doğrusu, dastan ənənəsi ilə bağlıdır. Türk xaqlarında, eləcə də onun bir qövmü olan Azərbaycanımızda da bu ənənənin çoxçalarlı, özünənməxsus spesifikası var. Xalqın qəhrəmanlıq tarixində isə bu daha çalarları, spesifikası ilə müşahidə olunur. Ona «folklor yaratmaq» tendensiyasından baxmaq böyük yanlışlıqdır. Bir növ bu məsələyə bələd olmadan yanaşılan tendensiyadır. Dastanın, özü də qəhrəmanlıq dastanlarının yaranması mürəkkəb və uzunmuddətli prosesdi. Bunun rəvayətdən, əhvalatdan, nəğmə və şeir nümunələrindən dastanlaşmaya doğru təbii gedişi var. Süni əlavələr, hansısa epizodu, əhvalatı artırmaq, bir qədər dəqiq desək, quraşdırmalar burada keçmir. Hər hadisəyə, olana da dastan yaranmır. Etiraf edək ki, yaxın dövrün hadisələri, ictimai, siyasi, mədəni həyatımızda baş verənlər, Qərbi Azərbaycan itkisi, Qarabağ savaşı çoxlu şeirlərin, nəsrin, dramaturgiyamızın, səhnə əsərlərimizin, nəğmə, bayatılarımızın mövzusu oldu, ancaq həmin ağrıların bütün tərəfləri ilə əksini verən bədii nümunələri ortaya qoya bilmədi. Məhz yeni dövrün qəhrəmanlıq dastanı yaranmadı. Bəlkə də, yarada bilmədik. Ancaq bu ağrılar, savaşlar həmin qəhrəmanlıqları özündə yaşadacaq dastan nümunəsinin yaranmasını da inkar etmir. Çünki o müharibənin kifayət qədər fədakarlıq göstərən oğulları olub. Həmin qəhrəmanlığın ümumiləşdirilməsi isə təbii axarlı prosesdir. Necə ki, B.Behcətin (1), Ə.H.Tahirovun (3), Ə.Axundovun (4), eləcə də 220 səhifəlik əlyazması bizə gəlib çatmayan Muradxan Cahangirovun zamanında işləri olmuşdu. Bu da xalqın, bütünlükdə məmləkətin üzləşdiyi mübarizə, ölüm-dirim savaşı idi. Bir növ tapdalanmış haqqın bərpasına yönəlmişdi. Həmin nəğmələr demək olar, yarandığı vaxtdan, qəhrəmanların özlərinin sağlığında həm də yazıya alınmağa başlamışdı. Folklorşünas alimimiz İ.Abbaslı da bu məqamı B.Behcətin «Qaçaq Nəbinin tarixi» kitabına yazdığı «Qaçaq Nəbi» dastanı və Bəhlul Behcətin «Qaçaq Nəbinin tarixi» adlı giriş sözündə xüsusi olaraq vurğulayır: «Qaçaq Nəbi haqqında nəğmə və rəvayətlər XIX əsrin sonlarından etibarən toplanmağa başlamış, «Qafqaz» qəzeti, SMOMPK, XX əsrdə isə «Azərbaycanı öyrənmə yolu» məcmuəsi, «Ədəbiyyat qəzeti», «Azərbaycan kolxozçusu» və s. kimi mətbuat orqanlarında çap olunmuşdu» (1, 4). Bunlar hamısı xalqın düşüncəsindən qopan və böyük sevgidən yoğrulmuş nümunələrdir ki, mətbuatda da əksini tapırdı. Daha doğrusu, xalq məhəbbətinin artan istiqamətdə yaşamı idi. Ancaq təəssüflər, min təəssüflər ki, həmin qəhrəmanlığa, onlar haqqında dolaşan əhvalat, hekayə, nəğmələrə yad əllər də uzanmada idi. Bunların bir qismi heç şübhəsiz, düşünülmüş, işləri dolaşdırmaq məqsədi daşıyırdı. Qaçaq Nəbi ilə, Həcər xanımla bağlı rəvayətlərdə də bunlar yer almaqdadır. Son dövrlərdə bu daha çox görünməkdədir. Özü də çox təəssüf ki, bu qondarmaların, dolaşıqlıqların bir hissəsi folklorşünaslar tərəfindən edilir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

B.Behcətin «Qaçaq Nəbinin tarixi» adlı əsərinin nəşri bunlara bir cavabdır. Onu da qeyd edək ki, bu əsər öz mahiyyəti və işlənmə tərzi etibarilə daha çox tarixiliyə hesablanıb. Əsərin təhlilinə keçməzdən əvvəl Qaçaq Nəbi ilə bağlı hadisə və əhvalatların, şeir nümunələrinin toplanması haqqında «Ədəbiyyat qəzeti» 25 mart 1935-ci ildə (220 səhifəlik materialla bağlı məlumat burada verilir), 1 may 1935-ci ildə, 7 noyabr 1939-cu ildə məlumat verir. Fikrimizcə, Qaçaq Nəbi ilə bağlı dastanın çap olunan nəşrləri arasında ən mükəmməli (həcmin azlığına baxmayaraq) Ə.H.Tahirovun (Qaçaq Nəbi. Bakı, Azərbaycan Yazıçılar ittifaqı, 1938, 49 s.) nəşridir. Kitab kimi çap olunana qədər isə «Ədəbiyyat qəzetində (1938, № 1-16) çap olunmuşdu. Ə.Axundov «Qaçaq Nəbi» dastanını toplayaraq (Bakı, EA AZF nəşri, 1941, 246 s.) nəşr etdirir. Folklorşünas İ.Abbaslı bu nəşri çox doğru olaraq bir cümlə ilə qiymətləndirir. «Ə.Axundovun tərtibi ilə nəşr olunmuş «Qaçaq Nəbi» dastanı isə tamamilə sovet ideologiyasının «işığında» qələmə alınmış, bu ictimai - siyasi ovqatın təbliğat mexanizminə çevrilmiş bir dastan - rəvayətlər toplusu kimi təqdim edilmişdir» (1, 6-7). Bu sətirlər hər şeyi deyir və dastan haqqında daha ətraflı düşünməni gərəkli edir. Onu da əlavə edək ki, burada müsbət cəhət Qaçaq Nəbini şəxsən görən və onunla yoldaş olan səksənə yaxın adamın xatirələrinin vurğulanmasıdır. Bir müsbət cəhət də kitabın sonunda materialların yazıya alındığı qırx yeddi nəfərin adının, yaşının və yaşadığı yerin qeyd olunmasıdır. Burada bizim qəbul eləyə bilmədiyimiz və eləməyimizin də mümkün olmadığı həmin materialların təbii şəkildə verilməyib işlənmə xüsusiyyətinin görünüşüdür. Bax məsələ də burada qarışır. Problemlərin də çözülməzliyi buradan yaranır. Necə ki, indi folklorşünaslıqda bu hal hökm sürməkdədir. Məsələn, Nəbinin Həcərdən övladı olmasını kəşf kimi ədəbi arenaya təqdim edənlər. Belə qeyri-dəqiq, məsuliyyətsiz dövriyyəyə atılmış fikirlər sonrakı çağlarda olmazın problemlərə, fikir ayrılıqlarına yol açır. Məsuliyyətsizlikdən yaradılmış dolaşıqlıq təsiri bağışlayır. Etiraf edək ki, belələrinin aqibəti elə də yaxşı olmur.

Qaçaq Nəbi xalq qəhrəmanıdır. XIX əsrin sonu XX əsrin 30-cu illərinə qədər bu mübarizənin forması qaçaqlıq tipində idi. Cəmiyyətin özbaşınalıqları, çarizmin, eləcə də onun yerli çinovniklərinin yeritdiyi siyasət son olaraq qaçaqlığa gətirib çıxarırdı. Düzdü bu hərəkatın özünün çatışmamazlığı yox deyildi. Ancaq mübarizə forması kimi xalqın, geniş kütlənin etirazının ifadəsi idi. Sonralar üçün daha böyük mübarizələrə gətirib çıxarmağı özündə ehtiva edirdi. Bəhlul Behcət xalq qəhrəmanı Nəbiyə qədərki mübarizəyə, qaçaqların fəaliyyətinə də diqqət yetirir. Bunların bir hissəsi arxiv materiallarına əsaslanır. «Məsələn, Zaqafqaziya Dövlət Arxivinin 1856-cı ilin hadisələrinin aktları arasında bir sənəd var. Bu sənəd, həmin ildə Şirvan mahalı jandarma naçalnikinin yazdığı bir raportun surətidir. 640-cı nömrədə olan bu aktda naməlum bir qarət dəstəsinin Şəkiyə gedən poçtanı qarət etdiyi xəbər verilir» (1, 231). Və yaxud da «yenə də o dövrdə «Kor Camal bəy» adında birinin qaçaq olduğu məlumdur. Camal bəy (xalq ona Kor Camal deyirdi) Qarabağın Zəngəzur mahalında Xocik kəndinin əhli olmuşdur. Camal bəyin haqqında biz müxtəsər



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məlumat vermişik ki, bu da onun Camal qalası adlanan bina və təmir etdiyi münasibətlə idi. Çünki Nəbi həmin Camal qalasında bir zaman sığınaq etmiş və orada böyük davalarda olmuşdu» (1, 232). B.Behcət bir məqamı da vurğulayır ki, Xocik kəndi Mollu kəndinin lap qonşuluğundadır. Mollu kəndi Həkəri çayının sağ sahilində, Xocik isə sol sahilindədir. Burada bir fakt da xüsusi əhəmiyyət kəsb edir: «Dövlət arxivində Zubarovun general Paskeviçə təqdim etdiyi müfəssəl bir raport var. 911 nömrədə olan bu raportun 8-ci bəndində deyilir: «Qarabağda oğurluq, quldurluq hökmfərmandır. Buna da səbəb yeni hakimlər və nayiblər, xüsusən də Adıgözəl bəydir» (1, 235). B.Behcət bunları sadalamaqla, eyni zamanda aralarındakı fərqliliklərə də diqqət yetirir. «Onun (Camal bəyin və bu tip hərəkatla) qaçaqlıq hərəkatı ilə Nəbinin qaçaqlıq hərəkatı arasında məqsəd və səbəb etibarilə çox fərq var» qənaətini irəli sürür. Və xüsusi olaraq vurğulayır ki, «Nəbi öz hərəkatının bütün mənəvi məfkurəvi mahiyyətini Əbdülkərimdən almışdır». Və xüsusi olaraq vurğulayır ki, «Əbdülkərim Qarabağda çar üsuli-idarəsinə və yerli mülkədarlıq qəhrlərinə qarşı ortaya çıxan yoxsul kəndlilərin üsyançı nümayəndələrindəndir.

Əbdülkərim 1822-ci ildə o zaman Qazax-Şəmsəddin adlanan Qazax mahalında anadan olmuşdur» (1, 237). Bütün bunlar və bu kimi faktlar həmin dövrdəki ictimai, siyasi mənzərəni ifadə edir və ümumilikdə Qaçaq Nəbi hərəkatının mahiyyətinə, genetikasına işıq tutur. Biz bu faktların yazıya gətirilməsi və günümüzə çatdırılması üçün B.Behcətə minnətdar olmalıyıq. O, bütün olayları tarixi sənədlər, ayrı - ayrı canlı şahidlərin söylədikləri, inandırıcı faktlar əsasında böyük məsuliyyət və vətəndaşlıq hissi ilə yazıya alır. Gələcəyə, sabaha məhz bu tariximizlə gedirik. Təkrar qeyd edək ki, gələcək nəsli məhz bu ruhda, olanlarımız əsasında tərbiyə etmək vətəndaşlıq borcudur. Onu da qeyd edək ki, bizə başqaları kimi qondarma, fantastik hekayətlər düzəltmək lazım deyil. Olanlarımız bəsimizdi. Olanlarımıza sahib dursaq və dura bilsək, bu, böyük işdir. Azərbaycanın ağrılarla dolu olan tarixi, faciələr, ölüm-itimlər, torpaq itkiləri, müharibələr belə nümunələrin yaranmasını və qəhrəmanlığın ümumiləşməsini zəruri edir. Bu qəhrəmanlığın tipik dastan nümunəsində ümumiləşməsi gözləniləndi. «Kitabi-Dədə Qorqud»un, «Alpamış»ın, «Manas»ın, «Edige»nin, «Canqar»ın, «Koroğlu»nun və bu silsilədən digər türk dastanlarının spesifikası məhz bu barədə düşünməni aktuallaşdırır. Bu, təbii axarlı bir prosesdir. Təkrar qeyd edək ki, Azərbaycanımızın çözülməz problemləri, bütünlükdə ictimai, siyasi mühiti belə dastan nümunələrinin yaranışını düşünməyə əsas verir. Bu, ola bilsin ki, tarixi axarda böyük zamanlara da hesablana bilər. Ancaq bizim ümdə vəzifəmiz məhz bu xətləri – həm tarixi, həm də bədii düşüncədəkiləri gələcəyə çatdırmaqdır. Bu, işin isə Qaçaq Nəbi timsalında nümunəsini B.Behcət qoymuşdu. Məhəmməd Əmin Rəsulzadə «Azərbaycan tarixində qaçaq hərəkatı» məqaləsində bir məqamı xüsusi olaraq vurğulayır: «Azərbaycanda qaçaq hərəkatı əsasən rus çar rejiminə və yerli zülmkarlara qarşı mübarizə prosesində meydana gəlmişdir. Azəri xalqı öz gördükləri işlərə igidlik və yenilməz qəhrəmanlıq dastanlarını yaradan qaçaqları sevmiş, tərifləmiş və qorumuşdur. Çünki qaçaqlar


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Azərbaycanın zülmdən qurtarması uğrunda mübarizə aparmışlar» (1, 284). Qaçaq Nəbinin qəhrəmanlığı, ailəsi, yaşadığı region, həyat yoldaşı Həcər xanım, baldızı Mehri xanım, qardaşı Mehdi və başqaları haqqında olan informasiyalar, aparılan təhlillər həmin dövrdə ictimai, siyasi, mədəni arenada qaçaq hərəkatının kifayət qədər geniş yer aldığını düşünməyə əsas verir. Məhz Muradxan Cahangirovun, Ə.H.Tahirovun, B.Behcətin, Ə.Axundovun gördükləri, eləcə də Qaçaq Nəbi haqqında olan rəvayətləri, nəğmələri toplamaq üçün təşkil edilən xüsusi ekspedisiyalar bu istiqamətdə ardıcıl işlərin görülmə məqsədindən xəbər verir.

Bəhlul Behcətin yaradıcılığı bir neçə istiqamətdə maraq doğurur. O, tarixçi, islamşünas, ədəbiyyatşünas, folklorçu kimi diqqəti cəlb edir. Folklorşünas İ.Abbaslı da bu əhatəliliyi vurğulayaraq yazır: «Bəhlul Behcət barədə yazılmış əksər məqalələrdə o, əsasən, ədəbiyyatşünas, ədəbiyyat tarixçisi, folklorçu, din xadimi kimi təqdim edilmişdir. Onun irsi ilə tanışlıq göstərir ki, bütün bunlarla yanaşı, B.Behcət həm də islamşünas və tarixçi kimi də fəaliyyət göstərmişdir. «Qaçaq Nəbinin tarixi» əsəri bunu bir daha təsdiq etməkdədir» (1, 8-9). Onu da əlavə edək ki, B.Behcətin belə bir əsəri yazması zərurətdən yaranmışdır. Çünki özü həmin ərazidə yaşamış, müxtəlif faktlara, tarixi hadisələrə bələd olmuş, Qaçaq Nəbi ilə bağlı söylənən rəvayətlərin şahidləri ilə belə təmas qurmuşdu. Bütün bunlar son olaraq «Qaçaq Nəbinin tarixi» adlı əsərin yazılmasına gətirib çıxarmışdı. «1885-ci ildə Zəngəzur qəzası Qubadlı rayonunun Dondarlı kəndində doğulan Bəhlul Əfəndi (Behcət) 15 mart 1938-ci ildə NKVD üçlüyünün qərarı ilə güllələnmişdir. O, 1934-1937-ci illərdə öncə Azərbaycan Dövlət Nəşriyyatında (Azərnəşr), sonra isə Az.RAİ-nin Ədəbiyyat bölməsində çalışmışdır. B.Behcətin folklor toplayıcısı və naşiri kimi fəaliyyəti də əsasən bu illərə təsadüf etmişdir» (1, 7). Bir məqamı da qeyd edək ki, keçən əsrin 30-cu illərində B.Behcət ədəbi-mədəni mühitdə fəallığı, prosesə fəal münasibəti ilə seçilir. Onun folklorşünas S.Mümtazın «Aşıq Abdulla» (Bakı, Azərnəşr, 1927, 71 səh.) kitabının ikinci dəfə «Sarı Aşıq» (Bakı, Azərnəşr, 1935, 215 səh.) nəşri ilə bağlı yazdığı məqalələr (Sarı Aşıq. «Ədəbiyyat qəzeti» 26 fevral 1936 və Sarı Aşıq. «Ədəbiyyat qəzeti», 21 mart 1936) geniş müzakirələrə səbəb olmuşdu. Bu müzakirələr Yazıçılar ittifaqında dörd gün davam etmiş, Ə.Nazim, H.Araslı, A.Dəmirçizadə, Ə.Qarabağlı, Salman Mümtaz mülahizələrinə bəraət qazandırmış, digərləri başda H.Zeynallı olmaqla tənqidi mövqedən çıxış etmişlər. Burada bir sıra məsələlər qaldırılırdı, əsas tezislərdən biri Sarı Aşıq adı ilə kitabın yenidən buraxılmasına nə üçün izah yazılmaması ilə bağlı idi. Bunlar hamısı bir istiqamətdə ədəbi mühitin qaynarlığını, ciddi məsuliyyət hissi ilə yanaşmaları düşünməyi zəruri edir. Bütün bunlar, eləcə də B.Behcətin özünün toplamaları (Sarı Aşığın bayatıları ilə bağlı toplamalar nəzərdə tutulur. Həmin toplamalar «Sarı Aşığın bayatıları». Bakı, Sədа, 2007, 96 səh. (transliterasiya, ön sözün müəllifi Rza Xəlilov, elmi redaktoru İsrafil Abbaslı) onun bir folklorşünas kimi gərəkli işlərindən və araşdırılma ehtiyacında olmasından xəbər verir. Bizim marağımızda olan və yazımızın mahiyyətində duran B.Behcətin Qaçaq Nəbi ilə bağlı mülahizələridir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çünki bu mülahizələr son dövrlərdə xalq qəhrəmanı haqqında dolaşan mübahisələrə son qoymaq, düşünülmüş və düşünülməmiş mədəni arenaya gətirilmiş yazıları sonuclamaq üçün əvəzsiz mənbədir. Müəllif burada daha çox tarixçi, tarixi faktlara bələd bir ziyalı kimi görünür. Onun təhlilləri, gəldiyi qənaətlər özlüyündə son dövr tarixi araşdırmalar üçün də gərəkli ola bilər. «Qaçaq Nəbinin dövrü», «Azərbaycan məmləkətində torpaq xüsusiyyəti olubmu», «Xanlığın zühuru», «Xan olmaq uğrunda cinayətlər», «Qarabağ xanlığının mənşəyi və təşkili», «Ağalar, bəylər və bu kimilərin zühuru» başlıqları altında verilənlər tariximizin mühüm bir hissəsini, onun bir sıra maraqlı tərəflərini öyrənmək baxımından mənbə kimi diqqəti cəlb edir. «Azərbaycanın iqtisadi coğrafiyası»nı yazmış iqtisadçı Məhəmməd Həsən Baharlı ilə torpaq mülkiyyəti barədə fikir ayrılıqları özü maraqlı problemlərə yol açır. B.Behcət bu məsələlər fonunda yazır: «Nadir şah istədiyi adamlara torpaq və mülk bağışlamaqda çox səxavətli olmuşdur. Buna bir şahid olaraq onun bir fərmanını qeyd etmək lazımdır. Farsca yazılmış bu fərmanı mən şəxsən oxumuşam, fərman o zaman Nadir şahın sərkərdələrindən biri olan Fətəli xan Çərxçibaşıya verilmişdir. Fərmanın məzmunundan aydın olur ki, Nadir şah Staypanı, Püsyanı, Bərgüşadı və Qapanatı Fətəli xan Çərxçibaşıya «at arpası» olaraq vermişdir.

Fətəli xan Çərxçibaşıya «at arpası» müqabilində verilən bu yerlər Qarabağda sabiq Zəngəzur qəzasının bütün hissələri, Sisyan, Zəngəzurda Qara Kilsə rayonunun bütün torpağı aiddir. Bu Sisyan Şura Azərbaycanında Qubadlı və Laçın rayonlarının əhalisinin yaşadığı hissəsidir. Bərgüşad Qubadlı rayonu içərisindən axmaqda olan böyük Bərgüşad çayı boyunca yaşayan türk kəndlərinin yerləridir» (1, 29). Bunlar Azərbaycandakı mülkiyyət məsələsinin bir istiqamətdə ümumi mənzərəsini səciyyələndirirsə, digər istiqamətdə hökmdarların müqtədirliyinin faktı kimi təsir bağışlayır. Və son olaraq etirazlara, narazılıqlara gətirib çıxarır. Elə üsyanlar, qarşıdurmalar da məhz bu cür vəziyyətlərin nəticəsi idi ki, davamlı olaraq yaşanırdı. Burada vurğulanmalı bir başqa məqam Bərgüşad çayı boyu kəndlərin türklərdən ibarət olması ilə bağlıdır. Son dövrdə Azərbaycanın başının üstünü bürüyən bir ağrılı məsələ var, bu da yerliçilik, tayfaçılıq, regionçuluq, etnik problemlərin qabardılmasıdır. Bunların bəzisi sırf siyasi məqsəd –Azərbaycanı qatmaq, problemlər burulğanında yaşatmaq səciyyəsi daşıyır. Xaricdən əlavə, heç şübhəsiz, daxildə hakimiyyətin yuxarı eşalonuna qədər bu tendensiya məqsədli şəkildə işlənir. Və lazım olanda həyata keçirmək, bu problemdən istifadə etmək istəyinə xidmət edir. Ancaq onu da etiraf edək ki, aşağı kütlə bir qismət çörək hayındadır və onlara bunlar yaddır. Xüsusi olaraq vurğulanır ki, «burasını da qeyd etmək lazımdır ki, bir ölkə Azərbaycan qədər misli görünməmiş tarixi hadisə və vaqelərinin mürəkkəb və müxtəlif hallarına rast gəlməmişdir və heç bir məmləkət Azərbaycan qədər ayrı-ayrı cahangirlərin işğalına uğramamışdır. Onun coğrafi mövqeyi, ticari əhəmiyyəti və tarixə malik olması bu işğal hallarına əsas olmuşdur» (1, 33). Bəli, doğurdan da belədir. Azərbaycanın tarixinə diqqət yetirdikdə ağrılarla, qan-qada, müharibələrlə doludur. Həmin ağrılar bu gün də davam edir. Dünyanın böyük dövlətlərinin Azərbaycana marağı məhz həmin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sərvətə, torpağının zənginliyinə sahib olma istəyi ilə bağlıdır. Savaşlar, problemlərin çözülməzliyinin ən böyük səbəbi də buradan irəli gəlir. Bunları B.Behcət keçən əsrin əvvəllərində görüb yaşamışdısa, eyni tendensiya yenə də yaşanmaqdadır. Tarixi torpaqlarımızın, Qərbi Azərbaycanda təmizləmə siyasəti, Qarabağ işğalı, erməni məsələsi, Rusiyanın ölkəmizə yönəlikli mənfi siyasəti, fars şovinizmi məhz günümüzdə həmin prosesin davamıdır. Burada müasir Avropanın ikibaşlı məkrli oyunları da var.

B.Behcət Qarabağın tarixini, on səkkizinci yüzillikdən bu yana olan vəziyyətini, oradakı ictimai-siyasi mühitin ümumi mənzərəsini, İbrahim xanın dövrünü, Mehdiqulu xanın zamanında baş verənləri, ağaların, bəylərin bir təbəqə kimi meydana gəldiyi şəraiti ətraflı şəkildə şərh edir və bundan sonra «Qaçaq Nəbinin yurdu» haqqında müfəssəl şəkildə söhbət açır: «Qaçaq Nəbi sabiq Zəngəzur qəzasının üçüncü hissəsində məşhur Həkəri çayı üzərində olan Aşağı Mollu adlı kənddə anadan olmuşdur (Mollu kəndi ikidir: biri Aşağı Mollu və digəri Yuxarı Mollu adlanır). Aşağı və yuxarı, hər iki Mollu türk qövmünə mənsubdur. Bu ətrafda bir neçə kürd kəndləri və oymaqları da var» (1, 87). Qaçaq Nəbi haqqında son dövrlərdə mübahisəyə çevrilən və dəqiqləşməli olan məsələlərdən biri budur. Bunu da tarixçi, islamşünas, folklorşünas B.Behcət bütün tərəfləri ilə göstərir. Və dolaşıqlığı yaradanlara, bu fikirdə olanlara bu, ən tutarlı cavabdır. Kitabda Məhəmməd Həsən Baharlının bir fikri də xüsusi olaraq vurğulanır: «Baharlı yuxarıdakı bəyanatı verdikdən sonra yazır ki: «Hal-hazırda Azərbaycanda kürdlərin sayı azalmış, ancaq dağ kəndlərində kürdlər qalmışlar (Zəngəzurda Buzluca, Ağaz kəndi, Qaraqışlaq, Əliyanlı, Qazıkürdlü, Cəbrayıl qəzasında Kürd mahruz, Naxçıvan qəzasında Pesiyanlı, Kevik bozlu və s.)» (1, 88). Bütün bunlar və bu kimi faktlar qaranlıqlara aydınlıq gətirmək, o dövrün ümumi mənzərəsi haqda tam təsəvvür yaratmaq baxımından əvəzsizdir. Bu təfərrüatlardan sonra B.Behcət xüsusi olaraq bir məqamı – «xalqın arasında bu qədər şöhrət tapmış bu böyük şəxsiyyət haqqında yazan olmamışdır» fikrini söyləyir. Bunun səbəbini isə daha çox həmin dövrün mühitinin kəndli üsyanına münasibəti ilə əsaslandırır. Ancaq onu da etiraf edək ki, bu qəhrəmanlıq ciddi yazıların probleminə çevrilməsə də, xalq arasında kifayət qədər nəğmə, rəvayət, hekayətlərin yaranmasına səbəb olmuşdu. Bir yaşarlıq qazanmışdı. Qaçaq Nəbi haqqında yazanlardan İsmayıl Hikmətlə bağlı münasibət də burada yer alır və B.Behcət xüsusi olaraq vurğulayır ki, bu cür «böyük və ciddi tarixi hadisəni gəlişi gözəl və qeyri-təbii təsvir etmək düzgün deyildir». Qaçaq Nəbi ilə bağlı mübahisələrə səbəb olan məsələlərdən biri onun öldürülməsi məsələsidir. İsmayıl Hikmət vurğulayır ki, «Nəbini öz yoldaşı Mahmud öldürmüş və Həcər də tüfənglə Mahmudu öldürmüşdür». M.Ə.Rəsulzadə «Azərbaycan tarixində qaçaq hərəkatı» məqaləsində yazır: «1896-cı ilin mart ayında Nəbi Kərbəladan dönərkən Türkiyə ilə İran sərhəddi arasında olan Larni kəndində rus casusları tərəfindən əvvəlcədən hazırlanmış pusqunun qurbanı olur». Xalq qəhrəmanı Qaçaq Nəbinin öldürülməsinin təfsilatını isə daha dəqiqliyi və inandırıcılığı ilə B.Behcət kitabın


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

«Qaçaq Nəbinin İranda öldürülməsi tədbirləri. Zəngəzur naçalniki Səlim bəy və Naxçıvan naçalniki Slovenski», «Əmir Bahadır Cəng Paşa xan Qaçaq Nəbini öldürmək işində» başlıqlı bölmələrində verir. Xüsusi olaraq vurğulayır ki, Slovenski özünün yaxın adamı olan və İranda alver edən Paşa bəy vasitəsilə bu işi reallaşdıracaq. Yəni Paşa bəy Qaçaq Nəbinin silahdaşı Şahhüseyni Qaçaq Nəbini öldürməyə razı salacaq. B.Behcət həmin hadisəni belə təsvir edir: «1896-cı il may ayının 12-də Məşədi Paşa Nəbi ilə Şahhüseyni Dəhvardəyirman kəndindəki evinə qonaq çağırır. Onları gecə çox gec vaxta kimi evində saxlayır… Gegənin bir vaxtı onlar qonaqlıqdan çıxıb Larni kəndinə yolalnırlar. Şahhüseyn fürsət vaxtını gözləyirdi. Bu qonaqlıq da həmin vaxt üçün idi… Gecə evə qayıdarkən yolda Şahhüseyn Nəbini arxadan vurur» (1, 225). Qaçaq Nəbi ilə bağlı söylənilənlər içərisində bizə daha dəqiqliyi və aydınlığı ilə görünən məhz B.Behcətin qənaətləridi. Bunun isə ən başlıca faktı B.Behcətin Zəngəzur qəzasında dünyaya gəlməsi, sonralar həmin qəzanın qazisi olması və hadisələrə bələdliyidir. «Həcərin Nəbidən sonra Qarabağa öz evinə qayıtması» başlıqlı yazıda isə bir başqa mübahisəli məsələyə, Nəbinin Həcərdən övladı olması, sonra kiminlə ailə qurması məsələsinə aydınlıq gətirilir. Son dövr arenada mübahisə yaradan məsələlərdən biri məhz budu. Və özü də müəyyən mənada düşünülmüş dolaşıqlıq yaratmaq, xalq qəhrəmanı haqqında səhv fikirlər arenaya ötürmək məqsədi daşıyır. B.Behcət isə bunları öz əsərində qeyd edərək yazır: «Həcərin Nəbidən övladı yox idi. O bir müddət qaldıqdan sonra öz qohumlarından Həmzə adlı bir çobana ərə getdi. Həcər Həmzə ilə Aşağı Molu kəndində çox yaşadı. Onun Həmzədən bir neçə övladı oldu» (1, 227). B.Behcət Nəbinin və Həcərin ailəsi haqqında da müfəssəl məlumat verir: «Nəbinin anası çox tez vəfat etmişdi. Ondan sonra da atası ölmüşdü. Nəbinin ancaq özündən kiçik qardaşı Mehdi və bacısı Zeynəb qalmışdı. Bir də qabaqca ölən qardaşının oğlu Məmiş qalmışdı ki, indi də yaşayır.

Nəbi ata və anası öldükdən sonra evlənmişdi. Onun aldığı qız Molla Xanalının qızı idi… Həcər Nəbi İranda öldürüldükdən sonra Nəbinin qohumlarından olan Həmzə adlı bir kişiyə ərə getmişdi və çox zaman Həmzə ilə öz kəndlərində (Molu kəndində) yaşamışdı» (1, 141-142). Bütün bunlar Nəbi haqqında həqiqətlərin bədii düşüncədən fərqli olaraq sırf tarixi həqiqət kimi aşkarlanması sahəsində ən tutarlı dəlillərdi. Burada olan maraqlı məqamlardan biri Nəbinin qardaşı oğlunun indi də yaşaması hadisəsidir. Düzdü, bədii düşüncə, xalq qəhrəmanına olan sevgi həmişə yeni əhvalatlara, əlavələrə yol açır. Məhz bir istiqamətdə mübahisəli məqamların yaranması təbii prosesdə görünür. Bu olandı. Digər istiqamətdə narahatlıq və narazılıq yaradan düşünülmüş əlavələrdi ki, Nəbi ilə bağlı söyləmələrdə, yazılarda bunun şahidi oluruq. Mənbə kimi B.Behcətin «Qaçaq Nəbinin tarixi» kitabı bunlara tam aydınlığı və təfərrüatı ilə cavab verir. Tarixi fakt, sənədlərə, eləcə də canlı şahidlərin, Nəbinin özünün yaxınlarının, onunla silahdaş olanların söylədiklərinə əsaslanaraq yazılmış bu əsərin dəyəri əvəzsizdi. Bəhlul Behcət Qaçaq Nəbi ilə bağlı olanlara da özünün kəskin münasibətini bildirir və bu belə təəssürat yaradır ki,


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

həmin vaxtlar da el qəhrəmanı haqqında müxtəlif səpkili söhbətlər dolaşmaqda idi. Elə əsər də məhz bu dolaşıqlıqlara aydınlıq gətirmək anlamında sırf tarixi səpkidə yazılmışdı. Yazımızı da B.Behcətin həmin qənaətləri ilə qurtarırıq: «Biz Qaçaq Nəbinin tarixini nə əfsanələrlə dolu qeyri-təbii hadisələrin bir-birinə quraşdırılmış macəralar yığını hesab edirik, nə də Qaçaq Nəbini «olmayan sərgüzəştlər» qəhrəmanı Kürd Hüseyn və ya xalqı əyləndirici hekayələr sahibi «Don Kixot» kimi tanıyırıq. Bəlkə biz Nəbinin həyatını ziddiyyətlərilə mübarizədə şöhrət qazanmış bir amil hesab edirik və onun həyat və mübarizə tarixinə də bu baxımdan yanaşmağı lazım bilirik» (1, 138). Gəlin bu qəhrəmanlığı yaşadaq.

«Qaçaq Nəbi» dastanı bütün tərəfləri ilə tarixiliklə bağlanır. Burada Azərbaycan xalqının tarixinin mühüm bir tərəfi qaçaqlıqla bağlı olan hissəsi özünün əksini tapır. Ona görə də dastan nümunəsi kimi «Qaçaq Nəbi» tarixi faktların zənginliyi və daşınışı ilə səciyyələnir.

Dastanlar, eləcə də qaçaq hərəkatı ilə bağlı yaranan nümunələr özlüyündə bir istiqamətdə tarixi faktları daşıması, qoruyub saxlaması ilə mühüm dəyər qazanır. Qaçaq Nəbi» dastanı bunun bariz nümunəsidi.

**Qaynaqlar**

1. Behcət B. Qaçaq Nəbinin tarixi. Bakı: Çıraq, 2011, 296 s.
2. Behcət B. Sarı Aşığın bayatıları. Bakı: Səda, 2006, 96 s.
3. Qaçaq Nəbi (toplayıb tərtib edəni Ə.H.Tahirov). Bakı: Azərbaycan Yazıçılar İttifaqı, 1938, 49 s.
4. Qaçaq Nəbi (toplayıb tərtib edəni: Ə.Axundov). Bakı: EA AZF nəşri, 1941, 246 s.
5. Aşıq Abdulla (toplayıb tərtib edəni: S.Mümtaz). Bakı: Azərnəşr, 1927, 71 s.
6. Sarı Aşıq (toplayıb tərtib edəni: S.Mümtaz). Bakı: Azərnəşr, 1935, 215 s.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Məhsəti İsmayıl, f.ü.f.d.**
**AMEA Naxçıvan Bölməsi,**
**mehsetiismail@yahoo.com**

# FOLKLORDA YAŞAYAN TARİXİ HƏQİQƏT: "SARI GƏLİN" XALQ MAHNISININ ETNİK KÖKLƏRİ

## Özət

Azərbaycan folklorşünaslığında problem məsələlərdən biri də özünü türklərə tarixi düşmən elan etmiş ermənilərin ərazi iddialarından əlavə, mənəvi mədəniyyət nümunələrimizə, xüsusilə folklorumuza göz dikmələridir. Bu yönümdən "Sarı gəlin" xalq mahnısının sözləri və mənsubluğu məsələsi xüsusi aktuallıq daşıyır. Bəlkə də burada geniş şərhə ehtiyac yoxdur. Mahnının musiqisi və ifa tərzi hər şeyi ortaya qoyur. Bu, Azərbaycan xalq mahnılarının ritmlərinə uyğun olan bir ifadır. Yeri gəlmişkən, qeyd etmək istəyirik ki, tarixən ermənilər Azərbaycan xalq mahnılarını ifa etməkdən xoşlanmış, nəticədə türk dilinin erməni dilinə və musiqisinə böyük təsiri olmuşdur. Dünyada dil, din adət və ənənələrinə görə fərqlənən yüzlərcə xalq vardır. Bəşəri hiss və duyğular bu xalqları bir-birinə yaxınlaşdıran əsas amillərdən biridir. Hətta sivilizasiyadan uzaqda həyat sürən kiçik xalqlar belə məhəbbət, nifrət, qəzəb, şər, xeyir, gözəllik kimi hissləri daşıyır və müəyyən vasitələrlə ifadə edirlər. Ümumi insani keyfiyyətlərin, bəşəri hisslərin yalnız bir millətə aid olması fikri doğru deyildir. Heç bir xalq bəşəri hissləri digər millətlərə yaydığını iddia edə biməz. Mədəniyyətlərarası fərqlər olduğu kimi, onlar arasında yaxınlığın da olması labüddür. Hər bir xalq həyat tərzinə, mədəniyyətinə, dininə, dünyabaxışına, yaşadığı coğrafi şəraitə uyğun folklor yaradır. Folklor nümunələrindəki fərqliliklər də buradan görünür.

Qeyd etdiyimiz kimi, «Sarı gəlin» xalq mahnısının həm sözləri, həm də musiqi bəstəsi Azərbaycan xalqına məxsusdur. Xalq mahnısının bir çox variantları Anadolu türklərində də var və əsasən azəri türklərinin yaşadığı Ərzurum, İrəvan və digər yerlərlə bağlıdır. Bu mahnı türklərin adətləri və mərasimləri ilə səsləşən notlar üzərində qurulmuşdur. Məqalədə «Sarı gəlin» xalq mahnısının variantları təhlil olunmaqla, folklorumuzda etnik köklər üzərində yaşayan tarixi həqiqətlərdən bəhs olunacaqdır.

## Summary

One of problem questions in Azerbaijan folkloristic are claims of the Armenians who have declared themselves historical enemies of Turkic people, who hanker not only after territory, but also after our cultural heritage, in particular folklore. From this point of view words of the folk song "Sari galin" and the question of its belonging are especially urgent. Perhaps, here long argumentations are not necessary. All is clear already from music and performance manner of this song. This performance corresponds to a rhythm of the Azerbaijan national songs.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

By the way, we want to notice also that historically it turned out so that Armenians with pleasure performed Azerbaijan national songs that as a result rendered a great influence on the Armenian language and music. There are hundreds people with various languages, religion, customs and traditions in the world. One of the major factors which are pulling together these people are universal feelings and emotions. Even the small people existing far from the civilization, have also such feeling as love, hatred, anger, distinguish good and harm, feel beauty and express their by certain means. Certainly, human qualities, feelings do not belong only to one any nationality. Any people cannot lay claim that they are the primary carrier of universal feelings. There are cross-cultural differences, but also the community which pulls them together is indispensable also. Each people create folklore according to the way of life, culture, religion, world outlook and geographical conditions of residence. Distinctions in folklore samples just also are caused by that.

As we already marked, both words and musical composition of the folk song "Sari galin" are inherent in the Azerbaijan people. The set of variants of this folk song is met among the Anatolian Turkic, basically in Erzurum, Yerevan – in the districts where the Azerbaijan Turkic lived. This song is constructed on motives which have something in common with Turkic traditions and ceremonies. On the basis of the analysis of variants of the folk song "Sari galin" the historical truth living in ethnic roots of ours folklore is traced in the paper.

* * *

Dünyada dil, din adət və ənənələrinə görə fərqlənən yüzlərcə xalqlar vardır. Bəşəri hiss və duyğular bu xalqları bir-birinə yaxınlaşdıran əsas amillərdən biridir. Hətta sivilizasiyadan uzaqda həyat sürən kiçik xalqlar belə məhəbbət, nifrət, qəzəb, şər, xeyir, gözəllik kimi hissləri daşıyır və müəyyən vasitələrlə ifadə edirlər. Ümumi insani keyfiyyətlərin, bəşəri hisslərin yalnız bir millətə aid olması fikri doğru deyildir. Heç bir xalq bəşəri hissləri digər millətlərə yaydığını iddia edə biməz. Mədəniyyətlərarası fərqlər olduğu kimi, onlar arasında yaxınlığın da olması labüddür. Hər bir xalq öz həyat tərzinə, mədəniyyətinə, dininə, dünyabaxışına, yaşadığı coğrafi şəraitə uyğun folklor yaradır. Folklor nümunələrindəki fərqliliklər də buradan görünür.

Azərbaycan folklorşünaslığında problem məsələlərdən biri də özünü türklərə tarixi düşmən elan etmiş ermənilərin ərazi iddialarından əlavə mənəvi mədəniyyət nümunələrimizə, xüsusilə folklorumuza göz dikmələridir. Bu yönümdən «Sarı gəlin» xalq mahnısının sözləri və mənsubluğu məsələsi xüsusi aktuallıq daşıyır. Bəlkə də burada geniş şərhə ehtiyac yoxdur. Mahnının musiqisi və ifa tərzi hər şeyi ortaya qoyur. Bu, Azərbaycan xalq mahnılarının ritmlərinə uyğun olan bir ifadır. Yeri gəlmişkən qeyd etmək istəyirik ki, tarixən ermənilər Azərbaycan xalq mahnılarını ifa etməkdən xoşlanmış, türk dilinin erməni dilinə və musiqisinə böyük təsiri olmuşdur. Doç.Dr. F.Cəlil araşdırmalarında "Sarı gəlin" xalq mahnısnın sözlərinin bütünlükdə türk xalqının etnomədəni dəyərlərini özündə ehtiva etdiyi qənaətinə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

varmışdır. Həmçinin müəllif mahnının sözlərinin hər beytində etnomədəni fondumuzun şifrələrinin mövcudluğunu sübut edir (2, 236-238).

Qeyd etdiyimiz kimi, "Sarı gəlin" xalq mahnısının həm sözləri, həm də musiqi bəstəsi Azərbaycan xalqına məxsusdur. İkincisi, bu xalq mahnısının bir çox variantları Anadolu türklərində də var və əsasən azəri türklərinin yaşadığı Ərzurum, İrəvan və digər yerlərlə bağlıdır. Bu mahnı türklərin adətləri və mərasimləri ilə səsləşən notlar üzərində qurulmuşdur. El dilində səslənən xalq mahnısının müxtəlif variantları olan əfsanələri də var. Türkiyə varintına görə: İslamiyyətin yayıldığı dönəmlərdə ərəb olan Şeyx Sənan adlı bir şəxs Çoruh vadisinə gəlir və bu vadidə yaşayan xristian bir bəyin sarışın qızına vurulur. Məlum olduğu kimi xristianlıq Fələstində, yəni ərəblərin yaxınlığında yaranmışdı. Xristianlığı ilk yayanlar arasında suriyalılar da var idi. Sasani şahı I Xosrovun arvadı Şirin suriyalı xristian olmuşdur. Odur ki, xristianlıq yalnız ermənilərlə bağlı deyil. Digər tərəfdən antropoloji baxımdan ermənilər sarı da deyil.

Başqa bir varianta görə "Sarı gəlin" XVIII əsrin II yarısı və XIX əsrin başlanğıcında yaşamış gözəlliyi dillərdə dastan olan bir Türk gözəlinə qoşulmuşdur. Lakin belə konkret ünvanlamalar şifahi xalq ədəbiyyatında fakt kimi götürülə bilməz. Çünki xalq mahnıları, oyun və havaları ümumi xarakter aldığı üçün orada zamana və şəxsə görə dəqiqləşdirmək mümkün olmur. Sarışın qıza aşiq olub dillərə düşən aşiq ümumiləşmiş bir obraza çevrilir. Tarixçi Əhməd Rəfik bəy (Altunay) "Kafkas yollarında- Hatıralar və tahassüsler" adlı kitabında Qarsda olan belə bir əfsanə variantı vermişdir (Əfsanə 1918-ci ildə Gölənin Okçu kəndində qeydə alınmışdır). Okçu kəndində olan Əli adlı bir türk dəliqanlısı kəndlərində yaşayan xristian qızını sevir. Səhərlər tarlaya gedəndə ardınca gedir. Axşamlar sürüləri aparanda yenə qızı seyr edərmiş. Bütün varlığı ilə qıza aşiq olan oğlan onun tapındığı xaçı görmək istəyi ilə bazar günü durub kilsəyə gedir. Bir tərəfdə durub sevgilisini və onun tapındığı xaçı, ayini seyr edir. Türküdə deyilir:

Vardım kilsəsinə, baxdım xaçına,
Mail oldum bölük-pörçük saçına,
Qız seni götürem Islam içine.
Vay, Sinan ölsün, Sarı gelin.
Vardım kilsesine, qəndillər yanar,
Qıranta keşişlər pərvanə dönər.
Tərsa sevmiş deyin el beni qınar,
Vay, Sinan ölsün, Sarı Gəlin.
Seni saran neyler dünya malını,
Seni alan neyler dünya malını.

Türkünün Diyarbəkirdə, Ərzincanda, Ərzurumda oxunduğu haqda da məlumatlar verilmişdir. Professor Fahrettin Kırzıoğlu "Qars tarixi" kitabında "Sarı gəlin" mahnısının azərbaycanlılar və Kür boyu yaşayan tərəkəmələr arasında yayqın olduğunu bildirmişdir. Alimin verdiyi əfsanə variantı eyni ilə H. Cavidin əsərində olduğu kimidir. Lakin burada Xumar Tiflis kralı Davudun qızıdır. Sənan yeddi il



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

sonra Xumarı İslam dininə gətirir və sevgililər birlikdə qaçırlar. Kralın adamları aşiqləri izləyirlər. Hər iki sevgilinin diləyi ilə yer yarılır, bir qapı açılır və içinə girib qeyb olurlar. Onların girdikləri yerdən qaynar su fışqırır. Qızına etdiyi qəddarlıqdan peşmançılıq duyan kral Davud da bu suyun üzərində "Əziz Davud" kilsəsi tikdirmişdir. Əfsanədə sevgililərin dilək diləməsi və diləyin yerinə yetirilməsi mövzusu ümumtürk əfsanələri üçün xarakterik motivdir. Yuxarıda deyilənlər türklərdə digər xalqlara din, dil fərqi qoymadan onlara qarşı insanca davranış mədəniyyətinin olduğunu göstərir. Faktlar təsdiq edir ki, sevgi hissləri din və sərhəd tanımır.

Qars və Ərzurumda söylənən "Şeyx Sənan və kralın Sarı qızı" əfsanəsinin iki variantı vardır.

I variantda Əbdülqadir Qeylaninin dostu Şeyx Sənan bədduaya uğrayır və yolu Peneke düşür. Burada o Penek padşahının donuzlarını otarır. Donuz otarmaq şeyxin izzət-nəfsinə toxunur. Şeyx Sənan padşahın Sarı qızına aşiq olur. Qızın isə bundan xəbəri olmur. Sənan Allaha yalvarır ki, qızın da könlünə onun eşq sevdasını salsın. Onun diləyi qəbul olur. Qız onu sevir və Islam dinin qəbul edir. Yeddi il çilə dolduran Şeyx bir gün Allahuəkbər dağlarından dəf səsi eşidir. Bu səs şeyxin çiləsinin dolduğuna işarə idi. Demək, dəfi Qeylaninin göndərdiyi 40 mücahid çalırmış. Şeyx və Sarı qız dağlara tərəf üz tutub getmiş, ordu da onları izləmişdir. Şeyxlə qız müridlərə çatanda kafir ordusu onlarla döyüşə başlayır. Qırx mürid şəhid olur. Ora indi "Qırxlar" və yaxud "Qırx şəhid məzarlığı" adlanır. Şeyxlə qız isə dağın təpəsində şəhid olur və ora hazırda ziyarətgahdır. Deyilənlərə görə, bura indi də müqəddəs yer kimi tanınır. F.Kırzıoğlu Penekin Kitabi- Dədə Qorqud "Oğuznamə"lərində "Ban Hisarı" adı ilə bilinən yer olduğunu yazmışdır. Məlumata görə bu yer hazırda Ərzurumun Şənqaya ilçəsinə aid bir kənddir.

II variantda isə Şeyx Sənan, Əbdülqadir Qeylaninin müridi olur. Şeyxindən inciyir və ayrılır. Ərzurum və Oltu tərəflərə gedir. Burada tanış olduğu bir dərvişlə yola çıxır. Penek çayına çatanda dərviş Sənandan onu qarşı tərəfə keçirməyi istəyir. Sənan dərvişin istəyinə əməl etmir. Dərviş isə "məndən əsirgədiyin çiyinlərinə donuz balaları minsin" deyə bəddua edir. Xristian Penek bəyinin qonağı olduqları zaman Sənan bəyin gözəl qızına vurulur. Sonra da sarayda qalıb bəyin donuzlarına çobanlıq edir. Bundan sonra da hadisələr bildiyimiz kimi inkişaf edir. Göründüyü kimi, bu motivlərdə erməni faktoru yoxdur. Amma xristian bəy ermənidirmi sualı da yaranır. Nəzərə almaq lazımdır ki, xristianlıq təkcə ermənilərə aid deyildir. Prof. F. Kırzıoğlu "Sarı gəlin və Şeyx Sənan" əfsanəsinin XII əsrdə Qüzey Qafqazdan gələn Ortodoks Kumanlardan (yəni Qıpçaqlar) qalması kimi qətiyyətli bir fikirlə də çıxış edir. Bildiyimiz kimi, hazırda da bir qisim türklər xristian olaraq qalmaqdadırlar.

Digər bir tərəfdən mahnı Ərzurum yörəsində belə oxunur:

Ərzurum çarşı pazar,
Içində bir kız gəzər.
Elinde divit kalem,
Katlime ferman yazar.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Palandöken yüce dağ,
Altı mor sümbüllü bağ.
Seni vermem ellere,
Niceki bu canım sağ.
(Mahnının sözləri qısa verilmişdir)

İrəvan variantında isə mahnı:

Sarı gelin, Sarı qız,
Etdin ömrüm yarı qız,-

nəqarəti ilə söylənir. F.Kırzıoğlu bildirmişdir ki, bu mahnı

Sarı kız, Sarı gəlin,
Dünyanın varı gəlin,-

nəqarəti ilə də oxunur.

Beləliklə, türklərə aid coğrafi ərazidə söylənən mahnının istər musiqi, istərsə də mətn etibarilə azsaylı ermənilərdən alınması qeyri-mümkün görünür. Musiqi və mətn aid olduğu xalqın həyat tərzini, dünyabaxışını ifadə edir. Nakam eşq və məhəbbət xalq dilində insanların düşüncəsində hər zaman plotonik dəyər qazanmış, daha çox tərənnüm edilmişdir. Azərbaycan variantındakı mahnının sözləri isə minillik tarixi olan bayatılardı. Fikrimizcə, bu sevgi əfsanəsinin folklorlaşma prosesindən keçmiş ən qədim nümunəsi elə Azərbaycan türkcəsində oxunan variantıdır.

Bülbüləm gül ayrısı,
Aşiqəm dil ayrısı.
Bir gününə dözməzdim,
Oldum illər ayrısı.

Bundan əlavə, mahnının əvvəlində deyilir:

Saçın ucun hörməzlər,
Gülü sulu dərməzlər.
Bu sevda nə sevdadır,
Səni mənə verməzlər.

Bildiyimiz kimi, əski türklərdə saç xüsusi əhəmiyyət kəsb edir. F. Cəlil araşdırmasında qeyd edir ki, prototürklərdə saç evlilik mərasimində böyük rol oynayır. Belə ki, saç kəbini əvəzləyən əsas faktor olmuşdur (2, 237). Ordubad rayonundan topladığımız materiala görə, qız ərə gedəndə toy günü hörüyündən bir tutam kəsilir, qızın cehiz sandığına qoyularmış. Beləliklə, qız böyüdüyü evdən ər evinə xoşbəxtlik aparırmış. Bəzən kəsilən saç cehiz balıncının içinə də qoyulurmuş (3, 136). Etnoqraf alim Q.Qadirzadədən şifahi aldığımız bilgidə də son zamanlara qədər ərə gedib qayıtmış gəlinlərin saçlarını tam hörülməməsi kimi bir adət varmış. Sonra mahnıda "səni mənə verməzlər" deyilir. Lakin diqqətimizi çəkən başqa bir məqam var. Gəlin olmuş qızı digər türk ailəsi subay oğlu üçün almaz. Və ya qədim türklərin tək evlilik şərti ifadə olunur. Məhz bu səbəblə də mahnı nakam, kədərli notlar üzərində köklənmişdir. Çünki bu ayrılıq əbədidir. "Sarı gəlin"in Anadolunun qüzeyində yaşamış türklərin bir qolu olan Qıpçaqlara –Kumanlara aid olması fikri də



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

əsaslıdır. Həmçinin Kuman sözü sarışın mənasında işlənir. Qaynaqlara görə də qıpçaqlar gözəl və sarışın, mavi gözlü, yaraşıqlı olmuşlar.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi H. Cavidin “Şeyx Sənan” əsərinin mövzusu da bu əfsanələrdən qaynaqlanır. Yazılı ədəbiyyatda işlənən, H. Cavidin yaratdığı əsərin mövzusunu təşkil edən “Şeyx Sənan və Xumar” əfsanəsinin variantı üzərində durmaq ayrıca bir mövzudur və bu haqda gələcək tədqiqatlarda danışılacaqdır.

Bu mövzudan klassik şərq ədəbiyyatında da geniş bəhs olunmuşdur. Y.Əmrə, XII əsrin sonu, XIII əsrin əvvəllərində yaşamış Fəridəddin-i Əttarın “Məntuq ut teyr” (Mantıkut tayr) məsnəvisi “Şeyx Sənan” hekayəsi başlığı ilə verilmişdir. XIII əsrin sonu XIV əsrin əvvəllərində yaşamış türk şairi Süleyman Gülşəhrin “Fələknamə” əsərində “Dastan-i Abdürrəzzaq” fəslində, XIV əsrin II yarısında yazılan Sədinin “Fərhənknamə-i Sadi”, Hafizin “Divanın”da və s. bir çox mənbələrdə bu şeyxdən və onun eşqindən söz açılır. Y.Əmrədə peyğəmbərin şəfaəti imdada yetişər. Qız bir yuxu görər və oyanınca da müsəlman olar. Göründüyü kimi, yazılı ədəbiyyatda işlənən bu variantın ermənilərə aidiyyatı yoxdur. Nəticə olaraq əfsanə motivlərindən aydın olur ki, mövzu Türklərin, Qafqazın islamlaşması dönəmində geniş yayılmışdır. Erməni dilndə söylənən mahnıda türk sözlərinin çoxluq təşkil etməsi bu mahnının onlara aid olmadığının bir daha sübutudur. Bunu prof. İ. Abbaslı Azərbaycan folklor nümunələrinin yayılması və təsir arealının gücü ilə izah edir. Həmçinin ermənilər tarixən türk düşüncə dünyasının məhsulu olan mətnlərin söyləyicisinə, daşıyıcısına çevrilmişlər (1, 160). Musiqi insanları din, dil, mədəniyyət və s. keyfiyyətlərlə birləşdirən bir vasitədir. Xoş melodiya, ahəngdar ritm, xalq ruhunun ifadəsidir. Təbiətin səsi heç bir bəstəkarın bəstələmədiyi musiqidir. Təbii olanları duymaq isə bəşəri bir hissdir. Bu mahnı neylə ifa olunur. Ney geniş çöl və düzəngahdakı dağ yamaclarında dalğa-dalğa yellənən güllərin, çiçəklərin, və məhz orda hakim olan rüzgarın səsidir. Bir sözlə musiqi bütün xalqlara, millətlərə aiddir. Amma yalnız dinləmək üçün başqalarının yaradıb, sahib olduqlarını oğurlamaq üçün yox. “Sarı gəlin” xalq mahnısı, qaynaq etibarilə istər Anadolu, Qıpçaq, istərsə də Azəri türklərinə bağlı olub türk ruhunu, mədəniyyətini ifadə edir.

**Qaynaqlar**

1. Abbaslı İ. Erməni folklor nəşrlərində Azərbaycan rəvayətləri. Dədə Qorqud, elmi-ədəbi toplu, I/ Səda, Bakı, 2005, s. 160-167
2. Cəlil F. Türk etnomədəni düşüncəsində saç faktoru və onun folklorda təzahürü (Sarı gəlin mahnısının mətni əsasında), “Ortaq türk keçmişindən ortaq türk gələcəyinə” V Uluslararası folklor konfransının materialları// Səda, Bakı, 2007, s. 236-238
3. El sözü, yurd yaddaşı (toplayıb tərtib edən M.İsmayıl), “Elm” nəşriyyatı, Bakı, 2010
4. www. turkudostlari. net/ hikaye
5. www. turkudostlari. net/ soz
6. http://nedir, antoloji. com/ sarı-gelin



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Mətanət Abbasova, f.ü.f.d**
**AMEA Folklor İnstitutu, elmi işçi**

# XALQ BAYATILARINDA TARİXİ QARABAĞ OBRAZI

**Özət**

Məqalədə Qarabağla bağlı bayatıların ideya-məzmun, poetik özünəməxsusluqlarına toxunulmuş, Qarabağ tarixi həqiqətlərinin bayatılarda ifadə olunma xüsusiyyətləri diqqət mərkəzində saxlanılmışdır. “Qarabağ” toponiminin yaranması, ərazinin mübarizə və mücadilə tarixinin lirik mətnlərdə qorunması faktları təhlil edilmişdir.

**Açar sözlər:** Qarabağ, tarix, mübarizə, toponim, qala, milli, bayatı

**Резюме**

Статья пронизана поэтическим своеобразием идей, содержанием баяты связанные с Карабахом. История карабахской действительности в этих лирических строках, находятся в центре внимания. Анализируются факты появления топонима «Карабах», историческая борьба за территорию, которые нашли свое отражение в баяты.

**Ключевые слова:** Карабах, история, борьба, топоним, крепость, национальное, баяты

**Summary**

In the article the idea-thematic, poetic features of bayaties dealing with Garabag were touched upon, the peculiarities of expressing Garabag historical truths in these lyric texts were kept in the focus of attention. The origin of toponym “Garabagh”, the facts dealing the regions history of fight preserving in bayaties were analysed.

**Key words:** Garabag, history, fight, toponym, castle, national, bayati

* * *

Azərbaycan folklorunun zəngin janrlarından olan bayatılar öz tarixi kökləri ilə daha qədim zamanlardan baş alaraq xalqın arzusunu, mübarizəsini, dünyagörüşünü və s. müasir mədəniyyətimizə bağlamaqdadır. Yığcam mətn strukturu, dərin lirizmlə yüklənən bu nümunələr insanların daxili düşüncə və ovqatının dili kimi tarixi, sosial, ictimai həyatın həqiqətlərini obrazlaşdırmaqdadır. Xalqın folkloru onun tarixidir. Əgər tarixçinin mühakimələri məlum faktlar, sənədlərə əsaslanırsa xalq yaradıcılığının obrazlı təfəkküründə bu bilik həm də bədii-fəlsəfi məntiq, dünyaduyumla birləşərək tarixin mahiyyətini üzə çıxarır. Başqa sözlə desək, bayatılar nə qədər lirik düşüncə və duyğularla, hiss və həyəcanlarla yoğrulsalar da onlarda tarixi hadisələrin izlərini də görmək mümkündür. Təsadüfi deyildir ki, Azərbaycanın ikiyə bölünməsi,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Araz və Təbriz ünvanlı bayatılarda tariximizin konkret bir dövründə baş vermiş hadisələr öz ifadəsini tapmışdır. Bu qəbildən olan bayatılar Azərbaycan folklorunda ayrıca bir mərhələ təşkil etməkdədir.

Azərbaycan mədəniyyətinin, musiqisinin beşiyi hesab edilən Qarabağ torpağının da tarixi, mənəvi sərvəti onun zəngin folklorunda qorunmaqdadır. Zaman-zaman tarixi qəhrəmanlıqla yazılan bu torpaq yaşamaq və yaşatmaq mücadiləsini digər janrlarda olduğu kimi bayatılara da yansıtmışdır.

Azərbaycanın digər bölgələri kimi, Qarabağ da tarixən güclü-hərbi-siyasi təcavüzlərə məruz qalmış, ərasizi, füsunkar torpağı qədər də milli-mənəvi dəyərləri – musiqisi, söz sənəti, sənətkarlıq nümunələri talanmış, məhv edilmişdir. Tarixi həqiqətlərin ən qiymətli mənbəyinə çevrilən Qarabağ bayatıları bu baxımdan regional mövcudluqda daha fərqli mənaya, poetik tutuma malikdir. Özünəməxsus poetik sistemini formalaşdıran regional bayatıların struktur semantikası, estetik bütövlüyü qeyd olunduğu kimi yaşanan tarixin izinə bağlıdır. Qarabağın tarixi keçmişi, mübarizə, mücadilə taleyi bu bayatılarda əsasən aşağıdakı motiv, bədii qəlib və formada ifadə olunmaqdadır:

1.Etnik-coğrafi ərazinin tarixi-əfsanəvi adının simvollaşdırılması.

2. Qarabağın azadlıq mücadiləsinə bağlı tarixi həqiqətlərinin bədiiləşməsi.

Hər bir xalqın dili həm də onun tarixi yaddaşının özülüdür, eyni zamanda "dildə ən böyük qaynaq xalq yaradıcılığı, xalq düşüncə tərzidir" (9, 177). Ayrıca dil onomastikası, toponimlərin sabitliyi, yaxud yeniləşməsi müəyyən mənada tarixin zaman dəyişmələrinin irəliləyişinə bağlıdır. Yazıçı Anar vaxtilə "Gecə düşüncələri" adlı ədəbi essesində İslamdan qabaqkı türk adlarının "məğrurluq", "igidlik", "möhkəmliyi" ifadə etməsini daha sonrakı köləlik şüurunun yaratdığı şəxs adları ilə müqaisədə verərkən əslində burada xalqın taleyi, mənəvi əsarətinin tarixini göstərməyə çalışmışdır. (3, 54) Bu baxımdan hər bir xalqın etnik-tarixi müəyyənliyi onun onomastikası, xüsusilə toponimlərində qorunmaqdadır.

Qarabağın əfsanə və rəvayətlərdə qorunan, eləcə də tarixi fakta çevrilən toponimliliyi də regional bayatıları səciyyələndirən və fərqləndirən ayrıca xüsusiyyətdir. Folklorumuzda Qarabağın yer, ərazi adının formalaşması əsasən Zərdüşt peyğəmbərlə əlaqəli rəvayətlərə bağlanılır. Bir rəvayətə görə, atını yolüstü rastlaşdığı bir kənddə saxlayıb yoluna davam edən peyğəmbər geri dönərkən həmin kəndi tapa bilmir. Camaat Zərdüştdən hansı kəndi axtardığını, o kəndin necəliyini soruşduqda Zərdüşt: "qara bağı – yəni böyük bağı var idi" – deyə söyləyir. O zamandan da "Qara bağ" ("Böyük bağ") kimi əfsanələşən bu ərazi məşhur Oğuznaməmiz "Kitabi-Dədə-Qorqud" abidəsində əksini tapan ən qədim yaşayış məskənlərindən biridir. Ayrı-ayrı tarixçi, türkoloqlar (prof. Y. Qarayev, F.Qırzıoğlu, S.Əliyarov, S.Cəmşidov və s.) alim, mütəxəssislərin elmi qənaətlərində abidənin toponim və şəxs adları məhz bu tarixi məkanla təsbit olunmaqdadır. Kitabın Qaragünə, Qara Budaq, Qaraca Çoban, Qara xan və s. obrazlarının igidliyi, şücaəti "qara" – "güclü" təyinedicisində ifadə olunur. "Kitabi-Dədə-Qorqud"un onomas-



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tikasından çıxış edən mərhum folklorşünas B.Abdulla ayrı-ayrı araşdırmalardan ümumiləşdirmələr aparmaqla qara rəngin müxtəlif anlamlarını ortaq bir fikirdə birləşdirmişdir. "... M.Kaşqari adlara qoşulan "Qara"nın xaqanlıqda xanların titulunu bildirmək anlamında olmasını söyləmişdir... A.N.Kononov isə M.Kaşqarinin bu dediyini "titul" yox, "başçı", "böyük" olaraq açıqlamışdır. Sözü gedən "qara"dan L.Z.Budaqov da danışmış və adlarda özünü göstərən "qara"nı qorxunc, dəhşətli, vahiməli, zəhmli, olduqca qorxulu, çox dəhşətli, - deyə izah etmişdir... Ə.Cəfəroğlunun fikrinə görə "Kitab"dakı adlarda "qara"epitet funksiyası daşımaqla cəsarət və güclülük damğasıdır". (1, 67)

Qeyd edək ki, "qara" sözünə ilk dəfə türk "Yaradılış" dastanının qəhrəmanı Tanrı Qara xanın adında rast gəlinir. Bu və digər faktlar bütün hallarda "Qara" sözünün türk dilində çox qədim tarixi olduğunu göstərir.

Qarabağla bağlı bayatıların poetik özülündə də ərazinin etimoloji kökü eyni əsasda öz izini qoymaqdadır:

Əzizim Qarabağda
Gül əkdim qara bağda,
Özüm dərə bilmədim,
Dərdi yad, Qarabağda. (4, 31)

Aşıq qarabağlıdır,
Belim haqdan bağlıdır.
Yolçu, qayıt qonaq ol,
Bu el qara bağlıdır. (4, 330)

Qarabağ toponiminin yaranması ilə bağlı ikinci mühüm etimioloji fakt ərazinin adının Zaman oğlu Qara adlı şəxslə əlaqələndirilməsidir. Bu tarixi rəvayətdə qeyd edilir ki, Zaman oğlu Qara uzun səfərlərdə əziyyət çəkən tayfanın yolçuluğunu nəzərə alaraq Şuşa ətrafında böyük bir bağ salır. Tezliklə bu bağın meyvələri, nemətləri indiki Qarabağ ərazilərində məşhurlaşır. Əl-əl süfrələri bəzəyən bu nemətlər "Qaranın bağının" məhsulu kimi xalq arasında deyimə çevrilir və "Qara bağ" şəklində sabitləşir. Maraqlıdır ki, məlum bayatı mətnləri də bağın salınması motivindən kənar keçmir:

Qarabağ balasıyam
Qara bağ salasıyam.
Ay yurdumun Kərəmi.
Mən Əsli olasıyam. (4, 30)

Don tiksən ağı bizdən
Belinin bağı bizdən,
Qoymayın yad ellini,
Almağa bağı bizdən (5, 155)

Qarabağ bayatılarında qürbət mötivinin geniş işlədilməsi digər cəhətlərlə yanaşı, ikinci bir tərəfdən Qarabağ xanı İbrahimxəlil xanın qızı Ağabəyim Ağanın vətən həsrətinə bağlıdır. Tarixi məlumatlara əsasən Tehrana – Fətəli şahın sarayına gəlin köçən Ağabəyim Ağa vətəni – Qarabağın xiffətini çəkir. Öz doğma torpağının ətrini almaq üçün Qarabağdan torpaq gətirdib Tehranda böyük bir bağ saldırır. Lakin "Xarı bülbül"süz bağ Ağabəyimin vətən həsrətini ovundura bilmir. Qarabağ motivli bayatılarımızın əksər qismində də bu tarixi hadisə ilə bağlı mövzular xüsusi yer tutur:

Əzizinəm, Qarabağ,
Gəzdim, gəldim Qarabağ.
Tehran cənnətə dönsə,
Könlüm isdər Qarabağ. (6, 10)

Mən aşiq sarı bülbül,
Oxuma, zarı bülbül.
Qürbətdə bir bağ saldım
Bitmədi xarı bülbül. (4, 30)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Zamanla bayatıların yeni variantları formalaşmaqla Ağabəyim Ağanın Qarabağ – Şuşa həsrətinin müxtəlif rəvayətlərini tamamlamışdır:

Mən aşiqəm, Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Tehran cənnətə döndü,
Yaddan çıxdı Qarabağ. (5, 25)

Qeyd olunan nümunə ilə bağlı güman edilir ki, Fətəli xanı "ağrılar"ı ilə daha çox yükləməmək üçün şairə Ağabəyim Ağa bayatını fərqli şəkildə oxumuşdur.

Vətənin mübarizəsi, qorunması ilə bağlı ictimai motivli xalq bayatılarının böyük bir qismində yurd, torpaq əsasən "qala" şəklində obrazlaşdırılır. Qeyd edək ki, xalqın vaxtilə yaratdığı bu daş abidələr həm də onun taleyi, məişətinin bəlli zaman kəsiyindəki tarixinə bağlıdır. Qala müstəqil mənada tarixən düşməndən qorunma, istehkam mənbəyi olaraq obrazlaşmada "el", "yurd", "vətən" poetik məzmununda ifadə olunmuşdur. Bütün digər folklor ərazilərindən fərqli olaraq Qarabağ bayatılarında "qala" obrazı daha çox işləklik qazanmışdır:

Qardaşım vay, qalam vay,
Ərşə çıxıb nalam vay.
Kəsilib baş kərpicim,
Alınıbdır qalam, vay. (4, 110)

Qarabağ xanlığının mübarizə tarixində qalalar xüsusi istehkam kimi seçilmiş və zamanla müharibə, münaqişələrin canlı şahidinə çevrilmişdir. Pənah xanın Kəbirli mahalında 1745-ci ildə binasını qoyduğu Bayat qalası sonralar daha güvənli qalalarla əvəzlənmiş və tarixə qovuşmuşdur. Mirzə Camal Cavanşir Qarabağinin məşhur "Qarabağ tarixi" əsərində bu ellərin Şahbulağı adı ilə məşhur olan Tərnəküt qalası daha sonra isə 1754-cü ildə Şuşa qalasına köçürülməsi bildirilir. (8, 27) Məlum bayatılarda da düşmənə qarşı duran bu qalaların səngər rolu xüsusi yer tutur:

Eləmi nalam qardaş,
Fəryadım – nalam qardaş.
Top atıldı, bürc sındı,
Alındı qalam qardaş.(4, 113)

Mən aşiqəm qaladı,
Şəhərdi, həm qaladı.
İgidin yar-yarağı,
Dar günüdə qaladı. (4, 319)

Qarabağın zaman-zaman yerli, eləcə də xarici qəsbkarlar tərəfindən işğala məruz qalmasında xalqın iradə və birlik nümayiş etdirməsi və buna çağırış motivləri də xalq bayatılarında ayrıca yer tutmaqdadır.

Bülbül qonar güllərə,
Qurban şirin dillərə,
Hamı əl-ələ versə,
Yağı neylər ellərə. (4, 126)

Aşiq, qar daşa düşər,
Yağar qar daşa düşər.
Qardaşın müşkül işi,
Yenə qardaşa düşər. (7, 127)

Qarabağ möhürlü bayatılarımız təkcə mübarizə, döyüş, talanın tarixi həqiqətlərini deyil, vaxtilə barışıq, saziş altında düşmənlə yenidən "dostluq" şərtləri ilə yaşamağa məhkum xalqın uzaqgörənlik, ehtiyatlılıq çağırışlarını da bir miras



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kimi qorumaqdadır. Bu qrup bayatılarda isə Qarabağ həqiqətləri dəfələrlə sınaqdan keçmiş, təcrübə halında ifadə olunur:

Getdi arxa dolandı,
Sular çarxa dolandı,
Düşmən elin gücündən.
Qorxa-qorxa dolandı. (4, 327)

Dövran çox qarışıqdı
Yad gəlib barışıqdı,
Ayıq, sayıq dolanmaq
İgidə yaraşıqdı. (4, 329)

Milli-mənəvi oyanışa səsləyən Qarabağla bağlı bayatıların əsasında verilən təhlillər bir daha sübut edir ki, folklor tarixin özü, yaddaşıdır. Xalqın mənəvi dünya görşü, psixologiyası ilə yanaşı onun tarixi, mübarizə salnaməsidir. Xalq zaman-zaman üzləşdiyi tale yüklü hadisələri lirik-bədii biçimdə, bayatı dililə söz abidəsinə çevirmiş, tarixini bu yolla yaşatmaq istəmişdir. Güman edirik ki, bu gün folklorda yatan tariximizin oyadılması və öyrənilməsi daha geniş, yeni tədqiqatların aparılmasına istiqamət verəcəkdir.

**Qaynaqlar**

1. B.Abdulla. “Kitabi-Dədə-Qorqud”da rəng simvolikası. Bakı, Çaşıoğlu, 2004.

2. B.Abdullayev. R. Xəlilov. Tükənməz xəzinə. (Folklor ekspedisiyası zamanı toplanmış materiallar əsasında) Az. SSR. EA. Xəbərləri, 1976, I seriya, səh.28-36

3.Anar. Gecə düşüncələri. Azərbaycan jurnalı, 2001. №3.

4. Azərbaycan Folkloru Antologiyası. Qarabağ folkloru -V. Bakı. Nurlan, 2009.

5. Bayatılar. (Toplayıb, tərtib edəni Həsən Qasımov) Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1960.

6. Əzizinəm Qarabağ... (Tərtib edəni və ön sözün müəllifi İnqilab Quliyev) Bakı, Gənclik, 1993.

7. Qarabulaq (Füzuli) Folkloru Antologiyası. Bakı, Zərdabi LTD, 2010.

8. Mirzə Camal Cavanşir Qarabaği. “Qarabağ tarixi”. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1962.

9. B. Vahabzadə. Sənətkar və zaman. Bakı, Gənclik, 1978.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Muxtar Kazımoğlu, f.ü.e.d.,**
**AMEA Folklor İnstitutunun direktoru**
**mukhtarkazimoglu@gmail.com**

## EPOSDA TARİXİLİK

### Özət

Folklorda tarixilik məsələsində folklor janrlarının özünəməxsusluğunu nəzərə almaq lazımdır. Folklor tarixi heç də olduğu kimi əks etdirmir - tarixi hadisələri və tarixi şəxsiyyətləri daha çox xalq təsəvvüründəki arxetiplər əsasında əks etdirir. Bu xüsusiyyət folklorun ayrı-ayrı janrlarının, o cümlədən eposun daxili poetik sistemi çərçivəsində ortaya çıxır.

**Açar sözlər:** tarix, folklor, folklor janrları, arxetip

### Резюме

В вопросе историзма в фольклоре необходимо учитывать своеобразные особенности фольклорных жанров. Фольклор не отражает историю как она есть – исторические события и личности в соответствии с действительностью, а скорее отражает архетипы, сформированные в народном представлении. И эта характерная черта выражается в рамках поэтической системы отдельных фольклорных жанров, в том числе эпоса.

**Ключевые слова:** история, фольклор, фольклорные жанры, архетип

### Summary

It is necessary to learn the peculiar features of folklore genres in the question of historicism in folklore. Folklore doesn’t reflect the history as it contains - historical events and personalities suitable to truth, it rather reflects archetypes forming in the folk conception. This characteristic feature is expressed in the frame of poetics system of different folklore genres, including epos.

**Keywords:** history, folklore, folklore genres, archetype.

* * *

Folklorda tarixilikdən danışarkən unutmaq olmaz ki, folklorşünaslıq məktəbləri sırasında bir tarixi məktəb də var və adından göründüyü kimi, bu məktəbin başlıca ideya istiqamətlərindən biri şifahi xalq ədəbiyyatının tarixi hadisələri əks etdirməsi məsələsi üzərində qurulub. Əlbəttə, şifahi xalq ədəbiyyatının tarixi hadisələri əks etdirməsinə heç kim şübhə ilə yanaşmır. Ancaq “xalq ədəbiyyatı tarixi hadisələri necə, hansı formada əks etdirir və tarixi hadisələri əks etdirməkdə folklor janrları arasında fərqlər varmı?” sualına heç də hamı eyni cavabı vermir. Tarixi hadisələrin hansı səviyyə və formalarda əks olunması tarixi məktəb nümayəndələrini o qədər də maraqlandırmır, onlar janrların özünəməxsusluğunu xüsusi nəzərə almağı vacib



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bilmədən tarixi hadisələrin ifadəsini epik növ janrlarında axtardıqları səviyyədə lirik növ janrlarında da axtarırlar. Tarixilik məsələsində folklor janrlarının özünəməxsusluğunu nəzərə almamaq folklorşünaslıqda tarixi məktəbin nöqsanı kimi qiymətləndirilir, belə hesab edilir ki, tarixilik rəvayət, epos, nağıl və s. kimi janrlarda özünü daha qabarıq şəkildə göstərir, amma bu qabarıqlıq həmin janrların poetik sistemini dəyişdirə bilmir, əksinə, tarixi hadisələrin və tarixi şəxsiyyətlərin təsviri janrın poetikasına tabe olur. Tarixiliyin qabarıq hiss olunduğu epos janrından danışmaq istəsək, qeyd etməliyik ki, bizdə həm «Dədə Qorqud», həm də «Koroğlu» eposlarının tarixi hadisə və tarixi şəxsiyyətlərlə səsləşməsinə aid kifayət qədər elmi fikir və mülahizələr irəli sürülüb. «Dədə Qorqud» eposu və tarixilik məsələsi ilə bağlı maraqlı mülahizələr irəli sürən müəlliflərdən biri X. Koroğludur. Onun fikrincə, "Dədə Qorqud" boylarının çoxunda əksini tapmış tarixi mərhələ Səlcuqların yürüşləri dövrü (XI əsr) ilə səsləşir (4, 161). «Şəcəreyi-tərakimə» müəllifi Əbülqazinin: "Qazan alp peyğəmbərimizdən üç yüz il sonra yaşadı. Qoca yaşında Məkkəni ziyarət etdi və hacı olub qayıtdı… Salur Qazan Qayı [elindən] Qorqud ata ilə bir zamanda yaşayıb" sözlərinə istinad edən X. Koroğlu Dədə Qorqud və Salur Qazanı tarixi şəxsiyyətlər sayır. "Dədə Qorqud" eposunda əksini tapan hadisələrin çoxu səlcuq yürüşləri dövrünü əhatə edirsə, Dədə Qorqud və Salur Qazanın Məhəmməd peyğəmbərdən üç yüz il sonra yaşadıqları güman edilirsə, onda belə çıxır ki, biz həmin tarixi şəxsiyyətlərin eposda təsvir olunan fəaliyyətini X-XI əsrlərlə məhdudlaşdırmalıyıq. Amma məhdudlaşdıra bilirikmi? Dədə Qorqudun fəaliyyətini X-XI əsr hadisələri ilə necə məhdudlaşdıra bilərik ki, dastanın ilk cümləsindəncə ozan Qorqud Ata adlı "ər"in Məhəmməd peyğəmbər zamanına yaxın bir vaxtda yaşamasından bəhs edir. Eposda Salur Qazan barədə söylənilənlər də onun fəaliyyətini eynilə Dədə Qorqudun fəaliyyəti kimi konkret bir dövrə aid etməyə imkan vermir. Məsələn, eposda Qazan xanın epitetlərindən biri - "Amit soyunun aslanı" epiteti Ağqoyunluların Amidi (Diyarbəkr) tutması kimi tarixi hadisəyə işarə edir ki, həmin hadisə heç də X-XI əsrlərdə yox, XV əsrdə baş verib. Eposda bəzən Qazan xanın X-XI əsrlərdən xeyli qabaqkı hadisələrlə əlaqələndirildiyi məqamlarla da qarşılaşırıq. Məsələn, Qazan xanın silahdaşlarından olan Bükdüz Əmənin "varıban peyğəmbərin üzünü görməsi"ndən danışılması Qazan xanın da "Dədə Qorqud" kimi peyğəmbər dövründə yaşamasından danışmaq deməkdir. Xatırlatdığımız bu kimi faktlar göstərir ki, eposdakı Qazan xanı Hülakülərin yeddinci hökmdarı olan Qazan xanla da (XIII-XIV əsrlər) məhdudlaşdırmaq mümkün deyil. Epos qəhrəmanı ilə tarixi şəxsiyyət arasındakı ziddiyyətin, daha doğrusu, tarixi şəxsiyyətdən fərqli olaraq, epos qəhrəmanının neçə-neçə əsri əhatə edən tarixi hadisələrlə əlaqələndirilməsinin çox sadə səbəbi var. Səbəb budur ki, epos tarix kitabı yox, eposdur. Eposun, bütövlükdə folklorun öz qayda-qanunları var və heç bir tarix və tarix kitabı bu qayda-qanunları dəyişdirə bilmir. Ən möhtəşəm, ən təsirli tarixi hadisə belə folklorda məhz folklorun öz tələblərinə uyğun şəkildə əks olunur. Folklorun aparıcı janrlarından olan eposda tarixilik baxımından başlıca tələb



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

və şərt tarixi gerçəkliyin epik gerçəkliyə uyğunlaşdırılmasıdır. Əgər tarixi gerçəklik konkret zaman və məkan daxilində baş vermiş hadisələrdən ibarətdirsə, epik gerçəklikdə bu cür konkretlik axtarmaq çox çətindir və yaxud heç mümkün deyil.

Eposşünas B.N.Putilovun sözləri ilə desək, epik dünya real hadisələri və insanları, ictimai münasibətləri və məişət mənzərələrini əhatə edən cəmiyyət həyatından konkret tarixi epoxanı yox, xalqın öz keçmişi barədə ümumi təsəvvürlər kompleksini modelləşdirir (11, 8). Epos söyləyicisi iki zaman tanıyır: öz zamanını və epos qəhrəmanlarının zamanını. Real şəxsiyyət və real yer adlarının çəkilməsi epos qəhrəmanlarının yaşadığı zamanı konkretləşdirə bilmir. İfaçı sənətkar epos qəhrəmanlarının zamanını özünün yaşadığı zamandan tamamilə fərqli bir zaman kimi təqdim edir. Bu zaman, söz yox ki, şərtiliklərlə dolu zamandır və epos qəhrəmanlarının bir neçə əsri əhatə edən hadisələrlə əlaqələndirilməsi belə şərtiliklərdəndir.

"Dədə Qorqud" eposunda əhvalatları danışan ozan epos qəhrəmanlarının zamanını fərqləndirmək üçün "ol zamanda", "Oğuz zamanında" və s. kimi məlum ifadələr işlədir: "Ol zamanda bəglərin alqışı alqış, qarğışı qarğış idi. Duaları müstəcəb olurdu" (1, 54). Ozanın "ol zamanda" dediyi zamanın "bu gün"dən fərqi bəylərin duası ilə Allah-taalanın Baybörə bəyə oğul, Baybecan bəyə qız verməsində, başqa sözlə desək, epos qəhrəmanlarının qeyri-adiliyində, ilahi aləmlə bağlılığındadır. İlahi aləmlə bağlılığın ən mühüm əlamətini ozan yenilməz igidlikdə görür və bu cür igidlikdən "ol zaman"ın ən vacib olayı kimi danışır: "Oğuz zamanında bir yigit ki evlənsə, ox atardı. Oxu nə yerdə düşsə, anda gərdək dikərdi" (1, 57). Ozanın "Oğuz zamanı" adlandırdığı zamanda ən adi toy-düyün detalları belə igidlik, qəhrəmanlıq mətləbini ifadə etməyə yönəlib. İstənilən yerdə yox, məhz oxun düşdüyü yerdə təzəbəyin gərdəyinin qurulması, zamanın fərqləndirici əlamətləri sırasında təqdim edilib. "Ol zaman"ın fərqləndirici əlamətləri sırasında ozan bəzən ilk baxışda igidliyə-qəhrəmanlığa aid olmayan məsələlərə də toxunur: "Ol zamanda oğul ata sözün iki eləməzdi. İki eyləsə, ol oğlanı qəbul eləməzlərdi" (1, 68). Göründüyü kimi, ozan burada "ol zaman"dakı ata-oğul münasibətlərindən söhbət açır. Amma mətnə diqqət yetirdikdə aydın olur ki, ata-oğul münasibətlərindən söhbət açmaq dolayısı ilə qəhrəmanlıqdan söhbət açmaq məqsədi daşıyır: Qazan xan qılınc çəkib qan tökməkdə təcrübəsi olmayan oğlu Uruza qırx igidlə dağ başına çıxmağı və atasının düşmənlə necə döyüşməsinə baxıb öyrənməyi məsləhət görür. Məsləhətə qulaq asıb qırx yoldaşı ilə uca dağ başına çıxsa da, çox keçməmiş Uruz özünü saxlaya bilmir və döyüşə atılmalı olur. Ata sözünü iki eləməyən oğulun qəflətən fikrindən daşınması qorxmazlığı daha qabarıq ifadə etmək üçündür. Xatırlatdığımız epizodla ozan demək istəyir ki, «ol zamanda» oğul ata sözündən yalnız ata-ana (geniş mənada el-oba) qeyrətini çəkmək naminə çıxa bilərdi. Ozan «ol zaman»ın əsl bahadırlıq zamanı olduğunu təzadlar yolu ilə çatdırmağa xüsusi maraq göstərir. Uruzun ata məsləhətinə qulaq asıb-asmamağı əslində özünəməxsus təzad nümunəsidir və belə nümunələrə dastanın bir çox başqa epizodlarında da rast gəlirik: «Ol zamanda Oğuz yigitlərinə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

nə qəza gəlsə, uyxudan gəlürdi. Qanturalının uyxusu gəldi, uyudu» (1, 84). «Yuxudan başa qəza gəlmək» deyəndə ozan heç şübhəsiz, Oğuz igidlərinin daş kimi yatıb düşmən əlinə keçməsinə işarə edir. «Salur Qazanın dustaq olub oğlu Uruz çıxardığı boy»da Qazan xan məhz yatıb yuxuya qalmaqla kafir əlinə keçir. Daş kimi yatıb ayılmaq bilməmək, əlbəttə, hərəkətsizliyin ifadəsidir. Təsadüfi deyil ki, Oğuz igidləri çox yatmağı «kiçik ölüm» adlandırırlar. Hərəkətsizlik – «kiçik ölüm» igidliklə təzad yaradır. Amma bu təzadın alt qatında ozan, əslində, bahadırlığı vəsf etmiş olur. Daş kimi yatıb saatlarla, hətta günlərlə yuxudan ayılmamaqda vəsf ondan ibarətdir ki, ozan oğuz igidinin öz ev-eşiyində yatmasından yox, düşmənin iki addımlığında yatmasından söhbət açır. Düşmənin iki addımlığında baş qoyub şirin-şirin yatmaq isə, qeyd etdiyimiz kimi, düşməndən zərrə qədər qorxmamaq deməkdir (7, 188). Uruzun ata sözünə axıracan sadiq qalmayıb döyüşə atılmaq əhvalatında olduğu kimi, Qanturalının da düşmən sərhədi yaxınlığında yıxılıb yatması və Selcan xatunun çağırışından sonra güc-bəla ilə yuxudan ayılması bahadırlığın özünəməxsus lövhəsidir. Bu cür lövhələr Uruzların və Qanturalıların qeyri-adi bahadırlıq zamanında yaşadıqlarını göstərməkdə az rol oynamır.

Qeyri-adi epik zaman digər eposlar kimi «Koroğlu» üçün də səciyyəvidir. Koroğlu və onun dəlilərinin qeyri-adi bir zamanda yaşadığını daha qabarıq göstərmək üçün aşıqlar «Koroğlunun qocalığı» qolundan məharətlə istifadə edirlər. Qocalıqdan danışmaq, cavanlıqda yaşanan günləri xatırlatmağın bir üsuluna çevrilir. Əslində, bu ənənə də «Dədə Qorqud»dan gəlir. Həmin eposda Qorqud Atanın yaşlı bir qoca kimi təqdim edilməsi Oğuz igidlərinin at çapıb, qılınc oynatdığı ulu keçmişə – kifayət qədər uzun bir zamana şahid şəxsin gözü ilə baxmaq imkanı yaradır: «Dədəm Qorqut boy boyladı, soy soyladı, bu oğuznaməyi düzdü-qoşdu, böylə dedi:

Anlar dəxi bu dünyaya gəldi, keçdi,
Karvan kibi qondu, köçdü» (1, 44).

Birinci boyun sonundan götürdüyümüz bu parça göstərir ki, Dədə Qorqud həm Bayındır xan və Dirsə xandan, həm də özünün ad verdiyi Buğacdan məhz keçmiş zamanın qəhrəmanları kimi danışır:

İmdi qanı dedügim bəg ərənlər!?
Dünya mənim deyənlər!
Əcəl aldı, yer gizlədi,
Fani dünya kimə qaldı? (1, 74)

Boyların sonunda təkrar olunan bu fikir bir tərəfdən hər şeyin müvəqqəti olduğunu, heç kimin dünyanı tutub qalmayacağını göstərmək üçündürsə, digər tərəfdən indi – hər şeyin adiləşdiyi və ucuzlaşdığı bir dövrdə "bəy ərən"lərin olmadığını təəssüflə bildirmək üçündür. Bizcə, Koroğlunun qocalığı da Dədə Qorqudun qocalığına bənzər bir funksiya daşıyır. Qəhrəmanlıqla aşıqlığı özündə birləşdirən Koroğlu qoca vaxtında sanki dönüb ozanlar ozanı Dədə Qorqud olur:


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Axır əcəl gəldi, yetdi hay-haray!
Çəkdiyim qovğalar bitdi hay-haray!
Tüfəng çıxdı, mərdlik getdi hay-haray!
Mənmi qocalmışam, ya zəmanəmi?

Koroğluyam, Qırat üstə gəzərdim,
Müxənnətlər başın vurub əzərdim,
Nərələr çəkərdim, səflər pozardım,
Mənmi qocalmışam, ya zəmanəmi? (2, 314)

Koroğlu tüfəngin meydana çıxdığı və bic əyyamının gəldiyi bir vaxtda bu gündən dünənə baxmaqla, dünənin həsrətini çəkməklə mərdlərin qılınc çalıb, at oynatdığı zamanların ucalığını diqqətə çatdırmış olur.

Epos qəhrəmanlarını konkret tarixi şəxsiyyətlərlə məhdudlaşdırmaq mümkün olmadığı kimi, eposdakı "ol zamanı" da konkret bir zamana sığışdırmaq mümkün deyil. Epos qəhrəmanları ideal qəhrəmanlar olduğu kimi, eposdakı "ol zaman" da ideal zamandır. Epos ifaçısı söylədiyi əhvalatları məhz ideal qəhrəmanlarla və ideal zamanla bağlı əhvalatlar şəklində təqdim edir. İstər tarixlə az-çox əlaqəsi olsun, istərsə olmasın, bütün qəhrəmanlar və əhvalatlar qəhrəmanlıq eposunda epik dünya modelinin ifadəsinə xidmət edir. Epik dünya modeli üç əsas amillə müəyyənləşir: doğma yurd, düşmən və öz yurdu uğrunda vuruşan qəhrəman. «Dədə Qorqud» eposunda doğma yurd Oğuz elidir, düşmən kafirlərdir, öz yurdu uğrunda vuruşan qəhrəmanlar isə heç bir tarixi şəxsiyyətlə məhdudlaşdırılması mümkün olmayan Qazan xanlar, Beyrəklər, Qanturalılardır. Kafirlərin sırasında Qıpçaq Məliyin də adının çəkilməsinə əsaslanan tədqiqatçılar «Dədə Qorqud» eposunda Oğuz-Peçeneq müharibələrinin tarixi izlərinin olması qənaətinə gəlirlər (3, 154; 5, 54). Amma istər Oğuz-Peçeneq müharibələri, istərsə də Oğuz-gürcü toqquşmaları ilə səsləşmə «Dədə Qorqud»da qəhrəmanlıq eposları üçün səciyyəvi olan epik dünya modelini dəyişdirə bilmir. Yəni epik dünya modeli tarixə yox, tarix epik dünya modelinə tabe olur və bu modelin içində mümkün ifadəsini tapır.

Epik dünyanın «Dədə Qorqud» eposunda gördüyümüz modeli oxşar şəkildə «Koroğlu» eposunda da özünü göstərir. Oğuz elinin funksiyasını «Koroğlu»da Çənlibel, kafirlərin funksiyasını «Koroğlu»da namərdlər-müxənnətlər, Qazan xanların, Beyrək və Qanturalıların funksiyasını isə Koroğlu və dəliləri daşıyırlar. «Dədə Qorqud»la müqayisədə «Koroğlu» daha sonrakı dövrlərdə yarandığına görə tarixiliyi bu dastanda («Koroğlu»da) axtarmaq qismən asan olmalıdır. Doğrudan da, tədqiqatçılar «Koroğlu»da tarixi hadisələrlə səsləşən çoxlu epizod və obrazlar müəyyənləşdirirlər."Koroğlu"nun görkəmli tərtibçisi və tədqiqatçısı M.H.Təhmasib nəinki Koroğlunu, eləcə də Eyvaz, Dəmirçioğlu, Dəli Həsən, Kosa Səfər, Bəlli Əhməd, Tanrıtanımaz və b. dəliləri, həmçinin Həsən xan, Hasan paşa, Ələmqulu xan, Bolu bəy və b. müxənnət obrazlarını tarixi hadisə və tarixi şəxsiyyətlərlə əlaqələndirir. M.H.Təhmasib hətta bəzi obrazların konkret prototiplərini də müəyyənləşdirməyə


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

çalışır. ”Dastanı el sənətkarı yaradır” qənaətinə əsaslanan M.H.Təhmasib Koroğlunun özünü Koroğlu adlı el sənətkarı ilə əlaqələndirir: “Bizcə, “Koroğlu”nun bünövrəsi XVI əsrin sonu, XVII əsrin əvvəllərindəki əzəmətli kəndli hərəkatı illərində qoyulmuşdur. Özü də ilk yarandığı zaman, heç şübhəsiz ki, indikindən çox kiçik bir dastan imiş. Əlimizdə sənədlə təsbit ediləcək əsas olmasa da, biz bu fikirdəyik ki, həmin ilk «müəllif» – şair – aşıq – dastançının adı Rövşən, mənsub olduğu qəbilə ilə bağlı ləqəbi, ayaması isə Koroğlu imiş. Bizim ümumi dastan yaradıcılığı ənənəmizə sadiq qalaraq o da yüzlərcə başqaları kimi özünü öz dastanına qəhrəman etmişdir. Çox ehtimal ki, 1610-1630-cu illər hərəkatı iştirakçılarından, bəlkə də, hətta başçılarından biri imiş… Bizcə, qəhrəmanlığı, igidliyi, şairlik və aşıqlığı öz simasında birləşdirmiş bu nadir istedad həm də biliyindən istifadə edərək öz epik surətini yaratmış, real tarixi hadisələrə əfsanəvi boyalar, əsatiri naxışlar vurmuş, öz adına dastan bağlamışdır» (3, 151). Dastandakı Eyvaz surətini isə M.H.Təhmasib 1610-1630-cu illər hərəkatı ilə yox, 1571-1573-cü illər Təbriz üsyanı ilə əlaqələndirir. Məlumdur ki, həmin üsyan sənətkarların və şəhər yoxsullarının üsyanı kimi başlayıb. Üsyanın iki başçısından biri Pəhləvan Yarı, digəri isə Eyvaz olub. M.H.Təhmasibin qənaətinə görə, eposdakı Eyvazın tarixi prototipi Eyvaz adlı həmin üsyançıdır. Təbriz üsyanının baş verməsində ət qəhətliyinin bir səbəbə çevrilməsini, üsyanda qəssabların mühüm rol oynamasını əldə əsas tutan M.H.Təhmasib qəssab oğlu Eyvazın qeyd olunan “prototipi” üzərində daha israrla dayanmalı olur (3, 131). M.H.Təhmasibin qeyd etdiyi və qeyd etmədiyi bir çox tarixi hadisələrin «Koroğlu» dastanında müəyyən iz buraxdığını, əlbəttə, inkar etmək olmaz. Amma hər hansı tarixi şəxsiyyəti «Koroğlu»dakı (eləcə də digər dastanlarımızdakı) hər hansı obrazın prototipi saymaq çətindir. Çətinlik ondadır ki, yazılı ədəbiyyatla bağlı işlənən «prototip» termini şifahi ədəbiyyat müstəvisində o qədər də yerinə düşmür və özünü tam doğrultmur. Yazıçı (söhbət əsl yazıçıdan gedir) qələmindən çıxan hər hansı bir əsərdə qəhrəmanlar az-çox fərdiləşdirmə süzgəcindən keçirilir və eyni prototipə əsaslanan ayrı-ayrı obrazlar belə bir-birindən xeyli dərəcədə fərqlənir. Məsələn, Ə.Haqverdiyevin Qacarını S.Vurğunun Qacarı ilə, S.Vurğunun Vaqifini Y.V.Çəmənzəminlinin Vaqifi ilə eyniləşdirmək mümkün olmur. Eyni tarixi şəxsiyyət əsasında yaranan ayrı-ayrı obrazlar eyni ad (Qacar, Vaqif) daşısalar da, məhz müxtəlif obrazlar kimi qəbul edilir. Yazılı ədəbiyyat, xüsusən realist yazılı ədəbiyyat üçün səciyyəvi olan fərdiləşdirməni şifahi ədəbiyyata tətbiq etmək yanlış nəticələrə gətirib çıxarır. Ayrı-ayrı tarixi şəxsiyyətlərlə səsləşməsini əldə əsas tutub Dəli Həsən, Eyvaz, Dəmirçioğlu, Kosa Səfər, Bəlli Əhməd, Tanrıtanımaz kimi Koroğlu dəlilərini bir-birindən fərqli obrazlar saymaq yanlış nəticələrdən biri olardı. Koroğlu dəlilərinin qarşılaşdığı, iştirakçısı olduğu əhvalatlar, əlbəttə, bir-birinin təkrarı deyil. Koroğlunun Dəli Həsənlə ilk tanışlığı Eyvazla ilk tanışlığından, Dəmirçioğlunun Çənlibelə gəlməsi başqa dəlilərin Çənlibelə gəlməsindən müəyyən qədər fərqlənir. Koroğlu Dəli Həsənlə başının dəstəsi olan, el içində özünə görə ad-san qazanan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qılınc sahibi kimi, Eyvazla ağıl-kamal, mərifət və qorxmazlıq keyfiyyətləri olan sadə bir qəssab oğlu kimi, Dəmirçioğlu ilə heç kimdən çəkinməyən, gücünə güvənən bir nalbənd oğlu kimi tanış olur. Yəni Koroğlu dəlilərinin bioqrafiyasında fərqli məqamlarla, bir-birinə bənzəməyən epizodlarla qarşılaşırıq və bunu tamamilə təbii hal kimi qiymətləndiririk. Bununla yanaşı, belə hesab edirik ki, fərqli avtobioqrafik epizodlar eposda fərqli dəli obrazlarının ortaya çıxmasına səbəb ola bilmir. Dəli Həsən, Eyvaz, Dəmirçioğlu, Bəlli Əhməd, Kosa Səfər və s. kimi müxtəlif adlar altında və müxtəlif bioqrafik epizodlar əsasında vahid qəhrəman tipinin təqdim edildiyinin şahidi oluruq. Bəli, Koroğlu dəliləri kimi tanıdıqlarımız sayından və bioqrafiyasından asılı olmayaraq, vahid obrazın ifadəsinə çevrilirlər. Vahid obrazın ifadəsinə çevrilmək Koroğlu dəlilərini ayrı-ayrı tarixi şəxsiyyətlərə aparıb çıxaracaq yolların qarşısını alır. «Eyvazın prototipi varmı?» sualına qayıtsaq, qeyd etməliyik ki, Eyvaz adlı bir üsyançı həmin adda obrazın mənbəyi olduğu qədər bütövlükdə Koroğlu dəlilərinin mənbəyidir. Bu sözləri eynilə digər dəlilər və onların "prototip"ləri barədə də söyləmək olar. Məsələn, belə söyləmək olar ki, XVII əsr salnaməçilərinin xatırlatdığı Həsən adlı bir üsyançı Dəli Həsən obrazının mənbəyidirsə, deməli, Koroğlu dəlisi kimi tanıdığımız qəhrəman tipinə impuls verən mənbələrdən biridir. Koroğlu dəlilərinin vahid qəhrəman tipini ifadə etməsi öz analoqunu dünya eposunda, o cümlədən «Dədə Qorqud» eposunda da tapır. Təsadüfi deyil ki, Y.Lotman skandinav eposunda dəlini səciyyəvi bir obraz sayır (10, 41), «Dədə Qorqud» qəhrəmanlarından danışan araşdırıcılar həmin eposdakı dəli obrazına xüsusi diqqət yetirməli olurlar (8, 84; 9, 87; 6, 170). Aydın olur ki, Koroğlu dəlisi dünya epos ənənəsindən, ilk növbədə isə «Dədə Qorqud» eposundan gələn obrazdır. «Dədə Qorqud»dakı Dəli Domrul, Dəli Qarcar, Dəli Dondar, Dəli Budaq, Dəli Uran kimdirsə, «Koroğlu»dakı Dəli Həsən, Eyvaz, Dəmirçioğlu, Bəlli Əhməd, Kosa Səfər, Tanrıtanımaz da odur. Başqa sözlə desək, «Koroğlu»dakı dəli adlı qəhrəman tipi «Dədə Qorqud»dakı eyni adlı qəhrəman tipinin davamıdır. Qeyri-adi hərəkətləri ilə başqalarından seçilən, ölçü-biçi bilməyən, normalara sığmayan dəlilərin (hətta Dəli Domrul və Dəli Qarcarın) «Dədə Qorqud»da başlıca funksiyası Oğuz elini qorumaqdan ibarət olduğu kimi, «Koroğlu»da da onların başlıca funksiyası vətən rəmzi olan Çənlibeli qorumaqdan ibarətdir. Belə bir funksiya eposdakı dəli obrazını üsyankarlığı və el-oba təəssübkeşliyi ilə yaddaşlarda müəyyən iz buraxan tarixi şəxsiyyətlərə yaxınlaşdırsa da, epos qəhrəmanı epos qəhrəmanı olaraq qalır və onu konkret bir «prototip» çərçivəsinə sığışdırmaq mümkün olmur.

Qəhrəman və «prototip» əlaqələrinin oxşar mənzərəsini məhəbbət dastanlarında da görürük. Oxşar mənzərə ilk növbədə baş qəhrəman və tarixi şəxsiyyət müstəvisində özünü göstərir. Bu müstəvidə yanaşdıqda məhəbbət dastanlarının tarixi şəxsiyyətlə səsləşən baş qəhrəmanları içərisində aşıq-aşiq obrazı diqqətimizi daha çox cəlb edir. Təsadüfi deyil ki, bizim ən məşhur məhəbbət dastanlarımızdan olan "Qurbani" və "Abbas-Gülgəz"in baş qəhrəmanları aşıq şerinin iki nəhəng simasının adı ilə bağlıdır. Bir ehtimala görə, həmin dastanların ilk variantlarını Qurbani və



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Aşıq Abbas Tufarqanlı yaradıb. Başqa bir ehtimala görə, adı çəkilən dastanları Qurbani və Aşıq Abbas Tufarqanlının şeirləri əsasında başqa aşıqlar yaradıblar. Ehtimallardan hansının daha ağlabatan olduğunu aydınlaşdırmağa lüzum görmədən diqqəti bir məsələyə yönəltmək istəyirik: necə və kimin yaratmasından asılı olmayaraq, «Qurbani» və «Abbas-Gülgəz» dastanlarının Qurbani və Aşıq Abbas Tufarqanlı yaradıcılığı ilə əlaqəsi danılmazdır. Həmin dastanlardan gördüyümüz (yaxud eşitdiyimiz) şeirlərin böyük bir qismi Qurbani və Aşıq Abbas Tufarqanlınındırsa, onda dastan şeirləri və real tarixi şəxsiyyət əlaqəsinə heç bir şübhə qalmır. Bununla yanaşı, Qurbani və Abbas obrazları ilə (qeyd olunan dastanlardakı baş qəhrəmanlarla) Aşıq Qurbani və Aşıq Abbas Tufarqanlı şəxsiyyətləri arasındakı əlaqə tipinə aydınlıq gətirməyə ehtiyac yaranır. Ehtiyac yaranır qeyd edilsin ki, bu əlaqə dolayı əlaqədir. Necə ki, Dədə Qorqud adlı real şəxsiyyətlə eposdakı Dədə Qorqud obrazı, Koroğlu adlı real şəxsiyyətlə eposdakı Koroğlu obrazı arasında əlaqə birbaşa yox, məhz dolayıdır. Bu dolayı əlaqəyə B.N.Putilovun sözləri ilə aydınlıq gətirmək istəyirik: epik obraz tarixi şəxsiyyətə qədər də mövcud olur, tarixi şəxsiyyət bu obraza ad və bir az da «bioqrafik» material verir (12, 178). Bu, o deməkdir ki, xalq təsəvvüründə müdrik qoca arxetipi var, Dədə Qorqud adlı tarixi şəxsiyyət bu arxetipin eposda ifadəsinə impuls verir. Yaxud xalq təsəvvüründə yenilməz qəhrəman arxetipi var, Koroğlu adlı tarixi şəxsiyyət bu arxetipin eposda ifadəsinə impuls verir. Bir əlində qılınc, bir əlində saz tutması heç də Koroğlu obrazı ilə yenilməz qəhrəman arxetipi arasında ziddiyyət yaratmır. «Dədə Qorqud» qəhrəmanlarındakı qopuz-qılınc vəhdətindən də göründüyü kimi, söz kultu ilə qılınc kultu eyni arxetipin tərkib hissəsinə çevrilə bilir. Və Koroğlu obrazı hər iki kultun ifadəsi kimi meydana çıxır.

Söhbəti məhəbbət dastanlarının baş qəhrəmanları üzərinə gətirsək, qeyd etməliyik ki, bu dastanlar haqq aşığı – haqq aşiqi təsəvvürü ilə sıx bağlıdır. Haqdan aşıqlıq və aşiqlik vergisi almaq inamından doğan bu təsəvvürün tarixini Qurbaninin, yaxud Aşıq Abbas Tufarqanlının şəxsiyyəti və həyatı ilə əlaqələndirmək, əlbəttə, doğru olmazdı. Qurbaninin, yaxud Aşıq Abbas Tufarqanlının şəxsiyyəti və həyatı xalq sufizmindən gələn təsəvvürü ifadə etməkdə bir vasitədir. Parlaq istedadı ilə xalq arasında böyük şan-şöhrət qazanan Qurbani və Aşıq Abbas Tufarqanlı kimi sənətkarların "bioqrafiyası" "Qurbani" və "Abbas-Gülgəz" dastanlarında haqq aşığı obrazının münasib bir vəsiləsidir. Amma həmin sənətkarların yaşadığı dövrə aid, doğulub boya-başa çatdığı, səfər etdiyi ayrı-ayrı yerlərə aid, həmçinin ünsiyyətdə olduğu tarixi şəxsiyyətlərə aid "bioqrafik" məqamlar heç də Qurbani və Aşıq Abbas Tufarqanlını "Qurbani" və "Abbas-Gülgəz" dastanlarındakı baş qəhrəmanların prototipi adlandırmağa əsas vermir.

Tarixi hadisələri və tarixi şəxsiyyətləri əks etdirməkdən daha çox xalq təsəvvüründəki arxetipləri əks etdirmək bütövlükdə folklorun səciyyəvi xüsusiyyətlərindən biri kimi özünü göstərir. Təbii ki, bu xüsusiyyət folklorun ayrı-ayrı janrlarının, o cümlədən eposun daxili poetik sistemi çərçivəsində ortaya çıxır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Qaynaqlar**

1. Kitabi-Dədə Qorqud. - Kitabi-Dədə Qorqud Ensiklopediyası, I cild, Yeni nəşrlər evi, Bakı, 2000

2. Koroğlu. Tərtib edəni Təhmasib M.H. Gənclik, Bakı, 1982

3. Təhmasib M.H. Azərbaycan xalq dastanları. Orta əsrlər, "Elm" nəşriyyatı, Bakı, 1972

4. Koroğlu. X. Oğuz qəhrəmanlıq eposu, "Yurd" nəşriyyatı, Bakı, 1999

5. Cəfərov N. Azərbaycan... Azərbaycanın türkləşməsi... və Azərbaycan xalqının təşəkkülü. - Seçilmiş əsərləri, 5 cilddə, IV cild. "Elm" nəşriyyatı, Bakı, 2007, s.36-62

6. Kazımoğlu M. "Dədə Qorqud kitabı"nda dəli obrazı. – Gülüşün arxaik kökləri, "Elm" nəşriyyatı, Bakı, 2005, s.119-140

7. Kazımoğlu M. Xalq gülüşünün poetikası, "Elm" nəşriyyatı, Bakı, 2006

8. Bəydili C. Dəli, dəlilər. - Kitabi-Dədə Qorqud ensiklopediyası, 2 cilddə, II cild. Yeni nəşrlər evi, Bakı, 2000, s. 84

9. Hacılı A. Mifopoetik təfəkkür fəlsəfəsi. Mütərcim nəşriyyatı, Bakı, 2002, s.87

10. Лотман Ю.М. Семиосфера, Санкт-Петербург, Искусство–СПБ, 2001

11. Путилов Б.Н. Героический эпос и действительность, Наука, Ленинград, 1988

12. Путилов Б.Н. Типология фольклорного историзма. – Типология народного эпоса, Наука, Москва, стр.164-181



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Nizami Muradoğlu,***
***AMEA Folklor İnstitutu, elmi işçi***
***nizamimurad@gmail.com***

# BAYATILAR VƏ TARİXİMİZ

**Özət**

Azərbaycan xalqının həyatı, məişəti və tarixi ilə bağlı hadisələr folklorda özünə geniş yer tapa bilmişdir. Bu baxımdan bayatılar da təxmini hadisələrin tarixi haqqında əsaslı məlumat mənbəyi hesab edilə bilər. Məqalədə tarixi şərait ilə bağlı olaraq yaradılan bayatılardan söhbət açılır.

**Açar sözlər:** bayatı, Araz, Nuh, Qarabağ, Təbriz.

**Summary**

The events about life, living and history of Azerbaijan nation have taken the important place in folklore. That is why bayaties (quatrains) can be also considered the main information source of the history of approximate events. In the article it said about the bayaties (quatrains) formed according to the historical condition.

**Key words: bayati (quatrain), Araz, Nuh, Garabag, Tabriz**

* * *

Adətən belə deyirlər: "Türklər tarix yaratdı, ancaq yazmadı". Təbii ki, bu ifadənin işlədilməsində müəyyən həqiqət vardır, çünki tarixin qədim tarixinin yazılı mənbələri olduqca azdır, yaxud da kimlərinsə tərəfindən bilərəkdən məhv edilmişdir. Ancaq bununla belə türk xalq təfəkküründə onun tarixi ilə bağlı çox izlər vardır ki, bunlara şifahi xalq ədəbiyyatı nümunələrində tez – tez rast gəlmək olar. Əslində xalq ədəbiyyatının nağıl, lətifə, dastan janrlarında nəql edilən hər bir hadisə konkret bir zamanla əlaqədardır və həmin dövrün ictimai – siyasi mahiyyətini özündə əks etdirir. Məqsədimiz xalq ədəbiyyatı nümunələrindən bayatılarda əks olunan tarixə işıq tutmaq, xalqımızın tarixi ilə bağlı bəzi məqamlara aydınlıq gətirməkdən ibarətdir. Bir məsələni qeyd etmək lazımdır ki, yaranan nümunələr həm də, nümunənin yarandığı ərazi ilə bilavasitə bağlı olub, həmin yerin etimologiyasının öyrənilməsində də mühüm rol oynayır. Tutaq ki, Naxçıvan MR – nın ərazisində toplanan bayatılar, xalq ədəbiyyatının digər növləri məhz bu regionun həyatı, tarixi, məişəti ilə daha çox bağlıdır. Məsələn, belə bir bayatı var:

Nuh adına məkan var,
Ayağından çəkən var.
Düşmən istər dağıda,
Haqqdan onu tikən var. (1,31)

Göründüyü kimi, Naxçıvan Nuh Peyğəmbərin adı ilə bağlı olması fikrini babalarımız, nənələrimiz öz deyimlərində sabitləşdirmişlər. Bayatının hər misrasını



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

təhlil etsək, bu yurdun düşmənlərə göz dağı olduğunu görərik. Yadelli düşmənlər həmişə bu gözəl yurdu dağıtmağa çalışmışlarsa da, amma istəklərinə nail ola bilməmiş, bu yurd, bu torpaq ilahi qüdrətin nəticəsində daima çiçəklənmiş, inkişaf etmişdir.

Yaxud daha bir bayatıya nəzər salaq:

Burda yatan Nuhudu,
Nişanəsi çoxudu.
Kitab yazan kişilər,
Bəlkə gəldi oxudu. (1,31)

Güman etmək olar ki, bu bayatı da Naxçıvan ərazisində, Gəmiqayada tapılan yazılı daşlar ilə bağlı olaraq deyilmişdir. Həmin ərazidə Nuhdabanı, bir qədər oradan aralıda Nuhgədiyi kəndləri vaxtı ilə yerləşmişdi. Yazılı daşlar isə çox böyük əhəmiyyət kəsb edən tarix nümunələridir ki, xalqımızın genetik yaddaşının formalaşmasında mühüm rol oynayır. Həm də bu daşlar yer daşlarına oxşamır, ətrafdakı adi daşlardan fərqlənir. Bu daşlar tünd qara rəngli, çox ağır olan meteorik parçalarına bənzəyir. Bu ərazidə Nuh Peyğəmbərlə əlaqədar yaranan əfsanələr, çoxlu yer adlarının olması, ərazidə insanların on min illər bundan öncə məskunlaşmasından xəbər verməklə yanaşı, bu barədə yaranmış xalq ədəbiyyatı nümunələrinin də nə qədər dərin mənaya malik olması haqqında qənaət yaradır.

Folklorun tarix ilə əlaqəsinin tarix nümunələrinə Araz haqqında deyilmiş bayatılara da rast gəlirik. Məlum olduğu kimi, Rus imperiyasının apardığı işğalçılıq siyasətinin nəticəsində 1813 – ci ildə Azərbaycan ölkəsi iki yerə parçalanaraq bir hissəsi Rusiyanın, digər hissəsi İranın tabeliyinə verildi. Bu parçalanma nəticəsində Azərbaycan dövləti müstəqilliyini itirdi, Araz boyunca çəkilən sərhəd dirəkləri bir xalqın ikiyə bölünməsinə səbəb oldu. Elə bu zamandan başlayaraq Araz hicran çayına çevrildi. Çoxlu bayatılarda Araza qarğış edənlər də oldu, günahsız yerə incidilən insanlar öz nifrətini, kinini, qəzəbini Arazın sularında qərq etməyə başladılar:

Şərmisən, xeyirmisən?
Qılıncın səyirmisən.
Qolun qurusun, Araz,
Vətəni ayırmısan. (2,117)

Və ya:

Araz, Araz budumu?
Araz dolu sudumu?
Quruyasan, ay Araz,
Olasan su udumu. (3,75)

Yaxud bu hicranın səbəbkarı kimi rusların işğalçılıq siyasətini pisləyən, xalqın mənəvi iztirablarının nəticəsi olan bayatılar da vardır.

Urus, öləsən urus,
Gözə gələsən, urus
Səni də bölən ola,.
Onda biləsən, urus. (4)



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İki yüz illik ayrılığın bütün çalarları ilə əks etdirən folklorun tipik bir nümunəsi də aşağıdakı bayatı ilə verilmişdir:

Ağ dəvə düzdə qaldı.
Yükü Təbrizdə qaldı.
Oğlanı dərd apardı.
Dərmanı qızda qaldı.

Bayatıda adı keçən dəvənin ağ olması özü ayrılığın nişanəsidir. Məlum olduğu kimi, ağ rəng ayrılıq əlaməti olaraq məhəbbət aləmində qəbul edilmişdir. Ağ dəvənin düzdə, yükünün Təbrizdə qalması yolların bağlanması ilə əlaqədar olaraq deyilmişdir. Vətənin parçalanması isə iki sevgilini aralı salmış, onların dərdə, əzaba düçar olmasına gətirib çıxarmışdır.

Daha bir bayatıya da nəzər salaq.

Qarabağda talan var,
Zülfün üzə salan var,
Gedirsən tez də qayıt,
Gözü yolda qalan var.

Qarabağda çoxlu talanlar olubdur. Amma bu bayatının 1918-ci il talanları ilə bağlı olaraq yarandığı qənaətindəyik. 1918-ci ildə olan talanda əhalinin bir qismi, xüsusən qız, qadın, uşaq və qocalar Qarabağdan çıxarılmış, onların bir qismi Cənubi Azərbaycana, bir qismi isə ətraf bölgələrə getmişdir. Mənfur qonşularımız hayların (erməni) o zaman törətdikləri müharibələr nəticəsində yurdundan, yuvasından ayrı düşən insanlar, sevgililər olmazın əziyyətlərə qatlaşmalı olmuşdular. Xüsusən də ayrı düşən sevgililərin dərdi, kədəri bu tipli söz düzümlərinin yaranmasına səbəb olmuşdur. Diqqət etsək bayatının ikinci misrası "zülfün üzə salan var" bir-bir ayrılığın işarəsi kimi anılır. Çünki, zülfün üzə salınması pərişanlığın əlamətidi. Sevən qızlar pərişanlığı zülfün məhz üzə dağılması ilə həmahənglik təşkil edir. Göründüyü kimi, bayatını yaradan aşıq həm məhəbbət acısını içərisində yaşadır, həm də vətənin qorunub saxlanmasında iştirak edir. Məşuqəsini də qürbətdən tez qayıtmağa səsləyir. Deməli, burada həm də vətənin qorunması üçün bir çağırış da vardır.

Beləliklə, qeyd etməyi lazım bilirik ki, türkün tarixi onun şifahi ədəbiyyatında özünə daimi yer qazanmışdır. Xalqın məişəti, təsərrüfat fəaliyyəti, bayramları kimi, həyatında baş verən hər bir dəyişiklik mənfi və ya müsbət mənada folklorda əks olunmuşdur.

**Qaynaqlar**

1. Vətən dərdi. N.Məmmədov, Bakı, Nurlar, 2005, 240 s.
2. Bayatılar /tərtib edən və ön sözün müəllifi Vaqif Vəliyev. Bakı,Yazıçı, 1985, 199 s.
3. Azərbaycan Folkloru Antologiyası, XIX kitab. Zəngəzur folkloru/ toplayan, tərtib edənlər M. Kazımoğlu Ə. Əsgər, II cild, Bakı, Nurlar, 2009, 419 s.
4. Ordubad bölgəsində toplanmış bayatılar . Şəxsi arxivimizdən.
5. Azərbaycan Folkloru Antologiyası, V kitab. Qarabağ folkloru. Bakı, Nurlan, 2009. 416 s.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Nuridə Muxtarzadə,***
***AMEA Folklor İnstitutu, elmi işçi***
***nurideibay@gmail.com***

## ATALAR KULTU: OCAQLAR, PİRLƏR VƏ TÜRBƏLƏR

**Özət**

Məqalə qədim dövrdən günümüzə qədər xalqın inanc yeri olan ocaqlar, pirlər, ziyarət yerləri haqqında ümumi məlumatı əhatə edir. Bu yerlərin müqəddəsləşməsində insanların rolunun böyük olduğu vurğulanır.

**Açar şözlər**: pir, kult, ziyarət, inam

**Резюме**

В статье дается общий обзор сведений о поверьях, начиная с древних времен до наших дней, поклонению пирам - святым местам. Особо отмечается роль людей в обожествлении этих святых мест.

**Ключевые слова:** пир, культ, паломничество, поверье

**Summary**

The article deals about the common information about the prayer places of people such as holy places, sacred places, pilgrimages. It is especially mentioned that the role of people in idolizing these sacred places is very much.

**Key words:** holy places, cult, pilgrimage, prayer.

* * *

Kökü etibarı ilə atalar kultuna qədər gedib çıxan müqəddəs yerlər bütün zamanlarda insanların mənəvi rahatlıq tapdıqları, ruhi aləmləri ilə baş-başa qaldıqları ziyarət yerləri olmuşdur. Türklər fərqli dinlər qəbul etsələr də nə manixeizm, nə buddizm, nə xristianlıq, nə də İslam onların iç dünyasında var olan, milli kimliklərinin bir parçası halına gələn müqəddəs yerlərə ziyarətləri, qurban vermələri, dilək diləmələrin qarşısını ala bilmişdir. Bu gün 250 milyonluq türk dünyasının hər yerində atalar kultu ilə bağlı, ancaq funksiyasını, mənasını dəyişmiş ziyarət yerləri vardır. Müsəlman türklər bu əski müqəddəs yerlərlə bərabər, din böyükləri, övliya, şəhid məzarlarını da müqəddəsləşdirmiş, əski ilə yenini iç-içə yaşatmışlar.

Azərbaycanda əsasən ocaq və ya pir adı ilə bilinən yerlər müqəddəs olaraq xarakterizə edilir. Müqəddəslik əslində qədimdən bəri insanların hər hansı canlı və cansız bir şeyi ilahiləşdirməsidir ki, tapınılacaq və uğruna can veriləcək varlıqlar mənasına gəlir. Bu tərifi insanlara, bir qisim əşyaya, ya da bəzi heyvanlara sirli və fövqəladə xüsusiyyətlərin aid edilməsilə daha da inkişaf etdirmək olar. Müqəddəsliyin anlamına cəmiyyətin inanc sistemi istiqamət verir. Cəmiyyət



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

fərdlərin zehinində bəzi anlayışlar şəkillәndirir ki, bu anlayışlar da fövqəladə hadisələr içində sərgilənir. Tanrı qatında mənəvi cəhətdən ucaldılmış ruhi hal fövqəladə hadisələrlə müşahidə edilir ki, bunlar gerçəkdə Tanrı qüdrətinin göstəricisindən başqa bir şey deyildir. Tanrı qarşısında insanın acizliyi kutsiyyətin təbiətə, insana, kainata hökm etməsi məntiqini ortaya çıxarır.[8] Müqəddəslik statusu verilən bu canlı və ya cansız varlıqlar əslində tapınma obyektləri deyildirlər. Onlar artıq nə insan, nə daş, nə də bir ağacdır. Yalnız müqəddəs olanı açığa çıxardan obyektlərdir.[9] Bu obyektlər müəyyən bir keçmişi olan və hələ də varlığını davam etdirən ocaq və ziyarət yerlərinin təməlini meydana gətirir. Ocaq, pir, türbə, kümbət, təkkə və s. əslində ata-baba məzarı olub müxtəlif adlarla xatırlanan və əksəriyyətlə özlərinə seyid, vəli, övliya, ermiş, zahit, alim, sofu, ata, şəhid və s. kimi müxtəlif ad və sifətlər verilərək mənəvi güc və üstünlüklərinə inanılan insanların yatdıqları qəbul edilən bu yerlərə müəyyən ehtiyac, dilək, istək və muradlarla ziyarətlər edilir. Edilən ziyarətlər və bunların ətrafında yaranan bəzi inanc və tətbiqlər vardır ki, bunları öyrənmək xalq inanclarını, psixologiyasını, müqəddəslik anlayışını, sözlü kültürünü bilmək deməkdir.

Əhd edərək qurban vermək, ocaq və ziyarət yerləri ilə əlaqədar qarşımıza ən çox çıxan anlayışlardandır. **"Uşaq** sahibi olma, evlənmə, çətin bir vəziyyətdən xilas olma və s. məqsədlərə bağlı istəklərin yerinə yetirilməsi üçün uca varlıqlara, ermişlərə, məbədlərə, türbələrə, ziyarətlərə əhd edilən oruc, qurban, yemək, əşya" mənasını verən əhd, ziyarət yerlərinin başlıca funksiyalarından biridir. Əhd anlayışı ilə birlikdə "nəzir" sözündən də istifadə edilir. Nəzirin Azərbaycan türkcəsi birinə bir şeylər boyun olmaqdır. Onun ərəbcəsi əhddir. Nəzir "Uca Allaha hörmət üçün qadağan olmayan bir işin edilməsini üzərinə götürüb yüklənmək"dir. Nəzir fərzlərə girən bir ibadət və əmr olmadığı halda adamın dilək və duasının qəbul olması halında ibadətlərdən birini – oruc tutmaq, əlavə namaz qılmaq və s. etmək üçün Allaha söz vermək mənasını verir.[10] Nəzir hər hansı bir övliyaya bir şey həsr etməklə bir diləyin, istəyin reallaşması məqsədiylə qurban kəsib yoxsullara dağıtmaq və ya müqəddəsliyinə inanılan bir gücə hər hansı bir niyyətlə qurban demək mənasını da verir.

Xalq arasında müqəddəs yerlər kimi qəbul edilən bu ziyarətgahlar savab iş görmək,yaxşılıq etmək və ya ziyarət edilən şəxsə hörmət göstərmək məqsədi ilə gedilən yer mənasını verir. Burada istəklərin və diləklərin qəbul olması üçün dualar edilir. İslami mənada ən böyük ziyarət yeri Kəbə sayılırkən, xalqın həyatında əhəmiyyətli yer tutan din böyüklərinin məzar və türbələri də ziyarət yeri baxımından böyük əhəmiyyət kəsb edir. Bu məzarlar xalq içərisində gümbəz, pir, təkkə, türbə kimi adlarla xatırlanır. Əhəmiyyətli görülən bu yerlər yalnız məzar və ya türbə ilə

---

[8] Öztürk, İ., Sabır Kahramanı Eyyub Peygamber (a.s.). 6. Baskı. Elif Matbaası, Şanlıurfa, 2007
[9] Oymak, İ., Malatya ve Çevresinde Ziyaret ve Ziyaret Yerleri, Malatya, 2002
[10] Bilmen, Ö.N., Büyük İslam İlmihali. Diyanet Vakfı Yayınları, Ankara, 1996, s.302



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məhdud olmayıb bir təpə, ağac, quyu, məscid və ya bir çay da ola bilər. İnsanların düşdükləri çətin vəziyyətdən xilas olmaq, istək və diləklərini reallaşdırmaq məqsədiylə getdikləri bu yer və məqamlara ziyarətgah və ya əhd yeri də deyirlər. O baxımdan ziyarət yeri daha geniş məfhum olub sadəcə insanlarla əlaqəli deyil, həm də əskidən bəri atalar kultu, oba kultu aspektindən daş parçası, qaya, tənha ağaç, dağ, mağara, şəfalı sular və s. ola bilər. Ümumi mənada ziyarət yeri anlayışı, ocaq, pir, türbə və s. də bildirir. Əslində bütün ziyarətlərin təməl fəlsəfəsi insanların ya olmayan bir şeyi istəmək, ya da var olanı qorumaq məqsədi güdür. O baxımdan İslami dəyərlər sahəsinə alınmış daha öncədən qalma yerlər də eyni sintaqmatik səviyyədə funksionallaşır.

Müqəddəslik statusu ilə yüklənmiş bu varlıqlar, canlı və ya cansız olsun tapınma obyektləri deyillər. Onlar artıq nə insan, nə daş, nə də bir ağacdır. Bunlar yalnız müqəddəs varlıq statusu qazanmış obyektlərdir. Bu obyektlər müəyyən bir keçmişi olan və hələ də varlığını davam etdirən ziyarət yerlərinin təməlini meydana gətirir. Məzar, türbə, kümbət, təkkə, pir kimi müxtəlif adlarla adlandırılan və əksəriyyətlə vəli, övliya, ərmiş, ərən, zahid, alim, sofu, baba, şəhid və s. insanların yatdıqları yer və ya məqam kimi tanınan və ziyarət edilməsi mənəvi ehtiyac halına gələn bu yerlər kökü baxımından atalar kultu ilə bağlıdır. Mənəvi güc və üstünlüklərinə inanılan bu insanların yatdıqları qəbul edilən yerlərə müəyyən ehtiyac, dilək, istək və muradlarla İslamiyyətdən əvvəl ziyarət edildiyi kimi müsəlman olduqdan sonra da eyni məqsədlə ziyarət edilmişdir. Edilən ziyarətlər və bunların ətrafında yaranan bəzi inanc və dini rituallar vardır ki, bunların da kökü şamanlıq dönəminə gedib çıxır.

Fövqəltəbii gücü olduğuna və insanlara kömək etdiyinə inanılan birinin məzarı zamanla sakrallaşdırıldığı, seçildiyi üçün bu məzarlara el arasında türbə deyirlər. Əslində bu məzarların üstündə ucaldılan qübbəvari abidə türbələrin başqa müsəlman məzarlarından fərqlənməsinə və istər-istəməz ilk baxışdan bu məzarın (daha doğrusu, məzarda yatanın) müqəddəsliyinə insanları inandırmışdır. Türbələr də insanların dilək diləmək üçün, ya da hər hansı bir xəstəliyə şəfa tapmaq üçün getdikləri yerlərdəndir. Azərbaycanda məşhur bir adamın (bu kəramət sahibi övliya, din, iman, namus, vətən yolunda şəhid olan birinin məzarı ola bilər) üstündə tikilən abidəyə də türbə deyilir. Hətta türbə dedikdə daha çox bu sonuncu başa düşülür. Türbədə yatanların bir zamanlar kəramət göstərmiş övliya olduğu onun daha çox ziyarət olunmasına səbəb olur. Ocağa, pirə hansı məqsədlə gedilirsə, türbələrə də eyni məqsədlə gedilir. Ancaq bir şair, bir hökmdar və ya hökmdar xanımı üçün də türbə tikdirilir ki, bu halda o yerlərə dilək diləmək, şəfa istəmək üçün gedilməz. Ona görə də biz xalq arasında ziyarət edilən, müqəddəslik statusu ilə seçilən türbələri nəzərdə tutmuşuq.

Bu müqəddəs yerlər İslamiyyətdən əvvəlki atalar kultu, şamanlıq inancı, qədim dinlər və dini sistemlərin İslam mədəniyyəti içində yeni bir status qazanması və varlığını sürdürməsidir. Müqəddəslik tapınılacaq və uğruna can veriləcək qədər


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kutsanmış yerlər kimi xarakterizə edilir. Bu vəziyyət bəzi əşyalara, ya da bəzi heyvanlara sirli və fövqəladə xüsusiyyətlərin aid edilməsilə daha da inkişaf edir. Bu yerlərin kutsanmasına cəmiyyətin inanc sistemi istiqamət verir. Cəmiyyət zehnində bəzi anlayışları şəkilləndirir, bu anlayışlar da fövqəladə hadisələr içində sərgilənir. Tanrı qatında mənəvi baxımdan ucalmış ruh halı bu fövqəladə hadisələrlə ifadə edilir ki, bunlar həqiqətdə Tanrı qüdrətinin göstəricisindən başqa bir şey deyildir. Tanrı qarşısında insanın acizliyi bunun əksinə müqəddəs hesab edilən ərənin və ya övliyanın təbiətə, insana, kainata hökm etməsi məntiqini ortaya çıxarır.

**Qaynaqlar**

1. Öztürk, İ., Sabır Kahramanı Eyyub Peygamber (a.s.). 6. Baskı. Elif Matbaası, Şanlıurfa, 2007,

2. Oymak, İ., Malatya ve Çevresinde Ziyaret ve Ziyaret Yerleri, Malatya, 2002,

3. Bilmen, Ö.N., Büyük İslam İlmihali. Diyanet Vakfı Yayınları, Ankara, 1996, s.302,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Pərinaz Sadıqlı,***
***AMEA Arxeologiya və Etnoqrafiya***
***İnstitutunun doktorantı***
***pərinaz-sadiqli@rambler.ru***

# MAHMUD KAŞĞARİNİN "DİVANÜ LÜĞAT-İT-TÜRK" ƏSƏRİNDƏKİ ATALAR SÖZLƏRİ TARİXİ QAYNAQ KİMİ

**Özət**

Hər bir atalar sözü müəyyən tarixi dövrdə yaranmış və həmin tarixi dövrün izlərini qoruyub saxlamışdır.

Məqalədə Mahmud Kaşgari "Divan"ındakı atalar sözü və məsəllərdən tarixi qaynaq kimi istifadə edilmiş, onların əsasında türklərin çox qədimdən ovçuluq, qoyunçuluq, maldarlıq və əkinçiliklə məşğul olduqları haqqında fikirlər söylənmişdir.

**Açar sözlər:** M.Kaşgari, "Divan", atalar sözü, tarix, qaynaq

**Резюме**

Каждая пословица была создана в конкретном историческом периоде и отражает следы того же исторического периода. В данной статье пословицы и поговорки собранные в «Диване» Махмуда Кашгари использованы в качестве исторического источника, на их основе высказаны мысли о том, что тюркский народ занимался с очень давних времен охотой, овцеводством, скотоводством и земледелием.

**Ключевые слова:** М.Кашгари, «Диван», пословицы, история, источник

**Summary**

Each proverb was created in definite time and kept the same time traces. In this article proverbs and sayings in "Divan" by M.Kashgari were used as historical source, on the basis of them it was told that from ancient times Turks were engaged in hunting, sheep-breeding, cattle-breeding, husbandry.

**Key words:** M.Kashgari, "Divan", proverb, history, source.

* * *

Hər bir atalar sözü müəyyən tarixi dövrdə və konkret etno-mədəni mühitdə yaranmişdir. Ona görə də hər bir atalar sözündə onun yarandığı tarixi dövrün və mühitin, eyni zamanda onları yaradan xalqın etnopoetik təfəkkürünün, həyat tərzinin, təsərrüfat fəaliyyətinin, milli xarakterinin aydın izləri öz ifadəsini tapmışdır. Bu baxımdan atalar sözləri etibarlı tarixi qaynaq sayıla bilər. Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsərindəki atalar sözləri tarixi qaynaq kimi heç vaxt tədqiqat obyekti olmamışdır. Halbuki "Divan"da türk həyat və fəaliyyətinin bütün sahələrinə aid atalar sözlərinə rast gəlinir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Türklərin təsərrüfat fəaliyyəti çoxsahəli olmuşdur. Ovçuluq, heyvandarlıq və əkinçilik onların məşğul olduqları əsas təsərrüfat sahələridir. Ov heyvanlarının ətindən ərzaq, dərisindən geyim məqsədilə istifadə etmişlər. Ev heyvanlarının ətini, südünü, yağını yemiş, dərisindən geyim hazırlamışlar. Deməli, türk xalqının həyatında süd, ət, yun və dəri mühüm yer tutmuşdur. Bunların da hamısı heyvan mənşəli məhsullardır. Bu məhsullar iki yolla əldə edilmişdir: 1) ovçuluq yolu ilə; 2) heyvan saxlamaq yolu ilə. Bunların hər ikisi türklərin təsərrüfat fəaliyyətinin əsasında durur. Türklər min illər boyu hər iki təsərrüfat sahəsi ilə məşğul olmuş, onların hər birinə aid zəngin təcrübə toplamışlar. Türklərin təsərrüfat fəaliyyətləri zamanı qazandıqları təcrübələrin ümumiləşdirilmiş nəticəsini əks etdirən çoxlu atalar sözü və məsəllər var. Onların bir qismi M. Kaşğari "Divan"ında yazıya alınmışdır. "Divan"dakı bu qəbildən olan atalar sözü və məsəlləri təsərrüfat fəaliyyətinin növlərinə əsasən aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

**1. Ovçuluq:** Tarixi qaynaqlardan və arxeoloji qazıntılar zamanı tapılmış maddi mədəniyyət nümunələrindən aydın görünür ki, türklərin əmək və təsərrüfat fəaliyyətində ovçuluq mühüm yer tutmuşdur. Ovçuluq fəaliyyətində qazanılmış təcrübələrlə sınaqdan çıxaraq yaradılmış atalar sözü və məsəllərə "Divan"da da rast gəlinir. Məsələn: "bir tilkü tərisin ikilə saymas- bir tülkünün dərisi iki dəfə soyulmaz"(1,s.230). Bu atalar sözünün ovçuluq təcrübəsi nəticəsində yarandığı şübhəsizdir. Onu dönə-dönə təcrübədən keçirmişlər ki,bir tülkünü yalnız bir dəfə soymaq olar, çünki onun bircə dərisi var. "Divan"da həmin atalar sözünə belə izah verilmişdir: "Bu söz bir adamdan yaxşılıq görərək ikinci dəfə yenə yaxşılıq istəyən şəxsə deyilir". Lakin hazırda onun mənası daha genişdir və ona görə də müxtəlif məqamlarda işlənir. Bir tülkünün iki dərisi olmadığı kimi elə işlər də var ki, onun mümkünlüyü real deyildir.

"Divan" da rast gəlinən "kuş tuzakka mənq üçün ılınur- quş tələyə yem üzündən düşər"(2,s.312) atalar sözü də ovçuluqla bağlı deyilmişdir. Türklər quş ovlamaq üçün tələ qurur, ora da yem qoyurlarmış. Quşlar yemə gəlir və tələyə düşürmüş. Bu təcrübənin nəticəsi yuxarıdakı atalar sözü şəklində ümimiləşdirilmişdir. Hazırda onu ruzi axtararkən fənalığa düşən adam barədə deyirlər. "Divan"da işlənmiş "sıçratduğun korkmış kuş kırk yıl adhrı yığac üzə konmas- tələdən qorxan quş qırx il haça ağac üstünə qonmaz"(3,s.318). atalar sözü də ovçuluq təcrübəsinin ümumiləşmiş nəticəsidir. İnsanlar uzun müddətli təcrübələr nəticəsində tələdən qorxmuş quşun haça ağaca qonmadığını müşahidə etmiş və bu atalar sözünü söyləmişlər.

**2. Qoyunçuluq:** Türklər qədim dövrlərdən başlayaraq qoyunçuluqla məşğul olmuşlar. Ona görə də türk xalq yaradıcılığında qoyun və qoyunçuluqla bağlı saysız-hesabsız nümunələr var. Onların arasında atalar sözü və məsəllər, sayaçı sözləri və s. xüsusi yer tutur. Türklər atalar sözlərində obyekt kimi yalnız öz təsərrüfatlarında saxladıqları heyvanları seçmişlər, çünki onların bütün həyat təcrübələri həmin heyvanlarla bagğlı olmuşdur. "Divan"dakı bir atalar sözündə deyilir: "təvəy münüp



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

koy ara yaşmas-dəvəyə minməklə qoyunlar arasında gizlənmək olmaz" (1,s.60). Bu atalar sözündə dəvə və qoyunun müqayisə üçün seçilməsi qətiyyən təsadüfi olmayıb, birbaşa türk xalqının təsərrüfat fəaliyyəti ilə bağlıdır. Atalar sözündə dəvənin böyüklüyü ilə qoyunun kiçikliyi qarşılaşdırılmış, fikrin "dəvəni minməklə" şəklində ifadə edilməsi nəticəsində gizlənməklə bağlı ziddiyyət bir qədər də gücləndirilmişdir. Dəvənin özünü qoyunlar arasında gizlətmək mümkün deyilsə, üstəlik onu minən adamın gizlədilməyindən heç söhbət gedə bilməz. Qoyunçulqla məşğul olan türklər dəvədən və atdan da istifadə etmişlər. Onlar dəvəni minərək qoyun otarmış, onu qoyunlar arasında gizlətməyin mümkün olmadığını öz təcrübələrində, gündəlik həyatlarında dönə-dönə gürmüş, atalar sözündə bu təcrübənin nəticəsini ümumiləşdirmişlər. Türklərin həyat tərzindən çıxış edərək demək olar ki, bu atlar sözündə dəvə və qoyunun obyekt kimi seçilməsi qanuna-uyğun haldır. Azərbaycanda çox geniş yayılmış və tez- tez işlənən bir atalar sözü var: "İki qoçun başı bir qazanda qaynamaz". Bu atalar sözü "Divan"da olduğu kimi işlənmişdir: "iki koçunqar başı bir aşaçta pişmas- iki qoçun başı bir qazanda qaynamaz" (1,s.330). Qoyun saxlayan adamlar bir sürüdə iki vurağan qoçun yola getmədiyini görüb bu atalar sözünü yaratmışlar. Hazırda atalar sözü daha geniş mənada işlənir. Bunu "Divan"da verilmiş izahdan da görmək olur: "Bu söz bir yerə yığışan, ancaq birinin olması gərəkən iki başbuğ və ya iki bəy haqqında söylənir".

**3. Maldarlıq:** Maldarlıq da türklərin təsərrüfat fəaliyyətində mühüm yer tutmuşdur. Bunu "Divan"dakı bir çox atalar söxü də aydın göstərir. Məsələn: "Süsəgən udhka tənqri münqüz berməz – vurağan öküzə tanrı buynuz verməz" (1,s.316). Bu atlar sözü də uzun bir təcrübənin nəticəsi olaraq yaranmışdır. Yəqin ki, vurağan öküzün buynuzu olsaydı,çox ziyanlıqlar törədərdi. Hazırda bu söz bir işi çox istəyən, lakin onu bacarmayan adam üçün deyilir. Əgər həmin adam o işi bacarsaydı, xalqa daha çox ziyan vurardı.

"Divan"da öküzlə bağlı ikinci atalar sözü də var: "karı öküz balduka korkmas- qoca öküz baltadan qorxmaz" (1,s.365). Bu atalar sözünün yaranmasının bir neçə səbəbi ola bilər. Sözsüz ki, onların hamısı balta ilə bağlıdır, çünki atalar sözlərində obyektlər təsadüfən seçilmir. Ola bilsin ki, həmin öküz həmişə odun arabasına qoşulmuş, balta səsinə öyrəşmişdir. Onu baltayla qorxutmaq olmaz. "Divan"da verilən şərh də buna uyğun gəlir: "Bu söz alışdığı şeylə qorxudulmaq istənən adam üçün söylənilir, çünki o şəxs qoca öküz baltaya alışdığı ki, qotxudulan nəsnəyə alışmışdır". "Kişi sözləşü, yılkı yıdhlaşu- insan söyləşərək, heyvan qoxlaşaraq" (2,s.114) atalar sözündə də predmet kimi heyvandan istifadə edilmişdir. Atalar sözünün mənası budur ki, insanlar bir-birləri ilə söhbətləşərək, danışaraq tanış olurlar. Heyvanların isə olmadığına görə, onlar bir-birini iyləməklə, qoxlamaqla tanıyırlar. Təcrübədə şahidi olmuşuq ki, bir-birini ilk dəfə görən heyvanlar doğrudan da iyləşirlər. Onlar əslində bu yolla bir-birilərinin xasiyyətlərini öyrənirlər. Deməli, bu atalar sözü də heyvanların davranışı ilə bağlı uzun illərin təcrübəsi əsasında yaranmışdır.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**4. Dəvəçilik:** Dəvə də türk xalqının təsərrüfatında mühüm əhəmiyyəti olan heyvanlardan biridir. Ondan həm yük və nəqliyyat vasitəsi kimi istifadə edilmiş, həm də əti və südü yeyilmişdir. Bundan başqa, dəvənin dərisindən və yunundan müxtəlif geyimlər, məişət əşyaları və s. hazırlanmışdır.

M.Kaşğarinin "Divan"ında dəvə ilə bağlı yazıya alınmış atalar sözlərindən biri qoyunçuluqdan danışılarkən nümunə verilmişdir. "Divan"da dəvənin obyekt kimi seçildiyi ikinci atalar sözü belədir: "təwi yük kötürsə, kaməç yəmə kötürür- dəvə yük götürsə, çümçəni də bərabər götürər" (3.s.111). Bu atalar sözündə birinci növbədə, dəvənin türk xalqının təsərrüfatında tutduğu yer öz əksini tapmışdır. İkincisi, dəvə ilə bağlı bir təcrübə ümumiləşdirilmişdir.

**Əkinçilik:** Türklərin təsərrüfat fəaliyyətində heyvandarlıqla əkinçilik paralel inkişaf etdirilmişdir. Əkinçilik oturaq həyatla bağlı ən qədim təsərrüfat sahələrindən biridir. Aparılmış arxeoloji qazıntılar nəticəsində tapılmış maddi mədəniyyət nümunələri Azərbaycanda əkinçiliyin çox qədim tarixi olduğunu göstərir. Akademik Teymur Bünyadov yazır ki, "Azərbaycanda ən qədim və aparıcı təsərrüfat sahəsi taxılçılıq olmuşdur"(4.s.9). M.Kaşğarinin "Divan"ında da əkinçiliyə aid bir neçə atalar sözü qeydə alınmışdır. Onlardan biri şərti şumda kəsməklə bağlı olub, aşağıdakı şəkildədir: "Sabanda sandırış bolsa, örtkündə irtəş bolmas- cüt zamanı hay-küy olsa, vəl zamanı dava-dalaş olmaz" (2,s.400). Bu atalar sözü hazırda Azərbaycanda mənasını olduğu kimi saxlamışdır və "şərti şumda kəsək, xırmanda yavalaşmayaq" şəklində işlənir. Həm M.Kaşğari "Divan"ına düşməyi, həm də Azərbaycanın bütün bölgələrində işlənməyi bu atalar sözünün tarixinin çox qədim olduğunu göstərir. Bilmək lazımdır ki, atalar sözlərinin yaranması və yaşamaq hüququ qazanması üçün min illərlə vaxt tələb olunur, çünki onlarda ümumiləşdirilən fikir, hökm uzun müddətli təcrübələrlə sınaqdan keçərək təsdiqini tapmalıdır. Yuxarıdakı atalar sözündə ifadə olunan fikrin hökmləşməsi üçün bəlkə də neçə-neçə nəsillərin ömrünə bərabər olan zaman sınaqlarına, şəxsi müşahidələrə ehtiyac olmuşdur. Bəlkə də şərti şumda düzgün kəsməyən əkinçilər arasında xırmanda yüz illər, min illər boyu dava-dalaş baş vermiş, nəhayət onun nəticəsi kimi bu atalar sözü yaranmışdır. Dəyirman dən üyütmək üçündür, harda dəyirman varsa, orda taxılçılıq olmuşdur. M.Kaşğari "Divan"ında dəyirman haqqında iki atalar sözü var. Onun biri dəyirmanın harda tikilməsi haqqındadır. Sözsüz ki, burada söhbət su dəyirmanından gedir. Su dəyirmanları isə adətən çayların kənarında tikilir və çay suyu ilə işləyir. Ona görə dəyirman tikilməsi üçün yerin düzgün seçilməsi mühüm şərtdir. M.Kaşğari "Divan"ındakı bir atalar sözündə deyilir: "təngsizdə təgirmən turğursa, yarağsızda yar berir- biri yaraşmayan yerdə dəyirman tiksə, gözlənilmədən yarıq peyda olar" (2,s.309).

Dəyirman haqqındakı ikinci atalar sözündə dəyirmanda doğulmuş siçanın göy gurultusundan qorxmadığı öz ifadəsini tapmışdır: "təgirməndə toğmış sıçğan kök kökrəgində korkmas- dəyirmanda doğulmuş siçan göy gurultusundan qorxmaz" (2,s.257). "Divan"da bu atalar sözü belə izah edilir: "Bu söz təhlükəli işlərdə bişmiş



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

adamı kiçik bir şeylə qorxutmaq istəyəndə söylənir". Doğrudan da, dəyirmanda doğulub pərləri fırladan suyun şırıltısına, çax-çaxın çaqqıltısına, daşların uğultusuna öyrəşmiş siçan göy gurultusundan qorxmaz. Dəyirman haqqındakı hər iki atalar sözü uzun təcrübə və müşahidələrin nəticəsində yaranmışdır.

Əkinçilik ilin necə gəlməyindən, fəsillərin xarakterindən çox asılıdır. Daha doğrusu, əkinçi bir növ təbiətdən asılıdır. Ona görə də əkinçiliklə bağlı bir sıra atalar sözlərində fəsillərin xarakteri əsas götürülmüşdür. "Divan"dakı bir atalar sözündə deyilir:" yazın katığlansa, kışın səwnür- yayda çalışan qışda sevinər" (2,s.159). Hər işi öz vaxtında görmək, bu günün işini sabaha qoymamaq düşüncəsi bu atalar sözündə öz ifadəsini tapmışdır. Xüsusilə əkinçilikdə hər işin öz vaxtı var. Şumu, səpini, becərməni və s.oz vaxtında aparmayanda məhsul olmur. Əkinçi isə qışın bütün azuqəsini yayda yığır. Ona görə atalar sözündə deyilir ki, "yayda çalışan qışda sevinər". Bu o deməkdir ki, yayda hər işini öz vaxtında görüb, yaxşı məhsul yığan əkinçi qışda dərd-qəm çəkməz.

Fəsillər haqqında digər atalar sözündə yazın və payızın bir-biri ilə bağlılığına işarə edilmişdir. Onun mətni belədir: "küz kəligi yayın bəlgülüg-payızın gəlişi yazdan bəllidir" (2,s.160). "Divan"da həmin atalar sözünə bu cür açıqlama verilmişdir: "Bu söz sonu əvvəlcədən bəlli olan iş barədə deyilir". Bu,atalar sözünün işlənmə diapazonunun genişliyi, qeyri-məhdudluğu aspektindən doğru izahdır. Lakin konkret fəsillərin bir-biri ilə bağlılığı, əlaqəsi baxımından burada iki məsələni də qeyd etmək lazımdır: 1). El arasında belə bir inam var ki, Novruz bayramından sonrakı hər gün bir fəslin necə olacağını bildirir. Əgər Novruz bayarmı martın 21-də girirsə, martın 22-si yayın, 23-ü payızın və 24-ü qışın necə keçəcəyini göstərir. "Payızın gəlişi yazdan bəlli olar" atalar sözündə məhz buna işarə edilmişdir; 2). Xalq arasında belə bir inam da var ki, qış sərt keçəndə yay yaxşı, yay pis keçəndə qış yumşaq olur. Yazla payız da bu cür qarşılaşdırılır və payızın gəlişi əslində yazda bilinir. "Divan"dakı atalar sözlərində türk milli xarakterinin təcəssümü geniş yer tutur və böyük maraq doğurur. Həm də bu mətnlər etnoqrafik və tarixi aspektlərdən tədqiq edilməmişdir. Onlardan ikisini nəzərdən keçirək:

"Divan"dakı bir atalar sözündə deyilir: "böri koşnısın yeməs- qurd öz qonşusunu yeməz" (2,s.209). Bu atalar sözündə obyekt kimi qurdun seçilməsi qətiyyən təsadüfi deyil. Qurdun bir çox xarakterik xüsusiyyətləri türk milli xarakteri ilə üst-üstə düşür. Ona görə də atalar sözündə türk xalqının qonşuluq münasibətləri ustalıqla qurdun üzərinə köçürülmüşdür.

Türklərin həyatında müharibələrlə müşayiət olunan dövrlər az deyil. Bu heç də türklərin müharibəyə meylli olduğlarını göstərmir. Türklər dinc yaşamağı, barış içində yaşamağı daha üstün tutmuşlar. Müharibələrin baş verməsinə əksər hallarda düşmən tərəfi səbəb olmuşdur. Türk epik təfəkkürünün yaratdığı əsərlərdə də bunu aydın görürük. Məsələn, "Koroğlu" dastanının bir çox qollarında belə ifadələrə rast gəlirik: "Gəl sənə söyləyim, ay Dəli Həsən, And içmişəm, bu gün döyüş olmasın" (5,s.36); "Koroğlu baxdı ki, iş davasız keçməyəcək" (5,s.37); "Ərəb Reyhan! Mən



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Koroğluyam. Mən xotkarlardan, vəzirlərdən, gizirlərdən qorxmuram. Onda ki, olasan sən. Ancaq mənim sənin bu adamlarına yazığım gəlir. Onları nahaq yerə qırdırıb qanlarına bais olma" (5,s.134); "Tanrıtanımaz! Bax deyirəm. Məbada, məbada Rumda dava-zad eləyəsiz" (5,s.226). Bu misallardan aydın görünür ki, Koroğlu həmişə davadan qaçmış, işi mümkün qədər davasız yoluna qoymağa çalışmışdır. Dava isə əksər hallarda Koroğlunun yox, qarşı tərəfin təkidi və günahı üzündən baş vermişdir. "Divan"da rast gəlinən bir atalar sözündə türklərin bu xarakterik cəhəti öz ifadəsini tapmışdır: "kanığ kan birlə yumas- qanı qanla yumazlar" (2,s.157). XI əsrdə yazıya alınmış bu atalar sözünün tarixinin daha qədim olduğu şübhəsizdir. Onun mənası "Koroğlu" dastanından gətirilmiş misallarla tam üst-üstə düşür.

Göründüyü kimi, M.Kaşğarinin "Divan"ında yazıya alınmış atalar sözü və məsəllərin bir qismi daşıdığı etnoqrafik informasiyanın zənginliyi baxımından diqqəti xüsusilə cəlb edir və onların türk xalqının tarixinin, xüsusilə təsərrüfat fəaliyətinin öyrənilməsində böyük elmi əhəmiyyəti var. Bu atalar sözü və məsəllərdə türk xalqının təsərrüfat fəaliyyəti, onun çoxsahəliliyi, hər bir sahənin özünəməxsus xüsusiyyətləri uzun müddətli və zəngin təcrübələr nəticəsində sınaqlardan keçirilərək ümumiləşdirilmişdir. Ona görə də demək olar ki, M.Kaşğari "Divan"ında yazıya alınmış atalar sözü və məsəllər türk xalqının mənəvi və maddi mədəniyyət tarixini dərindən öyrənmək işində əvəzsiz nümunələrdir.

**Qaynaqlar**

1. Kaşğari Mahmud. Divanü Lüğat-it-türk (tərcümə edən və nəşrə hazırlayan Ramiz Əsgər). IV cilddə. III c. Bakı. 2006. 400 s.
2. Kaşğari Mahmud. Divanü Lüğat-it-türk (tərcümə edən və nəşrə hazırlayan Ramiz Əsgər). IV cilddə. I c. Bakı. 2006. 400 s.
3. Kaşğari Mahmud. Divanü Lüğat-it-türk (tərcümə edən və nəşrə hazırlayan Ramiz Əsgər). IV cilddə. II c. Bakı. 2006. 400 s.
4. Bünyadov Teymur. Ön söz // Azərbaycan etnoqrafiyası.3 cilddə. İİ c. Bakı.2007.s.5-12
5. Azərbaycan dastanları. V cilddə. IV c. "Koroğlu" dastanı (Tərtib edəni M.H.Təhmasib). Bakı. 1969. 508 s.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Qara Namazov, f.e.d., prof.***
***Bakı Dövlət Universiteti***

# KOROĞLU VƏ GİZİROĞLU MUSTAFA BƏY

**Özət**

Koroğlu və "Koroğlu" dastanı haqqında geniş və ətraflı araşdırmalar aparılmışdır. Burada Koroğlu və Giziroğlu Mustafa bəy haqqında söhbət açılır. Xalq yaradıcılığında onlar haqqında tarixi rəvayətlər çoxdur. Dastanda təsvir olunan Koroğlu və Giziroğlu Mustafa bəyin tarixi şəxsiyyətlər olduqları barədə fikirlər mövcuddur. Bu fikirlər tarixi faktlara da söykənir.

**Açar sözlər:** dastan, araşdırma, tarix, fakt

**Resume**

About Koroglu and the epos "Koroglu" epos wide and comprehensive investigations have been carried. In the article it is talked about Koroglu and Giziroghlu Mustafa bey. There are many historical legends about them in the folk art. There are thoughts about Koroglu and Giziroglu Mustafa bey who were described in the epos as historical personality. These thoughts lean against historical facts.

**Key words:** epos, investigation, history, fact.

**Резюме**

Об эпосе «Короглы» и Короглы были проведены обширные исследования. Здесь идет речь об Короглы и Кизироглы Мустафа бей. В устных произведениях сохранились исторические рассказы о них. Эти мнения связаны с историческими фактами.

**Ключевые слова:** эпос, исследование, история, факт.

* * *

Bəllidir ki, Koroğlu və "Koroğlu" dastanı haqqında geniş və ətraflı araşdırmalar aparılmış, dastan dəfələrlə çap olunmuş, türk dünyasının bütün xalqlarının hər birində xalqın öz ruhuna uyğun "Koroğlu"su yaranmışdır. Qaynaqlardan bəlli olur ki, Koroğlu bir şəxsiyyət kimi III Sultan Muradın zamanında 1574-1585-ci illərdə yaşayıb, daha çox Bolu ətrafında fəaliyyət göstərmişdir. Koroğlunun doğulduğu Bolu elinin Aşağı Sayık kəndində evi indi də durur. Bələdiyyə arxivindən Koroğlunun kəndi və evi haqqında sənəd əldə etmiş, hətta evin divarına lövhə də vurmuşlar. Kəndin yuxarı başında Hümmət dədənin türbəsi vardır. Kənd Dörddivan elinin 3 km.-liyindədir.

Koroğlunu bəzən Cəlalilər hərəkatı ilə də bağlayırlar. Bu da təbiidir. Çünki imperiyanın daxilində müxtəlif etnosların baş qaldırması istər-istəməz ölkədən və



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ayrı-ayrı yerli idarəçilikdən narazı qalan kəndlilər, onların içərisində yetişən igid, cəsarətli oğullar meydana çıxıb xalq hərəkatına rəvac verirlər. Rəvayətlərə görə, Alı kişinin gözlərini Bolu bəy (bizim "Koroğlu"da Hasan paşa) çıxartdırmış, oğlu Rövşən də dağlara çəkilib, özünə dəstə düzəldib atasının intiqamını almışdır. Əlbəttə, Koroğlu da hər hansı planlı şəkildə, proqramla və ya ideya məqsədi ilə mübarizə aparmamışdır. Koroğlu sadəcə atasının intiqamını aldıqdan sonra yerli paşaların, bəylərin ədalətsizliyini görüb dözə bilməmiş, intiqam almışdır. Koroğlu Cəlalilər hərəkatında iştirak etsə də, bu hərəkatın nə məqsəd və məramından xəbəri olmuş, nə də uzun illər davam edən bu hərəkatın iştirakçısı olmuşdur. Xalq onun qeyri-adi, bənzərsiz igidliyini görüb tərənnüm etmiş, dönə-dönə tərifləyib zaman-zaman türk dünyasına yaymışlar. Zəngin mündəricəli bu şeirlər əsasında sonralar yaranan dastanların məzmununda yaşanmış, yayılmışdır. Qeyd edək ki, Cəlalilər hərəkatı Koroğludan çox-çox əvvəl Orta Asiyada törəmiş dini bir təriqət kimi Osmanlı dövlətinin içərisində yuva qurmuş, dövlət əleyhinə yönəldilmişdir. Koroğlunun Cəlalilərlə adı çəkilsə də, bu hərəkatın bilavasitə iştirakçısı olmamışdır.

Əlbəttə, hər hansı bir tarixi hadisə və qəhrəmanlıq zaman keçdikcə əfsanələşir, dastanlaşır və həqiqətdən xeyli uzaqlaşır. XVI yüzil hadisələrində adı hallanan Koroğlu bir neçə yüzil sonra əfsanəvi qəhrəmana, şairə, qalalar tikən memara, 7777 dəlisi olan əzəmi yenilməz bir xalq qəhrəmanı, sərkərdəyə çevrilmişdir.

Giziroğlu Mustafa bəyə gəldikdə isə bizim "Koroğlu" dastanımızın ancaq "Durna teli" səfərində o, bir epizod kimi iştirak edir. Koroğlu dəlilərinin (Eyvaz, Dəmirçioğlu, Bəlli Əhməd) Hasan paşa tərəfindən dara çəkildiyi məqamda Giziroğlu Mustafa bəy olayın necə qurtaracağını gözləyir və düşünür ki, əgər Koroğlu özünü yetirməsə, gərək mən dəliləri xilas edim, Koroğlu ilə ədavətim qalsın sonraya. Koroğlu, əlbəttə, dəstəsilə gəlib dəliləri xilas edir. Giziroğlu ancaq şeşpər atır. Koroğlu şeşpərdən Giziroğlunu tanıyır. Və yolda Giziroğlu fürsət tapıb qəfildən Koroğlunu vurub Qıratdan çaya salır. Beləcə, ayrılırlar. Koroğlu Çənlibeldə məclis qurur. Nigarın "- Koroğlu, heç sənin bir igid qarşısında yenildiyin olubmu?"sualına Koroğlu "Giziroğlu Mustafa bəy" türküsünü oxuyur. Bu məqamda pusquda duran Giziroğlu çıxıb Koroğlunu qucaqlayır və əbədi dost olurlar. Vəssalam. Bundan başqa Giziroğlu Mustafa bəy haqqında heç bir məlumata rast gəlmirik. Türk qaynaqlarında Giziroğlu Mustafa bəyin kimliyi haqqında müəyyən məlumata rast gəlirik. Bu da bizim "Koroğlu"muzdakı həmən olayın başqa, bir qədər fərqli iki variantıdır. Ancaq burada daha maraqlısı odur ki, Giziroğlunun doğulduğu, yaşadığı yurd və soyu bəllidir. Giziroğlu Mustafa bəy Kars bölgəsinin Kısır kəndində Gizirin ailəsində doğulub. Gizir III Sultan Muradın zamanında həmin kəndin muxtarı vəzifəsini daşımışdır. Atası dünyasını dəyişdikdən sonra Mustafa Kısır və ona yaxın olan ətraf kəndləri və dağları idarə etmişdir. Uşaqlıqdan Kars dağlarında boya-başa çatan gənc Mustafa Alapaça atı ilə ovçuluq etmiş, günlərini dağlarda keçirmiş, cəngavər, yenilməz ir qəhrəman kimi yetişmişdir. Doğulduğu bölgənin kəndlərini incitməyə kimsəyə imkan verməmiş, onların əmin-amanlığını qorumuş, elin hörmət



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

və nüfuzunu qazanmışdır. Kars bölgələrində sonralar Giziroğlu Mustafa bəy haqqında çeşid-çeşid rəvayətlər yaranmışdır. Bu rəvayətlərin ikisi də Giziroğlu ilə Koroğlu arasında baş vermişdir. Bu rəvayətləri ozanlar həm də dastanlaşdırıb el arasında yaymışlar.

Rəvayətin birində deyilir: Koroğlu Bolu ətrafında yaşasa da, bəzən uzaq ölkələrə də səfərlər edər, Anadolunun bütün bölgələrini gəzər, haqsızlığa, ədalətsizliyə qarşı savaşlar da edər. Bir zaman gəlib Karsın Kısır dağlarında məskən salır, ev tikib Nigar xanımla burada yaşayır. Bundan xəbər tutan Gizir "Biz Osmanlıya sadiq bir təbəəyik. Bu yerlərə qaçaq, quldur buraxmarıq" deyib, ətrafa nəzarətçi qoyur. Koroğlu da eşitdiklərinə əhəmiyyət verməyib "Bolu bəyi cana doydurmuşam, indi adsız-sansız bir gizirdənmi çəkinəcəm?" - deyib xəbər göndərir. Gizir dünya görmüş, ağıllı bir adamdır, ancaq oğlu Mustafa söz götürməz, ipə-sapa gəlməz gəncdir. O, Koroğluya meydan oxuyur, bu ərəfədə ara sözləri, fitnə-fəsadlar işini görür. Koroğlu ilə Giziroğlu Mustafa bəy qarşılaşmalı olurlar. Aralarında uzun bir döyüş başlayır, gah Koroğlu, gah da Mustafa bəy yenər, Qıratla Alapaça da bir-biri ilə qapışır. Koroğlu bir neçə yerindən yaralanır və təslim olur. Mustafa bəy onu qoltuğuna alıb bulaq başına aparır, yaralarını yuyub təmizləyir, bərabər abdəst alırlar, birlikdə namaza dururlar... Sonra Mustafa bəy bir kağız çıxarıb Koroğluya uzadır: "- Bundan belə asayişi pozmayacağam, dövlətə qarşı baş aparmayacam. Sultana sadiq qalacağam. Əgər əmr edilərsə, zalımlara, kafirlərə qarşı vəzifəm kimi vuruşacağam" sözü yazılmışdır. Koroğlu heç düşünmədən kağızın üzərinə öz möhürünü vurur. Bundan sonra bir-birilərinə qardaş kimi sarmaşıb ağlayırlar. Giziroğlu Alapaçaya minib kəndinə dönür. Atalar gözəl deyib: "İgid basdığını kəsməz". Koroğlu Giziroğlu Mustafa bəy kimi əsl igidə basılsa da, onu bağrına basıb qardaş kimi qucaqlaşması qaynaqda deyildiyi kimi, belə kişilik və qəhrəmanlıq Anadolu türklərinə xas olan özəllikdir.

Koroğlu "ömür gəldi, keçdi, nə qazandın?" - deyib düşünər. Bu zaman Nigar xanım gözünü pəncərəyə dikib gözləyir, fikrə qərq olur, "yoxsa bir uşağamı yenildi?" - deyib sıxılır. Gecə vaxtı Koroğlu üzü-gözü yaralı gəlib çıxır. Nigar xanım qovğanı soruşduqda Koroğlu həmən məşhur "Giziroğlu Mustafa bəy" türküsünü söyləyir:

Analar oğul doğanda,
Giziroğlu Mustafa bəy.
Bu dünyaya tək gəlibdir
Giziroğlu Mustafa bəy.
Bir atı var Alapaça,
Aman vermir Qırat qaça,
Nizəsinin ucu haça
Gizir oğlu Mustafa bəy.

Hay deyəndə haya basar,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hoy deyəndə hoya basar,
Koroğlunu çaya asar
Giziroğlu Mustafa bəy.

Bu gəraylı bizim "Koroğlu" dastanındandır və göründüyü kimi, kamil bədii əsər kimi qəhrəmanlığın tərənnümüdür. Ancaq türk variantında həmin şeir pozuqdur, həm də musiqi bəstələnərkən də təhrif edilmişdir. Hər misranın sonunda:

Bir bəyin oğlu, zor bəyin oğlu
Ağam kim, paşam kim?
Nigar kim, xanım kim?
Bəh, bəh, bəh, hey, hey, hey...

ilə müşayiət olunur.

Mahnının musiqisi çox könül oxşayan, ürəyə yatandır, burada hay-küy yoxdur. Nəqəratın təkrarı adamı tərpədir, istəyirsən sən də "hey" deyib təkrar edəsən.

İkinci variantda gizirin muxtar olduğu Karsın bu kəndi və dağları, soyuq bulaqları təsvir olunur. Kəndin evləri torpaqdandır. Bu yerlərdə ədalət, əmin-amanlıq, xeyirxahlıq hər yerə yayılmış, kimsə gəlib bu yerlərdə kimsəni incitməz. Gizir muxtar bu 25 evi və ətraflarını ədalətlə idarə edər. Kənddə Giziroğlunun qalası da durur. Xalq arasında onun igidliyi haqqında çoxlu rəvayətlər söylənilir. Gizirin dünyaya gələn oğlu Mustafa uşaqlıqdan dağlarda at çapmağı, ov ovlamağı, qılınc, şeşpər və başqa silahları dəliqanlı kimi işlətməyi öyrənmiş, atası dünyadan köçdükdən sonra onu əvəz edib, kəndləri ədalətlə idarə edib böyük ad-san qazanır. Əvvəlki variantda olduğu kimi, Koroğlu Boludan gəlib burada bir qala tikdirir. Bir zaman kəndindən ayrı düşən Giziroğlu Mustafa bəy kəndinə dönəndə Koroğlunun tikdirdiyi qalanı görür, əsəbləşir, Koroğlunun yanına gedib: "Sən kimsən mənim yurdumda səltənət qurursan" - deyir. Hər ikisi bir-birilərini pis adam kimi tanıyırlarmış. Koroğlu ilə Mustafa bəy döyüşməli olurlar. Dövrün adətinə görə, vuruş zamanı məğlub olan ölməlidir. Uzun döyüşlər onları yorur. Koroğlu yaşlı, Mustafa bəy gənc. Arada Mustafa bəy görür ki, onun Alapaça atı Koroğlunun Qıratını gürəşib üstələyir. Mustafa bəy: "Mənim atım Qıratı yendi, mən niyə Koroğlunu yenməməliyəm?" - deyib Koroğlunu yerə vurur. Qəməsini çıxarıb başını kəsmək istərkən Koroğlu: "Dayan, mənə bir az möhlət ver, igidlərimi görüm, qarımla halallaşım". Mustafa bəy Koroğlunu buraxır. Koroğlu evə dönür, əhvalatı qarısına həmən şeirlə söyləyir. Mustafa bəyi tərifləyir. Bu zaman Mustafa bəy gəlib Koroğlunun oxuduğu mahnını eşidir. Və Koroğlunu qucaqlayıb öpür və deyir: "Sən məndən daha igidsən, Koroğlu". Koroğlu: "Mən artıq buradan gedim, burada sənin kimi mərd və igid biri varkən qalmaq olmaz"- deyib kəndi tərk edib Boluya dönür.

Burada da xalq bu iki türk qəhrəmanını görüşdürüb imtahana çəkir, hər ikisinin həqiqətən mərd və igid olduğunu yüzillər boyu yaşatmış, türkülərə, dastanlara çevirmişlər.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**_Şəbnəm Məmmədli_**
**_AMEA Folklor İnstitutu_**

# TARİXİ FAKT VƏ HADİSƏLƏR QARAQALPAQ EPOSU "QIRX QIZ"DA

**Özət**

Məqalədə "Qırx qız" eposunda qaraqalpaq xalqının həyatının müxtəlif mərhələlərində tarixi faktlar və hadisələr öz əksini tapmışdır. Bu fikri təsdiq etmək üçün müəllif M.K.Nurmuhəmmədov, T.A.Jdanko, S.K. Kamalov, S.P. Tolstov, L.S. Tolstova, K.M.Maksetovun və digər məhşur tarixçi və etnoqrafların tədqiqatlarına müraciət etmişdir.

**Açar sözlər:** "Qırx qız" eposu, Qaraqalpaq

**Резюме**

В статье рассматриваются взаимосвязи каракалпакского эпоса «Кырк кыз» с историческими фактами и событиями, произошедшими в жизни народа в разные периоды. Для подтверждения этой мысли автор обращается к исследованиям известных историков и этнографов как М.К.Нурмухаммедов, Т.А.Жданко, С.К.Камалов, С.П.Толстов, Л.С. Толстова, К.М.Максетов и др.

**Ключевые слова:** «Кырк кыз», Каракалпак

**Summary**

Thes article is about the reflection of historical facts and events in Karakalpak epose "Girkhgiz".To approve her idea the author has looked through the works of famous historians and ethnographs such as Nurmuhammedov, Kamalov, Jdanko, Macsetov, Tolstov, Tolstova.

**Key words:** "Gırkhgiz", Karakalpak epos

* * *

Sadə xalqın qeyri-peşəkar yaradıcılığı və həyatının zəruri tərkib hissəsi hesab olunan folklor bütün dönəmlərdə xalqın tarixi ilə daim sıx əlaqədə olmuşdur. Belə ki, xalq həyatında baş verən bütün önəmli hadisələr məhz şifahi yaradıcılıqda mütləq öz əksini tapırdı. Qaraqalpaqlar da digərləri kimi lap qədim dövrlərdən başlayaraq tarixi mübarizəsini xalq yaradıcılığında inikas etdirirdi. Elə buna görə də xalq yaradıcılığı örnəkləri tarixi öyrənmək baxımdan əvəzsiz xəzinə kimi qiymətlidir. Bunu nəzərdə tutan böyük rus mütəfəkkiri, folklor yaradıcılığının dəyərli tədqiqatçısı Maksim Qorki qeyd edirdi ki, şifahi xalq yaradıcılığını bilmədən xalqın gerçək tarixini öyrənmək olmaz və folklor tarixlə daim yoldaşlıq etmişdir. Digər xalqlarda olduğu kimi qaraqalpaq folkloru da xalq həyatının mühüm qatlarını qaldırıb bu problemlərin düzgün dərk olunmasına yardımçı olub xalq kütlələrinin mütərəqqi ideallarını ifadə etməklə,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

onların fəlsəfi, ictimai, mənəvi-əxlaqi və dini baxışlarını özündə daşıyırdı. Tarixi inkişaf prosesinin çoxcəhətliliyi və folklorun dəyişkənliyi onun öyrənilməsinə də tarixi nöqteyi-nəzərdən yanaşma tələb edir. Folklorun tarix kontekstində öyrənilməsi xalq yaradıcılığında nəyin sabit, nəyin dəyişkən və yenilənməyə meylli olduğunu müəyyənləşdirməyə, folklor tarixində hansı qanunauyğunluqların mövcudluğu və hansının onun inkişafını tənzimlədiyini dəqiqləşdirməyə imkan verir (7, s.266). Əlbəttə, folklorun tarixlə əlaqəli şəkildə öyrənilməsində xeyli çətinliklər də mövcuddur. Ən çətin problemlərdən biri burada ondan ibarətdir ki, əksər hallarda bu və ya digər folklor nümunələrinin mənşəyini, inkişafında hansı mərhələləri keçdiyini, hansı dövrə aid edildiyini müəyyənləşdirmək son dərəcə müşkül işə çevrilir. Buna görə folklor nümunələrinin tarixi müəyyənləşdirilərkən tələskənliyə yol verilməməlidir. Bundan başqa folklorşünaslar arasında folklorun inkişafına baxış da bir-birindən ciddi şəkildə fərqlənir. Nəhayət, folklorşünaslıqda bəzən məntiqə söykənməyən elə fərziyyə, müddəa, mühakimə və nəzəriyyələr də mövcuddur ki, onlar da folklorun tarixlə ilgili məqamlarını müəyyənləşdirməyə mane olur. Bununla belə qaraqalpaq, özbək, rus folklorşünasları məşhur qaraqalpaq eposu “Qırx qız”ın tarixlə xeyli dərəcədə səsləşmələrini doğru-dürüst metodoloji mövqedən araşdırmağa səy göstərmişlər. Dastanın daha sabit variantını təxminən XVI əsrə aid edirlər. Batırlarla bağlı olan nəğmələrdəki hadisələr qaraqalpaq köçəri qəbilələrinin birləşdiyi dövrü özündə əks etdirir. Təsadüfi deyildir ki, “Qırx qız” eposunda qədim qaraqalpaq qəbilələrindən qıpçaq, konqrat, uysun, kanqlı və noğaylıların adlarına rast gəlirik. Belə təxmin etmək olar ki, dastandakı bəzi nəğmələr yarandıqdan sonra noğaylı ittifaqına aid qəbilələrin mövcudluğu dövründə onlar yenidən işlənməklə Noğaylı İttifaqında olan hadisələri əks etdirir (2, s.196).

Qaraqalpaqların tarixini əks etdirən mənbələrdə (4, s.33-43; 6, s.23-27; 1, s.62). birmənalı şəkildə göstərilir ki, XVII-XVIII əsrlərdə qaraqalpaqlar kalmık xanlarının və Nadir şahın həmlələrinə dəfələrlə məruz qalmışlar. “Qırx qız” eposunda “kalmak”, yaxud “kalmık” və “Nadir şah” sözü də daim yadelli düşmən semantikasına uyğundur. Dastanı oxuduqca onun məzmununun bütünlükdə doğma vətənin müdafiəsinə həsr olunduğunu görərik. “Qırx qız” eposunun başlıca süjeti XIII-XVIII əsrlər ərzində xalqın azadlığı və müstəqilliyi uğrunda ardı-arası kəsilməyən mübarizə ruhu ilə zəngindir. Tanınmış qaraqalpaq eposşünası K.M.Maksetov, M.K.Nurmühəmmədov, T.A.Jdanko, C.Kamalov və başqalarının fikrincə dastanın yaranmasında qız-batırlar haqqında mövcud olan qədim epos və əfsanələrin rolu qeyd olunmalıdır. Bu əfsanələrdən bir neçəsinə müraciət edək: “... İran şahı Kir (e.ə VI əsr) Sakların şahı Amorqu əsir götürür. Amorqun arvadı Sparetra kişi və qadınlardan ibarət ordu təşkil edib Kiri darmadağın etməklə öz ərini xilas edir. Bu haqda e.ə V-IV əsrlər qədim yunan tarixçisi Ktesiy məlumat verir.

...Midiya və Babilistanı ələ keçirdikdən sonra Kir massagetlərə qarşı müharibə elan edir. Massaget şahənşahı Tomiris Kirin ordusunu xüsusi qurduğu fəndlə səhraya çıxarır və farslara sarsıdıcı zərbələr endirir, nəticədə Kirin özü də (e.ə 529-cu il) çoxsaylı ölkələrin fatehi olan, böyük Fars imperiyasının banisi öldürülür. Bu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

barədə qədim yunan tarixçisi, tarixin atası hesab edilən Herodot məlumat verir. Yeri gəlmişkən Herodotun özü də bu məlumatları epik əsər və əfsanələrə söykənərək söyləyir və bunu da əlavə edir ki, Tomiris Kirin başını qanla doldurulmuş papağa saldırır ki, qoy, bu, qandan doymamış-doysun".

... Makedoniyalı İskəndər Orta Asiya ərazisinə soxulduqdan sonra (e.ə 328-ci il) onun yanına Xarəzm şahı Fərəsmənin səfiri gələrək, Fərəsmənin ona kömək etməyə hazır olduğunu bildirir və əgər Makedoniyalı İskəndər amzonkaları – Xarəzmlilərin qonşusunu fəth etmək istəsə ona yardımçı olsun. Naməlum səbəblər üzündən böyük fateh amazonkalar üzərinə müharibəyə getmir. Əfsanəyə görə guya Makedoniyalı İskəndər aşağıdakıları deyir: "Qadınlar üzərində qələbə çalsam, bu mənimçün elə də böyük bir qalibiyyət hesab edilməyəcəkdir, yox əgər məğlubiyyətə uğrasam, bu mənim üçün böyük rüsvayçılıq olacaqdır" (6, s.53-54). Bəlkə elə böyük fateh Tomirisin İran şahı Kirin başına gətirildiyini xatırlayaraq amazonkaların üzərinə hücum etməmişdir.

"Qırx qız" eposunun tarixlə səsləşməsini sübut edən digər məlumatlar da maraqlıdır. "Orta Asiya xalqlarının qadınlarının ictimai işlərdə iştirakını, bəzi müəlliflər irəli sürdüyü kimi, heç də yalnız matriarxatla məhdudlaşdırmaq olmaz. Prof. S.P.Tolstov qeyd edir ki, VI əsrdə Bizans səfirləri xarəzmin şimal tərəfində qadınlar tərəfindən idarə olunan Aralın türk qəbilələrini qarşılamışlar. P.P.İvanov isə yada salır ki, Gülayimin (o, "Qırx qız" eposunun baş qəhrəmanıdır) rəhbərliyi altında qırx qızın qələbəsi Türküstan tarixi ilə sıx bağlıdır.

XIII əsrin sonu XIV əsrin əvvəllərində yaşamış tanınmış Venetsiya səyyahı Marko Polo isə orta əsrlərTürküstanı ilə bağlı aşağıdakı maraqlı bir hekayəti nəql edir: "Haydu adlı çarın tatarlarda Anqiarm, yaxud Anjiarm adlı bir qızı vardı. (Orta Asiyada yaşayan xalqların əksəriyyətini Marko Polo tatar adlandır – Ş.M.). Onun adı fransız dilindən tərcümədə "işıqlı ay" deməkdir. Qız o qədər güclü imiş ki, bütün çarlıqda ona tay cigit, bir batır yox imiş ki, onu təkətək döyüşdə yıxa bilsin o, hamıya qalib gələrmiş. Atası onu ərə vermək istəsə də, qız özünə bərabər bir batır tapmayınca ərə getməməyi qərarlaşdırır, yalnız bundan sonra atası ona öz sevdiyinə getməsinə razılıq verir, çar qızı buna sevinərək bütün xalqa bu barədə məlumat verir: "Mənə kim qalib gəlsə, ona da ərə gedəcəyəm". Müxtəlif ölkələrdən öz xoşbəxtliyini sınaqdan keçirmək üçün çoxsaylı cigitlər gəlirlər. Qüvvələrini aşağıdakı kimi yoxlayırlar: çar sarayda özünün dincəldiyi yerə çoxlu adamlarla gəlir, az müddət keçdikdən sonra çar qızı olduqca bahalı parçadan tikilmiş batır paltarında dairənin düz ortasına çıxır. Rəqib də onun kimi bahalı batır geyimində ortaya çıxır. Şərt isə belə imiş: əgər o, çar qızına qalib gəlib, onun kürəklərini yerə vursa, onu öz arvadı edəcək, yox əgər çar qızı ona qalib gəlsə, batır ona 100 dənə köhlən at verməlidir. Çar qızı ona bir neçə dəfə qalib gəlməklə, ondan on min at udur, bu isə göstərir ki, yaxud cigit tapılmır ki, tapılmır. Bu, yalan deyil, həqiqətdir: qız o qədər gözəl imiş ki, cazibədar qaməti, hündür boy-buxunu gözəl harmoniya yaradırmış. Çar qızı çar oğluna qalib gəldikdən sonra çar Haydu onu getdiyi yürüşlərə özü ilə götürür heç bir döyüşdə batırlar ona qalib gələ bilmirlər. Bu pəhləvan qız düşmənə qarşı döyüşdüyü



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

bütün vuruşlarda iştirak edir və batırları əsir götürüb öz düşərgəsinə gətirir. Belə hallar dəfələrlə təkrarlanır (5.s.73-74).

Marko Polonun adı çəkilən kitabına bəzi izahlar verən prof. V.Bartold qeyd edirdi ki, Anjiarm Semireçyedə yerləşən Çu çayı vadisinə sahiblik etməklə, daim atasının döyüşlərində iştirak edərmiş. Nəhayət, qız atasının öz cəsurluğu seçilən vəzirinə vurulur və ona ərə gedir.

Mənbələrdən gətirdiyimiz nümunələr Orta Asiyada qadınların ictimai həyatda fəal iştirak etdiklərini sübut edir. Beləliklə, eposda təsvir olunmuş xeyli hadisələr həm də tarixi gerçəkliklərlə üst-üstə düşür. Orta Asiya xalqlarının tarixi, etnoqrafiyası və folkloru üzrə tanınmış mütəxəssis T.A.Jdanko yazırdı. “Gülayim və Arslanın hərbi qəhrəmanlığını təsvir edən nağılvarilik və əfsanəvilikdə qaraqalpaqların və Xarəzm xalqlarının taleyini lərzəyə gətirən XVIII əsrdə baş vermiş real tarixi hadisələr aydın açıq görünür. Bu, Sırdərya ətrafına cunqarların (yəni kalmıkların) (1723) yürüşü və Nadir şahın Xarəzmi ələ keçirməsi ilə (1740) bağlıdır (3, s.113).

“Qırx qız” eposunda təsvir olunan hadisələrə həm də ümumiləşdirmələr xasdır. Əlbəttə, eposda olan təsvirlərdə tarixi baxımdan yalnız hadisələrin ümumi mahiyyəti verilirsə, eyni zamanda biz burada həm də real tarixi gerçəkliyin mənzərəsini görürük. Bu, bir tərəfdən, personifikasiya, hiperbolizasiyadırsa, digər tərəfdən, hadisə və obrazların kontaminasiyası ortada dayanır.

Mənbələr verdiyi məlumatlardan aydın olur ki, qaraqalpaqların əcdadlarının etno-genetik əlaqələri eramızdan əvvəl II-I minilliklərə gedib çıxır. Tarixçilər və etnoqraflar belə hesab edirlər ki, e.ə. I minillikdə Xarəzm səhrasındakı ərazidə elə etnik komponentlər mövcud olmuşdur ki, sonralar onlar qaraqalpaq xalqının tərkibinə daxil edilmişdir. Bax elə bu baxımdan da qədim ön Asiya-Xarəzm mədəni əlaqələrinin bəzi səsləşmələri qaraqalpaq eposu “Qırx qız”da özünü büruzə verir.

Xarəzm sivilizasiyası üzrə yuxarıda fikirlərinə istinad etdiyimiz tanınmış tarixçi-etnoqraf prof. S.Tolstovun və onun qızı etnoqraf prof. L.Tolstovanın fikrincə “Qırx qız” eposunda qədim Semiramid bağlarının dünyanın yeddi möcüzələrindən biri ilə bağlı əfsanənin də izləri vardır. Əlbəttə, eposla diqqətlə tanışlıq onun həqiqətən də lap qədim zamanlarda yarandığını söyləməyə əsas verir. Bunu rus tarixçisi və etnoqrafı Nikolay Karamzin 1875-ci ildə Çimbay qaraqalpaqlarından olan nağılçı qarıdan qələmə aldığı “Qadın xanlığı haqqında nağıl” əfsanəsi də təsdiqləyir. N.Karamzinin nağılçı-qarıdan yazdığı əfsanədə aşağıdakıları oxuyuruq: “Yer, səma, insanlar və adətlər indiki kimi yox başqa cür olanda böyük bir xanlıq vardır ki, burada xan qadın imiş və “qadınlar burada hər şey edərmiş: məsləhətləşmələr aparar, xalqı mühakimə edər, müharibəyə, ova gedərmiş... Bu xanlığın paytaxtı Samiram şəhəri imiş. “Möcüzəli şəhər idi bu... o yerdə otuz yeddi min dayaq üzərində dayanarmış və oraya heç kəs özü özbaşına daxil ola bilməzmiş...” (6, s.55).

Göründüyü kimi bu mənbədə də qaraqalpaq qadınlarının ölkənin ictimai, siyasi və mədəni həyatında yaxından iştirak etdikləri diqqət mərkəzinə çəkilir. Yeri gəlmişkən qeyd edək ki, bu yalnız qaraqalpaq nağıl, əfsanə, epik poemaları, tarixi



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

rəvayət, nəğmələr üçün yox, həm də qaraqalpaq ədəbiyyatı klassiklərinin əsərləri üçün də səciyyəvvidir. Qaraqalpaq qızı, qadını nəinki batırın sevgilisi, sevimli gəlini, arvadı kimi, həm də tayfa, yaxud qəbilənin ağıIIIı və ədalətli başçısı, ordunun cəsur sərkərdəsi kimi göstərilir. Bütün bunların hamısı folklorun, folklor materiallarının, konkret demiş olsaq, "Qırx qız" eposunun tarixi mənbə kimi götürülərək qaraqalpaq xalqının, yaxud onunla bağlı digər xalqların etno-mədəni əlaqələrini müəyyənləşdirməyə kömək edir. Prof. L.Tolstova bununla bağlı yazır: "Tarixi folklor – xalqların etnogenezinin aydınlaşdırılması üçün ən mühüm mənbələrdən biridir... O, arxeloji, antropoloji, linqvistik, xüsusən onomastik və etnoqrafik mənbələrlə bərabər istifadə oluna bilər" (2, s.6).

"Qırx qız" eposunda qaraqalpaqların yadellilərə qarşı Sarkop şəhərinin müdafiəsinə qalxması yerli-yataqlı təsvir olunur. Burada, bir tərəfdən, XVIII əsrin 20-ci illərində kalmıklara qarşı, digər tərəfdən, Nadir şahın Xarəzmə 1740-1741-ci illərdə olan yürüşləri də əksini tapmışdır. Poemada kalmık və Nadir şah ordusunun baş qəhrəman Gülayimin yoxluğu dövründə hücumları, Xarəzmli batır Arslanın qaraqalpaqlara köməyi də geniş planda verilir. Bu da "Qırx qız" eposunda əksini tapmış xeyli hadisələrin tarixi gerçəkliklə üst-üstə düşdüyünü əks etdirir. Yuxarıda gətirdiyimiz konkret tarixi faktlar doğrudan da bu poemanın tarixi köklərinin uzaq keçmişə dirəndiyini əyaniləşdirir. Lakin bir şeyi nəzərə almaq lazımdır ki, uzun zaman kəsiyində poemanı XVIII əsrdə yaşayan qaraqalpaq dastançısı Jiyen Jıraudan əxz edənlər xalq arasında şifahi şəkildə yaymış, XX əsrin üçüncü onilliyindən sonra dastan məşhur jırau Qurbanbəy Tajıbəyovun repertuarından qələmə alınmışdır. Jiyen və Qurbanbəy əcdadlarının şifahi poeziyasını mükəmməl bilirdilər. Ona görə də onlar tarixin keçmiş müxtəlif mərhələlərini xalqın gözü qarşısında canlandırmağa çalışmışlar. Söylədiklərimiz bir daha təsdiqləyir ki, folklor tarixə xidmət etmişdirsə, tarix də folklora yoldaşlıq etmişdir. Onları bir-birinə bağlayan digər məqamları da araşdırmağa ehtiyac duyulmaqdadır.

**Qaynaqlar**

1. История Каракалпакской АССР. С древнейших времен до наших дней. - Ташкент, Фан, 1986, 384 s.

2. История литератур народов Средней Азии и Казахстана. М., Изд-во МГУ, 1960, s.191-211.

3. Жданко Т.А. Каракалпакская эпическая поэма «Кырк кыз» как историко-этнографический источник. «Краткие сообщения» Института этнографии АН СССР. Выпуск 30. М., 1958, s.109-115.

4. Камалов С.К. Каракалпаки в XVIII-XIX веках .–Ташкент, Фан, 1968, 325s.

5. Максетов К.М. Каракалпакский эпос. Ташкент, Фан, 1976,179 s.

6. Нурмухаммедов М.К., Жданко Т.А., Камалов С.К. Каракалпаки (Краткий очерк истории с древнейщих времен до наших дней). Ташкент, Фан, 1971, 121 s.

7. Толстова Л.С. Использование фольклора при изучении этногенеза и этно-культурных связей народов. – В кн.: Фольклор и историческая этнография. М., 1983, s.6-20.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Sönməz Abbaslı,***
***AMEA Folklor İnstitutu, elmi işçi***
***abbasli-sonmez@rambler.ru***

# TARİXİ ŞƏXSİYYƏTLƏRLƏ BAĞLI REGİONAL LƏTİFƏLƏR

**Özət**

Məqalədə tarixi şəxsiyyətlərlə bağlı formalaşmış regional lətifələrə nəzər salınmışdır. Adları ilə bağlı yaranmış lətifələrin səciyyəvi xüsusiyyətləri müəyyənləşdirilmişdir.

**Açar sözlər:** lətifə, tarixi, şəxsiyyət, regional, real

**Резюме**

Статья посвящена региональным анекдотам, связанным с историческими личностями. Определены характерные особенности, связанные с именами этих личностей.

**Ключевые слова:** анекдот, исторический, личность, региональный, реальный

**Summary**

The article dedicates the regional jokes dealing with the historical personalities. The characteristic features dealing with their names are determined.

**Key words:** joke, historical, personality, regional, real

* * *

Regional lətifələr mövzu və mündəricə etibarilə zəngin olub ictimai həyatın müxtəlif sahələrini əhatə edir. Tarixi hadisə və tanınmış kimsələrin həyatı ilə bağlı məlumatlar da lətifələrin ana xəttini müəyyənləşdirir.

Ayrı-ayrı tarixi hadisələr və real tarixi şəxsiyyətlərin başlarına gələn macəralar əsasında da onlarla regional lətifələr yaranmışdır. Lətifələri, həmçinin regional gülməcələri zahiri əlamətlərinə görə iki qrupa ayıran T.Fərzəliyev birinci qrupa "... müəyyən tarixi hadisə və ya şəxsiyyət (istər mifik, istərsə də tarixi olsun) adı ilə əlaqələndirilən, daha dəqiq desək, avtorlaşdırılan lətifələr"i daxil etmiş, onları isə məzmun və səciyyələrinə görə dörd bölməyə ayırmışdır (8, 243).

Bəllidir ki, lətifə istilahını əvəz edən və beynəlxalq terminlə "anekdot" adlanan sözün yunanca olub "nəşr olunmamış" mənasını daşıdığı bildirilir. Eyni zamanda bu istilah (anekdot) altında tarixi şəxsiyyətlər haqqında dolaşan xarakterik əhvalatlardan ibarət qısa hekayətlər nəzərdə tutulur. Sonralar isə kəskin siyasi məzmun daşıyan gülüş səciyyəli ədəbi janr anekdot adlan- dırılmışdır (11, 28).

Göründüyü kimi formalaşdığı tarixi kəsimdə anekdotlar yazılı ədəbiyyatın janrı sayılmış və ilk tarixi əsərlər də bu janrda yazılmışdır. Bizans tarixçisi Prokopiyanın (VI əsr) imperator Yustinianın və onun saray əyanlarının həyatından bəhs açan "Gizli tarix" əsəri ilk dəfə olaraq anekdot adlandırılmışdır (12 , 13).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Nağıllarda olduğu kimi regional lətifələrdə də tarixi şəxsiyyət kimi ən çox səciyyələndirilən obraz Şah Abbas olmuşdur. Bunun da janrın tələblərindən doğan təbii səbəbləri vardır. Çünki, hər şeydən əvvəl, "... lətifə kiminsə başına gələn bir əhvalat kimi, hətta çox zaman el içində şöhrət qazanmış tarixi və yaxud mifik şəxsiyyətlərin adı ilə bağlı real hadisələr kimi danışılır. Belə tarixi və yaxud mifik şəxsiyyətlər, başqa şəkildə desək, belə "lətifə qəhrəmanları" çox zaman hər xalqın özünə məxsus olur"(9, 3). Şah Abbas, Nadir şah, Qaçaq Nəbi, Abbasqulu bəy Şadlinski kimi tarixi şəxsiyyətlər, Mirzə Cəlil, Hüseyn Cavid kimi ədəbi simalar haqqında yaranmış lətifələrə məhz bu baxımdan yanaşmaq lazımdır .

Şah Abbas yanına şikayətə gələnlərin dediklərindən belə bir qənaətə gəlir ki, vəziri Allahverdi xana tapşırıb ölkədəki dəlilərin siyahısını tutdursun. Vəzir siyahını Şaha təqdim etdikdə o, görür ki, başda öz adı yazılıb. Şah soruşanda ki, "vəzir demək mən dəliyəm" — sualını cavablandıran vəzir Allahverdi xan bildirir ki, indi ki, sən nisyə pul verənləri dəli sayırsan, deməli bu işdə özün birincisən. Ona görə ki, sən qara qula on min tümən nisyə pul verdin ki, gedib Misirdən mal gətirsin. Qara qulun burada evi, mülkü, ailəsi yoxdur ki, qayıdıb gəlsin. O pulları apardı və bir daha geri qayıtmayacaq. Şah bildirir ki, o qayıdacaq. Vəzir bildirir ki, o qayıtsa sənin adını pozub, yerinə onun adını yazacam (5, 361). Daha çox lətifəli rəvayət mahiyyəti daşıyan bu örnəkdəki motiv "Şah Abbasın vergi fərmanı" lətifəsində də davam etdirilmişdir. Burada artıq söhbət Şah Abbasın "idarəçilik" qabiliyyətindən gedir. Şah kəndxudanı yanına çağırıb onu kəndlərdən vergi yığmağa göndərir. Birinci dəfə camaat dillənmir, vergini verir. İkinci yığımda camaat ağlayır. Şah Abbas kəndxudanı üçüncü dəfə vergi toplamağa göndərir. Bu dəfə isə kənd əhli oynamağa başlayır. Bu əhvalatdan xəbər tutan Şah Abbas bunun səbəbini belə açıqlayır: "Daha gedib vergi yığma, onlar olanlarını veriblər. Canları qurtardığından oynayıblar"(2, 79).

Tapmacalı lətifə səciyyəli bir lətifəli rəvayət Şah Abbasın qarşılaşdığı bir qoca ilə mükaliməsi üzərində qurulmuşdur. Şah Abbasla qoca arasında belə bir dialoq baş verir.

Şah Abbas: — Qoca neyləyibsən?

Qoca: — İkini üç eləmişəm (Əlimə çəlik almışam).

Şah Abbas: — Daha nə?

Qoca: — Uzağı yaxın eləmişəm (İndi uzağı yox, yaxını görürəm).

Şah Abbas: — Dəyirmanın necədir?

Qoca: — İşləkdən salmışam (Daha dişlərim yoxdur).

Şah Abbas: —Niyə vaxtında qazanmadın?

Qoca: — Qazandım, ellər apardı (Qızlarım oldu, hərə birini apardı) (5, 346 – 348).

Göründüyü kimi, bu lətifədə qocanın şaha verdiyi cavablar sətiraltı mə- na daşısa da, əsas açıqlama mötərizə daxilində yozulmuş fikirlərlə aşkarlanmışdır.

Özgə bir lətifədə isə Şah Abbas Kəlniyyətə aşağıdakı şeirlə müraciət edib onu bazara göndərir: Get mənə can al gəti, can olmasa yarımcan al gəti, yarımcan olmasa zəhər al gəti. Bu tapşırığın mənası isə ət, yumurta və qatığı bildirir (5, 350).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Tarixi şəxsiyyətlərlə bağlı olan lətifəli rəvayətlərdə obrazlaşdırılan personajlardan biri də Nadir şah Əfşardır. Məmləkəti gəzməyə çıxan şah əhalinin vəziyyəti ilə maraqlanmaq istəyir. Nadir şah bir biçinçi ilə rastlaşır. Lakin o, şahla ötəri salamlaşır, ona təzim etmir. Bu vəziyyəti görən şah kəndlini yanına çağırıb ondan soruşur ki, şah böyükdür, yoxsa Allah! Hansından daha çox qorxursan? Bu sualın cavabında çarəsiz qalan kəndli olduqca məntiqi bir cavab verir ki, bu cavab da lətifənin əsas mahiyyətini ifadə edir. Kəndli əlindəki orağı şaha göstərib deyir: — Şah sağ olsun, hərə öz işini görür. Allah göydə öz bildiyini eləyir, sən də yerdə. Əldən gedən isə mənim arpa zəmimdir, sünbül quruyub tökülür (6, 213).

Azərbaycanın klassik şair və yazıçıları tarixi şəxsiyyətlərlə bağlı lətifələri toplayıb işləmişlər. T.Fərzəliyev bu qəbildən olan örnəkləri, o cümlədən S.Ə. Şirvaninin qarabağlı Talıb xan və şirvanlı Mustafa xanın başına gələn macəralarla bağlı qələmə aldığı lətifələri bir araya gətirib onların elmi təhlilini vermişdir (7, 76-77). Daha çox, rəvayət olub "Hərənin öz arşını var" məsəli üzərində qurulan özgə bir lətifəli rəvayətdə Qaçaq Nəbinin mübarizələri səciyyələndirilmişdir. Nəbi erməni tacirlərindən parça alıb Aynalı tüfəngi ilə ölçüb kənd camaatına paylayanda bir kasıb kişi Nəbidən cəmi bir Aynalı parça istəyir. Bu işə Nəbi təəccüblənir. Kasıb kişi isə bildirir ki, hərənin öz arşını var. Sənin arşının Aynalı tüfəngidir. Mənim arşınım isə "Xustup dağından Qapıcığa" kimidir. Nəbi bu sözdən sonra ona bir top parça bağışlayır (6, 227-228).

Hacı Feyzioğlu İlyasın, Abdulcabbarın adları ilə bağlı lətifələrdə də Şəki xanı obrazlaşdırılmışdır. "Molla Cumanın baş qırxdırması", "Molla Cuma ilə dəllək Salam" örnəkləri daha çox aşıq rəvayəti mahiyyəti kəsb etsələr də aşıq-şairin başına gələn gülməli macəralar satirik planda təqdim olunmuşdur (3, 292-293). Lətifələrdə bir tarixi şəxsiyyət olaraq Cəlil Məmmədquluzadə, Hüseyn Cavid kimi sənətkarlar da obrazlaşdırılmışlar. "Tez-tez gəl, belə şirin-şirin söhbətlərdən eyləyək", "Ağ üstə qara oldu", "İndi arxayınlıqla xörəyinizi yeyə bilərsiniz", "Faytonçunun yanında özüm oturaram", "Çətini qocalana qədərdi", "O dünyada başıma nə gələcəyini deyənmərəm", "Gec yazmısan", "Uşaqlara kitabı uşaqlar yazır" lətifələrinin əsas personajı Mirzə Cəlil, "Beş qiyməti sənə tanrı verib" gülməcəsinin isə qəhrəmanı H.Caviddir (1, 268-270).

Tarixi hadisə və şəxsiyyətlərlə bağlı lətifələr içərisində Abbasqulu bəy Şadlinski də yad edilmişdir. 1918-ci ildə Vedibasarın daşnaklar tərəfindən işğala məruz qaldığı bir dövrdə Yetim Əkbər adlı bir döyüşçü erməni nizami ordusundan bir "top" ələ keçirib Abbasqulu bəyin yanına gətirib deyir ki, təyyarə vuran bir top gətirib, topun ağzı göyə baxır.

Abbasqulu bəy "topa" baxıb gülür, "Oyunun olsun, ay Əkbər, bu ki, qazandı" — deyir (4, 256-257).

Tarixi şəxsiyyətlərlə bağlı formalaşmış lətifələr mövzu və ideya baxımından müxtəlif problemləri çevrələyib, ictimai həyatda baş vermiş çatışmazlıqları gülüş hədəfinə çevirmişdir. Uyğun araşdırmalardan bəlli olur ki, ötən yüzilliyin 70-ci illərindən etibarən sovet dönəmində formalaşmış lətifələrin mövzusunda ciddi dəyişikliklər başlamışdır. Belə ki, hələ 20-40- cı illərdə real tarixi şəxsiyyətlər (Trotski, Lenin,


PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Çeçerin, Stalin və b.) haqqında lətifələr meydana çıxmış, 60-cı illərdən başlayaraq cizgi filmlərindən irəli gələn gülməcələr onları üstələmişdir (10, 2). Bir sıra səbəblərə görə sovet auditoriyasında real siyasi xadimlərə (Xruşov, Brejnev, Andropov) nisbətən digər lətifə qəhrəmanları haqqında düşüncələr o qədər də əsaslı yer tutmamışdır. 70-ci illərin ikinci və 80- ci illərin birinci yarısında şəxsi gündəliklərdə və emiqrantlar tərəfindən toplanılmış lətifələrdə siyasi xadimlər daha geniş yer almışlar (10, 2).

Çoxsaylı tarixi şəxsiyyətlərlə bağlı regional lətifə örnəkləri təsdiq edir ki, hər bir ictimai-siyasi quruluşun və onun hakim ideologiyasının fəaliyyətdə olduğu tarixi kəsimdə onlarla şəxsiyyətin adı ilə bağlı gülməcə örnəkləri yaranmış və onların böyük əksəriyyəti xalq yaddaşında qorunmuş, dildə-ağızda dolaşmış və geniş pərvəriş tapmışdır.

**Qaynaqlar**

1. AFA, I kitab, Naxçıvan folkloru / tərtib edənlər T.Fərzəliyev, M. Qasımlı, elmi redaktoru və ön sözün müəllifi İ. Abbasov. Bakı: Sabah, 1994, 375 s.

2. AFA, III kitab, Göyçə folkloru / toplayanı, tərtib edəni və ön sözün müəllifi H.İsmayılov. Bakı: Səda, 2000, 768 s.; təkrar nəşr, Bakı: Nurlan, 2009, 768 s.

3. AFA, IV kitab, Şəki folkloru, I cild / tərtib edənlər: H. Əbdülhəlimov, R. Qafarlı, O. Əliyev, V. Aslan. Bakı: Səda, 2000, 498 s.

4. AFA, X kitab, İrəvan çuxuru folkloru / toplayıb tərtib edənlər, ön sözün, qeyd və izahların müəllifləri H. İsmayılov, Ə. Ələkbərli. Bakı: Səda, 2004, 471 s.

5. AFA, XII kitab, Zəngəzur folkoru / toplayanı V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər, tərtib edənlər Ə.Əsgər, M.Kazımoğlu, ön sözün müəllifi Ə.Əsgər). Bakı: Səda, 2005, 464 s.

6. AFA, XIX kitab, Zəngəzur folkloru, II cild / toplayanı və ön sözün müəllifi R.Təhməzoğlu, tərtib edənlər: H.İsmayılov, R.Təhməzoğlu, Ə.Ələkbərli. Bakı: Nurlan, 2009, 415 s.

7. Fərzəliyev T. Lətifələrdən yazılı ədəbiyyatda istifadə // AŞXƏT, IV kitab. Bakı: Elm, 1973, s. 58–91.

8. Fərzəliyev T. Lətifələr // Azərbaycan ədəbiyyatı tarixi, altı cilddə, I cild. Bakı: Elm, 2004, 241–249.

9. Təhmasib M.H. Müqəddimə // Molla Nəsrəddin lətifələri. Bakı: Azərb. EA nəşr-tı, 1965, s. 3–16.

10. Архипова А.С. Анекдот и его прототип: генезис текста и формирование жанр: Автореферат канд. дис., М.: 2003, 15 стр.

11. Литературный энциклопедический словарь. М.: Советская энциклопедия, 1987, 751 стр.

12. Тимофеев Л.И., Венгров Н. Краткий словарь литературоведических терминов. М.: Учпедгиз, 1963, 192 стр.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Şəfəq Əliyeva***
***AMEA Folklor İnstitutunun aspirantı***

# DASTANA ÇEVRİLMİŞ TARİX, YAXUD «ƏDALƏTLİ» ŞAH ABBAS

**Özət**

Məqalədə «Abbas və Gülgəz» dastanında Şah Abbas obrazı təhlil edilir və tarixi faktlarla müqayisə edilir. Burada əsas tədqiqat obyekti gerçəkdə baş vermiş tarixi hadisələrin dastana çevrilməsi – dastanlaşmasıdır.

**Açar sözlər:** Şah Abbas, "Abbas və Gülgəz" dastanı, dastan və tarixilik

**Резюме**

В статье анализируется образ Шаха Аббаса в эпосе "Аббас и Гюльгез" и сравниваются исторические факты. Эти факты связаны с шахом Аббасом. Они помогают нам анализировать его фольклорный образ и историческую личность.

**Ключевые слова:** Шах Аббас, ерос "Аббас и Гюлгез", ерос и историчность

**Summary**

In the article the character of Shah Abbas in the epos "Abbas and Gulgez" is analyzed and compared with the historical facts. The main investigation object is turning the historical events which were in the real life into the epos.

**Key worlds:** Shah Abbas, epos "Abbas and Gulgez", epos and historicity.

* * *

Xalq təfəkkürünün məhsulu olan folklor nümunələri qismən də olsa xalqın yaşadığı ictimai-tarixi şərait, onun həyat tərzi haqqında təsəvvür yaradır, bu və ya digər dərəcədə tarixlə bağlı olur. Tarixi keçmişi öyrənmək, tarixi şəxsiyyətləri tanıyıb aşkar etmək və dilimizin qədimliyini, onun tarixi lüğət fondunu aydınlaşdırmaq baxımından zəngin mənbə hesab edilən, əhvalat, hekayə, rəvayət, macəra, tərifnamə, tərcümeyi-hal, hətta tarix anlamları daşıyan (3, 597) dastanlarımızın bəzilərində Şah Abbas obrazının təsvir edilməsi onun el arasında tanınmış şəxsiyyət olduğunu və hakimiyyəti dövründə böyük nüfuz qazandığını göstərir. Çünki tarixi şəxsiyyət olan Şah Abbas Azərbaycan folklorunda həm tarixiliyi, həm də müsbət və mənfi cəhətləri ilə yaddaqalan obrazdır. Bu baxımdan folklorla tarix əlaqəli şəkildə öyrənilməlidir. Burada əsas tədqiqat obyekti gerçəkdə baş vermiş tarixi hadisələrin dastana çevrilməsi – dastanlaşmasıdır. Çünki dastan xalqın kollektiv yaradıcılığının məhsuludur. Lakin onun son müəllifi xalq olsa da, ilk müəllifi yaradıcı şəxslər olmuşdur. Hafizəli, fitri istedadlı, sinədəftər istedadlar görüb eşitdikləri hadisələri bir mövzu, bir obraz ətrafında toplamış, sazla-sözlə çalıb çağıraraq ölməz dastanlar qoşmuşlar. Dildən-dilə, dövrdən-dövrə keçdikcə dəyişən, kamilləşən bu dastanlar



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

ozan-aşıq məktəbi davamçıları vasitəsilə nəsildən-nəslə yadigar qalmışdır. Artıq bu bir fakt kimi öz təsdiqini tapmışdır ki, tarixdə heç bir hadisə folklor nümunələrində ümumiləşmədən folklorlaşa bilmir. Ona görə də yaranan bu folklor nümunələri, demək olar ki, real tarixi hadisələr əsasında yaradılmış yarımtarixi nümunələrdir. Əsl elmi tədqiqat bu ikiliyi (Şah Abbasın həm müsbət, həm də mənfi cəhətləri) nəzərdən keçirib, tarixi həqiqəti üzə çıxarmaq və obrazın tarixi mövqeyini və onun bədii ədəbiyyatdakı yerini düzgün müəyyənləşdirməkdən ibarətdir. Elə buna görə də ilk növbədə Şah Abbas dövründə baş verən siyasi proseslərə nəzər salmaq, sonra isə bunları folklordakı faktlarla müqayisə etmək lazımdır. Çünki «Güclü şəxsiyyət, hətta parlaq fərdiliyi ilə fərqlənsə belə, zəruri tarixi proseslərin və hadisələrin daşıyıcısıdır» (12, 24) meyarını əsas götürsək, ilk növbədə Şah Abbası tarixi şəxsiyyət kimi səciyyələndirmək daha məqsədəuyğun olardı.

Müəyyən islahatlar keçirərək dövləti möhkəmləndirən, əmirlər arasında davam edən çəkişmələri aradan qaldıraraq (5, 400) 32 il hakimiyyətdə olan Şah Abbas [1587–1629] haqqında bir çox folklor nümunəsi yaradılmışdır. Xüsusilə də «Abbas və Gülgəz» dastanında bu obrazın tarixilyi, tarixlə bağlılığı az-çox özünü büruzə verir, burada tarixə bənzər həqiqətin izləri görünməkdədir. Amma bu, tarix deyildir. Çünki dastanda tarixi hadisələr az ümumiləşmiş, artırılmış – əksildilmiş şəkildə mübaliğəli bədii inikasını tapmışdır. Azərbaycan xalqının tarixi kökləri, xalqın milli-məişət və tarixi inkişafı ilə bağlı olub, onun özünəməxsus dünyagörüşünü, şüur və psixologiyasını əks etdirməsinə baxmayaraq, heç kəs bu dastanı tam real tarixi hadisələrin konkret təsviri hesab edə bilməz. Ona görə ki, folklorda tarix olduğu kimi əks olunmur, bu, mümkün də deyil. Deməli, Şah Abbasdan bəhs edərkən ona folklorda qiymət verilməsi, yaxud folklorun tam olaraq tarixdən qaynaqlanması fikri düzgün deyildir; əsrlərin yaddaşından süzülüb-gələn bu şifahi xalq nümunələri dəyişikliyə uğrayır, az-çox mübaliğədən istifadə olunur. Məsələn, «Abbas və Gülgəz» dastanını yaradan Abbas Tufarqanlı 16 – 17 əsrlərdə yaşamışdır. Bu onu göstərir ki, Şah Abbas Aşıq Abbas Tufarqanlının müasiri olmuşdur. Elə bu da dastanın tarixilyini sübut edən faktlardan biridir.

Dastanda Aşıq Abbasın Şah Abbasa qarşı mübarizəsi fərdi, şəxsi səadət uğrunda aparılan mübarizə çərçivəsindən çıxaraq ümumilikdə azad sevgi qarşısındakı maneələrə qarşı mübarizə kimi verilmişdir (2, 107–164). Süjet boyu aşıq şeirinin, demək olar ki, bütün şəkillərindən istifadə olunan bu dastanda, əsasən, iki sevən gəncin macəra dolu məhəbbətindən, sevgi sınaqlarından, ayrılıq iztirablarından, ən nəhayət, vüsal səadətindən poetik söz açılır. Dastanın qısa məzmununa görə, Təbriz xanı Batmanqılınc Məhəmmədin bacısı Gülgəz Pəri əslən Tufarqan mahalından olan Abbasa buta verilir. Bundan sonra saz götürüb aşıq olan Abbas Gülgəzin arxasınca gedir. Təbrizdə bir çox sınaqlardan məharətlə çıxır. Batmanqılınc onun haqq aşığı olduğuna inanır, bacısı Gülgəz Pərini Abbasa verməyə razı olur. Lakin bu vaxt Gülgəz Pərinin çox gözəl olması sorağını alan Şah Abbas Dəli Becanla Sarı Xocanı və Allahverdi xanı Pərinin dalınca göndərir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İsfahana – Şah Abbasın sarayına zorla aparılan Gülgəz Pərinin dalınca gedən Abbas yolda müxtəlif maneələrlə qarşılaşır. Əslində, ilk baxışda şəxsi səadət, xüsusi məqsəd uğrunda gedən bu çarpışma fərdi deyil, ümümi, hətta ictimai idi. Dastanda bizim həm də tarixi şəxsiyyət kimi araşdırdığımız şahla – Şah Abbasla bağlı verilən məqamlar çox maraqlıdır. Burada Şah Abbasın xalqa münasibəti, saray zülmü, hakimiyyəti dövründə tətbiq etdiyi cəza üsulları haqqında mühüm təsvirlər verilir.

Gülgəzin güclə Şah Abbasın hərəmxanasına aparılmasına etiraz edən Abbası tanıyırlar, birinci dəfə qovur, ikinci dəfə vurub başını yarırlar, üçüncü dəfə isə Abbas daş-qalaq edilir. Sağ qalan Abbas onu saldıqları quyudan da salamat çıxır, İsfahana onlardan da tez çatır, Şah Abbasa ağzına gələni deyir, yenidən salındığı zəhər quyusu behişt bağına dönür, hətta orada onun üçün zərrin taxt da qurulur, sonra da mollanın verdiyi almada zəhər olduğunu başa düşür, gözləri bağlanmış halda məclisə gətiriləndə Gülgəzi tanıyır və s. Şah Abbasın «qəzəbi artır, ağzı köpüklənir», cəllad çağırır. Lakin dastanın sonunda Şah Abbas özü vəzir-vəkili çağırtdırıb «Abbas haqq aşığıdı, onun sevgilisini əlindən alsaq bəlaya düşərik. Bütün sınaqlardan çıxdı. Onu öldürməyib, Pərini ona verirəm» – deyir (2, 159). Beləliklə də, Abbas sevgilisinə qovuşur. Çünki Şah Abbas da başa düşür ki, Abbas haqq aşığıdır. Abbas bütün sınaqlardan uğurla çıxması ilə özünün haqq aşığı – yenilməz və məğlubedilməz olduğunu Şah Abbasa sübuta yetirir. Əsas ideyasını xalq kütlələrinin Şah Abbas istibdadına, zülmünə qarşı mübarizə və nifrəti təşkil edən «Abbas və Gülgəz» dastanında tabe etdiyi ölkələrlə qəddarcasına rəftar edən, insanlara qarşı ağır fiziki cəzalar işlədən və kütləvi qırğınlar törədən Şah Abbasın (9, 66–67; 16, 263) daha başqa bir zalım xüsusiyyətinə – gözəl qızları şah sarayına – öz hərəmxanasına aparması kimi mənfur siyasətinə də geniş yer verilmişdir. Tarixçilərin yazdığına görə əhali, Şah Abbas qoşununun hərəkət etməsi xəbərini eşidəndə, öz gənc qız və oğlanlarının namusunu qorumaq üçün, onları uzun müddət saman, yonca arasında, təndirdə gizlədir, yaxud da ki, mağaralara, ucqar bölgələrə köçürür, bununla da onları azğın dövlət məmurlarının gözündən uzaq saxlamağa çalışırdılar. Deməli, «Abbas və Gülgəz» dastanında bir həqiqət var. Struktur-semantik sisteminə görə rəmzi-məcazi dastanla gerçək məhəbbəti əks etdirən dastan arasında dayanan (3, 613) «Abbas və Gülgəz»in əldə olan yeddi variantının üçündə Şah Abbas müsbət planda işlənmişdir. M.H. Təhmasibin yazdığına görə, bunlar əsasən, iki variant ətrafında birləşir. Bir varianta görə Şah Abbas ədalət göstərərək adamları tərəfindən tutulmuş Aşıq Abbası və hərəmxanaya gətirilmiş Pərini azad edir. Başqa bir varianta görə isə, hərəmxanada toplanmış qızların ata və qardaşları üsyan qaldırır, karvana hücum edərək əsirləri azad edir, ölümə məhkum olunmuş Aşıq Abbası xilas edirlər (17, 177). Orta əsrlərdə isə geniş xalq kütləsinin padşaha «Allahın yerdə köləsi kimi baxdığını və M. Kazımoğlunun yazdığı kimi, hökmdar – Allah bağlılığına inamın yüzilliklər boyu yaşadığını nəzərə alsaq (78, 91), onda «Abbas və Gülgəz» dastanının üç variantında müsbət planda verilmiş Şah Abbasın obrazının mahiyyətini dərk etmək heç də çətin deyildir. Deməli, mifoloji baxışlara



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

görə müqəddəsləşdirilən şah obrazının dastanda belə təsvir olunması da müəyyən gerçəkliyin ifadəsidir, dastanın tarixlə səsləşən tutarlı dəlillərindən biridir.

Ədalətsiz şahın Gülgəz Pərini saraya aparması, Abbasa vermək istəməməsi faktlarının da həqiqi olduğu şübhəsizdir. Çünki tarixdə belə bir fakt təsdiq edilmişdir. Şahın onsuz da onlara etdiyi bütün zülmlərə dözən xalq şah qoşunlarının gözəl qızların, say-seçmə oğlanların şah sarayına aparılmasına, hərəmxanada saxlanmasına, yaxud ayrı-ayrı adamlara peşkəş verilməsinə dözmür, öz dərdini folklor nümunələrində təsvir edirdi. Bu tarixi həqiqət o zamanlar Azərbaycana gəlmiş Avropa səyyah və tarixçilərinin əsərlərində də saxlanmaqdadır. Məsələn, holland səyyahı Yan Streys «Üç səyahət» adlı əsərində Şah Abbasın hakimiyyəti illərində Şamaxıda şahidi olduğu bir hadisədən bəhs edir. O, əvvəlcə bildirir ki, Şah Abbasın tabeliyində olan yerli feodallar öz himayələrində olan kəndlərdən gözəl qızları seçib zorla şah hərəmxanasına göndərməyə borclu idilər. Sonra səyyah göstərir ki, Şamaxı əyalətində şah üçün 500 gözəl qız və oğlan yığıldı. Bunun üçün şahın əmri ilə elan edildi ki, hər kəs 2 yaşından 17 yaşına qədər uşaqları ilə müəyyən olunmuş yerə toplanmalıdır. Burada «Şaha layiq» və «günahsız uşaqlar»ı seçəndən sonra hamısını Şamaxıya toplayırlar. Seçilənlər axırıncı toplanışdan sonra valideynlərin nalə və fəğanları altında İsfahana yola salınırlar. Müəllif göstərir ki, kimin pulu varsa, övladını satın alıb, xilas edir, yoxsulların uşaqları isə zorla aparılırdı (8, 296). Səyyahın gördüklərinə istinadən öz fikrini bildirən P. Əfəndiyev də Şah Abbasın zalım, qəddar olduğunu və dastanda təsvir edilənlərin həqiqətə uyğunluğunu təsdiq edir. Bu faktlar da göstərir ki, folklora daxil olmuş hər bir motivin arxasında tam olmasa da, qismən müəyyən tarixi həqiqətlər gizlənmişdir (3, 290-291). Çünki bu folklor nümunələri müəyyən zaman və məkan çərçivəsində tarixi inkişaf mərhələlərindən keçərək yeni çalarlar qazanmış, əsrdən-əsrə daha da dolğunlaşmışdır. Şifahi yolla ağızdan-ağıza keçərək yayılan folklor nümunələrində tarixilik də qismən erroziyaya uğramış, buna baxmayaraq yenə də öz tarixi əhəmiyyətini itirməmişdir. Bu baxımdan Qrekov eposu, dastanı «xalqın özü tərəfindən danışılan tarix» adlandırmışdır (11, 5). Həqiqətdə də bu belədir. «Abbas və Gülgəz» aid olduğu dövrün ictimai hadisələrini əks etdirməklə yanaşı, həm də burada xalqın ruhu, onun əhvali-ruhiyyəsi, müəyyən fikirləri, yoxsul kütlələrin arzu və istəkləri də ifadə edilir. Şah Abbas obrazının varlığı isə dastanın reallığını daha da artırır.

Öz doğma oğullarına belə divan tutmuş, bəzilərini öldürmüş, bəzilərinin isə gözünə mil çəkdirmiş Şah Abbasın xalqa zülm etməsi təbii idi. Hətta tarixdə belə bir fakt da təsdiq olunmuşdur ki, Şah Abbasın «çigyeyən»lər adlanan cəza dəstələri olmuşdur. Bu dəstələrə Şah Abbas elə təlim verdirmişdi ki, cəzalandırılması əmr olunan adamı aralığa alır, ətini dişləri ilə qopara-qopara öldürürmüşlər (13, 89). Bu xüsusiyyət də «Abbas və Gülgəz» dastanında göstərilmişdir. Çünki «Şah Abbasın yazdığı fərman»la hazır olub, «elə, ölkəyə talan salan» zalım vəzir, Becan və Sarı Xoca Gülgəz Pərini İsfahana apararkən onların ardınca gedən Abbası daşqalaq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

edirlər. Bu variantların birində hətta Gülgəz özü də daşqalaqda iştirak edir (18, 257). Təhmasibin fikrincə, bu daşqalaq şahın yuxarıda haqqında bəhs edilən ağır cəza tədbiri idi. Deməli, hakimiyyətdə olduğu dövrdə islahatları, qələbələri, dövləti möhkəmləndirməsi ilə yadda qalan Şah Abbas eyni zamanda adamlara belə ağır cəza verəcək qədər də zalım və qəddar olmuşdur. Bu tarixi hadisələri əks etdirən dastan, sözsüz ki, Şah Abbasın sağlığında yaradıla bilməzdi. Çünki hətta Şamaxıda kiçik bir müqavimətə görə hirslənərək südəmər uşaqları xırmana düzüb üstlərində vəl sürdürən (1, 435) Şah Abbasın dövründə nə qədər cəsarətli aşıq olsa belə, bu dastanı yarada bilməzdi. Ona görə də aşığın bu dastanı Şah Abbas tamamilə hakimiyyət başından gedəndən sonra yaratması fikri ağlabatandır. Göründüyü kimi, tarixiliklə uyarlıq təşkil edən bu ictimai hadisələrdə o dövrün həyatı, insanların gərgin yaşayış tərzi, günahlı-günahsız bütün insanların həyatının hətta öz oğlanlarına belə rəhm etməyəcək dərəcədə qəddar və amansız olan şahdan asılılığı xalq dilində, bədii boyalarla çox aydın şəkildə ifadə olunmuşdur. Eyni zamanda dastanda bir həqiqət də vardır ki, o da şahın tarixdə doğrudan da zalım olduğunu göstərir. Bir fakta nəzər salmaq kifayətdir: Dastanın sonunda aciz qalan Şah Abbas Gülgəzi Abbasa verir. Amma necə verir? Abbasın başına min bir müsibətlər gətirdikdən sonra; onu zəhər quyusuna saldırmaqla, daş-qalaq etdirməklə və s. cəza tədbirləri ilə qorxuda bilməyən şah onun haqq aşığı olmasına görə təslim olur. Nəticədə Abbas sağ qalır və Gülgəzə qovuşur. Deməli, Abbasın əvəzinə sıradan bir insan olsaydı, o, çoxdan öldürülmüş, sevgilisi isə şah hərəmxanasına aparılmışdı. Lakin dastanın nikbin sonluqla bitməsi və ənənəvi folklor nümunələrinin hamısında minilliklərdən süzülüb gələn ənənə – xeyirin şər üzərində qələbə çalması üçün dastançı Abbası mütləq fövqəladə, qeyri-adi xüsusiyyətlərlə xarakterizə etməli idi. Bu haqda Ş. Cəmşidov yazırdı: «…16-17 əsrlərdə belə bir Azərbaycan aşığının olması və onun tarixi şəxsiyyət olan Şah Abbasın müasiri kimi, həm də başına gələn hadisələrə bənzər hadisənin mümkün olmasına şübhə ola bilməz. Deməli, buradakı hadisələrdə nəsə tarixi iz, əlamət vardır». Ona görə də «folklora daxil olmuş hər bir motivin arxasında müəyyən tarixi həqiqətlər gizlənmişdir» fikri ilə razılaşmamaq mümkün deyil (14, 19).

**Qaynaqlar:**

1. Ahmed Rasim. Osmanlı tarihi. C.1. İstanbul, 2008. 138 s.
2. Azərbaycan dastanları. 5 cilddə. II c. B., «Lider nəşriyyat», 2005, 448 s.
3. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. C.1. B., Elm, 2004, 760 s.
4. Azərbaycan tarixi. 7 cilddə. C.3. XIII-XVIII əsrlər. B., Elm, 2007, 592 s.+ 56 s. illüstrasiya.
5. Azərbaycan tarixi. B., Çıraq, 2009, 872s.
6. Bakıxanov A.A. Gülüstani-İrəm (tərcümə edəni M. Əskərli). B., Minarə, 2000, 224 s.
7. Cəmşidov Ş. Azərbaycan yazılı dastan abidələrinin tədqiqi. B., Nurlan, 2002. 187 s.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

8. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. B., Maarif, 1981, 401 s.
9. Иванов М.С. Очерки истории Ирана. Госполитиздат. 1952, 468 с.
10. Kazımoğlu M. Xalq gülüşünün poetikası. B., «Elm» nəşriyyatı, 2006, 268 s.
11. Греков Б.О. Киевская Русь. М.-Л., Изд-во АН СССР,1944, 347 с.
12. Mehdiyev R. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. B., Azərbaycan Milli Ensiklopediyası, 2001, 276 s.
13. Рахмани А.А. «Тарих-и алам-арай-и Аббаси» как источник по истории Азербайджана. Б., Академия наук АзССР, 1960, 192 с.
14. Rzayev N. Möcüzəli qərinələr. B., Azərnəşr, 1984. 114 s.
15. Səfərov Y. Azərb. folklorunda tarixilik. B., Elm, 2005, 240 s.
16. Стрейс Я.Я. Три путешествия. М., Александрия, 2006, 496 с.
17. Тахмасиб М.Г. Проблема народности азербайджанских дастанов и современное состояние их исследования. Вопросы изучения эпоса народов СССР. М., Изд. АН СССР, 1958. С.176-187.
18. Təhmasib M.H. Azərbaycan xalq dastanları. Orta əsrlər. B., Elm, 1972, 400 s.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Tofiq Nəcəfli, dos.***
***AMEA A.A.Bakıxanov ad. Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini***

# AZƏRBAYCANDA CƏLALİLƏR HƏRƏKATI VƏ KOROĞLU

**Резюме**

В последней четверти XVI века в результате завоевания большинства территорий Азербайджана в ходе Османо-сефевидской войны был нанесен тяжелый удар развитию государственности нашего народа. Население страны столкнулось с социально-экономической катастрофой. Все это привело к массовому движению джелалидов в Восточной Анатолии и Азербайджане. По сведениям письменных источников, в Восточной Анатолии и Азербайджане действовало много повстанческих отрядов, руководимых лидерами движения джалалидов. Одним из самых известных лидеров этого движения является Кероглу.

П.Х.Боратав впервые в исторической литературе отметил, что Кероглу был исторической личностью. Он, пользуясь официальными списками «Мухумма», хранящимися в Османском Архиве правительства Турецкой Республики, выявил 4 документа, связянных с Короглу. А в советской исторической историографии впервые И.П.Петрушевский отметил, что Кероглу был исторической личностью.

**Ключевые слова:** Азербайджан, Сефевиды, Шах Аббас I, Джелаиды, Кероглы.

**Summary**

In the last quarter of the sixteenth century, in the course of the Ottoman-Safavi War, as a result of the occupation of the most Azerbaijan territory the development of the Azerbaijan statehood was exposed to grave danger, the people faced with disaster. Mass protests, hunger, robbery, terrible destructions and economic downturn caused a new wave of struggle against the Ottoman. This struggle has entered history under the name of the Jalaliler movement. According to the source of the time the Jalaliler movement had covered "the lands from Istanbul to Iravan, from Baghdad to Demirgapy". According to Tabrizli Arakel, under the leadership of Garayazychy Deli Hassan, Kosa Safar, Janpolad oglu Ali Pasha, Tanrytanymaz, Goyebakhan Chilpaq, Gara Said, Kesekes, Injakhan, Agajan Piri, Manoglu, Yolasygmaz, Deli Nasib, Gizir oglu Mustafa bey, Ahmad pasha and Koroglu were activating Jalali groups in Eastern Anatolia and Azerbaijan.

Among the leaders of the Jalaliler movement Koroglu was especially notable. P.H.Boratav was the first in the historical literature to note Koroghlu to be the



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

historical figure. While using the Muhimma copy-books kept in the Bashbakanlig Ottoman Archive of the Republic of Turkey he had revealed 4 documents related to Koroglu. In the Soviet historiography I.P.Petrushevski was the first to note Koroglu to be a historical figure.

**Key words:** Azerbaijan, Safavids, Ottoman, Shah Abbas I, Jalaliler, Koroglu.

* * *

XVI əsrin son rübündə Osmanlı-Səfəvi müharibəsinin gedişində Azərbaycanın əksər ərazilərinin işğal olunması nəticəsində Azərbaycan dövlətçiliyinin inkişafına ağır zərbə vuruldu, əhali fəlakətlə üzləşdi. İşğalın ilk mərhələsində Osmanlı hakim dairələri Səfəvi hakimiyyəti dövründə müəyyən olunmuş vergi məbləğləri və mükəlləfiyyətlərlə kifayətlənirdilər. Lakin işğalın sonrakı mərhələsində onlar dövlət xəzinəsini zənginləşdirmək, şəxsən varlanmaq məqsədilə tədricən vergilərin məbləğini və mükəlləfiyyətlərin sayını artırırdılar. Osmanlı istilasının ağırlığını çəkmiş Azərbaycan əhalisi müstəqil siyasi inkişaf arzusu ilə mübarizəyə qalxırdı. Osmanlı hakimiyyəti dövründə Azərbaycanın iqtisadi vəziyyəti çox ağır idi. Əhali uzun müddət yaşadığı ata-baba yurdlarını tərk etmək məcburiyyətində qalırdı. Əhalinin yaşadığı yerlərdən getməsi Osmanlı zülmünə qarşı olan etirazın özünəməxsus formalarından birinə çevrilmişdi [4, 244].

XVI əsrin sonlarına doğru Azərbaycanda yaranmış vəziyyətin şahidi olmuş tarixçi Osmanlı işğalı dövründə Təbrizdəki şəraiti belə təsvir edir: "Təbriz əhalisinin bir hissəsi şəhər işğal olunarkən qılıncdan keçirilmiş, digər bir qismi əsir kimi aparılmış, qalanları isə Əcəm İraqının şəhərlərinə qaçmışdılar" [4, 244]. İsgəndər bəy Münşinin verdiyi məlumata görə, Osmanlı işğalı illərində "Təbriz şəhərində əhali qalmamışdı". "Abadlığına və əhalisinin sayına görə islam aləminin şəhərləri arasında tayı-bərabəri olmayan" Təbriz şəhərinin əhalisinin tamamilə köçməsi haqqında Osmanlı mənbələrində də məlumatlar vardır [4, 244].

XVI əsrin sonlarında Osmanlı imperiyasının iqtisadi vəziyyəti xeyli ağırlaşmışdı. Çoxsaylı ordunun saxlanması dövlət ehtiyatlarının tükənməsinə, xeyli gənc işçi qüvvəsinin ictimai istehsaldan ayrılmasına, istehlakın və məsrəflərin artmasına səbəb olmuşdu. İqtisadi həyatdakı böhranın təzahürləri geniş əraziyə malik olan Osmanlı imperiyasının bütün vilayətlərində nəzərə çarpırdı. Ucqar vilayətlərdə, xüsusilə fəth olunmuş ölkələrdə iqtisadi böhranın nəticələri xüsusilə acınacaqlı idi. Osmanlı hakim dairələri həmin ərazilərdə başlıca diqqəti istehsalın təşkilinə deyil, zəbt olunmuş ərazilərin qarət edilməsinə yönəltmişdilər [4, 246].

XVI əsrin sonlarında Osmanlı hakim dairələri ağır iqtisadi vəziyyətə düşmüş Azərbaycandan ordunun və inzibati aparatın saxlanması üçün zəruri olan vəsaiti əldə edə bilmirdilər. Uzun müddət ərzində məvaciblə təmin olunmayan Osmanlı əsgərləri arasında da narazılıq yaranmışdı. Kütləvi narazılıq, aclıq, soyğunçuluq, dəhşətli dağıntılar və iqtisadi tənəzzül Azərbaycanda osmanlılara qarşı yeni mübarizə dalğasına səbəb oldu. Bu mübarizə tarixə Cəlalilər hərəkatı adı altında daxil olmuşdur. Bu



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

hərəkat adını 1518-1519-cu illərdə Tokatda üsyan başçısı olmuş Şeyx Cəlaldan almışdır. Sonralar Osmanlı imperiyasının müxtəlif vilayətlərində genişlənən kəndli hərəkatları Osmanlı tarixlərində "Cəlali fitrəti" adı altında yad edilmişdir [4, 246; 13, 38]. 1590-cı il Osmanlı-Səfəvi sülh müqaviləsinə əsasən Osmanlı imperiyası tərkibinə qatılmış Azərbaycan torpaqlarında işğalçı hakimiyyət orqanlarına qarşı üsyanlar Cəlalilər hərəkatı adı ilə məşhur olmuşdur. Ə.Ə.Rəhmaninin qeyd etdiyi kimi, XVI əsrin sonu – XVII əsrin əvvəllərində Şərqi Anadoluda baş verən Cəlalilər hərəkatı uzun müddət tarixi ədəbiyyatda "Türkiyə" amili kimi qeyd olunmuş, onun digər ölkələrdə yayılmadığı göstərilmişdir [11, 52]. Bu hərəkatın Azərbaycana və qonşu ölkələrə yayılması ilk dəfə İ.P.Petruşevski tərəfindən qeyd edilmişdir [10, 326]. Şərqi Anadoluda Cəlalilər hərəkatı Türkiyə tarixçisi M.Ağdağ tərəfindən tədqiq olunmuşdur [1]. Qara Yazıcı- Dəli Həsənin başçılığı altında üsyan isə A.Tveritinova tərəfindən araşdırılmışdır [13]. 1591-ci ildə Təbriz əhalisinin üsyanı Cəlalilər hərəkatının növbəti təzahürü idi. Bu üsyanda şəhərdə yerləşdirilmiş Osmanlı qarnizonunun bir hissəsi də iştirak edirdi. Osmanlı əsgərlərinin bu üsyanın fəal iştirakçısı kimi çıxış etməsi onların uzun müddət ərzində məvacib almaması ilə əlaqədar idi. Osmanlı əsgərlərinin təbrizlilərin üsyanına qoşulması onların Azərbaycandakı hökmranlığı üçün böyük təhlükə törədirdi. Üsyançılar öncə cəbbəxananı ələ keçirdilər. Lakin üsyan rəhbərləri aydın məqsəd və qətiyyət nümayiş etdirmədilər. Təbriz hakimi Cəfər paşa bundan istifadə edərək üsyanı amansızcasına yatırdı [11, 53; 4, 247].

Təbriz üsyanının məğlubiyyəti Azərbaycanda Cəlalilər hərəkatının hələ sonu demək deyildi. İsgəndər bəy Münşi Osmanlı-Səfəvi müharibələrinin növbəti mərhələsi (1603-1607) ərəfəsində Səfəvi dövləti ilə həmsərhəd Osmanlı ərazisində Cəlalilər hərəkatının genişlənməsini Şah I Abbasın Azərbaycanı, Cənubi Qafqazı azad etmək məqsədilə hərbi yürüşə çıxmaq qərarı ilə əlaqələndirir. Onun fikrincə, Osmanlı dövlətinə qarşı müharibəyə başlamaq qərarına gələn Şah I Abbas belə hesab edirdi ki, "irsən bizim müqəddəs nəslimizə məxsus olan Azərbaycan və Şirvan ölkələrini sayca az olan və öz padşahına qarşı mübarizə aparan Cəlalilərin hakimiyyəti altında saxlamaq, həmin ölkələrin fəth olunması üçün yaranmış əlverişli məqamı əldən vermək ağıllı şəxslərə xas olmayan hərəkətdir" [8, 441; 11, 53].

Səfəvi qoşunlarının Azərbaycana və qonşu ölkələrə müdaxiləsi Cəlalilər hərəkatının zəifləməsinə səbəb olmadı. Əksinə, Şah I Abbasın həyata keçirdiyi siyasət, xüsusilə böyük əhali kütləsinin vətəndən zorla köçürülməsi Cəlalilər hərəkatının genişlənməsi üçün əlverişli şərait yaratdı. Arakel Təbrizlinin verdiyi məlumata görə, Cəlalilər hərəkatı "İstanbuldan İrəvana, Bağdaddan Dəmirqapıyadək olan torpaqları" əhatə etmişdi [3, 95]. Şərqi Anadoluda və Azərbaycanda genişlənən Cəlalilər hərəkatı mürəkkəb hadisə idi. Bu hərəkatda həmin tarixi dövrün müxtəlif ictimai təbəqələrindən çıxmış şəxslər iştirak edirdilər. Səfəvi-Osmanlı müharibəsində Səfəvi ordusunun osmanlılara qarşı hərbi əməliyyatları gedişində xarabazarlığa çevrilmiş ərazilərdə hər bir istehsal fəaliyyəti qadağan edilirdi. Arakel



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Təbrizli yazır ki, "bu səbəbdən torpaq sahibləri və əkinçilər qorxu və dəhşətlə öz yerlərini tərk edir, qalalarda, qəsrlərdə, mağaralarda möhkəmlənir, əkinçiliklə məşğul ola bilmirdilər" [3, 95; 11, 55; 4, 248].

Arakel Təbrizlinin verdiyi məlumatdan aydın olur ki, Səfəvi-Osmanlı müharibəsinin gedişində Osmanlı və Səfəvi ordularının yürüşlərindən sonra Cənubi Qafqazda Cəlalilər hərəkatı daha da fəallaşırdı. Bu hərəkatda qarət olunmuş ərazilərdə yaşayan yerli kəndlilər və şəhər yoxsulları yaxından iştirak edirdilər. Onlar yerli feodallara və varlılara hücum edərək onların əmlakını müsadirə edirdilər [11, 54].

Arakel Təbrizlinin verdiyi məlumata görə, Şərqi Anadoluda və Azərbaycanda Qarayazıcı Dəli Həsənin, Kosa Səfərin, Canpolad oğlu Əli paşanın, Tanrıtanımaz, Göyəbaxan Çılpağın, Qara Səidin, Kəsəkəsin, İncəxanın, Ağacan Pirinin, Manoğlunun, Yolasığmazın, Dəli Nəsibin, Gizir oğlu Mustafa bəyin, Əhməd paşanın, Koroğlunun rəhbərliyi altında Cəlali dəstələri fəaliyyət göstərmişdi [3, 94-95; 11, 54].

Arakel Təbrizli baş vermiş hərəkata kilsə-feodal mövqeyindən yanaşır, həmin hərəkatın tezliklə yatırılmasını arzulayırdı. Lakin hərəkata düşmən mövqeyində durmuş salnaməçi Cəlalilərin "əsilzadə, hər şeyə qalib döyüşçü, əyilməz cəngavər olduqlarını" etiraf edirdi [3, 93-94; 11, 55]. Arakel Təbrizli Cəlalilər hərəkatını sırf islam hadisəsi kimi təqdim etməyə can atmış, onun xristianlar, o cümlədən ermənilər əleyhinə yönəldiyini sübut etməyə çalışmışdır. Lakin tarixi faktlar erməni müəllifinin bu fikrini təkzib edir [11, 55; 4, 248].

Arakel Təbrizlinin verdiyi məlumata görə, Azərbaycanın İrəvan bölgəsində Cəlalilər hərəkatına Məhəmməd Kənakerli rəhbərlik etmişdi. Qırxbulaq yaxınlığında Topal Osman paşanın dəstəsi ilə toqquşmadan sonra Məhəmməd Kənakerli bölgəni tərk etməyə məcbur olmuşdu. Topal Osman paşanın rəhbərliyi altında Cəlalilər Qərbi kəndini özünə mərkəz seçərək qışı orada keçirmişdi. Kiçik qruplara ayrılan Topal Osman paşanın dəstəsi bir ilə yaxın Arazın hər iki sahilində fəaliyyət göstərmişdi [3, 89; 11, 54]. Arakel Təbrizlinin verdiyi məlumata görə, İrəvan bölgəsində Əbdürrəhman Müsəllimin rəhbərliyi altında digər Cəlali dəstəsi də fəaliyyət göstərmişdir [3, 90; 11, 54].

Cənubi Qafqazda Səfəvi-Osmanlı hərbi əməliyyatlarının gedişində Cəlalilər hərəkatının arealı daha da genişlənmişdi. Osmanlıların Cənubi Qafqazdakı hakimiyyəti möhkəmləndikcə Cəlalilər mübarizə meydanından sıxışdırılmış və xalq kütlələrinin azadlıq hərəkatı yeni formalar almışdı. Osmanlı ordusunun məğlub etdiyi Cəlalilərin bir qismi Səfəvi hökmdarı Şah I Abbasın himayəsinə sığınmışdı. 1608-ci ildə Ərzurum ətrafında 20 minlik Osmanlı qoşununa qarşı son döyüşdən sonra Cəlalilər qızılbaşlar ölkəsinə pənah gətirmiş, Çuxursəd hakimi Əmirgünə xan Qacar onların Azərbaycanda yerləşməsinə razılıq vermişdi. Səfəvi şahı cəsur və cəngavər Cəlalilərin böyük dəstəsindən həm tabe olmaq istəməyən kürd feodallarına, həm də Osmanlı dövlətinə qarşı istifadə etmək istəyirdi. Lakin o, Cəlalilərdən qorxurdu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

İsgəndər bəy Münşi şahın Cəlalilərə ehtiyatlı, ikili münasibətini əsərinin bir neçə yerində aydın şəkildə qeyd etmişdir. O, Cəlaliləri "özbaşına və hərəkətlərində ardıcıl olmayan" şəxslər kimi təqdim edir. "Böyük vəzir" Hatəm bəy Ordubadi şahın göstərişi ilə Təbrizdə olan Cəlaliləri siyahıya aldı. İsgəndər bəy Münşi qeyd edir ki, bu zaman Təbrizdə 1380 nəfər Cəlali vardı və onlar daim mərkəzi hakimiyyətin nəzarəti altında saxlanılırdılar. Səfəvi sarayı Azərbaycanda yenicə məskunlaşmış Şərqi Anadolu Cəlalilərinin yerli Cəlalilərlə birləşməsindən qorxurdu. Lakin Anadolu Cəlalilərinin öz daxilində vahid fikir və əməl birliyi yox idi [11, 65-57; 4, 248-249]. İsgəndər bəy Münşinin verdiyi məlumata görə, Türkiyədən İrəvan bölgəsinə gələn Cəlalilər ilk gündən bir-biri ilə rəqabət aparan üç dəstəyə ayrılmışdı [8, 543; 11, 57]. Ərzurum yaxınlığında İbrahim paşaya məğlub olan Qələndər oğlu Məhəmməd paşa Şah I Abbasın himayəsinə qəbul edilmişdi. Səfəvi sarayı Anadolu Cəlalilərinin qüvvələrini Həsən Ustaclının rəhbərliyi altında Səfəvi ordusu ilə birləşdirərək Marağa istiqamətində yürüş edərək Kürdüstana yiyələnmək, Türkiyə ərazisi ilə Diyarbəkrə kimi irəliləyərək Çuxursəd hakimi Əmirgünə xan Qacarın dəstəsi ilə cəbhəni birləşdirmək fikrində idi [11, 58]. Hadisələrin gedişi göstərir ki, iki ilədək Şah I Abbasa xidmət edən Anadolu Cəlaliləri hökmdarın münasibətindən narazı qalmışdılar. Osmanlı hakim dairələrinin təbliğatı, üsyançıların bağışlanması haqqındakı vədlər, vətənə qayıtmaq çağırışları da öz nəticəsini verdi. 1610-cu ilin ortalarına doğru 500 nəfərlik dəstə istisna olunmaqla bütün Anadolu Cəlaliləri Osmanlı imperiyasına qayıtdılar. Qara Səidin və Hacı Məhəmmədin rəhbərliyi altında Cəlalilər Şah I Abbasa sədaqətli qalaraq Ali Divanın şəxsi xidmətçiləri sırasına daxil olundular [11, 58].

Cəlalilər hərəkatına başçılıq edən rəhbərlər arasında Koroğlu xüsusilə seçilirdi. Koroğlu şəxsiyyəti və onunla əlaqədar hadisələr Azərbaycan folklorunda özünün geniş əksini tapmışdır. Tarixi ədəbiyyatda Koroğlunun tarixi şəxsiyyət olduğunu ilk dəfə qeyd edən P.H.Boratav olmuşdur. O, Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxivində saxlanılan Mühimmə dəftərlərindən istifadə edərək Köroğlu ilə bağlı 4 sənəd aşkara çıxarmışdır [6]. Sovet tarixşünaslığında Koroğlunun tarixi şəxsiyyət olduğunu ilk dəfə qeyd edən İ.P.Petruşevski olmuşdur [10, 326; 11, 58]. Arakel Təbrizli Koroğlu barədə yazır ki, "bu o Koroğludur ki, hazırda aşıqlar tərəfindən oxunan çoxlu nəğmələr bəstələmişdir" [3, 94; 11, 61].

Yadelli işğalçılara, feodal zülmünə qarşı barışmaz mövqeyi və mübarizliyi xalq kütlələrində Koroğluya sonsuz hörmət və sevgi qazandırmışdı. Real tarixi şəxsiyyət olan Koroğlu ədalətli xalq müdriki, yenilməz qəhrəman, mahir aşıq kimi xalqın sevimlisinə çevrilmişdi. Xalqın qəhrəmanlıq və ədalətli hakim idealları Koroğlu obrazında əksini tapmışdır. Türkiyə tarixçisi Faruq Sümer Başbakanlıq Osmanlı Arxivində Mühimmə Dəftərlərində Koroğlu ilə bağlı saxlanılan 8 ədəd sənədi 1987-ci ildə nəşr etdirərək onun fəaliyyəti haqqında tarixi gerçəklikləri aşkara çıxardı [12, 9-46]. 1580-ci il 25 oktyabr tarixli sənəddə Koroğlunun Bolu sancağına bağlı Gerede mahalının Sayık kəndindən olduğu bildirilir. Koroğlunun evlər basıb iki



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

kişini yaraladığı və bir oğlanı apardığı xəbər verilir, onun ələ keçirilməsi üçün dəfələrlə təşəbbüs göstərilsə də, bir nəticə vermədiyi bildirilirdi. F.Sümerin fikrincə, 1578-ci ildə Səfəvi dövlətinə qarşı başlanılan müharibə davam etdiyi üçün Koroğlunun bundan faydalanaraq hərəkətə keçdiyi, əsgərlərin əksəriyyəti müharibəyə cəlb olunduğu üçün onun ələ keçirilməsi uğursuz olmuşdu [12, 12]. 1581-ci il 11 aprel tarixli ikinci sənəd Anadolu bəylərbəyinə yazılmışdır. Bu sənəddə Kıbrus qazısının məktub göndərib eyni mahalda Çakal oğlu Mustafa ilə Gerede mahalında Rövşən adlı şəxsin ətrafına 15-20 nəfər kişi toplayaraq "evlər basdığını, adamları qətl etdiyini, Gerede, Kıbrus, Bəybazarı və Yörük mahallarındakı pis əməllərini getdikcə artırdıqları", xalqın qorxudan şikayət etmədikləri bildirilir, Kıbrus mahalından Qızılcuk oğlu Məhəmməd, onun oğlu Mustafa, Əbdürrəhman, Həmzə, Gerede mahalından Doğançı Kamal, Yaralı oğlu Mustafa onların yaxın silahdaşı olub Cəlali olduqları bildirilirdi. Kıbrus qazısı bu Cəlalilərin ortadan qaldırılması üçün hərbi qüvvə göndərilməsini xahiş edirdi [12, 13; 2, 298]. Bu sənəddə Koroğlu Rövşən adı ilə təqdim olunur ki, dastanda da belədir. Mühimmə dəftərlərindəki 3 iyun 1581, 29 noyabr 1581 və 29 yanvar 1582-ci il tarixli sənədlərdə Koroğlu Rövşənin və Kıbrus mahalından olan silahdaşı Çakal oğlu Qara Mustafanın hələ ələ keçmədikləri, beş-altı mahalı qorxu içərisində saxladıqları, yaratdıqları qorxu nəticəsində heç kimin şikayət etməyə cürət etmədiyi bildirilirdi [12, 14-15]. Mühimmə dəftərindəki 20 iyul 1583 və 16 avqust 1584-cü il tarixli sənədlərdən aydın olur ki, Koroğlu dörd ildən çox Bolu bölgəsində fəaliyyət göstərmişdi [12, 15]. F.Sümerin fikrincə, Osmanlı ordusu Səfəvilərlə müharibəyə cəlb olunduğu üçün Koroğlunun fəaliyyəti üçün geniş imkanlar açılmışdı. Bununla yanaşı, Koroğlunun yaratmış olduğu qorxu nəticəsində bəylər və qazılar ondan şikayət etməyə cürət etməmişdilər. Lakin bütün bunlara baxmayaraq, o, müxtəlif istiqamətdən sıxışdırıldığı üçün fəaliyyət göstərdiyi bölgəni tərk etmək məcburiyyətində qalmışdı [12, 17]. F.Sümerin qənaətinə görə, Koroğlu bu zaman Çənlibelə (Çamlıbelə) gəlmişdi. Çənlibel dastanda adı xatırlanan Bolu ətrafında deyil, Sivas-Tokat karvan yolu üzərindədir [12, 18]. Çənlibel Koroğlunun əsas istinadgahı olmuşdu. Şərqi Anadoluda və Azərbaycanın qərb bölgəsində Çənlibel adlı qalalar vardır. XIX əsrə aid mənbələrdə Çənlibel qalasının adı çəkilir. A.A.Bakıxanov Xoy hakimi Cəfərqulu xan Dünbulinin bir müddət Naxçıvan yaxınlığındakı "Koroğlu Çənlibelində" yaşadığını göstərmişdir [5,191]. Koroğlu Tokatdan keçən karvanlardan "yol bacı" almışdı. Dastanda onun karvanbaşı ilə deyişməsi də bunu təsdiq edir. Koroğlu Çənlibeldə də sıxışdırıldığı zaman Azərbaycana gedərək Şah Abbasın xidmətinə girmişdi [12, 18, 19-20]. Bunu dövrün mənbələri də təsdiq edir. 1602-ci ildə Cəlali Qara Yazıcını məğlub etdikdən sonra qışı keçirmək üçün Tokatda qalan vəzir Sokolluzadə Həsən paşa Cəlali Qara Yazıcının qardaşı Dəli Həsən tərəfindən mühasirəyə alınmış və atılan tüfəng atəşi nəticəsində öldürülmüşdü [12, 46]. XVII əsrin əvvəllərində Şah I Abbas dövründə yazılmış tarixi mənbənin verdiyi məlumata görə, "Həzrəti şah Abbas Naxçıvanı Osmanlılardan geri aldığı zaman



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

(1603) Koroğlu Osmanlı sultanının xidmətinə girən və Pasində oturan Sədlu tayfa başçısı Əliqulu bəyi, oğlunu və anasını ələ keçirərək Şaha göndərdi" [12, 19]. Cəlalədin Münəccim Yəzdi "Tarix-i Abbasi" əsərində yazır: "Bu xanədanın çörəyi və duzu ilə özünün və atalarının sümüklərini bəsləmiş olan Sədlu tayfa başçısı Əliqulu bəy nankorluq edərək Osmanlıların xidmətinə girərək çaşnigir (süfrəçibaşı) vəzifəsini əldə etmişdi. Koroğlu Pasin ətrafında onu, oğlunu və anasını tutub şahın hüzuruna göndərmişdi" [12, 46]. Bu bir daha sübut edir ki, Koroğlu Səfəvi şahının xidmətinə girmişdir. Lakin digər Cəlali rəhbərləri kimi Koroğlunun da Səfəvi şahı ilə münasibətləri son nəticədə kəskinləşmişdi. Səfəvi-Osmanlı müharibəsinin başa çatması, Azərbaycan torpaqlarının Osmanlı işğalından azad edilməsindən sonra Koroğlu və dəlilərinin fəaliyyəti Şah I Abbası narahat etmişdi. Şərqi Anadolu və Azərbaycan rəvayətlərində dastan qəhrəmanımızın aqibəti barədə deyilir: "Səfəvi hökmdarı Şah Abbas Koroğlunun igidliyindən xəbər tutaraq ondan komandanları arasında yer almasını istəyir. Ancaq Koroğlu "şahlar insan dəyərini bilməzlər" söyləyərək şahın təklifini qəbul etmir. Səfəvi hökmdarı təklifinin mənfi qarşılanmasına qəzəblənərək Koroğlunun başını gətirənə "sərdarlıq" verəcəyini elan etdirir. Şah Abbasın bu qərarından xəbərdar olmayan Koroğlu yaşlandığını anlamış, buna görə Şaha hörmətini çatdırdıqdan sonra Məkkə ziyarətinə getməyə qərar verir. O, dəlilərini çağıraraq qərarını onlara bildirir, Eyvazı yerinə xələf təyin edir. Dəliləri Qazlı gölə kimi gələrək onu yola salırlar. Onlardan ayrılmadan öncə Koroğlu üzünü Çənlibelə çevirərək dağlara xitabən bir misra oxuyaraq həyatında ilk dəfə ağlamışdı. Sonra Şahın hüzuruna yollanan Koroğlu yolda İlyas və Bəhram xana rast gəlir. Onlar şahın gözündən düşərək vəzifədən uzaqlaşdırılmışdılar. Buna görə də, şahın diqqətini cəlb etmək üçün Koroğlunu öldürməyə qərar verdilər. Onlar öncə Qıratı öldürürlər. Koroğlu bu iki adamın hücumu qarşısında Qıratsız heç nə edə bilməyəcəyini bilərək boynunu vurmaları üçün onlara uzadır. Onlar Koroğlunun başını Şaha aparırlar. Şah Abbas qəhrəmanın başına baxan zaman ətəyinə bir damcı qan damır. Buna görə o, "bu məsum qanıdır, siz onu igidcəsinə öldürmədiniz" deyir və Çənlibeldən gətirtdiyi üç "dəli"nin sözlərindən həqiqəti öyrənir. Dəlilər və onu sevən insanlar Koroğlunun ölümünə ağlayırlar. Şah Abbas İlyas və Bəhram xanı İsfahan xalqına parçalatdırır və Eyvazın Çənlibeldəki hakimiyyətini təsdiq edir" [7, 15-16; 12, 17-18].

Koroğlu öldükdən sonra dastan qəhrəmanına çevrilmiş və bunda da başlıca rolu aşıqlar, saz şairləri oynamışlar. XVII əsrin ortalarında o artıq bir dastan qəhrəmanı idi. F.Sümer yazır ki, mən Koroğlunun dastanlarda yazıldığı kimi saz şairi olduğuna inanır və bilavasitə Bolu bəyi, dağlar, Qırat və Eyvaz ilə bağlı mahnıların onun tərəfindən söyləndiyini qəbul edirəm. Mənaları təsirli, həyəcan verici olan bu mahnıları bəstələyən və oxuyan bir insan şübhəsiz cani ruhlu ola bilməz. Müharibə dövründə olsa da, bütün təbəəsini bir anda hərəkətə keçirməyi bacaran mükəmməl bir təşkilata sahib olan dövlətin hökumət mərkəzinə yaxın ərazilərdə fəaliyyət göstərməsi onun cəsur olmaqla yanaşı, tədbirli bir insan



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

olduğunu göstərir. Çətinliklərə çarə tapması, təhlükələrdən xilas olması dastan qəhrəmanı olmasında mühüm amil olmuşdur. Koroğlunun ağıllı olduğu qədər mərd ruhlu bir insan olduğunu, silahdaşlarına qarşı şəfqətli hərəkət etdiyini söyləmək olar [12, 21]. Həm igid döyüşçü, mahir sərkərdə, həm də istedadlı aşıq olan Koroğlu şəxsi xoşbəxtlik deyil, xalq səadəti uğrunda mübarizə apardığı üçün xalqın yaddaşında dastan qəhrəmanına çevrilmişdir. Koroğlunun yaxın silahdaşları Dəli Həsən, Giziroğlu Mustafa bəy, Kosa Səfər və Tanrıtanımaz tarixi qaynaqlarda Cəlalilərin geniş şöhrətə malik rəhbərləri arasında yad edilir. Giziroğlu Mustafa bəy dastanda Koroğlunun ən yaxın silahdaşı kimi təqdim olunur. Arakel Təbrizli müstəqil surətdə fəaliyyət göstərən Cəlali dəstələrinin 25 rəhbəri arasında Koroğludan sonra onun adını ehtiramla yad edir. F.Sümerin Mühimmə dəftərindən onunla bağlı əldə etdiyi 4 sənəd onun tarixi şəxsiyyət olduğunu bir daha təsdiq edir [12, 21-22, 36-40]. Giziroğlu Mustafa bəylə bağlı arxiv sənədləri 1588-1591-ci illərdə onun fəaliyyətinə aydınlıq gətirir. 1588-ci il 25 may tarixli ilk sənəd Ərəbgir sancaqbəyi Ömərə ünvanlanmış hökmdə sancaqbəyi, alay bəyləri və sipahilər səfərə getdikləri üçün Giziroğlu Mustafa bəyin ətrafına topladığı 250 nəfərlik dəstə ilə Diyarbəkr, Ərzurum, Sivas, Hələb və Maraş yollarından keçən karvanları qarət etdiyi, bölgədə üç-dörd ildir fəaliyyət göstərdiyi üçün onun cəzalandırılması tələb edilirdi [12, 21-22, 36-37]. Sənəddə Giziroğlu Mustafa bəyin 3-4 ildir fəaliyyət göstərdiyinin qeyd edilməsi onun 1584-cü ildən fəaliyyətdə olduğunu söyləməyə imkan verir. F.Sümer yazır ki, Ömər bəy əmr edilən işi bacarmadığı üçün 1588-ci il sentyabrın 22-də Sivas bəylərbəyinə göndərilən hökmdə Giziroğlu Mustafa bəyin öz fəaliyyətini durmadan genişləndirdiyini xəbər verilməklə yanaşı, onun mütləq ələ keçirilməsi üçün lazımi tədbir görülməsi tələb olunurdu [12, 22, 37-38]. 1589-cu il 27 yanvar tarixli sənəddə Giziroğlu Mustafa bəyin on nəfər silahdaşı ilə ələ keçirildiyi və İstanbula sultanın sarayına göndərilməsi əmr edilir [12, 22, 38]. 1591-ci il 6 dekabr tarixli növbəti sənəddə Giziroğlu Mustafa bəyin həyatına son qoyulduğunun bildirilməsi göstərir ki, o, İstanbula gətirildiyi zaman edam edilmişdir [12, 39-40].

Koroğlunun yaxın silahdaşları arasında Dəli Həsən önəmli yer tutur. Onun tarixi şəxsiyyət olduğunu dövrün arxiv sənədləri və digər qaynaqları təsdiq edir. Qardaşı Qara Yazıcının əməlini davam etdirən Dəli Həsən 1602-ci ilin fevralında Şərqi Anadoluda Cəlalilər hərəkatına rəhbərlik etməyə başlayır. Dəli Həsən qardaşının qisasını almaq üçün Sokolluzadə Həsən paşa üzərinə yürüş etdi. Tokat yaxınlığında Cəlalilərə məğlub olan Həsən Paşa Tokat qalasına sığındı. O, Dəli Həsənin adamları tərəfindən öldürüldü. Diyarbəkr bəylərbəyi Xosrov paşa vəzir təyin edilərək Cəlalilər üzərinə göndərildi. Tokata göndərilən Hafiz Əhməd paşa da Dəli Həsənlə bacarmadı [9, 102]. Lakin Dəli Həsən 1603-cü ilin iyulunda Osmanlı sultanının tərəfinə keçərək Bosniya bəylərbəyi təyin olundu. O, sərdar Lələ Mehmed paşanın qüvvələri ilə birləşmək üçün on min nəfər Cəlaliləri ilə Mcarıstana hərəkət etdi [13, 75-77; 9, 104]. Mustafa Ağdağ yazır ki, Peçt yaxınlığında Avstriyalılarla



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

döyüşdə Dəli Həsənin Anadolunun başına bəla olan 6 min silahdaşı öldürüldü. Dəli Həsən Bosniya bəylərbəyi olarkən xalqla yola getmədiyi üçün sultanın əmri ilə edam edildi [2, 405-406].

Koroğlunun yaxın silahdaşlarından biri də Kosa Səfər olmuşdu. Onun tarix şəxsiyyət olduğunu İsgəndər bəy Münşi də təsdiq edir. Onun məlumatından aydın olur ki, öncə Cəlalilər hərəkatında iştirak edən, sonralar Ərzurum hakimi olan Kosa Səfər Osmanlı ordusunun Azərbaycana yürüşündə iştirak etmiş, osmanlıların 1605-ci il noyabrın 7-də Sufiyan yaxınlığındakı ağır məğlubiyyətindən sonra əsir alınmış və edam olunmuşdur.

Beləliklə, Koroğlunun və yaxın silahdaşları olan Giziroğlu Mustafa bəy, Dəli Həsən, Kosa Səfər və mənbələrdə adı çəkilən, ancaq dastanda yad edilməyən digər Cəlalilər tarixi şəxsiyyətlər olmuş, Azərbaycanda və qonşu ölkələrdə baş verən tarixi hadisələrdə yaxından iştirak etmişdilər.

## Qaynaqlar

1. Ağdağ M. Celali üsyanları. Ankara, 1963.

2. Akağ M. Türk halkının dirlik ve düzenlik kavkası. “Celali isyanları”. İstanbul, 1975.

3. Аракел Даврижеци. Книга истории. Перевод с армянского, предисловие и комментарий Л.А.Ханларян. М., 1973.

4. Azərbaycan tarixi. Yeddi cilddə, Üçüncü cild. Bakı, 1999.

5.Бакиханов А.А. Гюлистан-и Ирам. Редаксия, комментарии, примечания и указатели академика АН АзССР З.Г.Буниятова. Баку, 1991.

6. Boratav P.N. Kör Oğlunun tarihi şahsiyeti. II. Tarih Kongresi (Ankara, 12-20 Kasım, 1943), Ankara, 1948, s. 124-129.

7. Boratav N.P. Köroğlu destanı. Türkiyat Enstitüsü Yayınları, İstanbul, 1931.

8. İsgəndər bəy Münşi. Tarix-i aləm aray-i Abbasi. Tehran, 1314 h.q.

9. Öztuna Y. Başlangıcından zamanımıza kadar Türkiye tarihi. c. 8. Ankara, 1965.

10. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI – XIX вв. Л.. 1949.

11. Рахмани А.А. Азербайджан в конце XVI и в XVII веке. Баку, 1981.

12. Sümer F. Kör Oğlu, Kizir Oğlu Mustafa ve Demirçi oğlu ile ilgili vesikalar. Türk Dünyası Araştırmaları. Şubat 1987, s. 9-44.

13. Тверитинова А. Восстание Кара-языджи – Дели Хасана в Турции. М.-Л., 1946.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Ülkər Əliyeva, f.ü.f.d.**
**AMEA Folklor İnstitutu, böyük elmi işçi**
**azfolklor@yandex.ru**

# QƏHRƏMANLIQ EPOSLARIMIZ "AZƏRBAYCAN YURD BİLGİSİ"NDƏ

**Özət**

Məqalə "Azərbaycan yurd bilgisi" jurnalında qəhrəmanlıq eposunun tədqiqatına həsr olunmuşdur. Məqalədə XIX-XX əsrin tarixi hadisələri ətraflı analiz olunmuşdur.

**Açar sözlər:** qəhrəmanlıq eposu, jurnal, tarix

**Summary**

The article is dedicated to the heroism epos in "Azerbaijani homeland knowledge". In the article the historical events of the 19-20th century are analyzied in details.

**Key words:** the heroic epos, magazine, history

**Резюме**

Статья посвящена исследованию героического эпоса в журнале «Азербайджан юрд билгиси». В статье подробно были проанализированы исторические события XIX-XX веков.

**Ключевые слова:** героический эпос, журнал, история

* * *

1932-34-54-ci illərdə İstanbulda Əhməd bəy Cəfəroğlunun redaktorluğu altında nəşr edilən "Azərbaycan Yurd Bilgisi" (6) jurnalında ardıcıl olaraq Azərbaycan ədəbiyyatının müxtəlif yönümlərdə tədqiqi ilə bağlı elmi araşdırmalar dərc olunurdu. Bu baxımdan Azərbaycan şifahi xalq ədəbiyyatına jurnalda geniş yer verilmişdi. Xalq dastanları və aşıq yaradıcılığı bu araşdırmaların mərkəzində dayanmaqla jurnalda bayatılar, nağıllar, atalar sözləri və sayaçı nəğmələri barədə də orijinal elmi mülahizələr söylənmiş, onların bədii-estetik və melopoetik sistemini əks etdirən elmi təhlillər verilmişdir.

Qeyd etmək lazımdır ki, "Azərbaycan Yurd Bilgisi" (6) nəşr olunduğu dövrdə sovet Azərbaycanında da şifahi xalq ədəbiyyatı ilə bağlı tədqiqat işləri aparılırdı. Lakin həmin tədqiqatlarda sovet ədəbiyyatşünaslığının qanunlarına uyğun olaraq aşıq yaradıcılığı da süni şəkildə sovetləşdirilirdi. Bakıda aşıq yaradıcılığı vulqar sosioloji yönümdə araşdırıldığı halda, "Azərbaycan Yurd Bilgisi"ndə həmin mövzu heç bir təzyiqə məruz qalmadan obyektiv tarixi-mədəni və elmi- nəzəri əsaslar üzərində araşdırılırdı. Yəni aşıq ədəbiyyatına xas olan fəlsəfi-irfani ideyalar, ülvi məhəbbət, güclü vətənpərvərlik və o cümlədən istilaya qarşı mübarizə mühacir



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tədqiqatçıların araşdırma istıqamətinin əsasını təşkil edirdi. Azərbaycan Yurd Bilgisi"nin aşıq yaradıcılığına xüsusi diqqət yetirməsi mühacirət ədəbiyyatşünaslığında Azərbaycan milli-mənəvi varlığının əsas sütunları arasında folklor sərvətlərinin, o cümlədən də, onun başlıca istiqamətlərindən biri olan aşıq sənətinin gerçək elmi dəyərini vermək istəyi ilə bağlı idi. Otuzuncu illər Azərbaycan sovet folklorşünaslığında aşıq sənəti ilə ifrat sol əyintilərə (aşıq yaradıcılığında zülm və istismarın, dinin tənqidi, məzlumların müdafiəsi, kolxoz, neft, pambıq və s. mövzulu tədqiqatlar) yol verildiyi zaman "Azərbaycan Yurd Bilgisi"nin obyektiv elmi prinsiplər əsasında araşdırmalar aparması gələcəyi düşünən bir hərəkatın – istiqlal mücadiləsinin yaşaması və davam etməsi kimi səciyyələnə bilər.

"Azərbaycan Yurd Bilgisi" dərgisində Əhməd Cəfəroğlu "Azərbaycan Ədəbiyyatında İstiqlal Mücadiləsi" adlı 4 hissəli iri həcmli məqaləsini məhz xalqın istiqlaliyyəti uğrunda mübarizəsinə həsr etmişdir. Bu məqalədə Azərbaycan xalqının istiqlal mücadiləsi illərində apardığı mübarizədən, qəhrəman oğullarımızın şücaətindən, onların haqqında yaranmış dastanlardan və bu dastanların təhlilindən bəhs edilir. Məqalənin birinci hissəsində xalqın bu mübarizəsini geniş şəkildə təsvir edən müəllif, burada "Cavad xan" dastanının da təhlilinə geniş yer vermişdır. Dastandan ayrı-ayrı parçaları misal gətirən müəllif yazır ki, "Qafqazın və xüsusilə Azərbaycanın ruslar tərəfindən istilası və milli mücadiləsi qanla yazılmalıdır. Mürəkkəb yerinə istifadə olunan qanın rus tərəfindən malını-pulunu deyil, əksinə milli mövcudiyyətini, varlığını və istiqlalının tacı uğrunda axıdılan Azərbaycan türkünün qanı ilə yazılmalıdır. Hələ əzim, silah və qüvvət qarşısında bir ovuc istiqlalpərvər ordusu ilə "sən mənim ölümü qala divarının üzərindən taparsan" andı ilə istiqlalını itirməkdən çox öz ölümünü üstün tutan Cavad xanların və Bakı xanlığının torpağına rusların ayaq basmasına dözməyib rus generalını qətlə yetirən Həmzələrin qanı ilə yazılmalıdır ki, həqiqi Azərbaycan tarixi anlaşıla bilsin" (8).

Rus tarixçilərinin tarixi təhrif etmələrindən şikayətlənən müəllif Sisianovun Cavad xana xitabən dediyi "milçəyin qarğa ilə müharibə etməsi mümkündürmü?" - sözlərinin xalqın yaddaşında möhkəmlənərək şifahi xalq ədəbiyyatında özünə yer tapmasını təqdirəlayiq hal hesab edir və düşünür ki, bu sözlər xalqın rus işğalçılarına olan nifrətini heç bir zaman azalmağa qoymayacaq.

"Cavad xan" dastanının təhlilini Əbdürrəhman Ağa Dilbazın şeirləri əsasında aparan müəllif bu dövrdə yaranan bir çox şifahi xalq ədəbiyyatı nümunələrini də tədqiqata cəlb etmişdir. Qeyd edək ki, Firudin bəy Köçərli də Əbdürrəhman Ağanın Cavad xana yazdığı müxəmməsini o dövrün tədqiqi üçün əhəmiyyətli hesab edir və yazır: "Mərhum Əbdürrəhman Ağanın əsərlərindən ən əhəmiyyətlisi Gəncə xanı Cavad xan Ziyadoğlunun rus qoşunu ilə 1804-cü ildə etdiyi döyüşün və onun göstərdiyi rəşadət və hünərin, ümumiyyətlə, bütün qəhrəmanlığı haqda yazdığı müxəmməsdir…".

Azərbaycan ədəbiyyatında istiqlal mücadiləsinin yetərincə işıqlandırılmadığından şikayətlənən Ə.Cəfəroğlu özünün bu sahədəki araşdırmalarını aşağıdakı kimi qruplaşdırmışdır:



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

1. Cavad xanın mücadiləsinə həsr olunan dastanlar və şeirlər;
2. Şimali Qafqazda Şeyx Şamil haqqındakı şeirlər;
3. Qaçaq dastanları və aşıq ədəbiyyatında rus istilasına qarşı yazılan şeirlər;
4. Azərbaycan vətənpərvər şeir məktəbi və milli cərəyan;
5. Son mühacirət dövrü istiqlal şeirləri.

Cavad xan haqqında ayrı-ayrı dastanlardan və şeirlərdən misallar gətirərək Ə.Cəfəroğlu rus şovinizminin təsiri nəticəsində Azərbaycan ədəbiyyatında bu mövzunun yetərincə dəyərləndirilmədiyini yazır. Bununla bağlı nə isə yazılsa da, ciddi təhlilə yol verilmir. Müəllif Cavad xanın mücadiləsinə həsr olunan dastanlardan və şeirlərdən misallar gətirir. Məsələn, M.Şakirin qələmə aldığı "Qurbaninin üç mənzuməsi"ndən:

Uğradı üstümə əmir hacısı,
Dərunumdan çıxmaz yarın acısı,
Qarabağda Ziyad xanın bacısı,
Verildi mevladan ehsan dedilər -

- şeir parçasını, Kərəmin dilindən:

Bir güldüm Ziyad xanın bağında,
Bülbüllər oxurdu sağımda, solumda,

Qara Məlik gəl eləmə yamanlıq,
Bu əhdi-ilqardan dönmək olurmu,
Həya eylə, utanginən sozündən,
Kəbə beytullahdan dönmək olurmu -

- şeiri, Gəncəli Həsənin dilindən:

Görən, bilən, eşidənlər yansunlar,
Gör nə yaman oldu halı Gəncənin.
Bizə imdat verməz padişahzadə,
Məyər tutulubdur yolu Gəncənin.

Baydakları bürc üstündə qurdular,
Tifil uşaqları hamu qırdılar,
O zaman ki, Cavad xanı vurdular,
Sanasan qırıldı beli Gəncənin,

- şeirini misal gətirə bilərik. Qeyd edək ki, Gəncəli Həsənin qələmə aldığı faciələr o dövrdə yalnız Gəncədə deyil, ruslar tərəfindən Azərbaycanın bütün bölgələrində törədildiyi amansız qətllər, soyğunçuluq, talançılıq, amansız vəhşiliklər çox aydın şəkildə təsvir olunmuşdur.

Tarixdən də məlumdur ki, XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Azərbaycanın daxili və xarici siyasəti çox mürəkkəb idi. Bir tərəfdə öz azadlığını qorumağa çalışan xalq, digər tərəfdə nəyin bahasına olursa-olsun, Qafqaza hakimlik etmək istəyən Dəli Petronun vəsiyyətlərinə sadiq Rus imperiyası, başqa bir tərəfdə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

isə Rusiyanın törətdiyi bu qanlı faciələrə Qafqazda digər marağı olan dövlətlərin – Qərbi Avropanın, xüsusilə də Fransanın və İngiltərənin seyrci nəzərlərlə olanları izləməsi bu dövrün mürəkkəb və xaotik olmasından xəbər verir.

Qeyd edək ki, hələ XVIII (1747) əsrdən Gəncə xanlığını Ziyadoğlular sülaləsi idarə edirdi. Bu sülalənin son xanı II Şahverdi xan oğlu Cavad xan XVIII əsrin təqribən üçüncü rübündən XIX əsrin başlanğıcına - yəni 1804-cü ildə Gəncənin ruslar tərəfindən istilasına qədər Gəncə xanlığının müstəqil-liyini qoruyub saxlayaraq idarə etmişdir.

1804-cü ildə Sisianovun rəhbərliyi altında rus ordusu tərəfindən Gəncə xanı Cavad xanın qətlə yetirilməsi ilə baş verən məşhur tarixi qətliam nəticəsində Gəncənin süqutu şifahi xalq ədəbiyyatında Cavad xanla bağlı dastanların yaranmasına təkan verdi. Əbdürrəhman Ağa Dilbaz oğlunun "Gəncə qırğını" adlı şeiri buna misal ola bilər. Onu da qeyd edək ki, Ə.Cəfəroğlu bu şeiri "Cavad xan" haqqında yazılmış dastanlardan hesab edib:

Ey qazilər gəldi qəzadan bəla.
Bir olmaz müsibət dövran eylədi.
Yüz verdi qoqayi deşt-i Kerbela,
Rus Gəncə şəhrini viran eylədi.

Neyləsin bisahib evdə qalan can,
Sübhu şam ah çəküp qan ağlaşan, qan.
Gəl yetiş imdadə ya sahib zaman
Kafir islam halin yaman eylədi…

- yeddi bənddə xalqın münasibəti ilə yanaşı Cavad xanın iradəsi, qeyrəti, cəngavərliyi tərənnüm edilir.

Firudin Köçərli göstərir ki, "əsil Gəncə faciəsini, rus ordusunun zülm və xunxarlığını, nəhayət Cavad xanın qəhrəmancasına istiqlal müdafiəsini təsvir edən ədəbi parça Əbdürrəhman Ağanın müxəmməs şəklində yazdığı ikinci bir dastandır".

"Azərbaycan Yurd Bilgisi" dərgisində Ə.Cəfəroğlu Əbdürrəhman Ağa Dilbaz oğlunun Cavad xana həsr etdiyi və "natamam nəşr edlmiş 24 müxəmməsi"ni ixtisarlarla tədqiqata cəlb etmişdir(7).

Müəllif Əbdülrəhman ağa Dilbaz oğlu bu müxəmməsdə tarixin bu dövrünü "Çərxi kəcrəftar" adlandıraraq adəm atadan başlamış Cavad xanın şəhid olduğu günə kimi dünyanın insanı gah güldürüb, gah ağlatdığından onun faniliyindən bu fani dünyada yalnız yüksək əxlaqi zənginliyə malik olanların gələcək nəsillərə şəxsi əxlaqi zənginliyi ilə nümunə olanlardan söhbət açıb, qeyrəti, namusu, şərəfli adı ilə doğma xalqının azadlığı uğrunda ürəkparası oğlu ilə canından artıq sevdiyi Gəncə divarları üstündə şəhid olmuş Cavad xan haqqında müxəmməsinin birini belə yekunlaşdırır:

Şahnamə şərhədəldən ol Cavad xan vəsfini,
Mədən-i cud-i səxavət adlı divan vəsfini,
Bilmiş Əflatun səmarın əhli meydan vəsfini,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Hikməti Loğmandan artıq dərdə dərman vəsfini,
Bir müxəmməs nəzmlə inşa qılım əşardan.

Ə.Cəfəroğlunun misal gətirdiyi bu şeir parçası, bir növ, Gəncəyə, Cavad xana mərsiyə deyir. Ümumiyyətlə, qeyd etməliyik ki, Cavad xanın ölümü və Gəncənin işğalı bütövlükdə Azərbaycanın işğalı demək idi. Çünki həm xalqın əzmkarlığı, həm də Gəncənin strateji əhəmiyyəti Azərbaycanın digər bölgələrinin də özünümüdafiəsinə mənəvi dəstək idi. Müxəmməsin digər bəndlərində Cavad xanın şəxsiyyətindən bəhs edən şair yazır:

Gəncə şəhrində Cavad xan kim nə əyyam var idi,
Sahibi lütfü ədalət sadık-ul ikrar idi,
Hər şin feilində mahir, akıl-u hüşyar idi,
Müxtəsər bir aləm ara imtahan sərdar idi,
Gər nələr çəkdi qəzadan dövri bəd ətvardan(8).

Bundan sonra şair Cavad xanın hakimiyyəti dövründə Şəki, Şirvan, Qarabağ və Dağıstana etdiyi yürüşləri və bu müharibədən kimlərin zərər çəkmədiyini və bu yürüşlərdən necə qalib çıxdığını təsvir edir. Hətta vali Baqratyanın belə Cavad xanla bacarmadığını tərənnüm edir.

Müxəmməsin bu bəndləri XVIII əsrin sonu – XX əsrin əvvəllərində Gəncədə baş verən ictimai-siyasi vəziyyəti çox aydın şəkildə əks etdirir. Görünür, elə ona görə də rus şovinizminin təsiri altında əzilən Azərbaycanda Firudin bəy Köçərli “bu müxəmməsin çap edilməsinin bəzi səbəblərə görə mümkün olmadığını” yazır. Ə.Cəfəroğlu isə, Əbdürrəhman Ağa Dilbaz oğlunun Cavad xanın döyüş səhnələrini əks etdirən bu müxəmməsinin bir hissəsini “Azərbaycan Yurd Bilgisi” dərgisində nəşr etdirmişdir:

Yığdı ləşkər, girdi meydana ədavət qıldılar,
Qıldılar adayi ol dəmdə fəraqət qıldılar.
Xub doğuşdu Gəncə xalqı bir rəşadət qıldılar,
Haqq yolunda bəzi kəs oldəm şəhadət qıldılar.
Döndü geri, girdilər ol qalaya naçardan,

- şeirində Cavad xanın gəncəlilərdən ibarət nizami qoşun yaratması tərənnüm olunur. Ancaq Cavad xan ağıllı bir dövlət başçısı, tədbirli bir sərkərdə olduğu üçün rus qoşununun hərbi gücünü, döyüş sursatı və şəxsi heyətin sayını gördükdə öz qoşununu qala divarlarının içərisinə çəkir. Əbəs qırğına yol vermir. Az güclə böyük ordu ilə müharibə qovğasından çəkinmir. Gecə-gündüz mühasirədə olan şəhərini müdafiə edərək şəxsi qəhrəmanlıq göstərir. Millətinə, xalqına ruh verir. Cavad xan qalanı tərk edib, sağ-salamat ruslardan da yayınıb gedənləri görsə də, öz qürurunu saxlayır. Təslim olmaqdansa, şərəfli ölümü üstün tutur. Hələ ki, canında nəfəs var bu çağırılmamış qonaqlardan bacardıqca çox məhv etməyə can atır. Bu şəxsi keyfiyyət, milli mentalitet müəllifin yaradıcı ruhunu riqqətə gətirir. O, Cavad xanın müsibətini imam Hüseyn müsibətinə bənzədir:

Sinəsindən urdular olmuşdu ol dəm biqərar,
Bir yanar el kimsəni ol dəmdə qıldı xakübar,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Yerbəyer həmlə edüb tiy urdular məcruhu zar,
Yadına düşdü o dəm şah-ı Hüseyni dilfikar,
İstədi feyzi şəhadət hakimi cəbbardan

…İmam Hüseyn də Kərbala düzündə oğlu Ələsgər və Ələkbərlə birgə şəhid olub. Bu mücadilədə Cavad xanla birgə oğlu Hüseynqulu xan da çiyin-çiyinə vuruşmuşdur. Cavad xan haqqında yaranan dastanlarda onun da adı igid, ərən kimi çəkilir. O, bu döyüşlərdə atasına yaxından dəstək olub. Onun bu qəhrəmanlıqları dastanda belə təsvir olunur:

Ol Hüseynqulu ağa kim gəldi xanın yanına,
Layiq idi hər hünərlər şövkətinə, şanına,
İstədi qanın qata ol dəmdə xanın qanına,
Qoymadı xan göndərüp bir qeyri bürc meydanına,
Yəni onun dəhşətin mən görmüyüm didardan,

- yazan müəllif, həm oğulda da ata qeyrətinin olduğunu, həm də atanın öz oğlunun ata gözləri önündə şəhid olmasını özü üçün dəhşət bilən Cavad xan böyüklüyündən doğan Vətənini, yurdunu öz canından və övladından çox sevən bir yurd sahibinin daxili aləmini açıb göstərir.

Hüseynqulu xan Gəncə uğrunda gedən son döyüşlərdə də atasını yalqız buraxmayıb, son nəfəsinə qədər birlikdə döyüşüb və hər ikisi 1804-cü ildə döyüş meydanında qəhrəmancasına həlak olmuşlar. Misal gətirdiyimiz müxəmməslərin sonunda Gəncə qətliamı və Cavad xanla Hüseynqulu xanın ölümü təsvir edilmişdir:

Kimləri dövranda beş gün bərqərar etmiş fələk,
Kərbəla dəştində şahı dilfikar etmiş fələk,
Ol Cavad xakini sahibi intizar etmiş fələk,
Ol Huseyin Qulu Ağanı xakübar etmiş fələk,
Ayinə tək cəng olub gül çöhrəsi xunbardan.

Biz imkanlarımızın məhdudluğundan bu gözəl müxəmməsləri "Azərbaycan Yurd Bilgisi"ndə olduğu kimi - tam şəkildə təqdim edə bilmirik.

Məqalənin sonunda Ə.Cəfəroğlu rusların istilası zamanı Şəkidə törətdikləri qırğınlara həsr edilmiş dastanları da diqqətdən qaçırmır və qeyd edir ki, Ə.Cəfəroğlu "Şəki şəhəri zəbt edildikdən sonra rus ordusunun və idarəsinin şəhər əhalisinə qarşı zülmü o qədər faciəli olmuşdur ki, Şəki şairlərindən Hatəm özünün "Oldu" adlı dastanında öz dövrünü "köç" və "rihlət" dövrünə bənzətmişdir. Əhalinin bəzilərinin gözlərini bağlayaraq ağaclara sarıdıqdan sonra komandanın əmri ilə rus əsgərləri tərəfindən güllələndikləri kafir ruslar əlində islamın əsir olduğu və nəhayət, Rəbbdən nicat diləməsi bu dastanda çox acı şəkildə təsvir edilmişdir".

Məlul baxır hər biri bir diyara,
Bir kimsə yoxdur ki, eyləsin çarə,
Gözlərin bağlayup çəkdilər dara,
Gör ki, nə bidadü, nə afət oldu.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Müəllif islamın kafir əlində zəbun olmasından işğalçıların və şeirlərdən heç bir şeylə fərqlənmədiklərindən güclülərin gücsüzlər üzərində amansızlıqlarından söhbət açıb, sonra da onların hansı müsibətə düçar olduğu səhnənin dəhşətini göstərir:

Kafirlər bunları etdi nişanə,
Bulaşdı əndamı al qızıl qanə,
Görübən halayıq düşdü əfqanə,
Məhşərdən bu da bir əlamət oldu.

Çevirib ətrafın iki səf soldat
Dolanır əlində tiyi komandant
Cəzm oldu bunlara həyatdan məmat
Qan yaşı çöllərə rəvayət oldu.

"Cavad xan" dastanından danışarkən, qeyd etmək lazımdır ki, Türkiyyat İnstitutunun asistenti Əbdülqadir Süleymanın "Türk qövmlərinin xalq ədəbiyyatında rus istilasının inikası" adlı 4 hissəli məqaləsi (1)bütün türk dünyasının rus istilası zamanı yaşadığı faciələrdən bəhs edir. Təbii ki, o da bu istilanın Azərbaycana vurduğu zərbələrdən yan keçməmiş və hətta Cavad xan haqqında Marağalı Əzizin dilindən qələmə aldığı "Bir yandan qar gəlir, bir yandan sazax" misrası ilə başlayan bir parça şeiri də tədqiqata cəlb etmişdir; Bu barədə yuxarıda qeyd etmişdik.

"Marağalı Əzizin nəql etdiyi dastanın mövzu etibarilə bu dastanın ("Cavad xan" dastanının - Ü.Ə.) bir variantı olduğu məlumdursa da, vəzn və dil etibarilə ayrı xüsusiyyətə malikdir" deyərək, Ə.Cəfəroğlunun tədqiqata cəlb etdiyi dastandan bir parçanı da misal gətirmişdir. Bu şeir parçasını təhlil edən Ə.Cəfəroğlu onun "Qaçaq Nəbi" dastanına aid olduğunu düşünür. Görünür, o da şeirin dilinə, bölgüsünə, hecalarına görə bu fikrə gəlir.

Azərbaycan şifahi xalq ədəbiyyatında "Qaçaq Nəbi" dastanının da özünəməxsus yeri və rolu var. Xalqımızın istiqlaliyyət uğrunda apardığı mübarizəyə həsr olunan qəhrəmanlıq dastanlarından biri olan "Qaçaq Nəbi" dastanı ötən əsrin 30-cu illərindən toplanmağa başlamışdır. Bu dastan "əvvəlcə mətbuat səhifələrində hissə-hissə çap olunmuş, 1938-ci ildə ayrıca kitabça halında buraxılmışdır. Sonralar dastanı Ə.Axundov toplamış və 1941-1961-ci illərdə iki dəfə kitab halında çap etdirmişdir. Dastanın bir variantını da H.Qasımov kitabça halında buraxmışdır (1960). A.Nəbiyevin 1977-ci ildə çap etdirdiyi variant da maraqlıdır". Azərbaycan tarixi qəhrəmanlıq dastanlarını tədqiqata cəlb edən prof. R.Rüstəmzadə "Qaçaq Nəbi" dastanının inqilabdan əvvəl geniş yayıldığını göstərmişdir: "Bütün qəhrəmanlıq dastanlarında olduğu kimi "Qaçaq Nəbi" dastanı da ilk dəfə ayrı-ayrı qoşmalardan ibarət olmuş, sonra bu qoşmalar rəvayətlərlə birləşərək dastan şəklinə düşmüşdür. Hətta inqilibdan vvəl bu qoşmalar "Nəbi" havasında ifa edilərək geniş yayılmışdır. O zaman Qori seminariyasının məzunlarından olan P.Vostrikov ilk dəfə "Qaçaq Nəbi" dastanı ilə maraqlanaraq, onu toplamış və bir parça SMOMPK



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məcmuəsinin 42-ci nömrəsində dərc etdirmişdir. Lakin dastanı ilk dəfə inqilabdan sonra Əliheydər Tahirov toplamış və ayrıca kitabça şəklində dərc etdirmişdir”.

Bu dastan “Azərbaycan Yurd Bilgisi” dərgisində geniş tədqiq olunmuşdur. Əhməd Cəfəroğlu yazdığı “Azərbaycan ədəbiyyatında istiqlal mücadiləsinin izləri” adlı silsilə məqalənin III hissəsinin II bölməsini məhz “Qaçaq Nəbi” dastanına həsr etmişdir. Burada o, göstərir ki, “Nəbi rus dövləti nəzərində asi, rus qanununu tanımayan yeni bir qüvvət olaraq meydana çıxmışdır. Fəqət müsəlləh qüvvətiylə rus höküməti əleyhində olmaq üzərə, fəqir əhalini himayəyə başlaması və əski həqiqi düşməni unudaraq müstəvli ruslara qarşı mücadiləyə başlaması, xalq arasında olduqca böyük bir əlaqə oyandırmış və hətta Nəbinin cürmünə qurban olanlar dəxi onu əfv etmişlər. Demək, Nəbi artıq yeni mücadiləsiylə milli düşmənə qarşı vəziyyət atmış və milli qəhrəman olaraq rus hökümətinin istilasını qüvvəti daxilində sarsıtmağa qərar vermişdir. İşdə dünənki çobanı bugünki qəhrəman mövqeyinə çıxaran səbəb xalqla bərabər yaşaması və ümumxalqın gizli hissini mücadiləsiylə oxşaya bilməsidir. Nəbinin üsyanı xalqın rus hökümətinə qarşı kütlə şəklində açıqdan-açığa izhar edəmədiyi üsyanın tam eynidir. Bu etibarla Nəbi milli-qəhrəman bir asidir”.

Qeyd edək ki, XIX əsrdə baş qaldıran milli-azadlıq hərəkatında qaçaqçılıq hərəkatı ciddi rol oynayırdı. Bu hərəkatla bağlı o dövrdə çoxlu sayda dastanlar yaranırdı. Bununla bağlı Ə.Cəfəroğlu yazırdı: “Azəri xalq ədəbiyyatında ruslara qarşı yürüdülən istiqlal mücadiləsi, bilxassə qaçaqlar haqqında yazılan dastanvari şerlərlə aşıq ədəbiyyatında kəndisinə inikas bulunmuşdur. Geniş xalq təbəqəsi yabançı istilanın əzici xatiratını və hürriyyət həyatının təəssürlərini daha fazla qaçaqlar ətrafında ağızdan-ağıza dolaşan və tərənnüm edilən şerlər vasitəsilə ifadəni müvafiq bulmuşdur. Bu gün azərbaycanın hər bir guşəsi bu qəbil dastanlarla kəndi istiqlal mücadiləsini təsid edirsə də, bunların içərisində ən çox rəvac bulanı və ümum kütlə arasında ən fazla rəğbət görəni “Qaçaq Nəbi”yə aid olanıdır”. Müəllifin fikrincə, “Qaçaq Nəbi” dastanının “... gərək məna və gərəksə muhtəviyyat etibarilə ifadə etdiyi məna, xalqın ruslara qarşı yürütdüyü hürriyyət davasını təmsil və hüququnu müdafiə etməsidir. Bu vasitə ilə bütün millət müstəvli qüvvətə qarşı kəndi nifrət və arzusunu izhar edə bilmişdir. Bu nöqtədən “Nəbi” dastanı azəri istiqlal mücadiləsi ədəbiyyatının bəlkə ən manidarlarından birisini təşkil edər”. Əhməd Cəfəroğlu “Qaçaq Nəbi” dastanını Azərbaycan xalqının rus müstəmləkəçilik zülmünə qarşı mübarizəsini əks etdirən ən mükəmməl folklor abidəsi kimi səciyyələndirərək dastan qəhrəmanı ilə onun prototipi arasında müqayisəli təhlil fonunda Nəbinin xan və bəylərin zülmünə qarşı mübarizə aparan bir kəndlidən rus əsarətinə qarşı vuruşan bir qəhrəman səviyyəsinə yüksəlməsinə diqqəti yönəldir. Müəllifin fikrincə, qaçaq Nəbinin rus müstəmləkəçilik rejiminə qarşı durması onun mübarizəsini sosial zəmindən siyasi müstəviyə keçirmiş, məhz buna görə də bir çox düşmənləri onu bağışlamış, hətta yeri gəldikdə yardımçı olmuşlar”. Həm də, eyni zamanda, qeyd etməliyik ki, bu dastanlar canlı tarixə söykənir və real həyatdan doğurdu. Hüseyn Baykaranın fikrincə, “...tarixin heç bir çağında çarlıq rus idarəsi, Azərbaycanda “qaçaq” deyə adlandırılan xalq



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

qəhrəmanlarından yaxasını qurtarmamışdır. Gəncədə Qaçaq Dəli Alı, Qarabağda Qaçaq Nəbi, Sofi təxəllüslü şair Qaçaq Kəblə Məhəmməd Kavaler və bu xalq qəhrəmanlarına xalq aşıqları dastanlar yaratmışlar. Bu hərəkatlar Azərbaycan xalqının rus istilası rejiminə durmadan, daimi qarşıdurması olmuşdur".

O dövrdə mühacirət ədəbiyyatında yaranan dastanların böyük əksəriyyəti qaçaqçılıq hərəkatına həsr edilmişdir. "Azərbaycan tarixi"ndə Qaçaq Nəbi haqqında məlumat verərkən onun "Gəncə vilayətinin Zəngəzur ərazisinin Aşağı Mollu kəndində doğulduğu, 16 yaşında atasına əl qaldıran bəyi döydüyü üçün həbs edildiyi, həbsdən qaçaraq dağlara çəkildiyi, kəndliləri başına toplayaraq rus çarlıq rejiminə və onun Azərbaycandakı əlaltılarına qarşı mübarizə apardığı" qeyd olunur.

Hüseyn Baykara "Azərbaycan istiqlal mücadiləsi tarixi" adlı əsərində "Qaçaq Nəbi" dastanından danışarkən dastandan bir parça nümunə gətirərək yazır:

Qazamat dalında gizləndim, yatdım,
Qoburnat gələndə sıçradım, qalxdım,
Aynalı tüfəngi doldurdum, atdım,
Qoy mənə desinlər, ay Qaçaq Nəbi,
Arvadı özündən ay qoçaq, Nəbi.

Nəbinin atlısı əllidi, beşdi,
Qırx gözəl içində Həcəri seçdi,
Güllələr urusun böyrünü deşdi,
Qoy mənə desinlər, ay Qaçaq Nəbi,
Arvadı özündən ay qoçaq Nəbi.

Müəllifin bu dastandan gətirdiyi bir sıra şeir nümunələri Azərbaycanda nəşr olunan variantdan fərqlənir. Müəllif Həcərin dilindən deyir:

Qazamat istidi yata bilmirəm,
Ayaqda qandalaq, qaça bilmirəm.
Açar urusdadır aça bilmirəm,
Mənim bu günümdə gələsən, Nəbi,
Qazamat dalını dələsən, Nəbi.

Azərbaycanda nəşr olunan "Qaçaq Nəbi" dastanının məlum variantında isə bu misralar aşağıdakı kimi verilir:

Qazamat istidir, yata bilmirəm,
Barısı qəlbidi, aşa bilmirəm.
Qapısı bağlıdı, aça bilmirəm,
Mənim bu günümdə gələsən, Nəbi!
Qazamat dalını dələsən, Nəbi!

Tarixi-siyasi və ədəbi-kulturoloji tədqiqatlar müəllifi Naki Keykurunun (Şeyxzamanlı) "Azərbaycan" (Ankara) dərgisində çap etdirdiyi məqaləsi də "Qaçaq Nəbi" dastanına həsr edilmişdir. Məqaləni dastanın ideya-məzmun baxımından təhlilinə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

həsr edən müəllif bu məqalədə bir çox maraqlı fakta aydınlıq gətirmişdir. Müəllif dastandan kiçik bir parçanı nümunə gətirərək yazır:

Nəbi gəzər ovasında, elində
Aynalı çiyində, qəmə belində,
Əzbər olub silisçinin dilində,
Qoymayın, qoymayın bu nadanı siz,
Divanı dalınca oynadanı siz.

Müəllif burada qeyd olunan "nadan" ifadəsinin rus çinovnikləri tərəfindən deyildiyini vurğulayır. Dastanda tez-tez qarşılaşdığımız:

Qoy sənə desinlər ay nadan Nəbi,
Tüfəngi əlində oynadan Nəbi

- misralarındakı "nadan" sözü, görünür düşmənləri tərəfindən ona edilən müraciətlə bağlıdır. Xalq öz sevimli qəhrəmanına belə deyə bilməzdi".

Mühacirətdə yazıb-yaradan ziyalılarımızdan Yunus Lənkərani də "Azərbaycan" (Ankara) dərgisində çap etdirdiyi "Qaçaq Nəbi" adlı məqaləsini məhz bu dastana həsr etmişdir. O da dastanın həyatdan və tarixi hadisələrdən götürüldüyünü qeyd edərək yazır:

Dağların daşları dumandı, duman,
Nəbidən çəkirlər zalimdən aman.
Qoç Koroğlu kimi Nəbi qəhrəman,
Qoy sənə desinlər, ay Qaçaq Nəbi,
Həcəri özündən ay qoçaq Nəbi.

Kiçik bir səhvi üzündən rus ordusunun təqiblərinə məruz qalan Nəbi dağlara qaçmağa məcbur olur. Onlarla mübarizə aparmaq məcburiyyətində qalan Nəbi başına dəstə toplayaraq rus ordusuna qarşı mübarizə aparır. Nəbinin qaldırdığı bu üsyan xalqın istiqlaliyyət mübarizəsinə çevrildi və xalq da bu qəhrəmanlığı unutmayaraq dastan şəklində ağızdan-ağıza ötürdü.

Dastandan nümunələr gətirərək aşıqların da bu mübarizədə rolunu qeyd edən Əhməd Cəfəroğlu sonda yazır: "Beləliklə, rus istilası afətinin millət üzərindəki ağır əksini aşıqlar hamıdan yaxşı duyduqlarına görə hər vasitə ilə rusları tənqid etməkdən çəkinməmişlər". Əhməd Cəfəroğlu bununla aşıqların xalqın həyatındakı rolunu qabarıq şəkildə biruzə verməyə çalışmışdır.

**Qaynaqlar**

1. Abdulkadir S. Türk kavımlarının halk edebiyyatında Rus istilasının inikası // Azerbaycan Yurd Bilgisi. İstanbul: 1932, yıl 1, sayı 1, s. 22-26
2. Abdulkadir S. Türk kavımlarının Halk edebiyyatında Rus istilasının inikası // Azerbaycan Yurd Bilgisi. İstanbul: 1932, yıl 1, sayı 2, s. 49-54
3. Abdulkadir S. Türk kavımlarının Halk edebiyyatında Rus istilasının inikası // Azerbaycan Yurd Bilgisi. İstanbul: 1932, yıl 1, sayı 3, s. 105-111



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

4. Abdulkadir S. Türk kavımlarının Halk edebiyyatında Rus istilasının inikası // Azerbaycan Yurd Bilgisi. İstanbul: 1932, yıl 1, sayı 4-5, s.170-176
5. Azeri Edebiyyatında İstiklal mücadelesi// Azerbaycan Yurd Bilgisi. İstanbul: 1932, yıl 1, sayı 8-9, s. 291-305
6. Caferoğlu A. Azeri Edebiyyatında İstiklal mücadelesi// Azerbaycan Yurd Bilgisi. İstanbul: 1932, yıl 1, sayı 10, s. 339-348
7. Caferoğlu A. Azeri Edebiyyatında İstiklal mücadelesi// Azerbaycan Yurd Bilgisi. İstanbul:1932, yıl 1, sayı 11, s. 361-371
8. Caferoğlu A. Azeri Edebiyyatında İstiklal mücadelesi// Azerbaycan Yurd Bilgisi. İstanbul: 1932, yıl 1, sayı 12, s. 426-434



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Vəfa İbrahimova, f.ü.f.d***
***AMEA Folklor İnstitutu***
***vefa-ibrahim@mail.ru***

## AŞIQ QURBANİNİN ŞEİRLƏRİNDƏ ŞAH İSMAYIL XƏTAİ OBRAZI

**Özət**

Məqalədə Xətainin şahlığı və şeyxliyini özündə birləşdirən obrazı bədii dillə təsvir edilir. Qurbaninin Şah İsmayıl Xətaiyə olan sevgisi, bağlılığı, onun Azərbaycan ictimai-siyasi və bədii düşüncəsindəki yeri konkret nümunələrlə göstərilir.

**Açar sözlər:** şah, şeyx, Xətai, Qurbani, aşıq

**Резюме**

В статье художественным языком рассматривается образ, объединяющий в себе шаха и шейха Хатаи. Любовь, привязанность Гурбани к Шаху Исмаилу Хатаи, его место в азербайджанской общественно-политической и художественной мысли исследуется конкретными образцами.

**Ключевые слова:** шах, шейх, Хатаи, Гурбани, ашуг

**Summary**

In the article the character which contains reign and sheikhdom of Khatai is described by the literary language. Gurbani's love, relation and the place in Azerbaijan social-political and literary thought to Shah Ismayil Khatai are shown with the concrete examples.

**Key words:** shakh, sheykh, Khatai, Gurbani, ashug

* * *

Azərbaycan aşıq şeirinin görkəmli nümayəndəsi Aşıq Qurbani öz şeirlərində bir sıra tarixi şəxşiyyətlərə, hadisələrə, məkan adlarına da mövqe vermişdir. Biz bu şeirləri oxuyanda Azərbaycan tarixində önəmli yer tutmuş tarixi şəxsiyyətlərlə bağlı məlumatlar əldə edə bilirik. Bilindiyi kimi, Aşıq Qurbani Azərbaycan Səfəvilər dövlətinin başçısı Şah İsmayıl Xətaiyə ideya və dünyagörüş baxımından bağlı olmuş, onu çox sevmiş, onu şəxsən görmüş və onun şəxsiyyəti, mənəvi-əxlaqi keyfiyyətləri ilə bağlı bir sıra şeirlər yazmışdır.

Qurbani yaradıcılığını tədqiq etmiş professor Qəzənfər Kazımlı yazır: "Məlumdur ki, İsmayılın təriqəti barədə söz-söhbət hələ onun kiçik yaşlarından el-obaya yayılmış, hər tərəfdə müridlərin meydana çıxmasına səbəb olmuşdur. Qurbani bunları eşitməyə və müəyyən mövqedə dayanmaya bilməzdi. Onun dini məzmunlu şeirlərində (hətta bir çox dünyəvi qoşma və gəraylılarında da) hürufiliyin və Qızılbaş-şiə təriqətinin ideyaları özünü qabarıq göstərir. Qurbani Qızılbaş hərəkatı ilə bağlı şəxsiyyət olduğundan 14 yaşlı İsmayıl Şirvana ilk yürüş zamanı Diri kəndinin qarşısındadakı Xüdafərin körpüsündə görüşməyə bilməzdi" (1, 9).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Qurbaninin çox sevdiyi şah İsmayıl Xətai ilə bağlı yazdığı şeirlərdə hər şeydən öncə bir tanınmış, onun nüfuzlu sülalədən gəldiyini və nəslinin Azərbaycan, eləcə də müsəlman fikir tarixində yeri olduğunu bildirmiş, Xətainin şeyx oğlu olduğunu önə çəkmişdir. Yəni Qurbaninin şeirlərində Xətai həm şahdır, həm də şeyxdir, o qılıncın gücü ilə sözün gücünü özündə birləşdirmişdir. Aşıq Qurbani "Şah Xətai" adlı üç bəndlik bir gəraylı yazmışdır. Bu gəraylıda o, Xətaini çox sevdiyini dilə gətirmişdir. Gəraylının hər bir misrası, hər bir sözü bu sevginin açıq göstəricisidir. O, şaha olan sevgisini ifadə etmək üçün öncə ona "gözəl şahım" deyir (1, 44). Onun şeyx oğlu olduğunu ayrıca vurğulayır, bildirir ki, o, "şahi-mərdana" bağlıdır. Qurbani sevdiyi şahı ədalət sahibi adlandırır, onun bu dünyada bir haqq divanı qurduğunu bildirir, şahın axirət dünyasında yerinin cənnət olacağına inanır. Qurbaniyə görə, Xətainin ən önəmli cəhətlərindən biri də onun öz şeirlərinin Türk dilində yazmasıdır. O, kimsəsiz insanların pənahıdır, insanların yoluna işıq saçan bir Ay kimidir. Qurbani bu gəraylısında "Şah Xətai, Şah Xətai" misrasını hər bəndin sonunda təkrar etmişdir.

Gözəl şahim şeyx oğludu,
Şah Xətai, Şah Xətai!
Şahi-mərdana bağlıdı,
Şah Xətai, Şah Xətai!
Bu dünyada bir haq divan,
O dünyada cənnətməkan,
Qoy var olsun türki-zəban,
Şah Xətai, Şah Xətai!
Qurbani tək qul pənahı,
Qibleyi-aləmin mahı,
Ol cahanın qibləgahı,
Şah Xətai, Şah Xətai! (1, 44)

Qurbani irsini araşdıran alimlər onun Şah İsmayıl Xətainin ideyalarına sıx bağlı olduğunu, bu ideyaları təbliğ etdiyini, onun Xətainin sarayında himayə edildiyini bildirirlər. Bizcə, bu həqiqətdir və Qurbaninin şeirləri də bunu təsdiq edir. Çünki Qurbani şeirlərində Xətaini sadəcə çox sevdiyini söyləmir, həm də onu "mürşidi-kamilim" adlandırır. Bilindiyi kimi, "mürşidi-kamil" bir dini anlayışdır. "Mürşid" – irşad edən, tərbiyə edən, yol göstərən insanlara deyilir və "mürşidi-kamil" olmaq insanların qəbul etdiyi, inandığı bir dini mövqeyə sahib olmaq deməkdir. Qurbani də şeirlərində Xətaiyə "mürşidi-kamilim" deməklə onun ideyalarını, dini anlayışını qəbul etdiyini bildirmişdir. Bu müraciət şəkli həm də Qurbaninin Xətai ideyalarının daşıyıcısı olduğunu sübut edir. Başqa yöndən, Qurbaninin bir başa Xətaiyə həsr olunmayan şeirlərinin təhlili də göstərir ki, o, şiə məzhəbinin və bu məzhəbə bağlı olan təriqətin ideyalarını təbliğ etmiş, bu məzhəbin böyük şəxsiyyətlərinə şeirlər yazmışdır. Qurbaninin bir sıra ictimai, fəlsəfi, dini məzmunlu şeirlərini doğru anlamağın bir yolu da onun Xətainin bağlı olduğu ideyaları qəbul etdiyini bilməkdir. Maraqlıdır ki, Qurbani bu tipli şeirlərində Xətaiyə həm "şah"



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

deyir, həm də onu "şeyx oğlu" adlandırır. Qurbaninin şeirlərindən aydın olur ki, o, şaha çox yaxın olmuşdur, bütün çətinliklərini ona söyləmişdir. Hətta bir şeirində onun başına and içmişdir (1, 76). Qurbani açıqca bildirmişdir ki, o dərsini Xətai adlı pirindən almışdır. Burada "dərs almaq" ifadəsi diqqəti cəlb edir. Qurbani "pirindən dərs almaq" deyərkən onun dünyagörüşünü, ideyalarını, din anlayışını qəbul etdiyini, onun yolunun yolçusu olduğunu ifadə etmişdir. Bu da Qurbaninin çox sevdiyi Xətai ilə bağlılığının qırılmaz olduğunu göstərir. Onun şeirlərindən aydın olur ki, Qurbani çətin anlarında şaha, şeyx oğluna müraciət edir, ondan yardım istəyir:

Şair olan dərsi alır pirindən,
Baş açmadım seyrağıbın sirrindən,
Qolubağlı keçdim Xudafərindən,
Üzüm gülməz, heç açılmaz, ah, mənim! (1, 77)

Aşıq Qurbaninin Şah İsmayıl Xətaiyə bağlılığını, onu çox sevdiyini göstərən bir cəhət də odur ki, o, şahın ölümünə 2 şeir həsr etmişdir. Bu şeirləri tədqiqatçılar "mərsiyə" adlandırmışlar (1, 10). Birinci şeirdə Qurbani Şah İsmayıl Xətainin ölümünün ona çox ağır təsir etdiyini ifadə etmişdir, kədərini, səmimi duyğularını bu ağır itkini ifadə edə biləcək sözlərlə təqdim etmişdir. O, sevimli şahını onun əlindən alan fələyi döyüşə çağırır, onunla vuruşmaq və şahının qisasını almaq istəyir. Qurbani "xak ilə yeksan olan" şahına ağlayır, onu gözəl sözlərlə yad edir, şahın ona layiq olan biçimdə dəfn olunmasını istəyir:

O şahın kəlmeyi-kəlamın zikr etmək gərək,
Tabutu sərv ağacından, kəfəni yapraq gərək.
Tez yuyun, tez götürün ki, məzara çatmaq gərək,
Bar-ilahım, necə qıydın, bir belə cavan ölə. (1, 10)

Bu mərsiyənin sonuncu bəndində Qurbani öz könlünə müraciət edir, onu sakitləşdirir, ona ümid verir, Allaha yalvarır, ondan Səfəvi xanədanını qorumasını istəyir. Bu kədərli şeiri Qurbani ümid notları ilə bitirir, sanki, qeybdən gələn bir səs ona ümid verir və deyir ki, çox qəm yemə, Səfəvi xanədanı viran ola bilməz. Qurbaninin Şah İsmayıl Xətainin ölümünə həsr etdiyi ikinci şeiri bir qədər fərqli planda yazılmışdır. Bu şeirin birinci bəndində Qurbani yaşadığı dövrün təsvirini vermişdir, Xətainin ölümündən sonrakı vəziyyəti göstərmişdir. Bu bənddə şair deyir ki, Kufə əhli həyasızlaşmışdır, adamlar yoldan çıxmışlar, onlar bir-birilərini aldadırlar, qazılar rüşvət alırlar, şəriət batil olmuşdur. Qurbani bu vəziyyəti rədd edir və deyir ki, bu ədalət deyil. Onun sevimli şahı bir zamanlar ədaləti bərpa etmişdir.

Qurbani şeirin ikinci bəndində Xətainin ölümünü Günəşin batmasına bənzətmiş, Xətainin ölümündən sarsıldığını bildirmişdir:

Ağlım itirdim, əlim titrər, göz ağlar, sər əsər,
Pirim girib ol niqabə getməyəydi cavan gərək... (1, 11)

Bu misralardan aydın görünür ki, Qurbani həm şahın ölümündən çox təsirlənmişdir, həm də ortaya çıxan haqsızlığı, ədalətsizliyi onun ölümünə bağlamışdır, yəni demək istəmişdir ki, şah sağ olsaydı, bu zülm olmazdı.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Şeirin son bəndində Qurbani həyat, ölüm, dünya kimi məsələlərlə bağlı öz görüşlərini açıqlamışdır. Bildirmişdir ki, insan ölümlü varlıqdır, ağıllı insan səbir etməlidir, insanın əsli torpaqdandır və o, öz əslinə dönəcəkdir.

Azərbaycan aşıq şeirinin görkəmli nümayəndəsi Qurbaninin şeirlərindən aydın görünür ki, o, Şah İsmayıl Xətaiyə bağlı olmuş, onu sevmiş, onun ideyalarını sevə-sevə təbliğ etmişdir. Qurbani şeirlərində Xətaini "şeyxim", "şahım", "pirim", "mürşidi-kamilim", "şeyx oğlu şahım" adlandırmışdır. O, Xətaini aləmin qibləgahı hesab etmiş, onun ədalətini öymüş, onun kimsəsizlərin, məzlumların pənahı adlandırmışdır. O, Xətainin obrazını yaradarkən siyasi, dini və bədii sözlərdən məharətlə istifadə etmiş və sevdiyi Xətaini həm şah, həm şeyx, həm sərkərdə, həm də ədalətli insan kimi təsvir etmişdir.

**Qaynaqlar**

1. Qurbani. Əsərləri (Tərtib edəni, ön söz, qeyd və izahların müəllifi Qəzənfər Kazımov). Bakı: Şərq-Qərb, 2006, 229 səh.
2. Qurbani (tərtib edəni Dadaşzadə A.). Bakı: Gənclik, 1972.
3. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı, II hissə (orta əsr və yeni dövr folklor yaradıcılığı). Bakı: Elm, 2006, 648 səh.
4. Vəliyev V. Qəhrəmanlıq dastanları, Bakı, 1985, 180 səh.
5. Azərbaycan aşıqları və el şairləri. İki cilddə, I cild (Tərtib edəni Axundov Ə.). Bakı: Elm, 1983.
6. Azərbaycan aşıqları və el şairləri. İki cilddə, II cild (Tərtib edəni Axundov Ə.). Bakı: Elm, 1984.
7. Aşıq şeirindn seçmələr. Tərtib edənlər: Arif H. və Həkimov M. Bakı: Gənclik, 1984.
8. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992, 401 səh.
9. Paşayev S. Azərbaycan folkloru və aşıq yaradıcılığı. Bakı: 1989, 188 səh.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Vəfa İsgəndərova,***
***AMEA Folklor İnstitutu, elmi işçi***
***vafa_aslanova@yahoo.com***

# XALQ NAĞILLARINDA YAŞAYAN TARİXİMİZ

**Özət**

Folklor və tarix elmləri bir-biri ilə sıx bağlıdır. Folklorun əksər janrlarında xalqın tarixinin, həyatının mühüm mərhələləri öz bədii inikasını tapır. Dastan, nağıl, lətifə, rəvayət, əfsanə, hətta tapmacalarda tarixin müəyyən izlərini görmək mümkündür. Şifahi yaradıcılığın ən qədim janrı olan nağıllar tarixçilər üçün bəzi önəmli tarixi hadisələrin aydınlaşdırılmasında dəyərli mənbədir.

***Açar sözlər:*** tarix, nağıl, folklor, janr.

**Резюме**

Фольклор и история тесно связаны друг с другом. В основных жанрах фольклора освещается основные периоды жизни, истории народа. В эпосах, сказках, анекдотах даже в загадках можно увидеть некоторые факты из истории. Сказки, как самый древний жанр устного повествования, считается дорогим источником в сфере исторических исследований.

***Ключевые слова:*** история, сказка, фольклор, жанр.

**Summary**

Folklore and historical sciences are connected with each other very much. In main genres of folklore the art reflection of important stages of the history and life of the people are studied. In the epos, tales, anecdotes, myths, legends, even riddles are possible seen the definite tracks of the history. Tales which are the most ancient genre of the oral folk art are considered the valuable source of the some important historical events for historians.

***Key words:*** history, tale, folklore, genre.

* * *

Folklor və tarix elmləri bir-birilə sıx bağlıdır. Bunu bir tərəfdən şifahi xalq ədəbiyyatının hər hansı bir nümunəsini qiymətləndirmək üçün onun yarandığı dövrün öyrənilməsinin zəruriliyi baxımından, digər tərəfdən isə şifahi yaradıcılıqda tarixin izlərini tapmaq baxımından izah etmək olar. Belə ki, folklorun əksər janrlarında xalqın tarixinin, həyatının mühüm mərhələləri öz bədii inikasını tapır. Bütün xalqlar ən qədim dövrlərdən başlayaraq müasir zəmanəyə qədər olan hadisələri müəyyən qədər şifahi yaradıcılıqlarında əks etdirirlər. Dastan, nağıl, lətifə, əfsanə və rəvayətlərdə, hətta tapmacalarda da dəqiq sənəd və qaynaqlar, xronoloji faktlar olmasa da tarixin müəyyən izlərini görməmək mümkün deyil.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Folklorun nağıl janrı elə bir qaynaqdır ki, ondan istənilən elm adamı yararlana bilər. Fransız folklorşünası və etnoqrafı Arnold Van Gennep folklorun məhz xalq nağılları ilə başlanması fikrini irəli sürür. Ona görə də nağılları oxuyarkən və dinləyərkən orada tarixin qədim izlərini, müxtəlif tarixi şəxsiyyətlərlə bağlı məlumatları tapa bilirik. Nağılların təkcə başlanğıc və sonunu dinləyərkən xalqın tarixinə, mədəniyyətinə, etnoqrafiyasına müəyyən qiymət vermək olar. Rumıniya alimi Nikolay Roşiyanu hesab edir ki, hər bir nağıl söyləyicisi öz nağılını hadisələrin "tarixdə möhürlənməsi", "onun zamanda təsbit edilməsi" və "söylənilənəcək hadisələrin baş verdiyi yerin göstərilməsi ilə" başlayır. Yəni bir qayda olaraq, söyləyici öz nağılını zamana və ya məkana, yaxud zamana və məkana yerləşdirir. Nağılların başlanğıc formulunun ilkin funksiyaları bunlardır (12, 18). Rus alimi İ.Razumova nağılların başlanğıcında gələn ənənəvi formullar və ya sicilləmələrdə bütün zaman-məkan xüsusiyyətləri sisteminin toplandığını qeyd edir. Nağılların zaman-məkan formulları bütün formul stereotipləri arasında birinci yerdə yerləşir, çünki onlar nağıl dünyasının daha vacib koordinatları ilə bağlıdırlar (13, 71). Bütün dünya xalqlarının nağıllarında "bir zamanlar", "zamanın birində", "vaxtıyla", "vaxtın birində", "günlərin birində", "bir gün", "keçmişdə" zaman formulları oxşar şəkildə istifadə olunur. Əgər epik əsərdə zaman "açıq" şəkildə axır və tarixi zamanla birləşirsə, onda burada bir neçə zaman qatar yerləşə bilər və hadisələrin ardıcıllığı dəyişə bilər. Əvvəl daha gec olan hadisələr, sonra isə əvvəlki hadisələr danışılır. Bütün yerdəyişmələr və zaman qatarları tarixi zaman fonunda həyata keçirilir. İ.Razumovaya görə, ənənəvi "Biri var idi, biri yox idi" formulu bir sıra nağıl başlanğıcında dəyişir. Yalnız söz birləşməsinin qrammatik forması dəyişir, formulun semantik strukturu isə dəyişməz qalır. Zamanın və ya məkanın qeyd olunmasına cəhd formula "əlavə" kimi ola bilər. Nağılın girişində vaxtın göstərilməsi tendensiyası söyləyicilərin nağılların əhvalatlarını tarixin, zamanın ümumi axınında müəyyən etmək cəhdindən bəhs edir (13, 118). Ümumən, nağıllarda zaman bir istiqamətdə inkişaf edir və heç vaxt geri qayıtmır, buna görə də heç vaxt statistik təsvirlər verilmir. Nağıllardakı təsvirlər əsasən dinamikada, hadisələr axarında verilir. Hadisələr isə bəlli olmayan bir zamanda, yəni lap qədimdə baş verir. Məsələn, "Belə rəvayət edirlər ki, keçmişdə bir kasıb kişi var imiş" (11, 117); "Günlərin bir günündə, əyyami-sabiqdə, biri var idi, biri yoxdu, bir padşah vardı" (3, 205). Bu tip ənənəvi formullar nağıl janrının özünün qədim tarixə malik olduğunu bir daha sübut edir. Nağıl təhkiyəsi zamanı tarixi qədim nağıllar (bunlar məzmunundan və ifadələrin, sözlərin işlənmə tərzindən bəlli olur) o vaxtların, qədim dövrün həyat tərzini və baxışlarını göstərir, bu günümüzün nağılları isə dəyişən dünyanın, müasir dövrün izlərini özündə əks etdirir. Belə nağıllarda uçan xalça təyyarəyə çevrilir, yeni dövrün coğrafi xəritəsindəki yer adları, dövriyyədə olan yeni pullardan danışılır. Bu özünü ənənəvi formullarda da göstərir. Məsələn, "Biri vardı, biri yox idi. Allahdan başqa heç kim yoxdu. Hindistanda bir paççah varıdı. Adına Yunan deyərdilər. Yunanın gözünün ağı-qarası bir qızı varıdı. Heç oğlu yox idi. Bu qızı qoymuşdu məktəbə" (9, 179).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xalq nağıllarının əvvəlində çox rast gəlinən sicilləmələrdə yalan və zarafatlar bol olsa da, sətiraltı həqiqətlərin olduğu hiss olunur, bəzi tarixi yer adlarının, Şah Abbas, Şah İsmayıl kimi tarixi şəxsiyyətlərin adları çəkilir. Yəni formulun birinci hissəsi yalan olsa da, ikinci hissəsi isə həqiqətə uyğun gəlir. Məsələn, "Raviyani əxbar, nağilani asar, şirin şəkər, xoş giriftar, Şah Abbas cənnətməkan, tərəziyə vurdu təkan, iki qoz bir girdəkan. Biri varıymış, biri yoxuymuş, bir padşah varıymış" (8, 163); "Raviyani-əxbar, nağılani-əsar və tutiyani-şəkər, şəkəri-şirini-köftar, böylə rəvayət edir. Sür- süpür gəl, pibkər, gəl sənə kimdən xəbər verim, Şah oğlu Şah İsmayıl, mənzili məkan, iki qoz bir girdəkan tərəziyə vurdu təkan, Kürü o taya keçdik, yaba ilə doğa içdik! Atovun goru dağılsın yalan yiyəsi, bir belə də yalan görməmişdik. Hindalan-hündalan Kür qırağı köndələn, kəklik otu bəndalan. Xan sənsən, mən mənəm qorxma sənə dəymərəm. Hekayəti-məkati, ildə verər əlli batman zəkatı, boyaqçı küpü açdı boyadı məmləkəti, hamamçının tası yox, heç faydası yox. Qarışqa şıllaq atdı, dəvənin gözü çıxdı. Ay ağalar, ay qardaşlar, bir milçək ovladıq. Acıqlandı qalxdı havaya, onun yağın tutduq saldıq tavaya. Onun sümüyündən bir dəryaya körpü düşdü. Yüklü-yüklü, cüklüc-cüklü sərçələr keçdi. Eniş gəldi, qəniş gəldi görək yazıq Məlik Məmmədin başına nə gəldi..." (1, 7-8).

Nağılların başlanğıcında rast gəlinən ənənəvi məkan formullarında bir sıra funksiyalarla yanaşı, informativlik funksiyası daha qabarıq görünür. Çünki burada nağıllardakı olayların baş verdiyi zaman və yer barədə informasiyalar təsvir olunur. Azərbaycan nağıllarının həm girişində, həm də müxtəlif yerlərində işlədilən, artıq ənənəviləşən məlum Şərq və qismən də Avropa ölkə və şəhərlərinin adları (Misir, Hindistan, Yəmən, İran, Çin, Ərəbistan, Mədinə, İsfahan, Qahirə, Rusiya, Yunan, Firəng, İsfahan, Bağdad, Qəndəhar, İstanbul və s) çəkilir. Məsələn, "Biri var idi, biri yox idi. Müharibədən əvvəl, Rusiyada Nikolay adlı bir padşah var idi" (11, 120). Azərbaycan nağıllarının başlanğıcında geniş yayılan yer adları Misir, Şam, Mədinə, Yəmən, Çin, İsfahan, Bağdad, Şam və Qəndəhardır. Məsələn, "Şam şəhərində bir padşah varmış" (6, 247); "Mədinə şəhərində Əhməd Tacir adlı var-dövlətli, həm də səxavətli bir tacir var idi" (4, 159); "Biri var idi, biri yox idi, İsfahanda Hüseyn Tacir adlı məşhur bir tacir var idi" (4, 139). Nağılların başlanğıcında və digər yerlərində xarici ölkə adlarına da təsadüf edilir. Ancaq söylənilən əhvalatların məhz həmin ölkə və şəhərlərdə baş verməsi haqqında dəqiq məlumatlar yoxdur. Bu hal tarixdə bu bölgələrin siyasi və mədəni baxımdan aktiv olması ilə bağlıdır. Həmçinin məlumatları əsasən şifahi şəkildə bir-birinə ötürən nağıl söyləyicilərinin çoxunun xarici ölkələr barədə məlumatları az olduğundan yer adlarını mexaniki olaraq işlədib dildən–dilə ötürürlər. Beləliklə, başlanğıc formulunun xronoloji və topoqrafik elementləri həqiqətə doğru dəyişilir. Nağıllardakı hadisələrin daha konkret məkanda baş verməsi məzmunu dinləyiciyə yaxınlaşdırır. "Nağıl məkanı həmişə əsas iştirakçı ilə bağlı olur. Nağılçı sanki qəhrəmanla bir sırada olur. O, görünən və eşidilən hər şeyi təsvir edir. Qəhrəmandan xaricdə heç bir şeyi təsvir etmir. Müxtəlif hadisələrlə bağlı qəhrəmanın yerdəyişməsi süjet inkişafında mühüm əhəmiyyət daşıyır" (14, 12).



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Xalq nağıllarında tarixdə adları keçən bir çox qəhrəmanların, peyğəmbərlərin, tarixi şəxsiyyətlər yada salınır. Məsələn, Nuh, Xızır, Süleyman Peyğəmbər, Məhəmməd Peyğəmbər, Dədə Qorqud, Beyrək, Dirsə xan, Şah Abbas, Cahan şah, Şah İsmayıl, Koroğlu, Fərhad və sairə. Onların xasiyyətləri, tarix boyu başlarına gələn hadisələr nağıllarda təsvir olunanlarla demək olar ki, üst-üstə düşür.

Nağıllara yekun vuran sonluq formullarında xalqımızın milli mədəniyyətinin, adət-ənənəsinin, etnoqrafiyasının bariz nümunəsi olan toy ənənəsindən söhbət açılır. Məsələn, "Təzədən qırx gün, qırx gecə toy eləyib öz muradlarına çatdılar. Mən də orada idim, aş yedim, nə əlim batdı, nə əlim daddı, nə də qarnıma bir şey getdi. Siz də eləcə yeyin, doyun! Siz yüz yaşayın, mən də iki əlli. Hansı çoxdu, siz götürün! Siz sağ, mən də salamat" (10, 229); "Təzədən toy edib başladılar şadlıqla gün keçirməyə" (2, 31); "Təzədənnən qırx gün, qırx gecə toy elədi. O orda şad oldu, qardaşoğlu, sən də burada şad oldun" (5, 138). Göründüyü kimi, Azərbaycan nağıllarından gətirilən nümunələrdə toy mərasimləri qırx gün qırx gecə, yeddi gün yeddi gecə və ya üç gün, üç gecə çəkir. Bəzi tarixi-etnoqrafik araşdırmalardan görünür ki, həqiqətən qədim zamanlarda Şərq xalqlarının folklorunun, ənənəsinin bariz göstəricisi olan toy şənlikləri bu qədər uzun sürüb. Tədricən müəyyən bəlli səbəblərdən toyun, şənliklərin zamanı sonralar daralmış, üç gün olmuş, hazırda isə bir gün və bir neçə saatadək azalmışdır. Nağılların sonunda rast gəlinən "O yedi işdi, yerə keçdi, siz də addayın dövrə keçin. Olar mətləbinə çatdılar. Allah hamını mətləbinə çatdırsın, biz də onun biri" (10, 52); "Evlərinə dolanacaq düzəltdilər, gün gördülər, ömür sürdülər, öldülər, yerə keçdilər. Nağıl da onlardan yadigar qaldı" (7, 32); "Başladılar özlərinə qırx gün, qırx gecə toy vurdular bütün fağır-füqəranın tərəfində olub, camaatnan yaxşı rəftar elədilər. Onlar yeyib-içib yerə keçdilər. Siz də yeyin için, muradınıza çatın" (9, 26) kimi formullar insanların həyatda yaşamının sonunda bu dünyadan o dünyaya köçmələrinə, yəni İslami qaydalara bir işarə ola bilər. Qeyd edək ki, nağıllardan nümunə gətirdiyimiz ənənəvi formulların bir çoxu bütün türk xalqlarının nağıllarında da mövcuddur. Bütün bunlar folklorun ibtidai icma dövrünün xarakterik xüsusiyyətlərini özündə əks etdirən nağıl janrı ilə tarix elmi arasında sıx bağlılıq olduğunu sübut edir. Düşünürük ki, nağıllarımız tarixçilər üçün bəzi önəmli tarixi hadisələrin aydınlaşdırılmasında dəyərli mənbə ola bilər. Bir sözlə, xalq nağılları hər bir millət üçün zəngin xəzinədir.

**Qaynaqlar**

1. Mirzəzadə A.H. Nağıllar. Bakı: Özəl nəşriyyat, 1912.

2. Azərbaycan nağılları: 5 clddə; I c. /Tərtib edəni M.H.Təhmasib/. Bakı: Azərb. SSR EA, 1960, 325 s.

3. Azərbaycan nağılları: 5 cilddə: III c.,/Toplayanı və tərtib edəni Ə.Axundov. Bakı: Azərb. SSR EA, 1962, 282 s.

4. Qaravəllilər, nağıllar/Toplayanı və tərtib edəni M.Tantəkin, S.Əliyev/. Bakı: Yazıçı, 1988, 170 s.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

5. Şah Abbasın arvadı/Toplayanı F.Bayat/. Bakı: Yazıçı, 1996, 244 s.

6. Azərbaycan folkloru antologiyası: 16 cilddə, V c., Qarabağ folkloru/Toplayanlar İ.Abbaslı, T.Fərzəliyev, H.Nazim (Quliyev)/. Bakı: Səda, 2000, 414 s.

7. Azərbaycan nağılları: 5 cilddə, I c., /Tərtib edənlər: Ə.Cəfərli, S.Əhliman qızı/. Bakı: Şərq-Qərb, 2004, 367 s.

8. Azərbaycan nağılları: 5 cilddə, IV c.,/Tərtib edənlər: Ə.Cəfərli, S.Əhliman qızı/. Bakı: Şərq-Qərb, 2004, 335 s.

9. Azərbaycan nağılları: 5 cilddə, I c.,/Toplayanı H.Zeynallı/. Bakı: Şərq- Qərb, 2005, 360 s.

10. Azərbaycan nağılları: 5 cilddə, II c.,/Tərtib edəni Ə.Axundov/. Bakı: Şərq-Qərb, 2005, 296 s.

11.Azərbaycan Türk nağılları. /Hazırlayan: Xəlilova A.Ə./ Bakı: Nurlan, 2009, 157 s.

12. Рошияну Н. Традиционные формулы сказки. Москва: Наука, 1974, 215 с.

13. Разумова И.А. Формулы сказки и их языковая реализация. 1.58

14. Разумова И.А. Стилистическая обрядность русской волшебной сказки. Петрозаводск: Карелия, 1991



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

***Xaləddin Xəlilli, t.e.n***
***AMEA Folklor İnstitutu, aparıcı elmi işçi***

# AZƏRBAYCAN TARİX ELMİ VƏ FOLKLOR

**Özət**

Bütün xalqların yazıya qədər yaradıcılıq, dünyanı dərk etmə üsulu folklor janrlarında ifadə olunmuş, sonrakı dövrlərdə də zaman-zaman onun üzərinə kollektiv yaradıcılığın yeni dərk üsulları əlavə edilmişdir. Hələ qədim zamanlardan mifoloji ədəbiyyat, foklor tarix elminin əsas mənbələrindən biri olmuş, bu sahədə zəngin təcrübə qazanılmışdır. Bu cəhətdən Vətən tarixşünaslığı yetərli təcrübəyə malik olmuşdur. M. Kalankatuklu, Ə.Əl-Bakuni, Əbubəkr Tehrani, A.A.Bakıxanov, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə və b. əsərləri qiymətli örnəkdir. Sovet imperiyası dönəmində folklor materialından mənbə kimi istifadəyə qadağa qoyulmasa da, Azərbaycan tarixşünaslığı təsadüfi toxunmalar istisna olmaqla, folklordan mənbə kimi istifadə etmək üsul və ənənəsini unutdu. Müstəqillik illərində folklordan mənbə kimi istifadəyə müəyyən cəhdlər olsa da, təəssüf ki, ondan istifadənin üsul və metodu yaradılmamışdır.

**Açar sözlər:** folklor, tarix, üsul, metod, mənbə

**Резюме**

Методы творчества, познание мира всех народов нашло свое отражение в фольклоре. Со временем постепенно к фольклору прибавлялись новые методы познания. С древнейших времен мифологическая литература, фольклор служили одним из основных источников исторической науки. В этой области накоплено богатое наследство. В отечественной историографии по данной проблеме также имеется богатейший опыт. Яркими примерами этого творчества можно отметить сочинения М.Каланкатуклу, А.аль Бакуви, Абубакр Техчани, А.А.Бакиханов, А.Гусейнзаде, Ахмед Агаоглы, М.А.Расулзаде и др.

Хотя в советском обществе не было официального запрета на изучение фольклора в качестве источника, в Азербайджанской историографии за редким исключением исследователи к этому источнику относились пренебрежительно. Несмотря на то, что в годы независимости были предприняты определенные шаги в области изучения этого источника, до сих пор методы и способы его изучения не разработаны.

**Ключевые слова:** фольклор, история, способ, метод, источник

**Summary**

Methods of creativity, cognition of the world of all peoples of the world are reflected in folklore. With the lapse of time gradually new methods of learning were added to folklore. Since ancient times, the mythological literature, folklore served as



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

one of the main sources of history science. Rich legacy has been accumulated in this area. In native historiography also has been stored a great experience on the subject. As the obvious examples of this creation can be noted works by M.Kalankatuklu, A.al Bakuvi, Abubakr Tehchani, A.A.Bakikhanov, A.Husseinzadeh, Ahmad Agaoglu, M.A.Rasulzadeh and others.

Though in Soviet society was no official ban on the study of folklore as a source, in the Azerbaijani historiography with the rare exceptions researchers treated this source neglectful. Despite the fact that in the years of independence were taken steps in the study of this source, still techniques and methods for the study have not been developed yet.

* * *

Zaman xəttində kainatda iqlim dəyişmələri, havaların istiləşməsi və soyuması, yeraltı qabarmalar və çəkilmələr prosesində yerin relyefi, bitki və heyvanat aləmi ardıcıl olaraq dəyişir, yeni forma və məzmun qazanır. Baş verən bu dəyişikliyə uyğunlaşa bilməyən bitki və heyvanlar aləmi, struktur bütövlüyünü, sistemini saxlaya bilməyən maddələr, canlılar varlığın bu dəyişmələri prosesində yeni keyfiyyət qazanır və ya bütövlükdə dəyişir, bir haldan başqa hala keçir. Bu prosesdə insan əcdadı bəzi heyvanlar kimi, məsələn, quşların yuva qurması, qartalın sümüyü havaya qaldırıb müəyyən yüksəklikdən daşın üzərinə atmaqla onu sımdırıb iliyini yeməsi, canavarın özündən qüvvətli rəqiblərini aldatmaq üçün bədənini rəqibin yaxşı görə bilmədiyi əşyalara bənzətməsi kimi fikri əməliyyatlardan daha yüksək səviyyədə təfəkkür əməliyyatları icra etmək səviyyəsinə çatmaqla heyvanlar aləmindən ayrıldı. Reflektiv biliklərlə bərabər, ilkin təfəkkür qabiliyyəti göstərib fikir istehsal etməyə başlayan insan nəsli elmdə **(Homo hobbis)** bacarıqlı insan adlandırılır. Bu nəsil insanlar təbiətin hazır məhsulları ilə qidalanmaqla bərabər ilkin olaraq fikri əməliyyatlarla təbiətə təsir göstərməyə başlayır, əmək aləti, silahlar, yaşayış üçün mənzil (koma) və s. düzəldir. İstehsal və təcrübə prosesində insan əcdadının təfəkkürü fasiləsiz inkişaf edir, yeni daha yüksək səviyyəsinə çatır. Elmdə təfəkkürünün inkişaf səviyyəsinə görə üst paleolit adamı (e. ə. 35-12-ci minillər) ağıllı-dərrakəli adam – **Home sapiens** adlanır. Arxeoloji tədqiqatlar göstərir ki, üst paleolitdə insanların həyatında sosial, mənəvi və dərrakəli münasibətlər üstünlük təşkil edirdi. Bunun nəticəsi olaraq, insanlar mağaralardan yeni ərazilərə - özlərinin düzəltdiyi qazmalara, yerüstü daxmalara köçürdülər. Başqa sözlə, indi insanlar əvvəlki dövrlərdən fərqli olaraq təbii sığınacaqlarla kifayətlənməyib, yeni-yeni əraziləri öz tələbatlarına uyğunlaşdırmağa çalışırdılar. Hələ qədim və orta paleolitdə insanlar təbiət hadisələrinə, əşyalara, özlərinin istehsal etdikləri müxtəlif daş və sümük alətlərə adlar vermişdilər. Bu adlar işarələrlə ifadə olunurdu. Təbii ki, bu ünsiyyət vasitəsi insan əcdadının harada yaşamasından asılı olmayaraq, eyni və bir-birinə çox yaxın idi. Təkamül nəticəsində **üst paleolit insanı** artıq təfəkkürə, ağla, inkişaf etmiş müxtəlif tonlu, temberli səs orqanına malik idi. Yeni ərazilərdə



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

məskunlaşmaq onun qarşısında duran ən mühüm vəzifə idi. Bu məqsədə çatmaq üçün o, sosial təcrübənin nəticələrindən sürətli və çevik istifadə etməyi bacarmalı idi. Çünki, predmet və hadisələri, ictimai münasibətləri ifadə edən işarəvi sözləri, səsli sözlərlə əvəz etmək, səsli dilin yaranması zərurətə çevrilmişdi.

Dil tarixçiləri ilk insanların təfəkkür və nitqinin inkişafını iki mərhələyə bölürlər: birinci mərhələ arxantrop və paleoantrop mərhələsi, ikinci mərhələ - homesapiens mərhələsidir. Homo sapiens üst paleolit adamıdır. Alimlər birinci mərhələdə insanın yalnız hissi-əyani təfəkkürə malik olduğunu, nitqin üzvlənmədiyini qeyd edirlər. Abstrakt təfəkkür, üzvlənən nitq inkişafının ikinci mərhələsinə aiddir. Başqa sözlə, üzvlənən nitqin təşəkkülü üst paleolit ərzində baş vermişdir (1, 32-144; 2, 15-16; 3, 6-12). Beləliklə, məhdud coğrafi ərazidə (Şimali Afrika, Ön Asiya və Cənubi-Şərqi Avropa nəzərdə tutulur – X. X.) təşəkkül tapan dil ibtidai insan qrupunun ilkin adlandırma və fərdi nitq xüsusiyyətləri ilə fərqlənsə də, tədricən ümumiləşmə prosesi keçirmiş və vahid bəşəri dil kimi formalaşmışdır. Paleolitin bütün mərhələlərində insan əcdadının fasiləsiz və intensiv inkişaf etdirən, Yaxın Şərqdə həlledici təsir gücünə malik mədəniyyət ocaqlarından olan (Cənub-Şimal) Azərbaycan ulu dilin və ilkin mənəvi dəyərlərin, ikinci təbiətin yaradıcılarından biri olaraq tarix səhnəsinə çıxdılar (1; 2, 16; 3; 4; 5).

Bu prosesi obyektiv qiymətləndirən alman mütəfəkkiri K. Yaspers yazır: “Tarixin başlanğıcında tarixöncəsi dövrdə toplanmış bioloji irs kimi ötürülən yox, artırıla və ya israf oluna bilən tarixi substansiya olan hansısa insan varlığı kapitalı üzə çıxır. Bu, nəsə hər cür təfəkkürə qədər həqiqətən olan, edilə və ya bilə-bilə yaradıla bilməyəndir.

Bu substansiyanın əhəmiyyəti tarixdə baş verən mənəvi proses vasitəsi ilə açılır”. Odur ki, “İnsan təbii varlıq kimi yox, mənəvi varlıq kimi tarixdir” (21, 344-350). Tarixöncəsi mərhələdə varlığın bütün formalarını, onun dəyişmə və inkişafını insan əcdadı özünəməxsus formalarda təsəvvür edir, onu nağıl, əfsanə, rəvayət və s. bilgi formalarına salır, nəsildən-nəsilə ötürür. Qədim paleolitdən yazıya qədər olan dövr varlığın bütün formalarının qiymətləndirilməsi mifik təfəkkür dövrü adlanır. Ən uzun bir tarixi dövr ərzində insan əcdadının dünyanın – varlığın bütün formalarını zaman-zaman, təkmilləşdirə-təkmilləşdirə qiymətləndirməsi onun təfəkkürünü yeni daha yüksək mərhələyə çatdırır. Yazıya keçid mərhələsində mifik təfəkkürlə bərabər onun bazasında dini və elmi təfəkkür formaları da meydana çıxır. Mifik təfəkkür formaları dini təfəkkürün əsas bazası olaraq qalır. Ən obyektiv təfəkkür olan elmi təfəkkür nə qədər hakim mövqe tutub cəmiyyəti əhatə etməyə çalışsa da, mifik təfəkkür hakim ideologiya kimi fasiləsiz cəmiyyətdə, çoxluğun təfəkküründə aparıcı mövqedə olur, çoxluğun özünün yaratdığı folklor ədəbiyyatı və avantürist siyasətçilərin uydurduğu mövhumi ideyalarla onun şüurunun və həyat tərzinin yaradıcı mənbəyi olaraq qalır. Odur ki, folklor ədəbiyyatı həmişə tarix elminin əsas mənbəyi olaraq qalır. Belə ki, folklor milli təfəkkür tarixinin laylar düzümünü də əks etdirməklə inkişafını kompleks özündə əks etdirir. Ümumiyyətlə,



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

tarix elmi hər-hansı dövrdən bəhs edir-etsin, həmin dövrün folklorunda əks olunan mənəvi dəyərləri və təfəkkür formalarını obyektiv qiymətləndirmədən həmin dövrün mənəvi durumunu obyektiv dəyərləndirə bilməz. Tarix elminin bu vəzifəsi haqqında dünya tarixşünaslığı, o cümlədən ictimai elmlərdə yetərincə elmi-nəzəri fikir söylənmiş, XIX-XX əsr Avropa tarixşünaslığı məhz bu nəzəri müddəa əsasında işləmiş və işləməkdədir.

Misal üçün, S. Kramerin "Tarix Şumerdən başlanır" əsərində arxeoloji dövrün etnomənəvi dəyərlərinin açılmasında Şumer miflərindən yüksək səviyyədə istifadə olunması nümunəsi verilmişdir. Miflərdə gizlənmiş tarixi həqiqətlərin açılmasının, oxunmasının aydın metodu yaradılmışdı (14). İngilis tarixçisi N. Devisin keçmiş postsovet xalqları üçün yazdığı "Avropa tarixi" (M., 2004) əsərində folklordan istifadənin elmi üsulları çox aydıncasına özünü göstərir. Müəllif hansı coğrafi ərazidən, şəhərdən, etnosdan bəhs edirsə, ilk növbədə həmin məkan, toponim, etnos haqqında nağıl, əfsanə və rəvayəti oxucuya təqdim edir. Ardınca folklorun təqdim etdiyi məlumatın mənbələrdə zaman-zaman necə əks olunması diqqətə çəkilir, nəticə olaraq əldə olunan bütün materiallar məntiq əsasında mifdə əks olunan tarix, hadisə haqqında elmi bilgi verilir (13).

Azərbaycan folklorşünaslığında folklor materiallarından tarixi mənbə kimi istifadə etməyə təşəbbüs göstərilməsi və folklorda tarixi bilgilərin ehtiva olunması, onun dərk olunmasının müəyyən edilməsinin üslub və metodunun yaradılması haqqında müəyyən işlər görülmüşdür (12; 22; 23). Acı da olsa etiraf etməliyik ki, müasir Azərbaycan tarixçiləri vaxtı ilə Sov. İKP qərarlarından pafosla danışdıqları günlərimizdə elmdə Avropa standartlarına keçilməsinin vacibliyindən bəhs etsələr də, tarixşünaslığımızda belə bir əlamət, keyfiyyət hələ ki görünmür. Tək-tək hallarda etnoqrafik əsərlərdə emprik məlumatla folklor materialının bütün çalarları ilə üst-üstə düşməsi hallarında folklor materiallarına da iqtibas verilməsi halları istisna olmaqla müasir Azərbaycan tarixşünaslığında folklor materialından mənbə kimi istifadə olunması yox səviyyəsindədir. Təəssüf ki, bu sahədə uzunmüddətli xüsusi tədqiqat aparmadığımızdan və qədim dövr, orta asrlər tariximizin yazıldığı fars və ərəb dillərini bilmədiyimdən folklor materialından tariximizin yazılması zamanı istifadə dövrü haqqında qəti fikir söyləmək imkanına malik deyiləm. Lakin əldə edə bildiyimiz məlumatlardan çıxış edərək, M. Kalankatuqlunun "Albaniya tarixi", N. Tusinin "Əxlaqi-Nasir", F. Rəşidəddinin "Oğuznamə", Ə. Əl-Bakuvinin "Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri", Əbubəkr Tehraninin "Kitabi-Diyarbəkriyyə" əsərlərində folklor materiallarından tarixi mənbə kimi yüksək səviyyədə istifadə edilməsi özünü aydın göstərir. A.A.Bakıxanovun "Gülüstani-İrəm" əsərində folklor materialından istifadə metodu dövrünə görə Avropa tarixşünaslığından geri qalmadığı göstərməkdədir. Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Ə.Rəsulzadə yaradıcılığında folklor materialından tarixi mənbə kimi istifadə olunmasının metod və nəzəri səviyyəsi Avropa tarixşünaslığından nəinki geri qalmamış, özünəməxsusluğu ilə fərqlənməkdədir.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

Folklor materialından mənbə kimi tarix elminin bütün sahələrində istifadə olunsa da, mədəniyyətin mənəvi laylarının, xüsusən təfəkkür tarixinin öyrənilməsi üçün etnologiya elminin əsas mənbəyi olduğundan folklor etnologiya elminin əsas tədqiqat predmetidir. 1967-ci ildən Tarix İnstitutunda "Tarixi etnoqrafiya" şöbəsi fəaliyyət göstərsə də, folklor etnologiyanın mənbəyi kimi, folklor materialı əsasında Azərbaycan xalqının təfəkkür tarixinə dair bir dənə də olsun məqalə yazılmamışdır.

Azərbaycanda tarix elmini canlandırmaq, xüsusilə mənəviyyat tariximizin obyektiv inkişaf mənzərəsini yaratmaq üçün folklor materiallarından mənbə kimi istifadə etmək, onun elmi-nəzəri metodlarını yaratmaq Azərbaycan ictimai elmlərinin, birinci növbədə etnologiyanın, hərbi və mülki tarixin ən vacib vəzifələrindəndir.

**Qaynaqlar**

1. Cəfərov Ə. Azərbaycanın ilk sakinləri. B., 2004.
2. Kazımov Q. Azərbaycan tarixi. B., 2003.
3. Xəlilli X. Qarabağ etnomənəvi inkişaf tarixi. B., 2006.
4. Гусейнов М. М. Древний палеолит Азербайджана. Б., 1985.
5. Мелларг Дж. Древнейшие цивилизации Ближного Востока. М., 1982.
6. Xəlilli X. Sovet tarixşünaslığı – milli ölüm elmi. B., 2010.
7. Azərbaycan tarixi. I cild, B., 1998.
8. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I hissə. B., 2002.
9. Azərbaycan ədəbiyyatı tarixi. I cild, B., 2004.
10. Bayramov Ə. S., Əlizadə Ə. Ə. Psixologiya. B., 2002.
11. Abbaslı İ. Folklorşünaslıq axtarışları. I cild, B., 2009.
12. Abbaslı İ. Folklorşünaslıq axtarışları. II cild, B., 2010.
13. Девис Н. История Европы. М., 2007.
14. Крамер С. Н. История начинается в Шумере. М., 1991.
15. Azərbaycan mifoloji mətnləri. B., 1988.
16. Кесседи Ф. Х. От мифа к логосу. М., 1972.
17. Гачев Г. Жизнь художественного сознания. М., 1972.
18. Гачев Г. Д. Содержательность художественных форм. Эпос, лирика, театр. М., 1968.
19. Göyüşov R. B., Marminov A. İ. SSRİ Arxeologiyası. B., 1990.
20. Folklor terminləri. M., 2010.
21. Yaspers K. Tarixin mənası və təyinatı. B., 2008.
22. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. B., 1983.
23. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. B., 1989.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com

**Folklor və tariximiz.**
**AMEA Folklor İnstitutu və**
**AMEA Tarix İnstitutunun birgə**
**19-20 noyabr 2012-ci ildə keçirilən**
**simpoziumunun materialları.**
Bakı, "Elm və təhsil", 2012.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Nəşriyyat redaktoru:

Kompüterdə yığdı:

Korrektor:

Kompüter tərtiçısı və
texniki redaktoru:
**Ramin Abdullayev**

Kağız formatı: 60/84 1/32
Mətbəə kağızı: №1
Həcmi: 220 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, "Elm və təhsil" NPM-də
ofset üsulu ilə çap olunmuşdur.



PDF created with pdfFactory Pro trial version www.pdffactory.com